# İLHAM ƏLİYEV

# İNKİŞAF– MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## OTUZUNCU KİTAB

## APREL 2008 - İYUN 2008

AZƏRNƏŞR
BAKI - 2016

# İLHAM
# ƏLİYEV

ÇIXIŞLAR ✵ NİTQLƏR

BƏYANATLAR ✵ MÜSAHİBƏLƏR

MƏKTUBLAR ✵ MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2016

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2016, 408 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Ukraynaya rəsmi səfəri zamanı Ukrayna prezidenti ilə danışıqları, Taras Şevçenko adına Kiyev Milli Universitetinin Fəxri doktoru diplomu ilə təltif olunması və Enerji təhlükəsizliyi sammitdə iştirakına dair sənəd və materiallar yer almışdır. Həmçinin ölkəmizə səfərə gəlmiş Moldova prezidenti Vladimir Voronin, İordaniya kralı II Abdullah, İsveçrə Konfederasiyasının prezidenti Paskal Kuşpen və Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovla birgə görüşləri, çıxışları və əməkdaşlığa dair materiallar toplanmışdır.

Prezident İlham Əliyevin Regionların sosial inkişaf proqramının həyata keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikasına səfəri zamanı burada turizm və idman mərkəzlərinin, məişət obyektlərinin, xəstəxana və digər mədəniyyət ocaqlarının açılışında iştirak etməsinə, bu ərəfədə Naxçıvan Muxtar Respublikasına səfərə gəlmiş Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla iki qardaş dövlət arasında əlaqələrin inkişafına dair müzakirələri və bir çox digər sənədlər də bu cilddə dərc edilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Ə** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2016}}$ **BBK - 32**

© Azərnəşr, 2016

## LİTVANIN BAŞ NAZİRİ GEDİMİNAS KİRKİLASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Prezident sarayında Litva Respublikasının Baş naziri Gediminas Kirkilasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Litva arasında dostluq və tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini bildirdi. Qarşılıqlı dövlət səfərlərinin əhəmiyyətindən danışan prezident İlham Əliyev münasibətlərin daha da genişləndirilməsində bunların rolunu xüsusi vurğuladı. İki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq etdiyini bildirən dövlətimizin başçısı iqtisadi münasibətləri inkişaf etdirmək, qarşılıqlı ticarət dövriyyəsini artırmaq üçün yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Litva Baş nazirinin ölkəmizə bu səfəri əlaqələrimizin daha da möhkəmlənməsinə töhfə verəcəkdir.*

*Baş nazir Gediminas Kirkilas Litva ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. O, Vilnüsdə keçirilən enerji sammitində Azərbaycan prezidenti İlham Əliyevin çıxışının ən parlaq və yaddaqalan olduğunu xatırlatdı. Ölkəmizin iqtisadi inkişafının qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi üçün yeni imkanlar yaratdığını deyən qonaq Azərbaycanın inkişaf strategiyasında ümummilli lider Heydər Əliyevin xüsusi rolunu vurğuladı. Baş nazir ikitərəfli əlaqələrin bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini söylədi.*

## KALMIKİYA RESPUBLİKASININ PREZİDENTİ, FİDE-nin PREZİDENTİ KİRSAN İLYUMJİNOVLA GÖRÜŞ

*Prezident sarayı*

*21 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Prezident sarayında Rusiya Federasiyasının Kalmıkiya Respublikasının Prezidenti və FİDE-nin prezidenti Kirsan İlyumjinovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı şahmat üzrə mötəbər turnirin Azərbaycanda ilk dəfə keçirilməsindən və tanınmış şahmatçıların bu turnirdə iştirakından məmnunluğunu ifadə etdi. Ölkəmizdə şahmatın inkişafından danışan prezident İlham Əliyev şahmatçılarımızın, xüsusilə uşaq və gənclərin bu sahədə yaxşı nəticələr əldə etdiklərini dedi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş FİDE-nin Qran-pri turnirinin ölkəmizdə keçirilməsi Azərbaycanda şahmatın daha da inkişaf etdirilməsinə öz töhfəsini verəcəkdir.*

*Kirsan İlyumjinov Qran-pri turnirinin əhəmiyyətini qeyd etdi, tədbirin yüksək səviyyədə təşkil olunduğunu bildirdi. Qonaq Azərbaycanda idmanın bütün sahələrinin, o cümlədən şahmatın inkişafına yüksək dövlət qayğısının göstərildiyini vurğuladı.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LEX KAÇİNSKİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı– Konstitusiya günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Polşa münasibətləri müvəffəqiyyətlə inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Dost ölkələrimizin həm ikitərəfli qaydada, həm də beynəlxalq, regional qurumlar və layihələr çərçivəsində əməkdaşlığı gündən-günə öz miqyasını artırmaqdadır.

Əminəm ki, əlaqələrimizin hərtərəfli genişləndirilməsi, birgə fəaliyyət zəminində nəzərdə tutduğumuz işlərin həyata keçirilməsi yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Polşa xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 aprel 2008-ci il*

## ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ RUBEN CEFRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Prezident sarayında ABŞ Dövlət katibinin iqtisadiyyat, energetika və kənd təsərrüfatı məsələləri üzrə müavini Ruben Cefrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı bildirdi ki, ABŞ Dövlət katibi müavininin səfəri Azərbaycan–ABŞ ikitərəfli münasibətlərini, o cümlədən iqtisadi sahədə əməkdaşlığın hazırki vəziyyətini və perspektivlərini, regional məsələləri müzakirə etmək üçün yaxşı imkan yaradır. Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini söylədi.*

*Ruben Cefri Azərbaycana səfərinin məqsədinin iqtisadiyyatın müxtəlif sahələrini və strukturlarını təmsil edən nümayəndələrlə görüşlər və müzakirələr aparmaqdan ibarət olduğunu vurğuladı. Azərbaycana səfərinin əhəmiyyətindən danışan qonaq ölkələrimizin iqtisadi əməkdaşlığının daha da möhkəmlənəcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdə Azərbaycanla ABŞ arasında iqtisadiyyat, energetika və kənd təsərrüfatı sahələrində ikitərəfli əməkdaşlığın inkişafı ilə bağlı, habelə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## QUGENHAYM FONDUNUN DİREKTORU TOOMAS KRENS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Prezident sarayında muzey işinin təşkilində zəngin dünya təcrübəsi olan tanınmış Qugenhaym Fondunun direktoru Tomas Krensi qəbul etmişdir.*

*Görüşdə sürətli iqtisadi inkişaf dövrünü yaşayan Azərbaycanda milli mədəni sərvətlərin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində böyük işlərin görüldüyü vurğulandı. Söhbət zamanı Bakıda Müasir İncəsənət Muzeyinin yaradılması ilə bağlı da fikir mübadiləsi aparıldı, Qugenhaym Fondu ilə əməkdaşlığın Azərbaycanda muzey işinin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

# MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VLADİMİR VORONİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*Prezident sarayı*

*23 aprel 2008-ci il*

*Aprelin 23-də Prezident sarayında Moldova Respublikasının Prezidenti Vladimir Voroninin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın həyətindəki rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Moldova prezidenti Vladimir Voronini böyük hörmət və səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Moldova prezidentinə raport verdi. Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Moldovanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və Vladimir Voronin Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Moldova prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Moldova prezidenti Vladimir Voroninə, Moldova nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim olundu.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*23 aprel 2008-ci il*

*Aprelin 23-də Prezident sarayında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Moldova Respublikasının Prezidenti Vladimir Voroninin təkbətək görüşü olmuşdur.*

*Görüşdə iki dövlət arasında siyasi, iqtisadi və humanitar sahələrdə fəal inkişaf etməkdə olan əlaqələrin yüksək səviyyəsi vurğulandı, tərəflər əməkdaşlığın daha da genişlənəcəyinə ümidvar olduqlarını bildirdilər.*

*Dövlət başçıları ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini vurğuladılar, regional əməkdaşlığın perspektivlərini və qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə etdilər.*

## AZƏRBAYCAN VƏ MOLDOVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*23 aprel 2008-ci il*

*Aprelin 23-də Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Moldova prezidenti Vladimir Voroninin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v**: Hörmətli Vladimir Nikolayeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamağa ürəkdən şadam. Xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və ümid edirik ki, bu səfərin nəticələri dostluq əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Ölkələrimiz arasında tərəfdaşlıq münasibətləri yaranmışdır. Biz müxtəlif sahələrdə fəal əməkdaşlıq edirik və fəal siyasi dialoqu iqtisadi sahədə ciddi irəliləyişlərlə dolğunlaşdırmaq istəyirik. Bu gün biz Sizinlə qarşılıqlı əlaqələrimizin perspektivlərini necə təsəvvür etməyimizin ümumi konturlarını müzakirə etdik. Fikrimcə, müvafiq nazirliklərin rəhbərləri bu məqamları indiki səfər çərçivəsində konkretləşdirəcəklər və biz artıq fəal qarşılıqlı iqtisadi əlaqələrin ciddi perspektivlərini müəyyən edəcəyik.

Mən Sizin ilk səfərinizi xatırlayıram. O səfər çox uğurlu oldu və əslində ölkələrimiz arasında yeni münasibətlərin əsasını qoydu. Həmin səfərdən çox vaxt keçmişdir. Mən Sizin ölkənizdə olmuşam, artıq səfirliklər açılmışdır və ye-

tərli, o cümlədən beynəlxalq qurumlarda qarşılıqlı əlaqələr və fəal əməkdaşlıq mövcuddur.

Biz dostumuz kimi, Sizə çox hörmət bəsləyirik, Sizi görməyimizə çox şadıq. İnanıram ki, səfər həm faydalı, həm də xoşagələn olacaq, münasibətlərimizin daha da inkişaf etməsinə güclü təkan verəcəkdir.

Bir daha xoş gəlmisiniz!

**Vladimir Voronin**: Hörmətli İlham Heydər oğlu, bizi yenidən ölkənizə dəvət etdiyiniz üçün sağ olun, bəri başdan özümün və hökumətdən olan səfər yoldaşlarımın təəssüratlarını bildirmək istəyirəm. Biz sanki başqa bir şəhərdəyik. Hava limanında «Bakı» adını görməsəydim, inanmazdım ki, mənim 2004-cü ildə olduğum Bakıya gəlmişik. Bu tamamilə yeni şəhərdir. Buraya, iqamətgaha gələnə qədər bir küçəni gördüyümüzə baxmayaraq, dövlətinizin paytaxtının necə inkişaf etməsi, yenidən qurulması, modernləşməsi mənə çox güclü təsir bağışlamışdır. Mən sadəcə olaraq, Sizin uğurlarınıza sevinirəm və bu nəticəyə görə, Bakıda aparılan bu işlərə görə Sizi təbrik edirəm.

MDB-nin axırıncı sammitindəki söhbətlərimiz mənim yadımdadır, bu səfərimin həyata keçirilməsi barədə o vaxt razılığa gəldik. Bizim ölkələrimiz arasında yaranmış münasibətlər onları konkret məzmunla – iqtisadi, sosial və başqa sahələrdə layihələrin həyata keçirilməsi ilə dolğunlaşdırmağa imkan verir. Bizim fəaliyyətimiz 50-dən çox ikitərəfli saziş əsasında formalaşır və təşkil olunur. İndi bu sazişlərin bəhrəsini görmək qalır. Düşünürəm ki, bu səfərə mənimlə gəlmiş heyət bu nəticələrə nail olmaq, ticari-iqtisadi əməkdaşlığın yaxşılaşdırılması, investisiya layihələrinin həyata keçirilməsi yollarını axtarıb tapmaq əzmindədir.

## AZƏRBAYCAN VƏ MOLDOVA PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*Prezident sarayı*

*23 aprel 2008-ci il*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Vladimir Nikolayeviç!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Mən Moldova prezidentini bir daha Azərbaycanda salamlamaq və bu gün aparılmış danışıqlardan dərin məmnunluğumu bildirmək istəyirəm.

Ölkələrimiz arasında dialoq çox uğurla davam edir, getdikcə yeni sahələri əhatə edir. Bizim ölkələr dost ölkələrdir, tərəfdaş ölkələrdir və biz geniş əhatəli məsələlər üzrə fəal qarşılıqlı əlaqə saxlayırıq. Siyasi dialoq çox fəaldır. Bu gün biz ikitərəfli münasibətlərə aid məsələləri, regional məsələləri müzakirə etdik. İqtisadi əlaqələrin intensivləşdirilməsinin zəruri olması xüsusi vurğulandı. Bu istiqamətdə böyük potensial imkanlar var. Biz energetika sahəsində əməkdaşlıq məsələlərini və investisiya layihələrinin mümkünlüyünü müzakirə etdik.

Humanitar sahədə əməkdaşlığa böyük diqqət yetirildi. Bildiyiniz kimi, bu gün Azərbaycanda Moldova mədəniyyəti günləri açılır. Əminəm ki, bu günlər ərzində ölkəmizin vətəndaşları Moldovanın bənzərsiz mədəniyyəti və incəsənəti ilə yaxından tanış ola biləcəklər.

Bütövlükdə bizim münasibətlərimizi tərəfdaşlıq münasibətləri, çox yaxın münasibətlər kimi səciyyələndirmək olar və bu bizi çox sevindirir. Moldova prezidentinin Azərbaycana səfəri əlaqələrimizin inkişafına yeni impuls, yeni təkan verir. Bizim çox güclü müqavilə-hüquqi bazamız var, qarşılıqlı iqtisadi əlaqələri fəallaşdırmaq, əmtəə dövriyyəsini artırmaq və birlikdə həyata keçirə biləcəyimiz konkret layihələri ətraflı şəkildə nəzərdən keçirmək arzumuz var.

Biz ölkələrimizdə mövcud olan münaqişələrin tənzimlənməsi məsələlərini də müzakirə etdik və əlbəttə, hər iki tərəf eyni fikirdədir ki, bu münaqişələr ölkələrimizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Biz çox şadıq ki, dünya birliyi bizim mövqelərimizi dəstəkləyir. Münaqişələrin həlli regional əməkdaşlığa daha böyük təkan verəcək, potensial separatizm təhlükəsi mənbələrini aradan qaldırmağa və regionda qarşılıqlı əlaqələri daha geniş əsasda sahmana salmağa imkan verəcəkdir.

Bir çox məsələlərdə bizim mövqelərimiz üst-üstə düşür. Bu gün mən işğal edilmiş ərazilərdə vəziyyət barədə məsələ ilə əlaqədar BMT-nin Baş Məclisində Moldova Azərbaycanın mövqeyini dəstəklədiyinə görə Vladimir Nikolayeviçə xüsusi minnətdarlığımı bildirdim. Bildiyiniz kimi, Baş Məclis Azərbaycanı dəstəkləmiş və bizim təklif etdiyimiz qətnaməni qəbul etmişdir. Bizi fəal surətdə dəstəkləyən və öz prinsipial mövqeyini ifadə edən ölkələr arasında dost Moldova da var idi. Biz bunu çox yüksək qiymətləndirir və prinsipial mövqenin, prinsipial xarici siyasət xəttinin təzahürü, eləcə də bizi birləşdirən yaxın dostluq əlaqələrinin ifadəsi hesab edirik.

Mən əminəm ki, uğurla başlanmış bu səfər uğurla da davam edəcək və münasibətlərimizin gələcək inkişafına güclü təkan verəcəkdir.

Diqqətinizə görə sağ olun.

## Moldova prezidenti Vladimir Voroninin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

Biz bu səfər barədə dəvəti məmnunluq və razılıqla qəbul etdik. Mən prezident olduğum müddətdə artıq ikinci dəfədir ki, sizin ölkəyə rəsmi səfər edirəm. Bəri başdan demək istəyirəm ki, paytaxtınızda – Bakı şəhərində gedən yenidənqurma və tikinti işlərinin vüsəti məni sadəcə olaraq, heyran etmişdir. Hətta əvvəlcə fikirləşdim ki, deyəsən başqa şəhərə gəlmişəm. Bu uğurlar məni çox sevindirir. Azərbaycan prezidenti ilə söhbət zamanı, onunla fikir mübadiləsi edərkən başa düşdüm ki, indi bu cür yenidənqurma, modernləşmə prosesi bütün ölkədə gedir. Bu məni daha çox sevindirdi.

Bizim ortaq tariximiz, bir ölkədə yaşadığımız vaxtlar olmuşdur, biz Sovet İttifaqı xalqlarının qardaşlıq ailəsində birgə inkişaf etmişik, müstəqil, suveren dövlətlər kimi, inkişafın yeni mərhələsinin başlanğıcı da bizim üçün ümumi tarixdir. Bu mərhələdə biz çox şeyləri yenidən dərk etməliyik, görülməli işlər olduqca çoxdur. Lakin son bir neçə ildə Azərbaycanın necə sürətlə inkişaf etməsini, prezident İlham Əliyevin problemlərə münasibətini, onun xalqın həyat səviyyəsini yaxşılaşdırmaq üçün qarşıya qoyduğu məqsədləri nəzərə alaraq düşünürəm ki, siz lap yaxın vaxtlarda dünyanın ən inkişaf etmiş dövlətləri səviyyəsinə çatacaqsınız.

İlham Heydər oğlu, mən buna ürəkdən sevinirəm və bu məqsədlərin, bu vəzifələrin həyata keçirilməsində Sizə uğurlar arzulayıram.

Azərbaycan prezidentinin dediyi kimi, ölkələrimiz arasında münasibətlər həqiqətən dinamik şəkildə, yüksələn xətt üzrə inkişaf edir. Bizim ticari-iqtisadi sahədə, investisiya siyasətində, ölkələrimizin mövcud resurslarının birgə mənimsənilməsində qarşılıqlı əlaqələrimizi keyfiyyətcə yeni səviy-

yəyə çatdırmağa imkan verən çox sanballı ikitərəfli müqavilələr və sazişlər paketimiz var. Bu gün Azərbaycan prezidenti ilə bu barədə danışmışıq. Fikrimcə, bu layihələrin həyata keçirilməsi ölkələrimizin bir-birinə daha çox yaxınlaşmasına, dostluq tellərini, qərarlaşmış tarixi münasibətlərimizi daha da möhkəmləndirməyə imkan verəcəkdir.

Qeyd etdiyiniz kimi, biz sizinlə Avropanın müxtəlif qurumları çərçivəsində, Birləşmiş Millətlər Təşkilatında qarşılıqlı əlaqədə fəaliyyət göstəririk. Biz MDB çərçivəsində fəaliyyətə böyük töhfə veririk və burada hər dəfə Azərbaycanın güclü səsini eşidirik. Biz bir sıra məsələləri bir-birimizlə razılaşdırırıq, birgə inkişaf məsələlərində MDB üzrə o biri həmkarlarımızın dəstəyini hiss edirik.

İkitərəfli münasibətlər məsələsinə qayıdaraq demək istəyirəm ki, biz, əlbəttə, sizin ölkənizə daha çox yaxınlaşmaq, bir çox perspektivli layihələrdə iştirak etmək istəyirik. Bu gün biz məsafələrin qət edilməsinin ən sürətli üsulu olan aviasiya məsələsini də müzakirə etmişik. Zənnimcə, Kişinyov ilə Bakı arasında hava xətti açsaq düzgün addım atmış olarıq. Bir çox başqa məsələləri, o cümlədən nümayəndə heyətlərimizin üzvləri, bizim nazirlər tərəfindən imzalanacaq sazişləri də müzakirə etmişik. Onlar ən geci bir aydan - ay yarımdan sonra bizim iqtisadiyyatların gələcək inteqrasiyası ilə bağlı məsələlərin reallaşdırılması üzrə hökumətlərarası komissiyanın tamformatlı iclasının hazırlanması və keçirilməsi üçün öz aralarında razılığa gələcək və müvafiq məsələləri ikitərəfli səviyyədə həll edəcəklər.

Sizdə sosial proqramların həyata keçirilməsi, məktəblərin inkişafı barədə eşitdiklərimiz bizə güclü təsir bağışladı. Özü də təkcə onların inkişafından deyil, internetin və digər qabaqcıl texnologiyaların köməyi ilə ən müasir tədris proseslərinə inteqrasiyadan söhbət gedir. Sizin infrastruktur təminatı məsələlərini çox ciddi həll etməyiniz də bizə güclü təsir bağışladı. Ölkəniz başdan-başa qazlaşdırılmışdır, su təchizatı məsələləri ciddi surətdə həll edilir. Mən bunları ona

görə təkrar edirəm ki, bizim də bu sahədə çətinliklərimiz var və onları aradan qaldırmaq istəyirik.

Əlbəttə, ola bilər ki, həmin çətinlikləri aradan qaldırmağa imkanımız yoxdur, lakin biz bunda çox israrlıyıq. Buna görə də ümid edirik ki, fikir mübadiləsi nəticəsində, qarşılıqlı surətdə razılaşdırılmış müəyyən investisiya proqramlarının həyata keçirilməsi nəticəsində biz sizin köməyinizlə bu çətinlikləri daha tez aradan qaldıra, bu məsələləri həll edə bilərik.

İlham Heydər oğlu, mən söhbətlərimizdən razıyam və istərdim ki, işinizin çoxluğuna, Azərbaycanın prezidenti kimi, qarşınızda duran problemlərin çox olmasına baxmayaraq imkan tapıb Moldovaya səfər edəsiniz. Orada da müəyyən dəyişikliklər baş vermisdir, ola bilsin ki, sizdəki qədər əsaslı olmasa da, bəzi şeylər dəyişir, özü də yaxşılığa doğru dəyişir. Biz bütün bunları Sizə göstərmək imkanından şad olardıq.

## MOLDOVA MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN AÇILIŞI

*Azərbaycan Dövlət Filarmoniyası*

*23 aprel 2008-ci il*

*Aprelin 23-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanda Moldova mədəniyyəti günlərinin təntənəli açılış mərasimi olmuşdur.*

*Salona toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi, onun xanımı Mehriban Əliyevanı və Moldova prezidenti Vladimir Voronini gurultulu alqışlarla qarşıladılar.*

*Moldovanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Aparıcılar dövlət başçılarını və mərasim iştirakçılarını salamlayaraq vurğuladılar ki, Moldova və Azərbaycan xalqları arasında əlaqələrin çoxəsrlik tarixi var. Bu əlaqələr heç vaxt qırılmamış, iki ölkə xalqlarının mədəniyyətləri daim təmasda olmuş, bir-birinə qarşılıqlı təsir göstərmiş və qarşılıqlı surətdə zənginləşmişdir. Moldova incəsənət ustalarının bir çoxunun yaradıcılığı azərbaycanlılara yaxşı tanışdır. Eyni zamanda, Azərbaycanın bir çox musiqiçi, yazıçı və şairlərinin yaradıcılığı moldovalılar üçün əziz, onlara yaxındır.*

*Sonra Moldova incəsənət ustalarının qala-konserti oldu. Tamaşaçılar SSRİ və Moldova Respublikasının Xalq artisti Vladimir Kurbetin rəhbərliyi ilə «Jok» Dövlət milli akademik xalq rəqs ansamblının, «Catharsis» duetinin, «Concertino» akkordeonçular ansamblının, Advahov qardaşlarının rəhbərlik etdiyi orkestrin, Moldovanın tanınmış musiqiçi və müğənnilərindən Viktoriya Lunqu, Konstantin Moskoviç, Natalya Qordiyenko, Mixail Muntyanu və Marin Gherasın çıxışlarını böyük maraqla qarşıladılar.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*23 aprel 2008-ci il*

*Aprelin 23-də «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Moldova Respublikasının Prezidenti Vladimir Voroninin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları qəbulda nitq söylədilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Vladimir Nikolayeviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

İndi biz Moldova incəsənət ustalarının konsertindən aldığımız dərin təəssürat içindəyik. Onlar Azərbaycanda Moldova mədəniyyəti günlərinin açılışında yüksək ustalıq nümayiş etdirdilər. Sizin ölkənizin, sizin xalqınızın qədim mədəniyyəti ilə ünsiyyətdə olmaq bizə böyük zövq verdi.

Bu gün, Azərbaycana rəsmi səfərinizin ilk günündə mən Sizi bir daha salamlamaq, başlanmış səfərin nəticələrindən dərin məmnunluq duyduğumu bildirmək istəyirəm. Ümidvaram ki, sabahkı gün də bugünkü kimi uğurlu olacaqdır.

Bu gün biz qarşılıqlı maraq doğuran regional məsələləri, iqtisadi əməkdaşlıq, siyasi qarşılıqlı əlaqələr məsələlərini çox geniş müzakirə etdik. Bütün məsələlər barədə bizdə tam anlaşma var ki, qarşılıqlı əlaqələrin və tərəfdaşlığın möhkəmlənməsi üçün səylərimizi artırmaqda davam etməliyik. Ölkələrimiz arasında siyasi dialoq, tərəfdaşlıq münasibətləri

çox yüksək səviyyədədir. Bu gün ikitərəfli əlaqələrin inkişaf perspektivlərini müzakirə edərkən biz iqtisadi məsələlərə diqqəti daha çox cəmləşdirdik, Moldova və Azərbaycan xalqlarının tarixi əlaqələrinə, qarşılıqlı siyasi münasibətlərimizə gəlincə, hesab edirəm, biz ən yüksək nöqtəyə, ən yüksək səviyyəyə çatmışıq.

İqtisadi planda isə biz hələ çox iş görməliyik. Bundan ötrü potensial imkanlar da var, istək də. Bu gün müvafiq strukturlara tapşırıqlar verilmişdir ki, onlar bu işi intensivləşdirsinlər və əmtəə dövriyyəsinin, qarşılıqlı investisiyaların artırılmasına dair konkret layihələri, ölkələrimizdə həyata keçirilən layihələrdə bizim şirkətlərin iştirakı və ümumiyyətlə, iqtisadi potensialımızdan tam istifadə olunmasına kömək edə biləcək bütün məsələlər barədə təklifləri təsdiqlənmək üçün ən yaxın vaxtda bizə təqdim etsinlər.

Ölkələrimiz dinamik inkişaf edir, biz müstəqillik əldə etdiyimiz vaxtda yaranmış iqtisadi böhranları geridə qoymuşuq, bu gün Moldovanın və Azərbaycanın uğurlu, dinamik inkişafı ölkələrimizin yerləşdiyi regionda sabitliyin mühüm amilidir.

Müstəqilliyin möhkəmləndirilməsi sahəsində qazandığımız uğurlar və nailiyyətlərlə yanaşı, təəssüf ki, bizi birləşdirən ortaq problemlərimiz də var. Bunlar separatizm, ərazilərin işğal edilməsi, etnik təmizləmə siyasəti və bizim ölkələrdə mövcud münaqişələrin həll olunmaması problemləridir. Münaqişələrin həlli məsələsində bizim mövqelərimiz tamamilə üst-üstə düşür. Moldova Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi kimi, biz də Moldovanın ərazi bütövlüyünü dəstəkləyir və hesab edirik ki, tənzimləmənin yeganə məqbul yolu məhz ölkələrimizin ərazi bütövlüyü çərçivəsində tənzimləmədir. Bu, beynəlxalq hüququn əsas prinsipidir. Millətlərin öz müqəddəratını təyin etməsi hüququna gəldikdə isə, separatçı regionlarda yaşayan xalqların nümayəndələri başqa dövlətlər çərçivəsində öz müqəddəratlarını artıq təyin etmişlər. Millətin öz müqəddəratını təyin etməsi hüququ heç

bir halda ərazilərin bir hissəsinin ayrılmasını və de-fakto separatçı rejimlərin qanuniləşdirilməsini nəzərdə tutmur. Mən əminəm ki, bizim beynəlxalq mövqeyimizin daha da fəallaşdırılması, potensial imkanlarımızın, eləcə də ikitərəfli formatda əlaqələrimizin möhkəmlənməsi bu məsələlərin də müsbət həllinə kömək edəcəkdir.

Mən bu barədə öz fikrimi bu gün artıq demişəm, lakin rəsmi qəbul zamanı Moldova prezidentinə və Moldova dövlətinə bir daha təşəkkürümü bildirmək istəyirəm ki, onlar ölkəmizdə münaqişənin həllinə dair BMT Baş Məclisinin iclasında Azərbaycanın təklif etdiyi qətnaməni dəstəkləmişlər. Biz bunu çox yüksək qiymətləndirir, dostluq və tərəfdaşlıq münasibətlərinin, eləcə də beynəlxalq hüquq normalarına əsaslanan prinsipial, möhkəm mövqenin təzahürü hesab edirik.

Mən şübhə etmirəm ki, 2004-cü ildə Sizin ölkəmizə birinci səfərinizdən və onun ardınca mənim Moldovaya səfərimdən sonra olduğu kimi, indiki səfəriniz də münasibətlərimizin daha da inkişaf etməsinə güclü təkan verəcəkdir. İkitərəfli əlaqələr baxımından biz xeyli irəliləmişik və ümid edirəm ki, bundan sonra da eyni sürətlə irəliləyəcəyik.

Mən bu badəni Moldovanın prezidenti, mənim dostum Vladimir Nikolayeviç Voroninin şərəfinə, dost Moldova xalqının tərəqqisi şərəfinə, Moldova ilə Azərbaycan arasında dostluğun şərəfinə qaldırmaq istəyirəm.

## Moldova prezidenti Vladimir Voroninin nitqi

Hörmətli İlham Heydər oğlu!
Hörmətli xanım Əliyeva!
Hörmətli dostlar!

Prezidentlərə verilmiş səlahiyyətlərə görə biz rəsmi, işgüzar səfərlər, dövlət səfərləri edirik. Bu səfərlərin hamısının öz trafaretləri, təşkili və keçirilməsinin sxemləri var. İlk baxışda hər şey məlumdur, aydındır və artıq mənimsənilmişdir. Lakin

elə ölkələr, elə xalqlar var ki, onların yanına xüsusi ovqatla getmək, onları görmək, onlarla ünsiyyətdə olmaq istəyirsən. Azərbaycan ilə Moldova arasında tarixən çox gözəl münasibətlər yaranmışdır. Tarixə nəzər salsaq, biz istər sovet hakimiyyətindən əvvəl, istərsə də sovet dövründə çox sahələr üzrə əməkdaşlıq edir, çox məsələləri həll edirdik. İndi bizim müstəqil, suveren dövlətlər qurmaq kimi tarixi şansımız olduğu bir vaxtda bu əlaqələr xüsusilə güclənmişdir.

Mənə Heydər Əlirza oğlunu 1974-cü ildən tanımaq səadəti nəsib olmuşdur. Onunla ilk dəfə 1974-cü ildə görüşmüşəm, sonra isə müxtəlif mərhələlərdə onun çıxışlarını dinləmişəm. Mən İctimai Elmlər Akademiyasında oxuyanda o, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu vaxt mühazirələrini dinləmişəm. Heydər Əliyev bu vəzifəyə təyin ediləndən cəmi ay yarım sonra bizə Sovet İttifaqında nəqliyyatın vəziyyəti barədə mühazirələr oxuyurdu. Onun erudisiyası, bu ay yarım müddətində məsələni nəinki bu qədər dərindən öyrənməsi, həm də Sovet İttifaqında nəqliyyat sahəsində vəziyyətin mahiyyətini və onun gərgin olmasını bu qədər dərindən başa düşməsi məni valeh etmişdi. İndi də mən Azərbaycan prezidenti İlham Əliyevlə aramızda yaranan münasibətlərdən, ölkələrimizin ikitərəfli münasibətlərinin inkişafından çox razıyam.

Bu gün ikitərəfli sənədlər paketi genişlənmişdir, ikitərəfli münasibətlərimiz üçün çox yaxşı normativ baza var. Ən başlıcası isə şəxsiyyətlərarası səviyyədə, təkcə biz prezidentlər arasında deyil, həm də hökumətlər arasında, iqtisadi strukturlar, Moldovanın vətəndaşları ilə ölkəmizdə Azərbaycan diasporunu təşkil edən Azərbaycan vətəndaşları arasında qarşılıqlı anlaşma var. Biz bu münasibətlər əsasında inkişaf edə, irəliləyə bilərik və bunu etməliyik. Bu gün mən sizin ölkənizdə, sözün hərfi mənasında cəmi bir neçə ildə, 2004-cü ildən bəri baş vermiş dəyişikliklərə ürəkdən heyran olduğumu bildirmişəm. Bəlkə də mən hər şeyi görməmişəm. Əlbəttə, hər şeyi görmək mümkün deyil, xüsusən də avtomo-

bilin pəncərəsindən. Lakin gördüklərim məni sadəcə, valeh etmişdir. Sizə deyirəm: Bakıda gördüyünüz işlər və İlham Heydər oğlundan eşitdiklərim ağlasığmazdır. Sizə sadəcə, afərin deyirəm ki, bu cür işlər bütün ölkədə görülür. Mən hətta zarafatyana soruşdum: «İlham Heydər oğlunun mənə danışdığı bütün işləri bir neçə ildə görəndən, bütün problemləri həll edəndən, bütün planları həyata keçirəndən sonra nə edəcəksiniz?». Zənnimcə, Azərbaycanın çox yaxşı perspektivləri var. Azərbaycanın dünya birliyində perspektivləri çox maraqlı və əhəmiyyətli olacaqdır. Mən istəyirəm ki, separatizmə tezliklə son qoyulsun. Bizim dostluğumuz kiminsə əleyhinə yönəlməyibdir. Bizim tarixi əlaqələrimiz qədimdir – bu əlaqələr sovet illərində, Heydər Əliyeviçin rəhbərlik etdiyi dövrdə, hələ heç kəsin heç bir separatçı niyyətə düşmədiyi vaxtlarda da mövcud olmuşdur. Ona görə də biz istəyirik ki, bu separatçılıq dövrü başa çatsın, axı biz də separatizmdən əziyyət çəkirik. Biz sizin ağrılarınızı hiss edirik, çünki bu həm də bizim ağrımızdır. Səhər yuxudan oyanandan ta gecə yatana qədər bu ağrı bizimlədir, keçib getmir. Çünki biz problemi həll etməyincə, ona çarə qılmayınca, ölkəmizin bütövlüyünü bərpa etməyincə bu ağrı keçib gedə bilməz. Mən Sizə də bunları arzulayıram. Kosovo sxeminə oxşar müxtəlif variantlar heç vaxt heç kimə yaramaz. Dövlət quruculuğu məsələlərini bu cür prinsiplər üzrə həll etmək olmaz. İlham Heydər oğlu, biz sizin səmimi dostlarınızıq. Biz sizin hamınıza səmimi-qəlbdən uğurlar, yeni, müasir Azərbaycanın qurulmasında səmərəli nəticələr arzulayırıq.

Mən Sizin sağlığınıza, Sizin xanımınızın sağlığına, Sizin bütün yoldaşlarınızın sağlığına, bütün Azərbaycan xalqının sağlığına badə qaldırıram.

# TÜRKİYƏNİN ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ NAZİRİ FARUK ÇELİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Prezident sarayında Türkiyənin Əmək və Sosial Müdafiə naziri Faruk Çelikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin müxtəlif dövlət qurumları və strukturları arasında, o cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri arasında əlaqələrin inkişafından məmnunluğunu bildirdi. Dövlətimizin başçısı Türkiyənin Əmək və Sosial Müdafiə naziri Faruk Çelikin ölkəmizə səfərinin əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini söylədi. Türkiyənin Əmək və Sosial Müdafiə naziri Faruk Çelik Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını prezident İlham Əliyevə çatdırdı. Azərbaycana ilk dəfə səfər etdiyini bildirən qonaq ölkəmizdə gedən yüksək inkişaf proseslərinin şahidi olduğunu dedi. O, Bakıda keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verərək bildirdi ki, aparılan müzakirələr əlaqələrimizin daha da möhkəmlənməsinə kömək edəcəkdir.*

*Dövlətimizin başçısı Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını Türkiyənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## GÖRKƏMLİ OFTALMOLOQ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA PARKDA ABADLIQ VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*Bakı şəhəri*

*25 aprel 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 25-də görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın adını daşıyan parkda görülmüş abadlıq və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə görkəmli alimin büstünü ziyarət etdi. İndi büstün özü də yeni görkəm almış, ətrafında müasir fəvvarələr quraşdırılmışdır.*

*Prezident İlham Əliyevə 10 hektardan artıq ərazini əhatə edən parkda görülmüş işlər barədə ətraflı məlumat verildi. Bildirildi ki, parka gedən yola yeni asfalt döşənmişdir. Ərazidə 5 mindən çox zeytun ağacı, daş palıd və qarağac, bəzək kolları əkilmiş, oturacaqlar yeniləri ilə əvəz edilmiş, sakinlərin istirahəti üçün gözəl şərait yaradılmışdır. İtaliyalı mütəxəssislərin quraşdırdığı işıqlandırma sistemi isə ən müasir standartlara cavab verir.*

*Dövlətimizin başçısı parkda ağac əkdi. Ümummilli lider Heydər Əliyev də 2000-ci ildə burada ağac əkmişdi.*

*Prezident İlham Əliyev parkda görülmüş işlərdən razı qaldı.*

# NOBEL XEYRİYYƏ FONDUNUN PREZİDENTİ MAYKL NOBELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Prezident sarayında Nobel Xeyriyyə Fondunun prezidenti Maykl Nobelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı bildirdi ki, Maykl Nobelin böyük nümayəndə heyəti ilə ölkəmizə səfəri Azərbaycanla Nobel Xeyriyyə Fondu arasında dostluq əlaqələrinin yaxşı göstəricisidir. Maykl Nobellə ilk görüşünü xatırladan prezident İlham Əliyev qeyd etdi ki, həmin görüşdə tarixi keçmişimiz, hazırkı və gələcək əməkdaşlığımız müzakirə edilmişdir. Dövlətimizin başçısı Nobel ailəsinin xatirəsinin ölkəmizdə bu gün də qorunub saxlandığını vurğuladı və əmin olduğunu bildirdi ki, Nobel Xeyriyyə Fondunun nümayəndə heyətinin səfəri uğurlu olacaq və əməkdaşlığımızın daha da genişlənməsinə xidmət edəcəkdir.*

*Prezident İlham Əliyevlə əvvəlki görüşlərini məmnunluqla xatırladan Maykl Nobel indikinin sayca dördüncü olduğunu dedi. Bakıda Nobel qardaşlarının yaşayıb yaratdıqları binanın – Villa Petroleanın yenidən qurulmasında göstərdiyi dəstəyə görə bütün Nobel ailəsi adından prezident İlham Əliyevə təşəkkür edən qonaq əmin olduğunu bildirdi ki, Villa Petroleanın açılışı İsveçlə Azərbaycan arasında mövcud olan müsbət münasibətləri daha da möhkəmləndirəcəkdir.*

## GÖRKƏMLİ ALİM, AKADEMİK ROALD SAQDEYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Prezident sarayında görkəmli alim, akademik Roald Saqdeyevi qəbul etmişdir.*

*Bir il bundan əvvəl Azərbaycana səfər etdiyini vurğulayan Roald Saqdeyev ötən dövr ərzində ölkəmizdə baş verən çox böyük inkişafın şahidi olduğunu bildirdi. Azərbaycana səfərindən və prezident İlham Əliyevlə görüşündən məmnunluq hissi keçirdiyini deyən qonaq Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində, Aviasiya Akademiyasında və eləcə də Kibernetika İnstitutunda keçirdiyi görüşlər barədə məlumat verdi.*

*Dövlətimizin başçısı bildirdi ki, bu səfər qonağa Azərbaycanda elmin inkişafı və yeni texnologiyanın tətbiqi ilə yaxından tanış olmaq imkanı yaradacaqdır. Prezident İlham Əliyev görkəmli alimin Azərbaycana səfərinin alimlər arasında təcrübə mübadiləsinin aparılması işinə də töhfə verəcəyinə əminliyini söylədi.*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

İkinci dünya müharibəsi zamanı faşizmin yəhudi xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasətinin qurbanları hər il bütün mütərəqqi bəşəriyyət tərəfindən ürək ağrısı ilə yad olunur. Bu dəhşətli kütləvi qırğında uşaqlara, qadınlara, qocalara belə, aman verilmədən, milyonlarla insan yalnız yəhudi millətinə mənsub olduğuna görə qəddar işgəncə və əzablarla məhv edilmişdir.

1943-cü ilin aprelində Varşavada yəhudi gettosu məhbuslarının öz milli haqları uğrunda faşizmə qarşı qeyri-bərabər ölüm-dirim savaşına qalxması və bu şərəfli mübarizədə qəhrəmanlıqla həlak olması insani ləyaqətin şər və zorakılıq üzərində mənəvi qələbəsi kimi tarixə həkk olunmuşdur.

Bu qanlı cinayətə zamanında hüquqi-siyasi qiymət verilmiş, soyqırımı aksiyasının ideoloqları və təşkilatçıları layiq olduqları cəzalarını almışlar. Lakin faşizmin yolverilməz təzahürləri müasir zəmanəmizin acı reallığına çevrilməkdə, milyonlarla insanın yaddaşını və taleyini narahat etməkdədir. Təəssüf hissi ilə qeyd edirəm ki, bu cür müsibətlər Azərbaycandan da yan keçməmişdir. Son iki əsrdə, xüsusən də ötən yüzilliyin 80-ci illərinin sonlarından xalqımız dəfələrlə erməni faşizminin hərbi, siyasi, ideoloji irticasına məruz qalaraq soyqırımı, deportasiya, etnik təmizləmə kimi milli fəlakətlərlə üzləşməli olmuşdur. Biz bütövlükdə bəşər sivilizasiyasını, beynəlxalq sülhü və əmin-amanlığı təhdid edən hər cür irqçiliyi, milli-dini ayrı-seçkiliyi qətiyyətlə pisləyir, dünya birliyini belə hallara qarşı vahid və barışmaz mövqe nümayiş etdirməyə çağırırıq.

Əziz həmvətənlər!

Milli hüzn gününüzdə bir daha Azərbaycan xalqı adından kədərinizə şərik olduğumu bildirir, irticanın bütün günahsız qurbanlarına Allahdan rəhmət diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 aprel 2008-ci il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Yüz illərdir ölkəmizdə təşəkkül tapmış davamlı tolerantlıq mühiti ayrı-ayrı xalqların və konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətləri şəraitində dinc yanaşı yaşaması, etnik-mədəni müxtəlifliyin günümüzəcən qorunub saxlanması Azərbaycan cəmiyyətində milli-mənəvi həmrəyliyi və ictimai-siyasi sabitliyi şərtləndirən tarixi nailiyyətimizdir.

Bu gün dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları ölkədə mövcud olan vicdan və dini etiqad azadlığından, mütərəqqi dövlət – din münasibətlərindən və demokratik-hüquqi şəraitdən lazımınca yararlanmaqdadır. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, respublikamızın çoxsaylı pravoslav xristian icması da öz milli-mənəvi dəyərlərinə sahib olmaqla, ölkəmizdə gedən böyük quruculuq işlərində yaxından iştirak edir və öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirir.

Pasxa bayramı əmin-amanlıq, həmrəylik, mərhəmət və şəfqət rəmzi kimi, hər il Azərbaycanda geniş qeyd edilir. Qoy bu nurlu bayram ailələrinizə sevinc, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 aprel 2008-ci il*

## GÖRKƏMLİ OFTALMOLOQ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA MƏKTƏBİN AÇILIŞI

*28 aprel 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 28-də Bakının Yasamal rayonunda görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın adını daşıyan məktəbin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı əvvəlcə görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın büstünün açılışını etdi.*

*Sonra məktəbin açılışı oldu. Prezident İlham Əliyev məktəbin foyesində ümummilli lider Heydər Əliyevin və akademik Zərifə Əliyevanın həyat və fəaliyyətlərini əks etdirən fotostendə baxdı.*

*Təhsil naziri Misir Mərdanov dövlətimizin başçısına məktəbdə tədris üçün yaradılmış şərait barədə məlumat verdi. Bildirildi ki, məktəb Heydər Əliyev Fondunun dəstəyi ilə qısa vaxt ərzində ən müasir standartlara uyğun olaraq tikilib istifadəyə verilmişdir. 840 şagird yerlik məktəb müasir tədris avadanlığı, kompyuterlərlə təchiz olunmuşdur. Kompyuterlər internet şəbəkəsinə qoşulmuşdur.*

*Prezident İlham Əliyev müasir tipli tədris laboratoriyalarına, kompyuter mərkəzinə baxdı, ingilis dili kabineti və ən müasir ədəbiyyatla təmin edilmiş kitabxana ilə tanış oldu.*

*İnformatika, xarici dil və riyaziyyat fənləri üzrə ixtisaslaşdırılmış məktəb IX–XI sinif şagirdlərinin təhsil almaları üçün nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev məktəbin idman zalı ilə də tanış oldu. Burada şagirdlərin fiziki hazırlığı üçün bütün şərait yaradılmışdır.*

*Dövlətimizin başçısı akademik Zərifə xanım Əliyevanın xatirə otağına baxdı. Burada görkəmli alimin həyat və fəaliyyətinin müxtəlif məqamlarını əks etdirən fotoşəkillər toplanmışdır.*

*Prezident İlham Əliyev məktəbin açıq idman meydançası ilə də tanış oldu.*

## SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ, AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ YAN KUBİŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Prezident sarayında Slovakiyanın Xarici İşlər naziri, Avropa Şurası Nazirlər Komitəsinin sədri Yan Kubişin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Slovakiya arasında siyasi və iqtisadi sahələrdə fəal əməkdaşlıq üçün yeni imkanların olduğunu deyən prezident İlham Əliyev Yan Kubişin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin inkişafı, Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və Avropa strukturlarına inteqrasiyası kimi məsələlər ətrafında fikir mübadiləsi aparılması baxımından əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Slovakiya Xarici İşlər nazirinin ölkəmizə səfərinin ikitərəfli əlaqələrin daha da möhkəmlənməsi işində mühüm addım olacağını bildirdi.*

*Prezident İlham Əliyevlə əvvəlki görüşlərini xatırladan qonaq Azərbaycana Slovakiyanın Xarici İşlər naziri kimi səfərə gəlməsindən məmnunluğunu söylədi. Yan Kubiş əmin olduğunu bildirdi ki, iki ölkə arasında münasibətlər bundan sonra da uğurla davam etdiriləcəkdir.*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ŞİMON PERESƏ**

Hörmətli cənab Prezident!

İsrailin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–İsrail münasibətlərinin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 aprel 2008-ci il*

# NORVEÇİN XARİCİ İŞLƏR NAZİRİ YONAS QAR STÖRENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 aprel 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Prezident sarayında Norveçin Xarici İşlər naziri Yonas Qar Störenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Norveçin Xarici İşlər nazirinin ölkəmizə səfəri zamanı səmərəli görüşlər keçirdiyinə əmin olduğunu bildirdi. Dövlətimizin başçısı bu səfərin ikitərəfli münasibətlərin gələcək inkişafı baxımından əhəmiyyətli olacağına əminliyini söylədi.*

*Yonas Qar Störe Norveç Kralı V Haraldın və Baş nazir Yens Stoltenberqin salamlarını prezident İlham Əliyevə çatdırdı. O, rəhbərlik etdiyi nümayəndə heyətinin azərbaycanlı həmkarları ilə keçirdiyi görüşün çox səmərəli olduğunu, ikitərəfli əlaqələrin bir çox sahələrinin müzakirə edildiyini bildirdi.*

*Prezident İlham Əliyev Norveç Kralı V Harald və Baş nazir Yens Stoltenberqin salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını onlara çatdırmağı xahiş etdi.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

80 illik yubileyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz uzun illər boyu Misir Ərəb Respublikasına başçılıq edərək ölkənizin rifahı və beynəlxalq aləmdə nüfuzunun daim artması, sülhün, sabitliyin və əmin-amanlığın bərqərar olması yolunda ardıcıl səylər göstərən görkəmli dövlət xadimi kimi tanınırsınız.

Keçən il ölkənizə rəsmi səfərim zamanı Sizinlə səmimi görüşlərimizi, apardığımız dəyərli fikir mübadiləsini həmişə xatırlayıram.

Əminəm ki, Azərbaycan–Misir münasibətlərinin, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı və genişlənməsi naminə birgə səylərimizi bundan sonra da davam etdirəcəyik. Yaxın vaxtlarda Azərbaycana səfərə gələcəyinizə və Sizinlə bir daha görüşəcəyimizə ümidvar olduğumu bildirirəm.

Sizə ən səmimi arzularımı yetirir, möhkəm cansağlığı, səadət, dost Misir xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 aprel 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖLKƏMİZDƏ SU TƏCHİZATI SİSTEMLƏRİNİN İNKİŞAFI İLƏ BAĞLI LAYİHƏLƏRƏ DAİR İCLASDA GİRİŞ NİTQİ

*29 aprel 2008-ci il*

Ölkəmizdə aparılan əsaslı iqtisadi islahatlar nəticəsində, liberal iqtisadi siyasət nəticəsində Azərbaycanda son illər ərzində iqtisadi inkişaf çox sürətlə gedir. Son dörd il ərzində biz iqtisadi potensialımızı iki dəfə artırmışıq. Bu da öz növbəsində, ölkədə bütün sahələrdə islahatların davam etdirilməsi üçün gözəl şərait yaradır.

Biz iqtisadi müstəqilliyimizi, enerji təhlükəsizliyimizi təmin edə bilmişik və əminəm ki, bundan sonra Azərbaycanın qarşısında duran bütün iqtisadi və sosial məsələlər daha da sürətlə öz həllini tapacaqdır.

İqtisadi islahatlar aparmaqla bir neçə məqsədə çatmış oluruq. İlk növbədə, ölkəmizin iqtisadi gücü artır, büdcə artır. Son dörd il ərzində büdcə xərcləri on dəfə artmışdır. Bildiyiniz kimi, bu yaxınlarda Milli Məclisə yeni təkliflər göndəriləcək və dürüstləşdirmə zamanı büdcəmiz yenə də kifayət qədər böyük dərəcədə artacaqdır. Bütün bunlar imkan verir ki, ölkəmizdə həm sosial məsələlər, həm də ölkə qarşısında duran vəzifələr tezliklə öz həllini tapsın, nəhəng infrastruktur layihələri icra olunsun. Bir sözlə, biz müasir güclü dövlət yaradırıq və bu işdə böyük uğurlar qazanmışıq.

Bununla bərabər, əlbəttə ki, həll olunmamış məsələlər, problemlər də var. Onların bəziləri obyektiv xarakter daşıyır, bəziləri isə bizdən daha da ciddi yanaşma tələb edir. Hesab edirəm ki, son illər ərzində aparılan islahatlar və konkret

proqramların icrası nəticəsində bir neçə istiqamətdə çox böyük, nəzərəçarpan dəyişikliklər baş vermişdir. İlk növbədə enerji təhlükəsizliyimizi təmin edə bilmişik. Özü də təkcə neft-qaz layihələrinin icrası ilə deyil, həmçinin Azərbaycanda son illər ərzində bir neçə yeni elektrik stansiyası tikilmişdir və bu bizə imkan verir ki, öz tələbatımızı tam şəkildə ödəyək. Yeni stansiyalar yüksək dünya standartlarına cavab verir, bu stansiyalardakı yeni texnologiyalara görə enerji daşıyıcılarına xeyli dərəcədə qənaət edilir. Biz bu qənaətdən səmərəli istifadə edərək, öz ixrac potensialımızı artırırıq. İndi deyə bilərəm ki, Azərbaycandakı elektrik stansiyalarına bir qram da mazut göndərilmir. Biz artıq mazut rejimindən tamamilə qaz rejiminə keçdik. Bunun həm böyük iqtisadi səmərəsi var, həm imkan verir ki, mazutu daha çox ixrac edək, əlavə vəsait qazanaq, həm də ki, bu, ekoloji vəziyyətin yaxşılaşmasına xidmət göstərir. Növbəti illərdə bu siyasət davam etdiriləcək, artıq istismarda olan və bu yaxınlarda təməlini qoyduğumuz böyük elektrik stansiyalarının, o cümlədən su elektrik stansiyalarının tikilməsi, işə düşməsi Azərbaycanda uzun illər bundan sonrakı dövr üçün çox güclü enerji potensialı yaradır və gələcəkdə elektrik enerjisinin ixracı da mümkün olacaqdır.

Bildiyiniz kimi, ölkəmizdə qazlaşdırma prosesi sürətlə gedir. İndi ölkə əhalisinin 80 faizi qazla təmin olunur. Başqa bölgədə yerləşən ölkələrlə müqayisədə bu çox böyük rəqəmdir. Ancaq biz çalışırıq və çalışmalıyıq ki, bu sahədə daha da böyük işlər görək. Qazlaşdırmanı daha da genişləndirək ki, maksimum dərəcədə bütün yaşayış məntəqələri qazla təmin olunsun. Yeni xətlər çəkilir və Azərbaycanda qaz hasilatı artır. Bizim neft şirkəti ilə bərabər həm xarici şirkətlər qaz hasilatını artırırlar, həm də ki, köhnə yataqlardan qaz hasilatının artımı mövcuddur. Bu da həm ölkəmiz, həm də tərəfdaşlarımız üçün çox vacib və önəmli bir məsələdir.

Enerji təhlükəsizliyi bu gün bölgədəki və xaricdən qaz alan ölkələrin inkişafı üçün başlıca rol oynayır. Biz isə həm öz

tələbatımızı maksimum dərəcədə təmin etməliyik, həm də əlbəttə ki, gələcəkdə ixrac imkanlarımızı artırmalıyıq.

Azərbaycanda infrastruktur layihələri həyata keçirilir. Bu layihələr ölkəmizi müasirləşdirir, yeni imkanlar yaradır, biznes mühitini yaxşılaşdırır. Həmin infrastruktur layihələri içərisində yol tikintisi xüsusi yer tutur. Bildiyiniz kimi, indi Azərbaycanda həm magistral yollar, həm də şəhərlərarası, şəhərdaxili yollar, kənd yolları çəkilir. Demək olar ki, Azərbaycanda bütün yol infrastrukturu yeniləşir. Bu məqsədlər üçün dövlət büdcəsindən böyük investisiyalar nəzərdə tutulub və biz bu vəsaiti ayırırıq. Növbəti illərdə investisiyaları davam etdirəcəyik. Bu həm iqtisadi, həm də sosial məsələdir. Bütövlükdə ölkənin səviyyəsini, onun imkanlarını göstərən amillərdən biri də yol infrastrukturudur. Bizdə isə yol tikintisi çox sürətlə gedir. Hər bir yaşayış məntəqəsinə çəkilən yeni yol, öz növbəsində, biznes mühitini də yaxşılaşdırır, turizm imkanlarını genişləndirir. Bir sözlə, bu, aydın məsələdir ki, yol olan yerdə canlanma da, inkişaf da var. Bütün bu sahələr üzrə konkret proqramlar var, büdcə vəsaiti var və növbəti illərdə bu vaxta qədər əldə edilmiş uğurlar, əlbəttə ki, daha da artırılmalıdır.

Bütün bu mühüm sahələr içərisində su təchizatı xüsusi yer tutur. Azərbaycan bütün dövrlərdə müəyyən dərəcədə bu sahədə özünü tam şəkildə təmin edə bilməmişdi. Çünki bizim su mənbələrimiz məhduddur. Ancaq keçmişdə və bu gün böyük işlər görülmüşdür. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında 1971-ci ildə su kəməri tikilmiş, Kür çayının suyu Bakıya çatdırılmışdır. Onun təşəbbüsü ilə Kür çayının suyunu Bakıya gətirən ikinci kəmər də tikilməyə başlanmış və 1988-ci ildə başa çatdırılmışdı. Ancaq şəhərimiz böyüyür, ölkənin əhalisi artır və nəinki Bakıda, bütün şəhər və rayonlarda su problemi mövcuddur. Bu problem həmişə olub, su və kanalizasiya problemləri bütün dövrlərdə bizə əziyyət veribdir.

Hazırda məndə olan məlumata görə, indi Bakı şəhərinin təxminən 40 faizi suyu fasilələrlə alır. Bu, müasir şəhər üçün

dözülməz bir vəziyyətdir. Yenə də deyirəm ki, bunun obyektiv və tarixi səbəbləri var. Ancaq biz indiki şəraitdə, əlbəttə ki, bu vəziyyətlə barışa bilmərik. Biz əsas infrastruktur layihələrimizin uğurla başa çatdığı bir dövrdə bu məsələyə çox ciddi diqqət yetirməliyik.

Vəziyyəti yaxşılaşdırmaq, əsaslı şəkildə böyük dönüşə nail olmaq üçün bu vaxtadək kifayət qədər işlər görmüşük. Müxtəlif tədbirlər nəticəsində su təchizatı həm Bakıda, həm də rayonlarda yaxşılaşır. Ancaq istədiyimiz dərəcədə deyildir.

Bugünkü iclas bu məsələlərlə bağlı problemlərin təhlili üçün əhəmiyyətlidir. Bu vaxta qədər görülən işlər haqqında məlumatlar səslənəcəkdir. Ən önəmlisi isə bundan sonrakı dövrdə hansı işlərin görülməsidir. Mən hesab edirəm ki, bu vaxta qədər görülən bütün işlər təqdirəlayiqdir. Ancaq bundan sonra daha böyük işlər görülməlidir. Görüləcək işlər Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair yeni proqramda öz əksini tapmalıdır – 2009–2013-cü illəri əhatə edən proqrama daxil olunmalıdır. Bununla bərabər, su təchizatı və meliorasiya məsələləri üzrə xüsusi tədbirlər planı hazırlanmalıdır. Biz birinci dəfə deyil ki, bu məsələlərlə bağlı müşavirə keçiririk. Bu vaxta qədər görülən işlər məhz bizim keçirdiyimiz müşavirələrdən, qəbul edilmiş qərarlardan sonra baş vermişdir. Biz indi Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisini uğurla icra edirik. Tarixi bir nailiyyətdir. Bu, uzun illər, onilliklər ərzində – həm sovet vaxtında, həm də müstəqilliyimizin ilk illərində müzakirə olunan məsələdir. Hamımız bilirdik ki, orada təmiz su mənbələri var, o mənbələr ki, ölkəmiz üçün lazımdır. Amma o vaxt mərkəzi sovet hökuməti bu məsələyə pul ayırmırdı, müstəqilliyimizin ilk illərində də bizim buna imkanlarımız çatmırdı. Belə olan halda, əlbəttə ki, bu məsələ sadəcə olaraq, bir layihə kimi qalırdı. Biz onu canlandırdıq, konkret tədbirlər planını hazırladıq və bu gün Oğuz–Qəbələ–Bakı su kəməri uğurla tikilir. Mən tikintidə olmuşam, işlərin gedişi ilə yaxından tanış olmuşam. Mənə mütəmadi qaydada məlumatlar verilir və əminəm ki, bu su

kəməri tikiləndən sonra Bakı sakinləri mütləq və mütləq onun nəticələrini görəcək, bundan bəhrələnəcəklər.

Biz bu məqsədlər üçün Dövlət Neft Fondundan vəsait nəzərdə tutmuşuq. Bu da çox böyük əhəmiyyət daşıyır. Neft kəmərinin istifadəsindən, Azərbaycanın neft yataqlarından çıxan neftin satışından əldə olunan gəlirləri biz su kəmərinin tikintisinə, insanların sağlamlığına, sosial məsələlərin həllinə sərf edirik, yönəldirik.

Bu kəmər, bir daha demək istəyirəm ki, tarixi əhəmiyyət daşıyır və tikiləndən sonra uzun illər Azərbaycan xalqına xidmət edəcəkdir.

Bununla bərabər, digər böyük və bundan az əhəmiyyət daşımayan layihə Samur–Abşeron kanalının və «Taxtakörpü» su anbarının tikintisi layihəsidir. Tutumuna görə «Taxtakörpü» su anbarı Azərbaycanda bu vaxta qədər yaradılmış su anbarlarından ən böyüyüdür. Bu da qlobal strateji əhəmiyyət daşıyan layihədir və icra olunmağa başlanmışdır. Mən «Taxtakörpü» su anbarının təməlinin qoyulmasında iştirak etmişdim. Orada həm su anbarı, həm də su elektrik stansiyası tikilir. Gələcəkdə bu layihənin əhəmiyyəti daha da artacaqdır. Çünki indi dünyanın müxtəlif yerlərində su qıtlığı yaranır. Suyun nə dərəcədə əhəmiyyətli olduğunu artıq bütün dünya bilir, görür və biz də bu sahədə vaxt itirməməliyik. Biz vaxtı qabaqlamalıyıq, gördüyümüz işləri elə qurmalıyıq ki, ölkəmiz üçün, əhali üçün lazım olan bütün infrastrukturu yaradaq. Bu gün biz Samur–Abşeron kanalının və «Taxtakörpü» su anbarının tikintisi haqqında da məruzəni dinləyəcəyik.

Eyni zamanda, bu yaxınlarda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə daha bir layihə icra olunmağa başlamışdır. Buna xüsusi vəsait ayrılmışdır və mən bu məsələyə özüm şəxsən nəzarət edirəm. Bu, su təchizatı baxımından ən problemli olan kəndlərdə modul təmizləyici qurğuların quraşdırılması və əhalinin təmiz su ilə təmin olunması layihəsidir. Bu çox böyük əhəmiyyət daşıyan layihədir. Bunun üstünlüyü ondadır ki, çox qısa müddət ərzində biz

vəziyyəti yaxşılaşdıra bilmişik. Artıq 50 kənddə bu qurğular quraşdırılmışdır və indi o kəndlərdə yaşayan insanlar təmiz su içirlər. İndi televiziyada bu barədə xəbər verilir və göstərilir ki, bu vaxta qədər onlar hansı suyu içirdilər. İnsanlar əziyyət çəkirdilər, təmizlənməmiş, çirklənmiş suyu dədə-baba üsulu ilə duruldurdular.

Bu həm əziyyətdir, həm də insanın sağlamlığına böyük təhlükədir. Su həyat deməkdir, insanın sağlamlığı xeyli dərəcədə suyun keyfiyyətindən asılıdır. Qısa müddət ərzində 50 kənddə qurğuların quraşdırılması ilə biz, demək olar ki, həmin kəndlərdə bu məsələni həll etmişik.

İndi növbəti mərhələ gəlir. Mən vəzifə qoymuşam – çalışmaq lazımdır ki, bu ilin sonuna qədər əlavə 50 kənddə bunu təmin edək. Növbəti illərdə biz bu prosesi daha da böyük, geniş miqyasda davam etdirməliyik. Mənə nazirlik tərəfindən verilən məlumata görə, bu yolla biz təxminən 700 min əhalini təmiz su ilə təmin etmək iqtidarında olacağıq.

Bizim aidiyyəti qurumlarımız bu sahədə müəyyən işlər görüblər. Mən bu işləri qiymətləndirirəm. Çalışmalıyıq maksimum dərəcədə səylər qoyaq ki, qısa müddət ərzində bu sahədə vəziyyəti əsaslı şəkildə yaxşılaşdıraq.

Azərbaycan hökuməti beynəlxalq maliyyə qurumları ilə bu məsələnin həlli üçün uğurlu danışıqlar aparmışdır. Demək olar ki, şəhər və rayonlarımızın hamısı o proqrama daxildir. İndi baxmalıyıq, təhlil etməliyik. Əgər hansı sahə o kreditlərlə əhatə olunmursa, biz əlavə tədbirlər görməliyik, özümüz dövlət xətti ilə əlavə vəsait ayırmalıyıq. Necə ki, Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisində öz pulumuzdan istifadə etmişik.

Bütün bu məsələlər həm iqtisadi təhlükəsizliyimizi, həm də ərzaq təhlükəsizliyimizi təmin edəcəkdir. İndi genişmiqyaslı meliorasiya proqramı hazırlanır, mənə onun ilkin variantı təqdim edilmişdir. Mən də müvafiq göstəriş vermişəm ki, tam şəkildə hazırlansın və biz bu proqramı qəbul edək. 2008–2015-ci illəri əhatə edən genişmiqyaslı meliorasi-

ya və irriqasiya proqramı qəbul ediləcək və icra olunacaqdır. Mən proqrama şəxsən baxmışam. Nəzərdə tutulan bütün tədbirlər çox dəyərlidir və çox konkret proqramdır. Orada hər bir rayon, kənd, hər bir məsələ öz əksini tapır. İndi gərək bunun maliyyə tərəfinə daha dəqiq baxaq. Nə qədər vəsait lazım olacaq, ilk növbədə hansı məsələləri, prioritet əhəmiyyət kəsb edən məsələləri görməliyik. Əlbəttə, 2009-cu ilin dövlət büdcəsində vəsait nəzərdə tutulmalıdır. Həm bu proqramın həyata keçirilməsi üçün, həm də ki, bütövlükdə dediyim qlobal şəkildə su təminatının yaxşılaşması üçün.

Meliorasiya tədbirləri nəticəsində əkin sahələri də genişlənəcəkdir. Bu, birbaşa ərzaq təhlükəsizliyi məsələləri ilə bağlıdır. Bu barədə artıq mən bir neçə dəfə demişəm, biz çalışmalıyıq ki, maksimum dərəcədə özümüzü əsas ərzaq məhsulları ilə təmin edək.

İndiyə qədər bu belə olmayıb və bunun da tarixi səbəbləri var. Sovet İttifaqı zamanı hər bir müttəfiq respublika hansısa bir sahə üzrə ixtisaslaşdırılırdı.

Amma bu gün biz ərzaq təhlükəsizliyimizi özümüz təmin etməliyik. Bizim tərəfimizdən irəli sürülmüş təşəbbüs – hər hektara görə fermerlərə 40 manat subsidiya verilməsi artıq özünü doğruldur. Əkin sahələri böyük dərəcədə genişləndirilmişdir. Nə qədər yeni əkin sahələri yaradılıb?

**İsmət Abasov** (*Kənd Təsərrüfatı naziri*): Hər hektara görə 40 manat verilirdi. Lakin Sizin təkrar göstərişiniz oldu və buğda istehsalçılarına əlavə daha 40 manat verildi. Bundan sonra təxminən 120 min hektardan bir az çox sahə əkildi. Bu isə təxminən 300–350 min ton əlavə buğda istehsalı deməkdir.

**İlham Əliyev:** Yəni, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Mən bir daha qeyd etmək istəyirəm ki, bu məsələyə biz, bax bu nöqteyi-nəzərdən, qlobal nöqteyi-nəzərdən yanaşırıq: bu, ölkəmizin təhlükəsizliyidir, insanların sağlamlığıdır, iqtisadi məsələlərin həllidir, sosial məsələlərin həlli deməkdir.

# YEKUN NİTQİ

Çıxışlarda bu vaxta qədər görülən işlər haqqında məlumat verildi və ən önəmlisi, gələcəkdə bizi nələr gözləyir, hansı işləri görməliyik – bu barədə də kifayət qədər geniş məlumatlar səsləndi. Bu çox vacibdir, çünki biz hər bir sahədə vəziyyəti yaxşılaşdırmaq üçün ilk növbədə mövcud olan problemi həll etməliyik, özü də kompleks şəkildə və maksimum həcmdə. Bu problemlər maksimum təhlil olunandan sonra, əlbəttə ki, bunların həlli yolları müzakirə olunur və müvafiq proqramlar qəbul edilir. Görülən işlər deməyə əsas verir ki, gələcəkdə bu sahə ilə bağlı bütün problemlərin həlli üçün bizim imkanlarımız var. Texniki imkanlarımız var, artıq təcrübəmiz var – böyük, nəhəng layihələrin icrası üçün lazım olan təcrübə – texnika, mütəxəssislər, yəni bütün lazımi tədbirləri görmək üçün imkanlar var. Maliyyə imkanlarımız da var və bu gün burada nümayiş etdirilən layihələrin bir çoxu Azərbaycanın dövlət büdcəsinin hesabına, Neft fondunun vəsaiti hesabına həyata keçirilir. Beynəlxalq maliyyə qurumları ilə artıq çox gözəl işgüzar əlaqələrimiz var. Bu vaxta qədər bizə ayrılan kreditlərdən istifadə edib müəyyən işləri gördük və əsas böyük işlər isə bundan sonra görüləcəkdir. Burada səslənən rəqəmlər də göstərir ki, nə qədər böyük işlər görüləcəkdir. 1 milyard dollardan çox vəsaitin qoyuluşu nəzərdə tutulur. İndi Azərbaycanın iqtisadi imkanları bizim kredit reytinqimizə də müsbət təsir göstərmişdir. Bu gün xarici bazarlardan maliyyə resursları almaq artıq bizim üçün problem deyildir. Düzdür, son müddət ərzində bu sahədə dünyada müəyyən problemlər yarandı, maliyyə resurslarının həcmi məhdudlaşdı. Amma buna baxmayaraq, Azərbaycanın kredit reytinqi kifayət qədər yüksəkdir. Bizim etibarlı tərəfdaş olmağımız artıq bütün dünya biznes, maliyyə aləmi üçün bəlli bir məsələdir. Yəni biz həm xarici maliyyə təşkilatlarının imkanlarından,

həm də öz imkanlarımızdan istifadə etməliyik. Beləliklə, bütün bu imkanları maksimum dərəcədə səfərbər etməliyik.

Maksimum proqram tərtib olunandan sonra, əlbəttə ki, proqram daxilində ardıcıllığı da təmin edəcəyik. Hansı məsələlər prioritet əhəmiyyət daşıyırsa, onlar ilk növbədə görülməlidir. Ancaq bütövlükdə mən tam əminəm ki, biz qlobal kontekstdə də bu məsələlərlə bağlı uğurlara nail olacağıq. Bütün işlər çox yüksək səviyyədə, keyfiyyətlə görülməlidir, keyfiyyət birinci yerdə olmalıdır. Həm texniki cəhətdən, həm də ki, veriləcək suyun keyfiyyəti də yüksək olmalıdır. Ona görə bütün texniki tədbirlər buna yönəldilməlidir. Təmizləyici qurğular, əlbəttə ki, bu keyfiyyəti təmin edir. Kəmər də müasir borularla çəkilir və onu da qeyd etmək istəyirəm ki, Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi nəticəsində Azərbaycanda, Sumqayıtda böyük bir sənaye kompleksi yaranmışdır. Böyük diametrli borular istehsal olunur. Hansı ki, əvvəllər bu istehsal bizdə yox idi. Çoxlu iş yerləri açılmışdır və gələcəkdə bu kompleks həm Azərbaycan üçün səmərəli işləyəcək – çünki bizim başqa layihələrimiz də var – həm də öz məhsulunu yüksək keyfiyyətli olduğu üçün xaricə ixrac edə biləcək.

Biz paylayıcı şəbəkəyə böyük diqqət göstərməliyik. İndi bu kəmər tikilir. Ancaq o, Bakıya daxil olandan sonra mövcud sistemə qoşulacaqdır. Burada isə deyildi ki, infrastruktur artıq köhnəlibdir. Biz bunu gərək yeniləşdirək, o, müasir səviyyəyə cavab verməlidir və itkilər də azalmalıdır. İtkilər isə kifayət qədərdir. 20 faizdən çoxdur. Bunun da təbii səbəbləri var. Çünki borular artıq köhnəlib, paslanıbdır. Əlbəttə, paylayıcı şəbəkənin yeniləşdirilməsi bu məqsədi də güdür.

Bakının su problemi artıq həll olunmaqdadır. Həlli yolları bəllidir və əminəm ki, görüləcək işlər vəziyyəti xeyli yaxşılaşdıracaqdır. Qəsəbələrin su təchizatı Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı proqramında öz əksini tapıbdır. İşlərin böyük hissəsi görülüb, ümid edirəm ki, ilin

sonuna qədər bütövlükdə bu proqram, o cümlədən onun suya aid olan hissəsi icra ediləcəkdir.

Rayonlarda görüləcək işlər artıq bəllidir. Bütün rayonlar proqramlarla əhatə olunubdur. Dünya Bankı və digər banklar tərəfindən verilən kreditlər Azərbaycanın bütün rayonlarını əhatə edir. Həm su təminatını, həm də kanalizasiya sisteminin quraşdırılmasını – əksər rayonlarda, ümumiyyətlə, kanalizasiya sistemi yoxdur. Yəni bunlar böyük işlərdir, nəhəng infrastruktur layihələridir, bunlar çox böyük peşəkarlıq və keyfiyyət tələb edir. Biz buna böyük vəsait ayırırıq.

Onu da qeyd etmək istəyirəm ki, bu məsələlərin həlli, ilk növbədə, sosial xarakter daşıyır. Əlbəttə, bunun iqtisadiyyata da, xüsusilə də kənd təsərrüfatına müsbət təsiri olacaqdır. Amma birinci yerdə sosial məsələlərin həlli – insanların təmiz və keyfiyyətli su ilə təmin olunması və insanların sağlamlığına zərər verə biləcək amillərin azaldılması məsələsi dayanır. Bu bir daha onu göstərir ki, Azərbaycan dövləti öz siyasətini xalqın maraqları üzərində qurur.

Biz kreditlərlə birlikdə bir neçə milyard dollara başa gələcək nəhəng layihələr icra edirik. Biz öz maddi, maliyyə imkanlarımızı səmərəli şəkildə, ilk növbədə insanların həyat səviyyəsinin yaxşılaşması, sağlamlığının möhkəmlənməsi və sosial problemlərin həlli üçün istifadə edirik.

Bununla yanaşı, ekoloji məsələlər də öz həllini tapır və burada göstərilən slaydlarda gördük ki, Xəzər dənizinin akvatoriyası, Bakı buxtası təmizlənəcəkdir. Keçən ilə nisbətən bu il çimərliklərdə böyük irəliləyiş var. Hər dəfə yay yaxınlaşdıqca biz eşidəndə ki, o çimərlik, bu çimərlik bağlanmalıdır, orada vəziyyət pisdir, insanların ürəyi ağrıyır. Nə üçün bizim gözəl Xəzər dənizimiz belə çirklənməlidir? Biz elə etməliyik ki, yeni görülən işlər nəticəsində bu çimərlik mövsümünə Xəzər dənizinin ekologiya məsələlərini tam şəkildə həll edək. Təmizləyici qurğular tikilibdir. Hansılar ki, indi tikilməlidir, onlar da tikiləcəkdir. Ümid etmək istəyirəm

ki, bu yay insanlarımız dənizdən daha da çox istifadə edəcəklər.

Bir sözlə, görüləcək bütün işlər su təminatının, ekoloji vəziyyətin yaxşılaşmasına, meliorasiya məsələlərinin həllinə və nəticədə sosial-iqtisadi inkişafa da böyük təkan verəcəkdir. Bunlar doğrudan da böyük qlobal layihələrdir, böyük tarixi əhəmiyyət daşıyan layihələrdir. Bu vaxta qədər görülən bütün işlər, xüsusilə 1970–80-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə görülən işlər bu gün bizə imkan verir ki, bu nəticələrdən istifadə edək. Ancaq biz daha da irəliyə getməliyik. Ölkənin əhalisi artır, iqtisadiyyat artır, yeni tələblər, yeni məsələlər ortaya çıxır. Biz bunlara hazır olmalıyıq və bir də demək istəyirəm ki, vaxtı qabaqlamalıyıq. Ümid edirəm ki, bu gün burada göstərilən bütün layihələr vaxtlı-vaxtında uğurla icra olunacaqdır. Mən də həmişə olduğu kimi, bu işlərə nəzarət edəcək və vaxtaşırı sizdən hesabat alacağam.

## AVRASİYA DÖVLƏTLƏRİ XI İQTİSADİ SAMMİTİNİN İŞTİRAKÇILARINA

Hörmətli Sammit iştirakçıları!

Sizi – Avrasiya Dövlətləri XI İqtisadi zirvə toplantısının iştirakçılarını səmimi-qəlbdən salamlayır və toplantının işinə uğurlar diləyirəm.

Türkiyə dövlətinin himayəsi ilə hər il keçirilən Avrasiya İqtisadi zirvə toplantıları xalqlarımız və dövlətlərimiz arasında iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafında mühüm rol oynayır. Toplantıda Avropa, Asiya və Afrikanın onlarca dövlətindən yüksək səviyyəli nümayəndə heyətlərinin, beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı regionumuzda dostluq və əməkdaşlıq münasibətlərinin yaranmasına öz müsbət təsirini göstərir.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin daimi təşkilatçılığı ilə keçirilən iqtisadi zirvələrə Azərbaycan rəhbərliyi həmişə böyük əhəmiyyət vermişdir. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Avrasiya İqtisadi zirvə toplantılarını iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı, türkdilli dövlətlərin əlaqələrinin möhkəmləndirilməsi, regional əməkdaşlığın gücləndirilməsi baxımından daim yüksək qiymətləndirirdi. Əmin ola bilərsiniz ki, Azərbaycanın bugünkü rəhbərliyi də bu xətti dönmədən davam etdirərək, ikitərəfli və regional əməkdaşlığın inkişafı, sülhün və təhlükəsizliyin təmin olunması üçün bütün mövcud imkanlardan istifadə edəcəkdir.

Yaşadığımız müasir dünyanın reallıqları bütün dövlətlərin və xalqların sıx iqtisadi, enerji, humanitar və mədəni əməkdaşlığının qurulmasını, aqressiv separatizmə, terrora, bəşəriyyəti təhdid edən təhlükələrə qarşı birgə mübarizə aparılmasını zəruri etmişdir. Zirvə toplantısında

müzakirəyə çıxarılan enerji, sənaye, ticarət, turizm, sülh dialoqu kimi mövzular da dünyada gedən qloballaşma və inteqrasiya prosesləri baxımından xüsusi maraq doğurur.

Bu gün Türkiyə ilə Azərbaycan arasında strateji müttəfiqlik münasibətləri mövcuddur, bütün sahələrdə əlaqələr uğurla inkişaf edir. Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal və səmimi iştirakçılarıdır. Biz iki ölkənin iqtisadi-enerji imkanlarından və geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi naminə səmərəli istifadə edirik.

Azərbaycan Respublikası hazırda region və dünya dövlətləri ilə geniş iqtisadi və mədəni əlaqələr qurur, bir çox beynəlxalq iqtisadi-enerji və nəqliyyat-kommunikasiya layihələrinin əsas təşkilatçılarından biridir. Dövrümüzün nəhəng mühəndis qurğularından olan Bakı–Tbilisi–Ceyhan neft kəməri, Azərbaycan qazını Avropa bazarına nəql edən Bakı–Tbilisi–Ərzurum qaz xətti, bu yaxınlarda inşasına start veriləcək Bakı–Tbilisi–Qars dəmir yolu regional və beynəlxalq əməkdaşlığa parlaq nümunələrdir. Bu layihələrin tam gücü ilə işləməsi bütün regionun simasını dəyişəcək, burada yaşayan xalqların rifahına və tərəqqisinə xidmət edəcəkdir.

Bir daha zirvə toplantısının işinə uğurlar diləyir, onun regional və beynəlxalq əməkdaşlıq üçün faydalı olacağına inanıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 aprel 2008-ci il*

## «İNTERFAKS–AZƏRBAYCAN» İNFORMASİYA AGENTLİYİNİN KOLLEKTİVİNƏ

«İnterfaks–Azərbaycan» informasiya agentliyinin yaradılmasının beşillik yubileyi münasibətilə agentliyin kollektivini ürəkdən təbrik edirəm.

«İnterfaks–Azərbaycan» agentliyi nəinki aparıcı milli kütləvi informasiya vasitələrindən birinə, həm də ölkəmiz haqqında obyektiv informasiya almaq üçün etibarlı, sınaqdan çıxmış mənbəyə çevrilmişdir. Dünyanın bir sıra ölkələrində Azərbaycan haqqında, iqtisadiyyatımızın sürətli inkişafı, ölkənin müdafiə qabiliyyətinin möhkəmlənməsi haqqında, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycan rəhbərliyinin təşəbbüsləri və bir sıra başqa məsələlər barədə xəbərləri «İnterfaks» kanalları ilə alırlar. «İnterfaks–Azərbaycan»ın kollektivinə xas olan yüksək peşəkarlıq, hadisələrə qiymət verilməsində qərəzsizlik ona ölkəmiz haqqında düzgün informasiyanın yayılmasına dair yeni mühüm vəzifələri reallaşdırmağa kömək edir. Bu beş ildə agentlik Naxçıvanda və Gəncədə müxbir məntəqələri açmışdır.

Əminəm ki, sizin fəaliyyətiniz bundan sonra da tamamilə Azərbaycan xalqına, Azərbaycan dövlətinin möhkəmlənməsinə və ölkəmizdə baş verən proseslər haqqında həqiqətin yayılmasına xidmət edəcəkdir.

Sizi yubiley münasibətilə bir daha təbrik edir, sizə xoşbəxtlik, cansağlığı və uğurlu fəaliyyət diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 may 2008-ci il*

## TÜRKİYƏ HƏRBİ HAVA QÜVVƏLƏRİNİN KOMANDANI AYDOĞAN BABAOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Prezident sarayında Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı Aydoğan Babaoğlunu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, Türkiyə Hərbi Hava Qüvvələri komandanının səfərinin ölkələrimizin hərbi sahədə əməkdaşlığına töhfə verəcəyinə əminlik ifadə olundu.*

## AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN SƏDRİ JAN-POL KOSTA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Prezident sarayında Avropa İnsan Hüquqları Məhkəməsinin sədri Jan-Pol Kostanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Avropa İnsan Hüquqları Məhkəməsi arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## İRAN İSLAM RESPUBLİKASININ NİZAM-İNTİZAM QÜVVƏLƏRİ SƏRHƏD POLİSİNİN RƏİSİ GENERAL-MAYOR QASIM REZAYİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında İran İslam Respublikasının Nizam-İntizam Qüvvələri Sərhəd Polisinin rəisi general-mayor Qasım Rezayini qəbul etmişdir.*

*Görüşdə ölkələrimizin müxtəlif qurumları, o cümlədən sərhəd xidmətləri arasında əməkdaşlığın ikitərəfli münasibətlərin inkişafına xidmət etdiyi vurğulandı.*

## İORDANİYA KRALI ƏLAHƏZRƏT II ABDULLAHIN QARŞILANMA MƏRASİMİ

*Prezident iqamətgahı*

*5 may 2008-ci il*

*Mayın 5-də İordaniya Kralı əlahəzrət II Abdullahın qarşılanma mərasimi olmuşdur.*

*İqamətgahın həyatində – hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İordaniya Kralı II Abdullahı və xanımı Raniyanı səmimiyyətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi İordaniya kralına raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında İordaniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev və Kral II Abdullah Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. İordaniya kralı Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Kral II Abdullaha, İordaniya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN GÖRÜŞÜ

*5 may 2008-ci il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın görüşü olmuşdur. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və İordaniyanın birinci xanımı Raniya görüşdə iştirak edirdilər.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, əlaqələrin daha da genişlənməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Dövlət başçıları yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdilər və indiki səfərin də ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə xidmət etdiyini bildirdilər.*

*Söhbət zamanı ikitərəfli münasibətlərə, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ İORDANİYA DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*5 may 2008-ci il*

*Mayın 5-də Azərbaycan və İordaniya dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilmişdir.*

**İlham Əliyev**: Əlahəzrət!

Hörmətli dostlar!

Sizi bir daha görməyimə çox şadam və Sizə «Xoş gəlmisiniz!» deyirəm.

Bizim Bakıda, Əmmanda bir çox görüşlərimiz olub və regional məsələlərə, beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparmışıq. Bir çox məsələlərdə mövqelərimiz üst-üstə düşür. Bizim aramızda dostluq və tərəfdaşlıq var. Şəxsi münasibətlərimiz də ölkələrimiz arasındakı münasibətlərin inkişafında böyük rol oynayır. Bu sahələrdə böyük tərəqqiyə nail olmuşuq. Bizim çox güclü münasibətlərimiz var. Biz beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik.

Mən bu fürsətdən istifadə edərək, BMT-nin Baş Məclisində Azərbaycanın işğal olunmuş torpaqlarında vəziyyətlə əlaqədar qətnamədə bizi dəstəklədiyinizə görə minnətdarlığımı bildirirəm. Biz eyni zamanda, ikitərəfli maraq doğuran məsələlərdə bir-birimizi dəstəkləyirik. İqtisadi münasibətlərimiz, əməkdaşlığımız genişlənir. Sabah bu məsələləri daha ətraflı şəkildə müzakirə edəcəyik. Hər bir sahədə bizim olduqca yüksək səviyyədə təşəkkül tapmış münasibətlərimiz var. Biz dostuq və tərəfdaşıq.

Mən sizi Azərbaycanda qəbul etməyimdən çox məmnunam və əminəm ki, bu səfər gələcək əməkdaşlığımızda vacib rol oynayacaqdır.

**II A b d u l l a h** (*İordaniya kralı*): Zati-aliləri, çox sağ olun. Ölkənizə yenidən səfər etmək məndən və nümayəndə heyətindən ötrü böyük şərəfdir.

Qeyd etdiyiniz kimi, biz, sözün əsl mənasında, son illər ərzində bir çox mühüm qərarlar qəbul etmişik və əlaqələrimizi strateji səviyyəyə qaldırmışıq. Biz dünyanın bu regionunda bir çox ölkələrlə, xüsusən də Sizin ölkənizlə strateji əlaqələrin qurulmasını vacib hesab edirik.

## Sənədlərin imzalanma mərasimi

*Mayın 5-də Zağulba dövlət iqamətgahında Azərbaycan prezidenti İlham Əliyevin və İordaniya kralı II Abdullahın geniş tərkibdə görüşündən sonra dövlət başçılarının iştirakı ilə Azərbaycan–İordaniya sənədlərinin imzalanma mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında konvensiya»nı, «Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov, İordaniyanın Ticarət və Sənaye naziri Əmir Hadidi imzaladılar.*

## BAKIDA II İORDANİYA SƏRGİSİNİN AÇILIŞI

*Bakı*

*6 may 2008-ci il*

*Mayın 6-da Bakıda II İordaniya sərgisinin açılışı olmuşdur.*

*Mərasimə toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, İordaniya kralı II Abdullahı və xanımı Raniyanı hərarətlə qarşıladılar.*

*İordaniya Krallığının hərbi orkestrinin ifasında marş səsləndi.*

*Prezident İlham Əliyev və Kral II Abdullah sərginin rəmzi açılışını bildirən qırmızı lenti kəsdilər.*

*İqtisadi tərəqqiyə nail olmaq üçün dünya iqtisadiyyatına inteqrasiya yolu tutan İordaniya açıq qapı siyasətinə üstünlük verir, ixracın həcmini artırmaq üçün məqsədyönlü tədbirlər həyata keçirir. Ərəb ölkələri ən inkişaf etmiş dövlətlərlə iqtisadi əlaqələrin möhkəmlənməsinə xüsusi diqqət yetirirlər. 2007-ci ildə ümumi daxili məhsul istehsalının həcmi 5,8 faiz artmış, ölkənin valyuta ehtiyatı 7 milyard dollara çatmışdır.*

## «DEMOKRATİYA VƏ SABİTLİK NAMİNƏ: ƏMƏKDAŞLIĞIN YENİ İMKANLARI» BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr edilmiş «Demokratiya və sabitlik naminə: əməkdaşlığın yeni imkanları» mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarını ürəkdən salamlayıram.

Demokratik dəyərlərin və insan hüquqlarının prioritet xarakter kəsb etdiyi müasir dünyada sabitlik, əmin-amanlıq, sülh və təhlükəsizliyin təmin edilməsi olduqca böyük əhəmiyyət daşıyır. Təcrübə göstərir ki, öz inkişafının keçid mərhələsini yaşayan dövlətlərdə demokratik prinsiplərin hüquqi, siyasi və sosial müstəvidə möhkəmlənməsi üçün sabitliyin qorunması, davamlı inkişafın, sosial rifah və milli birliyin təmin olunması ən vacib şərtdir.

Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, ümumbəşəri dəyərlərin vacib tərkib hissəsi olan demokratik norma və prinsiplər Azərbaycanın istər tarixi ənənələri, istərsə də tolerantlığa və vətəndaş cəmiyyəti quruculuğuna söykənən mövcud ictimai-siyasi mühiti ilə tam uyğundur. Məhz bunun sayəsində Azərbaycan ictimai həyatın özünəməxsus modelini yaratmağa, milli birliyə və yüksək dinamik inkişafa nail ola bilmişdir. Ölkəmiz dörd ildir dalbadal dünyada ən yüksək iqtisadi artım göstəricisi nümayiş etdirir. Bu, gənc, müstəqil dövlətimizin beynəlxalq və regional əməkdaşlığa layiqli töhfələr vermək imkanını əhəmiyyətli dərəcədə artırmışdır. İndi Azərbaycan haqlı olaraq, beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində ən etibarlı tərəfdaşlardan sayılır. Bu

mənada hesab edirəm ki, dünyanın 30-dan çox ölkəsindən gəlmiş nümayəndələrin iştirakı ilə Bakıda «Demokratiya və sabitlik naminə: əməkdaşlığın yeni imkanları» mövzusunda beynəlxalq konfransın keçirilməsi təsadüfi deyildir.

Konfransın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr edilməsi ona xüsusi məna verir. Məhz Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan Respublikası demokratik inkişaf yolunu seçmiş, vətəndaş cəmiyyətinin qurulması istiqamətində qətiyyətli addımlar atmışdır. O, Ermənistanın hərbi təcavüzünün dinc yollarla aradan qaldırılması, Azərbaycanın 20 faiz ərazisinin işğaldan azad olunması, bir milyondan artıq qaçqın və məcburi köçkünün öz doğma yurdlarına qaytarılması və Cənubi Qafqazda möhkəm sülhün yaradılması üçün ciddi səylər göstərmişdir.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan irimiqyaslı transmilli enerji və nəqliyyat layihələrini həyata keçirməklə nəinki regionda, eləcə də bütün dünyada yeni əməkdaşlıq imkanlarının meydana gəlməsinə əhəmiyyətli töhfə vermişdir.

İnanıram ki, beynəlxalq konfransın iştirakçıları dövrümüzün aktual problemlərindən saydığımız demokratiya və sabitlik mövzusunda səmərəli fikir mübadiləsi aparacaq, beynəlxalq və regional əməkdaşlıq sahəsində yeni imkanları lazımınca dəyərləndirəcək və bu vacib prosesə öz töhfələrini verəcəklər.

Konfransın işinə müvəffəqiyyətlər arzulayır, demokratiya və sabitlik naminə əməkdaşlığın geniş vüsət almasını diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 may 2008-ci il*

## «DEMOKRATİYA VƏ SABİTLİK NAMİNƏ: ƏMƏKDAŞLIĞIN YENİ İMKANLARI» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Demokratiya və sabitlik naminə: əməkdaşlığın yeni imkanları» mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli qonaqlar!

Əziz dostlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz!

Mən çox şadam ki, Bakıda «Demokratiya və sabitlik naminə» mövzusunda böyük beynəlxalq konfrans keçirilir. Bu konfrans Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 85-ci ildönümü ərəfəsində keçirilir və bu da rəmzi xarakter daşıyır. Məhz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan 1993-cü ildən başlayaraq, həm demokratik inkişaf baxımından, həm də sabitliyin möhkəmlənməsi, tam şəkildə bərqərar olması baxımından çox böyük uğurlar əldə etmişdir. Azərbaycanda bütün demokratik təsisatlar yaradılmışdır. Azərbaycanda hüquqi dövlət quruculuğu çox uğurla gedir, vətəndaş cəmiyyəti formalaşır. Bütün bu uğurlar möhkəm iqtisadi zəmin əsasında qazanılır. Sabitlik olmayan yerdə demokratik inkişafdan söhbət gedə bilməz və əksinə, qeyri-demokratik cəmiyyətlərdə sabitliyin ömrü uzun olmur. Bəzi hallarda bu iki anlayış qarşı-qarşıya qoyulur, ancaq biz

Azərbaycanın timsalında görürük ki, bütün uğurlarımız – demokratiyanın inkişafı, ölkəmizin hərtərəfli inkişafı və möhkəmlənməsi məhz sabitliyin əsasında mümkün olmuşdur.

Biz Azərbaycanda siyasi və iqtisadi islahatları paralel şəkildə həyata keçiririk və hər iki istiqamətdə böyük nailiyyətlər əldə etmişik. Azərbaycan üçüncü ildir ki, iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkədir. Son dörd ildə bizim iqtisadiyyatımız 96 faiz artmışdır. Azərbaycanda bütün sahələr inkişafdadır və ölkəmiz gələcəyə çox böyük nikbinliklə baxır. Ölkəmiz yeniləşir, müasirləşir və irəliyə gedir. Ona görə «Demokratiya və sabitlik naminə» mövzusunda keçirilən konfransın çox böyük əhəmiyyəti var. Əminəm ki, sizin müzakirələriniz əməli-praktik nəticələrlə sonuclanacaqdır.

Hamımız yaxşı bilirik ki, son illər ərzində bəzi hallarda demokratiya mövzusu süni şəkildə ortalığa atılır və bəzi ölkələrin dairələrinin maraqlarının təmin olunması üçün bu və ya digər ölkə ya demokratik, ya da qeyri-demokratik ölkə kimi qələmə verilir. Biz bəzi hallarda ikili standartlar elementləri ilə də qarşılaşırıq.

Cənubi Qafqazda yerləşən üç ölkədə gedən siyasi proseslər bəzi hallarda qeyri-obyektiv şəkildə təhlil olunur. Bəzi hallarda biz görürük ki, Azərbaycanda gedən quruculuq işlərinə, müasir yanaşma elementlərinin inkişafına qısqanclıqla yanaşılır. Bəzi hallarda üç Cənubi Qafqaz ölkəsini müqayisə etmək üçün yanlış meyarlar seçilir. Biz özümüzü heç vaxt heç kimlə müqayisə etməmişik və belə fikrimiz yoxdur. Biz Azərbaycan xalqının rifah halının yaxşılaşmasına çalışırıq, Azərbaycanın möhkəmlənməsinə çalışırıq. Amma müqayisəyə gəldikdə onu da deyə bilərik ki, qonşularımızdan fərqli olaraq, Azərbaycanda nə fövqəladə vəziyyət elan olunur, nə siyasi opponentlər həbs edilir, nə senzura tətbiq olunur, nə də ki, bütün mətbuat, müstəqil mətbuat orqanları bağlanır və Ermənistandan fərqli olaraq, Azərbaycanda dinc əhaliyə qarşı zor tətbiq olunmur və onlarca günahsız insan qətlə yetirilmir.

Mən nə üçün bunu xüsusilə qeyd edirəm, çünki əfsuslar olsun ki, bəzi siyasətçilər üç ölkədə gedən prosesləri müqayisə edərkən subyektivliyə üstünlük verirlər və başqa ölkədə dəhşətli hadisələrə göz yumub, Azərbaycanda xırda məsələləri böyük bir hadisəyə çevirməyə çalışırlar.

Bir sözlə, mən sizin konfransınıza çox böyük əhəmiyyət verirəm və dünyada ikili standartların mövcudluğu və əfsuslar olsun ki, möhkəmləndiyi indiki zamanda belə açıq müzakirələrin aparılması çox vacibdir. Azərbaycan müxtəlif beynəlxalq təşkilatların üzvüdür və onlarda fəal iştirak edir. Bəzi təşkilatlara üzv olduqda üzərimizə öhdəliklər götürmüşük və çalışırıq ki, bu öhdəlikləri vaxtlı-vaxtında və tam şəkildə yerinə yetirək. Beynəlxalq təşkilatlar çərçivəsində bu fəaliyyəti gələcəkdə də davam etdirəcəyik. Azərbaycanda bütün sahələr, o cümlədən insan hüquqları sahəsi, demokratikləşmə proseslərinin güclənməsi meyilləri daha da geniş vüsət alacaqdır. O ki qaldı başqa ölkələrlə ikitərəfli münasibətlərimizə, bu münasibətlər bərabərhüquqlu xarakter daşımalıdır və daşıyır. Bu münasibətlərdə yalnız ikitərəfli məsələlər müzakirə mövzusu ola bilər. Biz daxili işlərə hər hansı bir yersiz müdaxiləni heç vaxt qəbul etməmişik və etməyəcəyik. Mən əminəm ki, sizin diskussiyalarınız çox maraqlı keçmişdir. Həm yeni yanaşmanın aşkara çıxarılması baxımından önəmli olmuşdur, həm də ki, sizin aranızda yaranan əlaqələr, təmaslar bizim xalqlarımızı bir-birinə daha da yaxın edəcəkdir. Əminəm ki, siz də bu konfransın gedişatından və ümumiyyətlə, Azərbaycanda gördüklərinizdən məmnun olacaqsınız.

**Şamil Zeynalov** (*Dağıstan hökumətinin sədri, «Yedinaya Rossiya» Partiyası Ali Şurasının üzvü*): Hörmətli cənab Azərbaycan Respublikasının Prezidenti, mən və həmkarım, Dövlət Dumasının deputatı Hacıbəy Kərimoviç Səfərəliyev «Yedinaya Rossiya» Partiyasını təmsil edirik. Biz Rusiya Federasiyası Dövlət Duması deputatlarının, «Yedinaya Rossiya» Partiyası Ali Şurasının sədri Boris Vyaçeslavoviç Qrızlovun tapşırığı ilə bugünkü, Heydər Əliyevin anadan olma-

sının 85 illiyinə həsr edilmiş beynəlxalq forumda iştirak edirik. Boris Vyaçeslavoviç konfransa təbrik göndərmişdir, mən bu gün beynəlxalq forumun iştirakçılarını həmin təbriklə tanış etmişəm. O, təbrikində Sizin başçılıq etdiyiniz Yeni Azərbaycan Partiyasının çox böyük əhəmiyyətini və cəmiyyətin sabitləşməsində, demokratiyanın inkişafında rolunu vurğulamış və əmin etmişdir ki, «Yedinaya Rossiya» Partiyası Sizin partiya ilə həmişə yaxşı münasibətlər saxlayacaqdır. Boris Qrızlov həmçinin xatırlatmışdır ki, burada, Bakıda səfərdə olarkən «Yedinaya Rossiya» Partiyası Yeni Azərbaycan Partiyası ilə saziş imzalamışdır.

Biz bu konfransda fəal iştirak etmişik və bugünkü konfransın belə yüksək səviyyədə keçirilməsində bütün təşkilatçılara və iştirakçılara partiyamız adından təşəkkürümüzü bildirmək istəyirik. Güman edirəm ki, bu konfrans təkcə Azərbaycanda deyil, konfransda təmsil olunmuş bütün regionlarda demokratiyanın və sabitliyin inkişafına kömək edəcəkdir.

Siz də bilirsiniz ki, Rusiya Dövlət Dumasına axırıncı seçkilərdə «Yedinaya Rossiya» Partiyası inamlı qələbə qazanmışdır. İndi biz Dövlət Dumasında mütləq çoxluğa malikik. Lap ilk gündən etibarən bizim partiyanın lideri Vladimir Vladimiroviç Putin olmuşdur və bununla da partiyanın nüfuzu daha da artacaqdır. Buna görə də mən Yeni Azərbaycan Partiyasının rəhbəri olan Sizi bir daha əmin etmək istəyirəm ki, biz sizin partiya ilə çox fəal əməkdaşlıq edəcəyik.

Fürsətdən istifadə edib, Sizə bizim prezident Muxu Əliyevin səmimi salamını çatdırmaq istəyirəm. O da bugünkü konfransa təbrik göndərmiş, bildirmişdir ki, bu konfransın Rusiyada, xüsusən Dağıstanda hamının çox yaxşı tanıdığı Heydər Əliyevin 85 illiyinə həsr edilməsi onun əhəmiyyətini daha da artırır. Biz onun nəhəng fəaliyyətinə çox gözəl bələdik. O, həqiqətən Azərbaycan xalqının lideridir. Əgər Azərbaycanın çətin illərində Heydər Əliyev yenidən hakimiyyətə qayıtmasaydı, kim bilir axırı nə ilə nəticələnərdi. Biz hamımız Sizin

babanızı yaxşı tanıyırıq, Dağıstan üçün ən çətin illərdə o bizim vilayət partiya komitəsinin birinci katibi vəzifəsində işləmişdir. Bu yaxınlarda biz Azərbaycan xalqının nümayəndələri ilə birlikdə onun yubileyinə həsr edilmiş tədbir keçirdik. Muxu Gimbatoviç bir daha əmin etdi ki, xalqlarımız arasında dostluq davamlı və möhkəm olacaqdır. Ümumiyyətlə, biz əslində bir xalqıq.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Babam Əziz Əliyevin xatirəsinə göstərilən ehtirama görə mən sizə və qardaş Dağıstan xalqına təşəkkür etmək istəyirəm. O, Dağıstanın inkişafı üçün çox işlər görmüş və çətin illərdə dağıstanlılarla bir yerdə olmuş, taleyin sərt sınaqlarına onlarla birlikdə sinə gərmişdir. Dağıstanda onun xatirəsinə bəslənən münasibəti biz hamımız – Azərbaycan vətəndaşları da, xüsusən onun nəvəsi kimi, mən də yüksək qiymətləndiririk. Muxu Gimbatoviçə də ən xoş arzularımı bildirmək istəyirəm. Bir müddət əvvəl o, Azərbaycana gəlmişdi. Biz çox yaxşı görüşlər keçirdik, bir sıra məsələləri müzakirə etdik, gələcək qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirdik.

Sizi «Yedinaya Rossiya» Partiyasının nümayəndəsi kimi görməyimə çox şadam. Bu partiya ilə mənim başçılıq etdiyim Yeni Azərbaycan Partiyası arasında ənənəvi əməkdaşlıq və tərəfdaşlıq münasibətləri var. Biz çox şadıq ki, partiyalarımız arasında bu cür münasibətlər yaranır. Bu partiyalar həm Rusiyada, həm də Azərbaycanda alternativi olmayan aparıcı siyasi qüvvədir, onlar ölkələrimizin xalqlarının böyük əksəriyyətinin iradəsini ifadə edirlər. Mən sizi həm də qardaş Dağıstanın nümayəndəsi kimi görməyimə şadam. Dağıstan və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, əmin-amanlıq, sülh və dostluq şəraitində yaşamışlar və indi də bu münasibətlər davam edir. Bu, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin gələcək inkişafı üçün  çox vacibdir. Xalqlarımızın bu cür fəal əməkdaşlığının, qardaşlığının Qafqazda – Cənubi Qafqazda və Şimali Qafqazda vəziyyət üçün də xüsusi dəyəri və əhəmiyyəti vardır. Qafqaz vahid bir orqanizmdir və

burada hər şey qarşılıqlı surətdə bir-birinə bağlıdır. Buna görə də Qafqaz regionunun hər hansı hissəsində baş verən proseslər bizim hamımız üçün çox əhəmiyyətlidir. Biz birlikdə çalışırıq ki, Qafqaz sülh, təhlükəsizlik və sabitlik zonasına çevrilsin və əminəm ki, buna nail olacağıq. Bir daha bütün Dağıstan xalqına və bizim dostlarımıza, «Yedinaya Rossiya» Partiyasının üzvlərinə ən xoş arzularımı bildirmək istəyirəm. Sağ olun.

**Haluk İpək** (*Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü*): Əvvəlcə, ev sahibliyinə görə çox-çox təşəkkür edirəm. Bakıda bir çox ölkənin təmsilçiləri bir araya gəldilər və bu gün tarixə demokratiya baxımından çox önəmli notlar düşdü. Yaşadığımız indiki zamanda bu konfransın mövzusunun nə qədər əhəmiyyət daşımasını nəzərə alsaq, bu hamı üçün önəmli oldu və biz də Türkiyəni təmsil edərək, fikirlərimizi söylədik. Mən buna görə bir daha təşəkkür edirəm.

Həm Azərbaycan, həm də Türkiyə əslində tarixi inkişaf və mədəniyyətlərin sivilizasiyalararası dialoqu baxımından Qərb və Şərq arasında çox önəmli bir körpü olmuşdur. Bu tarixi həqiqəti, mədəniyyəti bu cür konfrans vəsitəsilə Bakıda paylaşmaq bu toplantıya həm də xüsusi bir çalar vermişdir. Biz – dünyada bütün insanlar, bütün dövlətlər öz içimizdə, təkbaşına yaşamırıq. Dünya o qədər genişdir ki, bir ölkədə olan hər hansı hadisə digər ölkədə sadəcə, siyasətlə məşğul olanları deyil, o ölkədə yaşayan hər bir iş adamını, hər bir insanı maraqlandırır. Xüsusilə «Demokratiya və sabitlik naminə: əməkdaşlığın yeni imkanları» mövzusundakı konfrans tarixi baxımdan da çox əhəmiyyətlidir.

Mən bu günü neçə illər – 15-17 il əvvəldən görüb layihələr hazırlayan və onlara uyğun işlər görən rəhmətlik Heydər Əliyevin böyüklüyünü Bakıda keçirilən bu konfrans zamanı daha yaxşı anladım və bütün Azərbaycan xalqının da çox yaxşı anladığının şahidi oldum. Çünki Azərbaycanın sürətli inkişafı onun adı ilə bağlıdır və onun nə qədər haqlı olduğu

ortaya çıxdı. Mən onu rəhmətlə anır, ev sahibliyinizə görə Sizə bir daha təşəkkür edirəm.

**İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm. Bilirsiniz ki, 1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevi yenidən siyasi hakimiyyətə dəvət edəndə burada vəziyyət çox ağır idi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Heydər Əliyevin siyasi təcrübəsi, onun biliyi, cəsarəti ölkəni o ağır vəziyyətdən xilas etdi və başlıca istiqamət demokratiya və inkişaf şüarları əsasında götürülmüşdür. İnkişaf əslində sabitlik deməkdir. İndi 1993-cü ildən on beş il keçib və biz bu gün Azərbaycanda həm demokratiyanı görürük, sabitliyi, inkişafı görürük və həm də gələcəyə böyük nikbinliklə baxırıq. Biz qarşıda duran bütün vəzifələrin yerinə yetirilməsinə nail olmuşuq və bundan sonra ancaq və ancaq inkişaf yolu ilə gedəcəyik.

O ki qaldı bizim ikitərəfli münasibətlərimizə, mən çox şadam ki, iki qardaş ölkə, qardaş xalq arasında münasibətlər ən yüksək zirvədədir. Bu bizim birliyimiz və gücümüzdür. Biz beynəlxalq müstəvidə kifayət qədər böyük mövqelərə malik olan ölkələrik. Bu regionda bizim iştirakımız olmadan heç bir ciddi layihə icra oluna bilməz. Beynəlxalq münasibətləri təhlil edərkən görürük ki, biz daha da sıx birləşməliyik. Bizim maraqlarımız da üst-üstə düşür, məqsədlərimiz də, tariximiz də eynidir və çox şadam ki, Türkiyə–Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edir.

**Terri Mariani** (*Fransa Milli Assambleyasının üzvü*): Hörmətli cənab Prezident, mən Fransa Milli Assambleyasını təmsil edirəm. Prezident Nikola Sarkozinin «Prezident Çoxluğunun İttifaqı» Partiyasının xarici əlaqələr komissiyasının üzvüyəm. Mən Yeni Azərbaycan Partiyası tərəfindən təşkil edilmiş artıq ikinci tədbirə dəvət olunuram. Zənnimcə, ikinci dəfə ölkəyə səfər etmək bu ölkə haqqında ciddi fikirlər söyləmək üçün kifayətdir. Ölkəniz müstəqilliyin ilk vaxtlarında üzləşdiyi çətinlikləri aradan qaldıra bilmişdir. 1993-cü ildən etibarən sabitlik bərqərar olunmağa başladı. Ölkənizin rifahı hər gün artır.

Mən bu konfransı təşkil edənlərə dəvətə və müzakirələr imkanına görə minnətdarlığımı bildirmək istəyirəm. Açıq müzakirələr Avropada xalqlar arasında anlaşmaya xidmət edir. Hesab edirəm ki, bu beynəlxalq konfrans regiondakı sülhə töhfə verəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Sizi görməyimə çox şadam. Əminəm ki, konfransın çox mühüm praktik nəticələri olacaqdır, çünki burada müzakirə olunan məsələlər bütün region üçün əhəmiyyətlidir. Postsovet məkanında yerləşən bu region bir sistemdən digər sistemə keçid dövrünü yaşayır. 1991-ci ildə müstəqilliyimizi qazandığımız zaman siyasi inkişaf sahəsində böyük təcrübəmiz yox idi. Heç vaxt tariximizdə müstəqil siyasi sistem olmamışdı. Beləliklə, biz dəyişikliklər etməli idik. Bazar iqtisadiyyatı mövcud deyildi, ölkədə planlı dövlət iqtisadiyyatı hökm sürürdü.

1991-ci ildən bəri biz bir çox islahatları həyata keçirə bildik. İndi iqtisadiyyatımızın 80 faizi özəl sektorun payına düşür. Demokratik inkişaf gedir. Hazırda biz çoxpartiyalı siyasi sistemə, plüralizmə, azad mətbuata malikik. Bütün siyasi qüvvələrə öz fikirlərini və ideyalarını ifadə etmək və inkişaf etdirmək üçün hər cür imkan yaratmışıq. Açıq və müasir cəmiyyət qurmaqdayıq. Yaxşı iqtisadi potensialımız, təbii sərvətlərimiz var. Bütün bunlar çətinlikləri aradan qaldırmaqda, bəzi ağrılı iqtisadi islahatları aparmaqda bizə yardımçı oldu. Keçid dövrünü yaşayan ölkələr üçün dəyişikliklər etmək, xüsusən də iqtisadi islahatlar aparmaq bəzən asan olmur. Hazırda çox güclü sosial siyasət həyata keçiririk ki, yoxsul təbəqələr əziyyət çəkməsin. Biz müasir bazar iqtisadiyyatı prinsiplərinə sadiqik.

Giriş nitqimdə qeyd etdiyim kimi, ölkədə siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır. Əminəm bu, yeganə münasib yoldur. Tarixdə müşahidə edilib ki, siyasi inkişafı iqtisadi inkişafdan xeyli irəliyə getmiş ölkələr uğursuzluğa uğramışdır. Eyni zamanda, lazımi ictimai nəzarət və güclü demokratik təsisatlar olmadan iqtisadiyyat hərtərəfli inkişaf etmir və

ömrü uzun olmur. İnkişaf etmiş ölkələrin təcrübəsini öyrənərək görürük ki, demokratiya qurmuş ölkələrdə bütün sahələrdə, o cümlədən iqtisadi baxımdan sabitlik mövcuddur. Demokratik ölkələr arasında yoxsul, zəngin olmayan ölkə tapmaq çətindir. Ona görə də rifah, iqtisadi potensial, sosial müdafiə sahələrində aparılan işlər, eləcə də dövlətin siyasəti demokratik standartların səviyyəsini artırır.

Biz bir neçə beynəlxalq proqrama daxil edilmişik. Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə qoşulmuşuq. Bu bizim seçimimiz idi. Üzərimizə müəyyən öhdəliklər götürmüşük. Artıq bir ildən çoxdur ki, həmin proqramları uğurla həyata keçiririk. Ölkəmizi Avropa İttifaqının demokratik standartlarına daha da uyğunlaşdırmaq məqsədi ilə yeddi il öncə Avropa Şurasına daxil olmuşuq. Fikrimcə, biz demokratik inkişaf istiqamətində bu günə qədər həyata keçirdiyimiz islahatlarla maksimum səviyyəni təmin etmişik. Lakin əvvəldə qeyd etdiyim kimi, bəzi hallarda regionumuzdakı müxtəlif ölkələrə verilən qiymətlər və bildirilən fikirlər fərqlidir. Bu, başqa söhbətin mövzusudur. Mən bunun nəyə görə baş verməsi ilə bağlı təfərrüatları burada söyləməyəcəyəm. Bunların baş verməsinin bir çox səbəblərini bilirəm. Bu, başqa məsələdir. Biz nə istəyirik? Biz istəyirik ki, dünya Azərbaycanı olduğu kimi tanısın. Vacib məsələlərin müzakirəsindən başqa, bu cür konfranslar ölkəni görmək, xüsusən də ölkəyə birinci dəfə səfər edənlərə onu tanımaq, necə inkişaf etdiyini müşahidə etmək üçün fürsətdir.

Biz sizin hamınızı burada görməkdən məmnunuq. Mən partiyamızın dəvətini qəbul edib Bakıya gəldiyinizə görə sizə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, səfərinizdən razı qalacaqsınız. Sizə ən böyük uğurlar arzulayıram.

Sağ olun.

## BÖYÜK BRİTANİYANIN XARİCİ VƏ DÖVLƏT MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRLİYİNİN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ CİM MÖRFİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Prezident sarayında Böyük Britaniyanın Xarici və Dövlət Məsələləri üzrə Nazirliyinin Avropa məsələləri üzrə Dövlət naziri Cim Mörfini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ikitərəfli münasibətlərimizin bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

**MYANMA İTTİFAQININ DÖVLƏT SÜLH VƏ İNKİŞAF ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TAN ŞVEYƏ**

Hörmətli cənab sədr!

Ölkənizdə baş vermiş qasırğa nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayır, xəsarət alanlara şəfa diləyirəm.

Bu ağır anlarda Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Myanma xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 may 2008-ci il*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 85 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ «BİR ÖMRÜN SALNAMƏSİ» BƏDİİ SƏRGİSİNİN AÇILIŞI

*Heydər Əliyev adına İdman-Konsert Kompleksi*

*7 may 2008-ci il*

*Mayın 7-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində ümummilli liderin 85 illik yubileyinə həsr edilmiş «Bir ömrün salnaməsi» bədii sərgisinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev xanımı Mehriban Əliyeva ilə birlikdə mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı sərginin açılışını bildirən lenti kəsdi.*

*Kompleksin ikinci mərtəbəsində xalqımızın dahi oğlunun fəaliyyəti ilə bağlı fotostendlər vardır. Burada ümummilli liderin sovet hakimiyyəti illərində və müstəqil Azərbaycana rəhbərliyi dövründə onun müxtəlif tədbirlərdə iştirakına, respublikanın bölgələrinə, xarici ölkələrə səfərlərinə, beynəlxalq sammit və konfranslarda çıxışlarına, mədəniyyət, incəsənət və elm xadimləri, idmançılar, ictimaiyyət nümayəndələri, hərbçilər, Azərbaycana gələn nümayəndə heyətləri ilə görüşlərinə, sənaye və kənd təsərrüfatı müəssisələrinin, olimpiya-idman komplekslərinin və digər obyektlərin açılışında iştirakına dair fotoşəkillər toplanmışdır.*

*Prezident İlham Əliyev ulu öndərin müxtəlif vaxtlarda çəkilmiş şəkillərinə baxdı.*

*Kompleksin birinci mərtəbəsində müxtəlif bölmələr üzrə guşələr təşkil olunmuşdur. Prezident İlham Əliyev həmin guşələrlə tanış oldu.*

*«Azərbaycanda hüquqi demokratik dövlət quruculuğu» bölməsində ulu öndərin ölkəmizdə qanunun aliliyi, insan hüquqlarının təminatı, dövlət quruculuğu istiqamətindəki fəaliyyəti ilə bağlı eksponatlar, o cümlədən Heydər Əliyevin müəllifi olduğu Konstitusiyanın hazırlanması ilə əlaqədar yaradılmış komissiyanın iclasındakı nitqlərindən parçalar, Azərbaycanda ölüm cəzasının ləğvi ilə bağlı fərmanı, imzaladığı qanunlar, sərəncamlar, habelə müxtəlif kitablar, jurnallar və digər materiallar nümayiş olunur.*

*«İqtisadi inkişaf, bank-kredit sistemi» bölməsində ümummilli liderin respublikamızın iqtisadiyyatının inkişafı, özəl sektorun güclənməsi sahəsində gördüyü işlərə, aparılan islahatlara, sənaye obyektləri ilə tanışlığına dair fotoşəkillər, müxtəlif cədvəllər, Heydər Əliyevin iqtisadi sahədəki fəaliyyətinə həsr olunmuş kitablar, jurnallar toplanmışdır.*

*«Əhalinin sosial müdafiəsi və səhiyyə», «Elm və təhsil» bölmələrində ulu öndərin insanların sosial təminatının gücləndirilməsi, əlillərə qayğı, səhiyyə, elm və təhsilin inkişafı ilə bağlı qəbul etdiyi qərarları, elm adamları ilə, xarici ölkələrdə təhsil alan gənclərlə görüşlərini əks etdirən eksponatlar diqqəti cəlb edir.*

*Sərginin «Ordu quruculuğu» bölməsində böyük dövlət xadimi Heydər Əliyevin hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi vaxtlarda hərbçi kadrların hazırlanması sahəsində gördüyü tədbirlərinə, C.Naxçıvanski adına hərbi liseyin, ali hərbi məktəblərin müdavimləri, əsgər və zabitlərlə, o cümlədən ön xətdə düşmənlə üz-üzə dayanmış döyüşçülərlə görüşlərinə dair şəkillər vardır. Burada dahi liderin Azərbaycanda ordu quruculuğu ilə bağlı gördüyü işlərə həsr olunmuş kitablar da xüsusi maraq doğurur. Prezident İlham Əliyevə kitab hədiyyə olundu.*

*Ulu öndərin xarici səfərlərini, iştirak etdiyi beynəlxalq tədbirləri, eləcə də Azərbaycanda təşkil olunmuş beynəlxalq konfransları, Heydər Əliyevin xaricdə yaşayan soydaşlarımıza*

*diqqət və qayğısını əks etdirən şəkillər «Beynəlxalq münasibətlər və diaspor» bölməsində toplanmışdır.*

*«Milli təhlükəsizlik sistemi» bölməsində ulu öndərin Azərbaycanda təhlükəsizlik orqanlarına rəhbərlik etdiyi vaxtlarda iş otağındakı stol və stul, habelə hərbi forması, vəsiqələri, xidmət dövründə təltif edildiyi Fəxri fərman və ordenləri, müstəqillik illərində bu sahənin inkişafı ilə bağlı gördüyü işlərə, Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları ilə keçirdiyi görüşlərə dair şəkillər, kitablar nümayiş olunur.*

*«İdman, gənclər və gender siyasəti» bölməsində xalqımızın dahi oğlunun Azərbaycanda bu istiqamətlərdə gördüyü işləri əks etdirən materiallar, habelə imzaladığı qanunlar, fərmanlar, sərəncamlar, idmançılarla, gənclərlə keçirdiyi görüşlərə dair şəkillər, kitablar maraq doğurur.*

*«İnformasiya cəmiyyəti, nəqliyyat və rabitə» bölməsində görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə nəqliyyatın müxtəlif sahələrinin, rabitənin inkişafına informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində gördüyü işlərə dair şəkillər, imzaladığı fərman və sərəncamlar, qanunlar, habelə müxtəlif kitablar, plakatlar, teleqüllənin maketi, Böyük İpək Yolu haqqında film nümayiş etdirilir.*

*Azərbaycanda ilk mobil rabitə operatorunun fəaliyyətə başlaması və ölkəmizdə ilk beynəlxalq stansiyanın açılışı münasibətilə keçirilmiş tədbirlərdə ümummilli lider Heydər Əliyevin istifadə etdiyi telefon aparatları, ulu öndərin və akademik Zərifə xanım Əliyevanın 85 illik yubileyi münasibətilə buraxılmış poçt markaları xüsusilə diqqəti cəlb edir.*

*«Torpaq islahatı və xəritəçəkmə» bölməsində ulu öndərin adı ilə bağlı olan torpaq islahatlarına dair materiallar, islahatın gedişini əks etdirən diaqram, şəkillər, qanunvericilik toplusu, torpaq və tarix atlasları, 20 adda xəritələr, habelə Azərbaycanda uğurla həyata keçirilmiş torpaq islahatlarına həsr edilmiş kitablar toplanmışdır.*

*«Ekologiya və təbii sərvətlər» bölməsində Azərbaycanda təcrübi üsulla ilk dəfə əldə edilmiş qızıl, ümummilli liderin sərəncamları ilə ölkəmizdə yaradılmış milli parklar və qoruqlar, xüsusi mühafizə olunan ərazilər haqqında kitablar, Heydər Əliyevin müxtəlif vaxtlarda iməciliklərdə ağac əkməsini əks etdirən şəkillər nümayiş etdirilir. Burada prezident İlham Əliyevə «Azərbaycanda xüsusi mühafizə olunan ərazilər» («Protected areas in Azerbaijan») kitabı hədiyyə edildi.*

*«Kənd təsərrüfatı» bölməsində ümummilli liderin ölkəmizdə aqrar sahənin, emal sənayesinin inkişafı istiqamətində gördüyü işləri əks etdirən müxtəlif materiallar, habelə kitablar, plakatlar vardır. Bu bölmədə Heydər Əliyevin Azərbaycanda kənd təsərrüfatı sahəsində həyata keçirdiyi islahatları əks etdirən eskponatlar böyük maraq doğurur.*

*«Mədəniyyət və incəsənət» bölməsində ulu öndərin baxdığı teatr tamaşalarının afişaları, mədəniyyət və incəsənət xadimləri ilə görüşlərini, mədəniyyət obyektlərinin tikintisini və açılışını əks etdirən şəkillər, qədim xalça nümunələri, xalq çalğı alətləri, «Mədəniyyət» qəzetinin ümummilli liderin 85 illik yubileyinə həsr olunmuş xüsusi nömrəsi və Azərbaycan şairlərinin Heydər Əliyevə həsr etdikləri şeirlərdən ibarət «Günəşə qovuşmaq istəyirəm mən» kitabı nümayiş etdirilir.*

*Kitabın bir nüsxəsi prezident İlham Əliyevə hədiyyə olundu.*

*Sərginin ən maraqlı guşələrindən olan «Neft strategiyası və enerji təhlükəsizliyi» bölməsində ulu öndərin müəllifi olduğu neft strategiyası ilə bağlı materiallar, o cümlədən «Əsrin müqaviləsi»nə, Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinə, «Şahdəniz» layihəsinə, ümumiyyətlə, Azərbaycanda neft sənayesinin inkişafı sahəsində gördüyü işlərə dair eksponatlar toplanmışdır. Bunlar sovet dövrü və müstəqillik dövrü bölmələrində nümayiş etdirilir. Prezident İlham Əliyev burada Azərbaycanın neft strategiyasına həsr olunmuş filmdən bir parçaya baxdı.*

*Sərgidə «Azəriqaz» QSC, «Azərenerji» ASC və «Azərikimya» Dövlət Şirkətinin fəaliyyəti ilə bağlı guşələr də vardır.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ
## ZATİ-ALİLƏRİ
## CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatolyeviç!

Sizi, ön və arxa cəbhə veteranlarını, dost Rusiya xalqını əlamətdar bayram – 1941–45-ci illərin Böyük Vətən müharibəsində Qələbə günü münasibətilə Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Azərbaycan və Rusiya xalqlarının dostluğu və möhkəm birliyi Hitler faşizminə qarşı mübarizənin sərt sınaqlarından şərəflə çıxmışdır. Onlar cəbhələrdə şücaət və qəhrəmanlıqları, arxada əzmkarlıq və fədakar əməkləri sayəsində qələbənin qazanılmasına çox böyük töhfə vermişlər.

Əminəm ki, xalqlarımızın inkişafı naminə, sülh, sabitlik və tərəqqi naminə birgə səylərimiz bundan sonra da Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluğun və mehriban qonşuluq münasibətlərinin, strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etməsi və möhkəmlənməsinin təmin olunmasına yönəldiləcəkdir.

Hörmətli Dmitri Anatolyeviç!

Rusiya Federasiyasının Prezidenti vəzifəsinə başlamağınızla əlaqədar ən səmimi təbriklərimi qəbul edin. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar, bütün Rusiya xalqına sülh və əmin-amanlıq diləyirəm.

Fürsətdən istifadə edərək, Sizi münasib bildiyiniz vaxtda Azərbaycana rəsmi səfərə dəvət edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 may 2008-ci il*

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

Hörmətli Vladimir Vladimiroviç!

Sizi Rusiya Federasiyası Hökumətinin sədri vəzifəsinə başlamağınız münasibətilə ürəkdən təbrik edirəm.

Rusiyanın dövlətçiliyi və suverenliyinin hərtərəfli möhkəmlənməsi, ölkədə demokratiya normalarının, qanunçuluğun və hüquqi qaydanın bərqərar olması, Rusiyanın dünyada rolunun və nüfuzunun artması Sizin adınızla bağlıdır.

Siz Azərbaycan ilə Rusiya arasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinin inkişafına, dövlətlərarası münasibətlərin, strateji tərəfdaşlığımızın genişlənməsinə sanballı şəxsi töhfə vermisiniz.

Əminəm ki, Azərbaycan ilə Rusiya arasında çoxşaxəli, qarşılıqlı surətdə faydalı əməkdaşlıq xalqlarımızın mənafeyi naminə bundan sonra da hərtərəfli və dinamik inkişaf edəcəkdir.

Bizim səmimiyyətə, etimada və qarşılıqlı anlaşmaya əsaslanan şəxsi münasibətlərimizi yüksək qiymətləndirirəm.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və bundan sonra da dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 may 2008-ci il*

## NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Milli bayramınız – Konstitusiya günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Norveç arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Norveç xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 may 2008-ci il*

**NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB YENS STOLTENBERQƏ**

Hörmətli cənab Baş nazir!

Norveç Krallığının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və bütün xalqınızı təbrik edirəm.

Azərbaycan–Norveç əməkdaşlığı bu gün bir çox sahələrdə müvəffəqiyyətlə davam etməkdədir. Əminəm ki, dost ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafı, iqtisadi əlaqələrimizin gündən-günə genişlənməsi, irimiqyaslı layihələrdə birgə işimiz xalqlarımızın rifahına, ölkələrimizin çiçəklənməsinə yeni-yeni töhfələr verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 may 2008-ci il*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏLİ ABDULLAH SALEHƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Yəmən Birliyi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Yəmən dostluğu istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız və qarşılıqlı dəstəyimiz bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, dost Yəmən xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 may 2008-ci il*

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB POL BİYAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Unitar dövlətin elan edilməsi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Kamerun münasibətlərinin inkişafı xalqlarımız üçün hər cəhətdən faydalı olacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 may 2008-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ZIĞ DAİRƏSİ – HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU AVTOMOBİL YOLUNUN, HABELƏ BİNƏ VƏ ZİRƏ QƏSƏBƏLƏRİNDƏ BİR SIRA OBYEKTLƏRİN AÇILIŞINDA

*9 may 2008-ci il*

*Mayın 9-da Prezident İlham Əliyev Zığ dairəsi – Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun, habelə Binə və Zirə qəsəbələrində bir sıra obyektlərin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyevin xüsusi tapşırığı əsasında 2007-ci il noyabrın 10-da tikintisinə başlanmış Zığ dairəsi–Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun sifarişçisi Nəqliyyat Nazirliyi, icraçısı isə «Akkord» Şirkətlər Qrupudur. Ən son texnologiyanın tətbiqi ilə Avropa standartlarına uyğun çəkilmiş 17 kilometrlik yol 6 hərəkət zolaqlıdır. Yolun ümumi eni 29,5 metr, hərəkət zolaqlarının hər birinin eni 3,75 metrdir.*

*Zığ dairəsi–Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun çəkilişi ilə eyni vaxtda 12 kilometrlik Azadlıq meydanı–Zığ dairəsi avtomobil yolunun C.Naxçıvanski adına hərbi liseydən Zığ dairəsinədək olan son 3 kilometrlik hissəsi də 8 zolaqlı hərəkət üçün beton örtüklə yenidən qurulmuşdur.*

*Yolun tikintisində 4 milyon kubmetr torpaq işləri görülmüş, yola 500 markalı betondan 26–30 sm qalınlığında örtük çəkilmişdir. Monolit-beton işlərinin ümumi həcmi 250 min kubmetrdir.*

*Yol kəsişmələrində 4 keçid, 2 körpü inşa edilmişdir. Körpülər dəmir yolu xətlərinin üzərindən keçir, keçidlər isə avtomobil yollarının kəsişməsində tikilmişdir.*

*Ayırıcı zolaqlarda «Philips» şirkətinin istehsalı olan işıqlandırma lampaları ilə təchiz edilmiş 625 dirək quraşdırılmış, yol kənarında 8640 metr uzunluğunda istinad divarı, bütün yolboyu isə hər iki tərəfdə ümumi uzunluğu 40 kilometr olan təhlükəsizlik səddi çəkilmişdir. Yaşıllaşdırma işlərinin aparıldığı 200 hektar ərazinin ətrafı çəpərlənmişdir.*

*Yolun inşasında üç növbədə 5 mindən çox işçi, o cümlədən Almaniyadan olan 100 mütəxəssis çalışmışdır. Almaniyalı mütəxəssislər işlərin müasir standartlara uyğun yerinə yetirilməsinə nəzarət etmişlər.*

*Betonlama işləri Almaniyanın «Wirtgen» şirkətinin ağırlığı 250 ton olan betonsalan maşınları vasitəsilə həyata keçirilmiş, ərazidə 3 stasionar və 1 mobil beton zavodu fəaliyyət göstərmişdir. Ümumən 171 milyon manat vəsaitin sərf olunduğu yolun istismar müddəti 30 ildən çoxdur. Tikintidə çalışan əcnəbi mütəxəssislərin fikrincə, dünya təcrübəsində bu sürətlə yolun çəkilişi olmamışdır.*

**Ziya Məmmədov** (*Nəqliyyat naziri*): Cənab Prezident, bütün işlər başa çatdırılıb. Verdiyiniz tapşırığı icra etmək məqsədi ilə Qala istiqamətindən sahilə qədər yol çəkmək üçün lazımi mühəndis işləri aparılıbdır. Yeni bir tunel-keçid inşa edilibdir ki, gələcəkdə bu xətdən birbaşa Qala xəttinə çıxmaq, eyni zamanda, oradan bu xəttə girmək mümkün olsun. Ekoloji məsələlər də imkan daxilində maksimum yerinə yetirilmişdir. Şəraitdən asılı olaraq, harada yaşıllaşdırma mümkündürsə, bu işlər görülmüşdür. Burada dizayn işləri qalıb və icraçı şirkət onları tamamlayacaqdır.

Möhtərəm cənab Prezident, imkandan istifadə edib, bütün nəqliyyatçılar adından Sizi bayram münasibətilə təbrik etmək istəyirəm. Ümummilli liderimiz Heydər Əliyevin doğum günü münasibətilə təbrik etmək istəyirəm. İndi ölkəmizin hər yerində silsilə tədbirlər keçirilir. Ulu öndərimizin Azərbaycan

xalqına göstərdiyi xidmətlərini unutmayan biz nəqliyyatçılar da tədbirlər keçiririk.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən də sizi təbrik edirəm. Həm də ulu öndərin 85 illik yubileyi münasibətilə təbrik edirəm. Doğrudan da bu, böyük bayramdır, çünki Azərbaycanda əldə edilmiş bütün uğurların təməlində Heydər Əliyevin fəaliyyəti, onun Azərbaycana rəhbərlik etdiyi dövrlərdə göstərdiyi xidmətlər dayanır. Bu gün isə biz bunun gözəl nəticələrini görürük. İndi biz daha da irəli gedirik. Ən böyük layihələri icra edirik, dünya miqyaslı layihələri, eyni zamanda, infrastruktur layihələri. Ölkəmizin hərtərəfli inkişafı üçün ən yüksək texnologiyalar, dünyada mövcud olan ən qabaqcıl standartlar Azərbaycanda, Bakıda tətbiq edilir. Siz yaxşı bilirsiniz ki, bu bölgədə bu vaxta qədər, demək olar, beton yollar tikilməmişdi. İlk dəfə Azərbaycanda tikilib, özü də strateji əhəmiyyət kəsb edən yoldur. Çünki bizim aeroporta gedən bir yolumuz var idi. Ancaq ikinci yolun olması çox vacibdir. Həm yüksək keyfiyyətlə, ən qabaqcıl texnologiyalar əsasında tikilib, həm də bu yolun davamı olacaqdır. Yəni Bakı qəsəbələrinin nəqliyyat sisteminin yaxşılaşdırılması üçün bu yolun və onun davamının çox böyük əhəmiyyəti olacaq, indiki əsas aeroport yoluna düşən yükü də azaldacaqdır. Bu tərəflərə gəlib-gedən vətəndaşlar bu yoldan istifadə edəcəklər. Onu da qeyd etmək istəyirəm ki, qısa müddət ərzində siz buna nail olmusunuz və dediyiniz kimi, bu, təkcə yol deyil, böyük bir nəqliyyat infrastrukturudur. Dörd keçid, iki körpü – bunların hər biri özlüyündə, necə deyərlər, böyük mühəndislik əsəridir. Ətraf böyük zövqlə, böyük səriştə ilə abadlaşıbdır, burada yaşıllıqlar salınıbdır. Buraları biz yaxşı tanıyırıq. Burada heç vaxt yaşıllıqlar, ağaclar olmamışdı, mənzərəsi o qədər də ürəkaçan deyildi. Ancaq indi yolboyu dizayn işləri də görülüb, ən müasir işıq dirəkləri də qoyulubdur. Yəni bu yol ən qabaqcıl, inkişaf etmiş ölkələrdə olan yollardan geri

qalmır, bəlkə onları daha da qabaqlayır. Çünki biz burada ən yaxşı müasir texnologiyaları tətbiq etmişik.

Bu yaxınlarda nəqliyyat infrastrukturu ilə bağlı geniş müşavirə keçirdik, proqram tərtib etdik və proqram əsasında bütün işlər görüləcəkdir. Bakı şəhərində bu vaxta qədər görülən işlər nəqliyyat infrastrukturuna çox böyük dəstək vermişdir. Növbəti illərdə həm Bakıda, həm bütün rayonlarda, qəsəbələrdə, kəndlərdə daha da böyük işlər görüləcəkdir. Mən çox şadam ki, siz buna nail ola bilmisiniz. İndi magistral yolları da bu texnologiyalarla çəkirsiniz.

**Z i y a  M ə m m ə d o v:** Artıq şimal istiqamətində sürətli iş gedir. Planlaşdırırıq ki, oktyabr ayında yekunlaşdıraq və Sizə məruzə edək.

**İ l h a m  Ə l i y e v:** Bakını bütün qonşu ölkələrlə bağlayan yolları qısa müddət ərzində ən yüksək səviyyədə yenidən tikəcəyik. Siz keçən dəfə mənə dediniz ki, bu yolun zəmanəti 30–50 ildir.

**Z i y a  M ə m m ə d o v:** 30 il.

**İ l h a m  Ə l i y e v:** Alman texnologiyası belədir ki, 30 il deyirlərsə, deməli, 50 ildir. Həm də biz buna iqtisadi cəhətdən də düzgün yanaşmışıq. Düzdür, beton texnologiyası o biri texnologiyalardan bir az bahadır.

**Z i y a  M ə m m ə d o v:** Hər kilometrində 1 milyon dollar fərq var.

**İ l h a m  Ə l i y e v:** Bahadır. Amma bunun saxlama xərcləri aşağıdır.

**Z i y a  M ə m m ə d o v:** Cənab Prezident, 30 il ərzində əsaslı, cari təmirləri nəzərə almaq şərtilə, 100 kilometr yola xərclənən vəsaitlə müqayisədə beton yol təxminən 1 milyard dollara qədər qənaət verir.

**İ l h a m  Ə l i y e v:** Çünki istismar xərcləri var.

**Z i y a  M ə m m ə d o v:** Doğrudur, bunun başlanğıcı nisbətən baha başa gəlir, amma nəticədə bu yol çox sərfəli olur. 5 ildən bir yalnız istilik bitişmələrində rezinləri dəyişməklə, yola 30 il müddətində zəmanət var. Amma asfalt

belədir ki, altına bir balaca yağış düşdü, gərək təmir edəsən, yoxsa gediş-gəliş üçün problem yaranır.

Cənab Prezident, Şimal yolunun tikintisində hazırda təxminən 3 minə qədər insan məşğul olur, 2 mindən artıq müxtəlif texnika işləyir. Yəni orada çox sürətli iş gedir. Bəlkə buradakından da sürətlə işləyirlər ki, tapşırığı vaxtında icra edib yolu istismara verə bilək.

**İ l h a m   Ə l i y e v:** Biz gərək baxaq, Bakıda daha harada yeni yollar sala bilərik. Bir neçə yerdə salmışıq və çox yaxşı, müsbət təsiri olmuşdur. Baxın, harada imkan varsa, yeni yollar salmalıyıq. Dərnəgül tərəfdən Heydər Əliyev prospektinə paralel yol çəkməliyik.

**Z i y a   M ə m m ə d o v:** Onun üzərində işləyirik. Layihəsi tam hazır olanda Sizə məruzə edəcəyik.

* * *

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi, tapşırığı yüksək keyfiyyətlə yerinə yetirdiklərinə görə inşaatçılara minnətdarlığını bildirdi.*

*Açılış mərasimindən xatirə olaraq, prezident İlham Əliyevə hədiyyə təqdim edildi.*

## BİNƏ QƏSƏBƏSİNDƏ YENİDƏN QURULMUŞ UŞAQ BAĞÇASI

*9 may 2008-ci il*

*Mayın 9-da Bakının Əzizbəyov rayonunun Binə qəsəbəsində Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən qurulmuş uşaq bağçası istifadəyə verilmişdir.*

*Mərasimə toplaşanlar Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanı böyük səmimiyyətlə qarşıladılar.*

*1970-ci ildə tikilmiş, lakin sonralar yararsız vəziyyətə düşmüş binanın təmirinə bir il bundan əvvəl baslanılmışdı. 300 uşaq üçün nəzərdə tutulmuş bağçada məktəbəqədər hazırlıq qrupları da fəaliyyət göstərəcəkdir. Geniş və işıqlı məşğələ otaqları intellektual inkişafa kömək edən müxtəlif əyani vəsait, kitab və plakatlarla, yataq otaqları, mətbəx və yeməkxana müasir avadanlıqla təmin olunmuşdur.*

*Balacalar bağçanın musiqi zalında Heydər Əliyev Fondunun xüsusi olaraq hazırladığı uşaq musiqilərindən, nağıllardan ibarət disklərə qulaq asa biləcəklər. Burada böyükekranlı televizor, musiqi mərkəzi, piano və digər avadanlıq var.*

*Bağçanın hovuzu, eləcə də sağlamlığa xidmət edən bütün idman qurğuları ilə təmin olunmuş idman zalı da vardır. Binada yeni istilik, yanğın təhlükəsizliyi sistemləri quraşdırılmışdır. Bütün ərazini əhatə edən videosistem nəzarəti balacaların təhlükəsizliyini təmin edəcəkdir. Həyatdə müasir əyləncə kompleksi yaradılmış, attraksion və yelləncəklər quraşdırılmışdır. Uşaq avtonəqliyyat meydançasında balacalar avtomobili idarə etməklə yanaşı, yol-hərəkət qaydalarını da öyrənə biləcəklər.*

*Ulu öndər Heydər Əliyevin uşaqlara qayğısını, prezident İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın uşaqlarla görüşlərini əks etdirən fotoşəkillər, «Bağçamızın dünəni və bu günü» adlı guşə diqqəti cəlb edir.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva bağçanın rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Uşaq bağçasının otaqları, idman və musiqi zalı, yemək otağı ilə tanış olan dövlətimizin başçısı və xanımı sonra bağçanın həyatində uşaqlarla səmimi söhbət etdilər.*

*Prezident İlham Əliyev bağçanın müəllim və tərbiyəçilərinə uğurlar arzuladı.*

## ZİRƏ QƏSƏBƏSİNDƏ MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZİNİN AÇILIŞI

*9 may 2008-ci il*

*Mayın 9-da Zirə qəsəbəsində Müalicə-Diaqnostika Mərkəzi açılmışdır.*

*Qəsəbə sakinləri və səhiyyə ocağının kollektivi mərasimdə iştirak etmək üçün buraya gələn prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Müalicə-Diaqnostika Mərkəzinin açılışını bildirən lenti kəsdilər.*

*Dövlətimizin başçısı və xanımı səhiyyə ocağı ilə yaxından tanış oldular.*

*Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, 30 il əvvəl tikilmiş bina Heydər Əliyev Fondunun təşəbbüsü ilə tamamilə yenidən qurularaq, müasir avadanlıqla təchiz edilmiş kompleksə çevrilmişdir. İkimərtəbəli binanın birinci mərtəbəsində uşaqlar və böyüklər üçün nəzərdə tutulan və gündə 50 nəfərə xidmət göstərə bilən poliklinika yerləşir.*

*Avropadan gətirilən ən müasir avadanlıqla təchiz edilmiş mərkəzdə bütün müvafiq müalicə kabinetləri, terapiya və doğum söbələri, laboratoriya fəaliyyət göstərir. Mərkəzin ərazisində təcili tibbi yardım stansiyası da yaradılmışdır.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın tibb sahəsinə göstərdiyi diqqəti əks etdirən fotostend vardır.*

*Burada yaradılmış şəraiti yüksək qiymətləndirən dövlətimizin başçısı tibb işçiləri ilə görüşüb söhbət etdi.*

**T i b b i ş ç i s i:** Belə gözəl tibb mərkəzini bizə bəxş etdiyinizə görə bütün qəsəbə sakinləri adından Sizə çox təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Siz yaxşı bilirsiniz, 20–30 il idi bu bina tikilməyə başlamış, amma sonra yarımçıq qalmışdı. İndi deputatınızın təşəbbüsü ilə bu bina yenidən tikilib və deyə bilərəm ki, ən yüksək səviyyədədir. Dünyada hansı avadanlıq varsa, burada da var. İndi əsas odur ki, yaxşı tibbi xidmət göstərilsin və burada Zirə sakinləri yaxşı xidmətlə təmin olunsunlar. Bu həm qəsəbə üçün böyük hadisədir, həm də bütövlükdə, Azərbaycanda bu sahədə gedən uğurlu işlərin təzahürüdür. Hər bir məntəqədə, hər bir kənddə belə gözəl tibb ocaqları olmalıdır. Çünki insanların sağlamlığı ən başlıca məqsəddir, vəzifədir. Həkimlərin də sosial vəziyyətinin yaxşılaşdırılması üçün işlər görülür. Bilirəm ki, buna daha da böyük ehtiyac var. Yəni bu da olacaq. İldən-ilə həm maaşlar artırılacaq, həm də lazım olan bütün avadanlıq alınacaqdır. Maaşları dörd dəfə artırmışıq, amma hələ də artırmaq lazımdır. Razılaşarsız mənimlə? Dörd dəfə artırmaq, əlbəttə ki, böyük işdir. Hələ ki, bizim istədiyimiz səviyyədə deyil, amma bu da olacaqdır. Ölkəmiz indi elə inkişaf edir ki, bütün məsələlər öz həllini tapacaqdır.

Sizə də mən uğurlar arzulayıram, bu gözəl xəstəxanada işləmək, əlbəttə ki, şərəfdir. Həm xəstələr üçün, həm də həkimlər üçün burada şərait var. Çünki biz həm xəstələr, həm də həkimlər haqqında düşünməliyik. İş şəraiti də hər bir insan üçün çox vacib məsələdir.

**T i b b i ş ç i s i:** Bunların hamısı Mehriban xanımın təşəbbüsü ilə, Sizin də köməyinizlə əldə olunubdur. Allah bizə qismət elədi bu günü gördük, çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Üç il əvvəl bunların heç biri yox idi. Mənim yadımdadır, o vaxt biz buraya gəlmişdik. Bina yarımçıq vəziyyətdə idi, bunların heç biri yox idi.

İndi Zirə olub Avropanın ən qabaqcıl şəhəri. Elədir? Belə də olmalıdır. Hər bir yerdə, Azərbaycanın hər bir nöqtəsində belə gözəllik olmalıdır. Sağ olun.

**Böyük Vətən müharibəsində həlak olanların xatirəsi unudulmur**

*Mayın 9-da Zirə qəsəbəsində 1941–45-ci il Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə yaradılmış kompleksin yenidənqurmadan sonra açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Müharibə veteranları dövlətimizin başçısını və xanımını səmimiyyətlə qarşıladılar.*

*1,5 hektar sahədə yerləşən kompleks Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulmuş, yaşıllaşdırılmış, ağaclar və gül kolları əkilmişdir. Burada sakinlərin istirahəti üçün lazımi şərait yaradılmışdır.*

*Ərazidə qoyulmuş lövhədə Böyük Vətən müharibəsində həlak olan Zirə sakinlərinin adları yazılmışdır.*

*Prezident İlham Əliyev xatirə kompleksindəki məşəli alovlandırdı.*

*Dövlətimizin başçısı və xanımı əsgər abidəsinin önünə gül dəstələri qoydular.*

*Azərbaycanda, o cümlədən Zirə qəsəbəsində görülmüş işlərə görə prezident İlham Əliyevə minnətdarlıq edən veteranlar dedilər ki, biz dövlətimizin başçısını daim dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Əzizbəyov rayonunun bütün veteranları Sizinlə fəxr edir. Oktyabr ayında ölkəmizdə keçiriləcək prezident seçkilərində biz ümummilli lider Heydər Əliyevin yolunun layiqli davamçısı İlham Əliyevə səs verəcəyik.*

*Veteranlar 9 may Qələbə gününün yenidən bayram kimi qeyd olunmasında ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini yada salaraq dedilər ki, əgər o olmasaydı, bu gün biz burada yox idik. Biz çox ruhdan düşmüşdük. O bizi yüksəltdi.*

*Bəziləri deyirdi ki, siz vətəni müdafiə etməmisiniz. Ancaq biz öz vətənimizi müdafiə etmişdik.*

*Zirəli veteranlar Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın da gördüyü işləri yüksək qiymətləndirdilər.*

*Veteranlarla bir-bir görüşüb, onları təbrik edən prezident İlham Əliyev dedi ki, son illər ərzində Zirə qəsəbəsində abadlıq-quruculuq, sosial məsələlərin həlli istiqamətində böyük işlər görülmüşdür. Bütün bunlar qəsəbənin səviyyəsini yüksəldir. Burada olan səviyyə şəhər səviyyəsinə uyğundur.*

*Dövlətimizin başçısı xüsusi vurğuladı ki, Heydər Əliyev 1993-cü ildə Azərbaycana rəhbərliyə gəlməmişdən əvvəl 9 May bayramını ləğv etmişdilər. Bayram kimi qeyd olunmurdu. Yalnız Heydər Əliyevin səyi nəticəsində bu bayram bərpa olundu və indi də yaşayır. Biz bunu bayram kimi qeyd edirik, görüşürük, söhbətləşirik. O vaxtkı rəhbərlik Vətən uğrunda öz sağlamlığını itirmiş insanlara belə laqeyd, ədalətsiz münasibət göstərirdi. Ümumiyyətlə, onlar sizin qəhrəmanlığınızı tarixdən silmək istəyirdilər və silirdilər də. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələn kimi, bu bayramı bərpa etdi, veteranları dəstəkləməyə başladı, müxtəlif tədbirlər görüldü, qanunlar qəbul olundu, sərəncamlar verildi. Bu gün də belədir, mən həmişə sizinlə olacağam.*

## Park-komleksin açılışı

*Mayın 9-da Zirə qəsəbəsində park-kompleks istifadəyə verilmişdir.*

*Mərasimə toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə salamladılar.*

*Heydər Əliyev Fondunun dəstəyi ilə tamamilə yenidən qurulmuş kompleksdə mədəniyyət və şadlıq evləri, idman və uşaq meydançaları tikilmiş, sakinlərin istirahəti üçün hər cür şərait yaradılmış, ərazi yaşıllaşdırılmış, dekorativ ağaclar və gül kolları əkilmişdir.*

*Kompleksin mərkəzində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Prezident İlham Əliyev büstün üzərindəki ağ örtüyü götürdü. Dövlətimizin başçısı və xanımı büstün önünə gül dəstələri düzdülər.*

*Sonra onlar qəsəbə sakinləri ilə səmimi söhbət etdilər.*

**H a c ı Ə l i s a h i b** (*qəsəbə sakini*): Möhtərəm Prezident, qəsəbəmizə gəldiyinizə görə, hamının adından, öz adımdan Sizə dərin təşəkkürümüzü bildiririk. Sizin bura gəlməyiniz bizim üçün böyük şərəfdir. Buraya gəlməyinizlə bizi həm həddən artıq sevindirir, həm də boynumuza böyük haqq, məsuliyyət qoyursunuz. Mənim 70 yaşım var, ikinci dəfədir Prezidenti görürəm. Bu bizim sadə Zirə camaatına yox, bütün sadə Azərbaycan xalqına verilən ən böyük qiymətdir. Ona görə bilmirik Sizə necə minnətdarlıq edək.

İcazə verin, qəsəbəmiz haqqında Sizə bir az məlumat verim. Camaatın əksəriyyəti neft sahəsində işləyir. Bir hissəsi də vaxtilə sovxozda işləyirdi. Möhtərəm Prezident, keçid dövrü ilə əlaqədar bizdə də müəyyən çətinliklər yarandı. Elektrik enerjisinin çatışmaması, iş yerlərinin azalması, bir də rayon mərkəzindən, şəhərdən uzaq olmağımız, imkanlı adamların çıxıb getməsi elə bil əhalidə düşkünlük yaratmışdı. Mərhum Prezidentimiz, ulu öndərimiz respublikanın o çətin vaxtında xalqa pənah əlini uzatdı, onun dadına çatdı. Sonra da Mehriban xanım bizim dadımıza çatdı. Biz başa düşürük, Bakının istənilən rayonundan namizədliyini versəydi, ona 100 faiz səs verərdilər. Amma bizi qəbul etdi. Həm rayonumuz uzaqdır, həm də inkişafdan qalan Türkan, Zirə kimi qəsəbələri vardı. Bu bizə qarşı çox böyük hörmətdir. İndi baxın, nəticəsi budur. Görürsünüz, qəsəbə nə qədər təmir olunur. Hələ bu, görünən tərəflərdir, möhtərəm Prezident. Görünməyən tərəfləri də deyim Sizə. Qəsəbəmizin asfaltlanmayan tək-tək küçələri qalıbdır. Gözəl əsas küçələr işıqlandırılıbdır. Bunlar hamısı Mehriban xanımın zəhmətidir. Əlbəttə, Sizin rəhbərliyiniz altında. Bilmirik Mehriban xanıma, Sizə necə minnətdarlıq edək, çox sağ olun. Amma əsas sağolumuzu, qismət olsa, seçkidə deyəcəyik. Mən inanıram ki, səsvermədə təkcə

qəsəbəmiz yox, bütün rayonumuz lider olacaqdır. Bir daha Sizə minnətdarlığımızı bildiririk, möhtərəm Prezident.

**İlham Əliyev:** Təşəkkür edirəm. Mən də çox şadam ki, Zirə qəsəbəsi öz simasını xeyli dərəcədə dəyişibdir. Burada siz bizim xidmətlərimizdən danışdınız. Bu bizim borcumuzdur. Mənim prezident kimi, Mehriban xanımın isə sizin deputatınız kimi. Borcumuzdur ki, öz seçicilərimizə həmişə diqqətli olaq, Azərbaycanda gedən və rayonda gedən işlərə daha da böyük təkan verək. Təşəbbüs göstərək ki, insanların həyat səviyyəsi yaxşılaşsın, sosial sahədə işlər yaxşı getsin, bütövlükdə quruculuq-abadlıq işləri aparılsın. Zirənin timsalında biz bütün bunları görürük. Görürük ki, sosial məsələlər həll olunur. Mən indicə gözəl xəstəxananın açılışında iştirak etdim. Hansı ki, siz bilirsiniz, uzun illər, onilliklər yarımçıq qalmış bina idi və ümumiyyətlə, onun gələcəyi qeyri-müəyyən idi. Amma indi ən müasir səviyyədə təmir edilib, demək olar ki, yenidən tikilib və orada ən müasir tibb avadanlığı var. Doğum şöbəsi də var və bu da hər bir yer üçün, xüsusilə şəhərdən bir az aralıda yerləşən qəsəbələr, kəndlər üçün çox vacibdir. Burada stadion, mədəniyyət evi də var.

Bu gün mən həm Bakıda, həm də burada veteranlarla görüşdüm. Burada xatirə kompleksinin açılışını etdik. Yəni bütün bunlar yenilik, quruculuq, inkişaf deməkdir. Azərbaycanın artan imkanları bizə əlavə şərait yaradır ki, biz bunu daha da tez bir zamanda edək. Əlbəttə, maddi imkanlar vacib rol oynayır. Amma insanların ürəyi yanmasa, əgər təşəbbüs göstərilməsə, maddi imkan nə qədər olsa da, nəticəsi olmayacaq. Zirədə, ətraf qəsəbələrdə gedən böyük işləri mən yüksək qiymətləndirirəm. Bu belə də olmalıdır. Bütün xalq tərəfindən seçilmiş nümayəndələr xalqa xidmət etməlidir. İstər prezident olsun, istərsə də parlament üzvü, bələdiyyə sədri. Bütün xalq tərəfindən seçilmiş və prezident tərəfindən təyin olunmuş insanlar böyük məsuliyyətlə və xalq üçün işləməlidirlər. Mənim baxışlarım bunlardır, mənim siyasi əqidəm budur. Mən bu vəzifəyə xalqa xidmət etmək üçün gəlmişəm və

hər dəfə yenilik, müasirlik görəndə ürəyim sevinir. Azərbaycanın bütün yerləri bax, belə olmalıdır. Nəzərə alsaq ki, üç il bundan əvvəl burada vəziyyət tam başqa idi – siz bunu məndən yaxşı bilirsiniz – bu müddət ərzində görülən işləri yüksək qiymətləndirirəm. Bunda Zirə sakinlərinin böyük əməyi olubdur, bütün bu təşəbbüslərdə onlar fəal iştirak etmişlər. Onlar tərəfindən qaldırılan məsələlər öz həllini tapmışdır. Çünki siz hamıdan yaxşı bilirsiniz ki, problemləriniz nədir. Həm yerli sakinlərin, həm mərkəzi orqanların, sizin tərəfinizdən seçilmiş insanların birgə fəaliyyəti bütün bu gözəlliyi yaratmışdır. Mən çox sevinirəm ki, Zirənin yeni görkəmi dünyanın ən qabaqcıl şəhərlərinin səviyyəsindədir. Siz də buna layiqsiniz və gələcəkdə daha da böyük işlər görüləcəkdir.

* * *

*Sonra dövlətimizin başçısı və xanımı mədəniyyət evi ilə tanış oldular. Burada 120 yerlik salon, kitabxana, dərnək otaqları, kompyuter otağı var.*

*Mədəniyyət evində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın fəaliyyətinə həsr olunmuş guşə də var.*

*Prezident İlham Əliyev və Mehriban xanım mədəniyyət evinin eyvanından parkın ərazisini seyr etdilər, sonra uşaq meydançasında qəsəbənin balaca sakinləri ilə səmimi söhbət etdilər, şəkil çəkdirdilər.*

*Dövlətimizin başçısı və xanımı daha sonra kompleksin ərazisindəki 400 nəfərlik şadlıq sarayı ilə də tanış oldular.*

*Abadlıq və quruculuq işlərinin aparıldığı qəsəbədə zövqlə tikilmiş binalarda bütün lazımi xidmətlər və idarələr fəaliyyət göstərir ki, bu da sakinlər üçün böyük rahatlıq yaradır.*

* * *

*Mayın 9-da Heydər Əliyev Fondunun dəstəyi ilə Qala qəsəbəsində milli memarlıq üslubunda tikilmiş alaqapının açılışı olmuşdur.*

## «GÖK-NUR BAKI» KABEL VƏ ELEKTRİK AVADANLIQLARI İSTEHSALI ZAVODUNUN AÇILIŞI

*9 may 2008-ci il*

*Mayın 9-da Zirə qəsəbəsində «Gök-Nur Bakı» kabel və elektrik avadanlıqları istehsalı zavodunun açılışı olmuşdur.*

*Zavodun kollektivi prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladı.*

*Azərbaycan–Türkiyə birgə müəssisəsi olan zavodun tikintisinə ötən ilin aprelində başlanılmışdı. Bu zavod təkcə Cənubi Qafqazda deyil, həm də ətraf regionda ən yüksək texnologiya ilə kabel və elektrik avadanlığı istehsal edən müəssisələrdən biridir.*

*Prezident İlham Əliyev zavodun rəmzi işə düşməsini bildirən düyməni basdı.*

*Dövlətimizin başçısı sexləri gəzdi, istehsal prosesini izlədi, məhsulların keyfiyyəti ilə maraqlandı.*

*Kabel istehsalı sexi ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, burada 10–35 kilovolt gərginliyə davamlı bütün növ və ölçüdə mis və alüminium kabellər istehsal olunur. İndiyədək ölkəmizdə elektrik energetikasında istifadə olunan kabel və digər elektrik avadanlıqları Rusiya, İran və Türkiyədən gətirilirdi. Bu zavodun işə düşməsi ilə daxili tələbat ödənilməklə yanaşı, məhsulların digər ölkələrə də ixrac olunması nəzərdə tutulur.*

*Almaniya, Türkiyə və Finlandiyadan gətirilmiş müasir avadanlıq quraşdırılmış zavodda 350 nəfər işlə təmin olunmuşdur. Orta aylıq əməkhaqqı 500 manatdır. Gələcəkdə işçilərin sayının 500-ə çatdırılması planlaşdırılır. İşçilər pulsuz*

*naharla təmin edilir, onlar zavodun avtobuslarından istifadə edirlər.*

*Prezident İlham Əliyev və xanımı elektrik avadanlığı sexinin fəaliyyəti ilə də tanış oldular. İşlərin tam avtomatlaşdırıldığı sexdə müxtəlif ölçülərdə elektrik qutuları, yardımçı stansiyalarda quraşdırılan orta və aşağı gərginlikli elektrik lövhələri istehsal olunur.*

*Dörd hektar ərazidə yerləşən zavodun həyətində müasir standartlara cavab verən mehmanxana da tikilmişdir. Mehmanxanada 36 otaq və internetə qoşulan kompyuter sistemi var.*

*Prezident İlham Əliyev zavodun istehsal gücündən daha səmərəli istifadə etmək üçün tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV 9 MAY QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

*9 may 2008-ci il*

*Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin 63-cü ildönümü münasibətilə mayın 9-da ölkəmizin paytaxtında təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan xalqı faşizm üzərində tarixi qələbəyə sanballı töhfə vermişdir. Faşizm üzərində qələbənin əldə olunmasında, SSRİ-nin bu müharibədə qazandığı tarixi qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 600 min oğul və qızını cəbhəyə yola salmışdı. Onların təxminən yarısı döyüşlərdə həlak olmuşdur. Müharibədə göstərdikləri igidliyə görə ölkəmizin 130-dan çox vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşmuşdur. İkinci dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri heç vaxt yaddaşlardan silinməyəcək, gənc nəslə vətənpərvərlik nümunəsi olacaqdır.*

*Böyük qələbəyə neft Bakısının töhfəsi də əvəzsiz olmuşdur. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksək keyfiyyətli yağların 85–90 faizi Azərbaycanın payına düşürdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Böyük Vətən müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi önünə*

*toplaşmış müharibə veteranları, ictimaiyyətin nümayəndələri, paytaxt sakinləri prezident İlham Əliyevi hörmət və ehtiramla qarşıladılar.*

*Dövlətimizin başçısı müharibə veteranlarını səmimiyyətlə salamladı, onların hər birini Qələbə bayramı münasibətilə təbrik etdi.*

*Prezident İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş cəsur sərkərdənin, xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad etdi.*

*Dövlətimizin başçısı 1941–45-ci illər müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranlara yaxınlaşaraq onların problemləri, qayğıları ilə maraqlandı. Veteranlar ümummilli liderimiz Heydər Əliyevin onlara göstərdiyi diqqət və qayğını heç vaxt unutmadıqlarını xatırladaraq, ulu öndərin siyasi xəttini uğurla davam etdirən prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər və onu hər bir işdə, o cümlədən qarşıdan gələn prezident seçkilərində dəstəkləyəcəklərini vurğuladılar.*

*Prezident İlham Əliyev Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçdi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev daha sonra tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə səmimi görüşdü, Qələbə günü münasibətilə onları təbrik etdi.*

* * *

*Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

# PAYTAXTIN FƏTƏLİ XAN XOYSKİ VƏ XƏTAİ PROSPEKTLƏRİNİ BİRLƏŞDİRƏN YOLUN AÇILIŞI

*10 may 2008-ci il*

*Mayın 10-da, ümummilli lider Heydər Əliyevin doğum günü paytaxtın Fətəli xan Xoyski və Xətai prospektlərini birləşdirən Əhməd bəy Ağaoğlu küçəsində tamamilə yenidən qurulmuş yolun açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*İnşaatçılar və nəqliyyatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, bu avtomobil yolunun böyük bir hissəsi yeni salınmışdır. Prezident İlham Əliyevin Bakının mərkəzi hissəsində nəqliyyatın hərəkətinin sıxlığının aradan qaldırılması barədə tapşırığına uyğun olaraq salınmış yolun ümumi uzunluğu 1,5 kilometrdir. Bunun 1,15 kilometri yenidən salınmış, 350 metrlik hissəsi isə genişləndirilmişdir. Yol dörd hərəkət zolaqlıdır. Tikinti zamanı 56 min kubmetr torpaq işi görülmüş, yola 15 min ton asfalt-beton döşənmiş, 3 kilometrlik səki daşları düzülmüşdür. Yol boyunca 750 metrlik istinad divarı inşa olunmuş, ətrafda abadlıq və yaşıllaşdırma işləri görülmüşdür.*

*Bu yol ətraf ərazidə tıxacların aradan qaldırılması baxımından əhəmiyyətlidir və Xətai prospektindən birbaşa «Gənclik» meydanına çıxışı təmin edir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı yüksək keyfiyyətli yol saldıqlarına görə inşaatçılara və nəqliyyatçılara minnətdarlığını bildirdi, paytaxtda nəqliyyatın sıxlığının aradan qaldırılması ilə bağlı hazırda görülən və gələcəkdə nəzərdə tutulan tədbirlərə dair tövsiyə və tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

*10 may 2008-ci il*

*Mayın 10-u müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 85-ci ildönümüdür. Qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər beşinci ildir bu dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.*

*Ümummilli liderimizin ad günü ərəfəsində olduğu kimi, mayın 10-da da sübh tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edirdilər.*

*Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, ailə üzvləri, ulu öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.*

*Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun ruhu qarşısında baş əydi.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Sonra prezident İlham Əliyev və ailə üzvləri görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət etdilər və gül dəstələri qoydular.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları, xarici ölkələrin Bakıdakı diplomatik nümayəndəliklərinin rəhbərləri iştirak edirdilər.*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN VƏ AKADEMİK ZƏRİFƏ XANIM ƏLİYEVANIN XATİRƏ LÖVHƏLƏRİNİN AÇILIŞI

*10 may 2008-ci il*

*Mayın 10-da Bakının Zərifə Əliyeva küçəsində xalqımızın ümummilli lideri Heydər Əliyevin və ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın vaxtilə yaşadıqları 22 nömrəli binada xatirə lövhələrinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı, ailə üzvləri mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı xatirə lövhələrinin üzərindən ağ örtüyü götürdü, önlərinə gül dəstələri qoydu.*

*Xatirə lövhələrində* «Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan dövlətçiliyinin banisi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyev 1962–1982-ci illərdə bu evdə yaşamışdır» *və* «Azərbaycanın görkəmli ictimai xadimi, akademik Zərifə Əziz qızı Əliyeva 1962–1982-ci illərdə bu evdə yaşamışdır» *sözləri yazılmışdır.*

*Prezident İlham Əliyev xatirə lövhələrinin müəllifi Xalq rəssamı, akademik Ömər Eldarova təşəkkürünü bildirdi.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 85 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏŞKİL EDİLMİŞ GÜL BAYRAMINDA

*Bakı*

*10 may 2008-ci il*

*Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin 85 illik yubileyi ilə əlaqədar Bakıda ulu öndərin adını daşıyan sarayın qarşısındakı parkda möhtəşəm gül bayramı təşkil edilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva, qızı Arzu gül bayramında olmuşlar.*

*Buraya toplaşan paytaxt sakinləri dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar, bayramı daha da rövnəqləndirən uşaqlar Prezidenti və ailə üzvlərini özlərinə xas səmimiyyətlə salamladılar.*

*Məlumat verildi ki, səhər tezdən başlayaraq, paytaxt sakinləri Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə xarici ölkələrdən gətirilmiş gül-çiçəklə bəzədilən parka gəlirlər.*

*Müstəqil dövlətimizin xilaskarı və qurucusu, xalqımızın dahi oğlu Heydər Əliyevin əzəmətli abidəsinin ətrafı gül-çiçəyə qərq olmuş, postamentdə güllərdən buta hörülmüşdü.*

*Prezident İlham Əliyev və ailə üzvləri ulu öndərin abidəsini ziyarət etdilər, gül-çiçək içindəki parkın gözəlliyini seyr etdilər.*

*Müxtəlif çiçəklərdən yığılan xalçada türk dünyasının böyük oğlu Heydər Əliyevin portreti,* «Ulu öndərin 85 illik yubileyi» *sözləri yazılmışdı. Cürbəcür çiçək və güllərdən, bit-*

*kilərdən, yarpaqlardan hazırlanan və göz oxşayan rəngarəng kompozisiyalar, dövlət rəmzləri buraya gələnləri heyran qoyurdu. Bir sözlə, fəvvarələrin yan-yörəsindən tutmuş, hər tərəf bir-birindən gözəl, gözoxşayan, bahar təravətli, gül-çiçək içində idi. İncəsənət ustalarının təqdim etdikləri konsert proqramı bayram ovqatını daha da yüksəldirdi.*

*Dövlətimizin başçısı və ailə üzvləri parkı gəzdilər, «Dibçəklər kompozisiyası»na maraqla tamaşa etdilər. Piramida formasında olan kompozisiya bir-birini təkrarlamayan 85 bitki növündən ibarət dibçəklərdən qurulmuşdu. Güldən hazırlanmış müxtəlif mənzərələr, orijinal lövhələrdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərinə aid fotoşəkillər böyük maraq doğururdu.*

*Prezident İlham Əliyev parka toplaşan sakinlərə yaxınlaşaraq onlarla görüşdü. Paytaxt sakinləri ulu öndərin doğum günü – 85 illik yubileyi münasibətilə dövlətimizin başçısını təbrik etdilər, ümummilli liderin tarixi xidmətlərini xatırlatdılar, prezident İlham Əliyevin ölkəmizin inkişafı üçün gördüyü tədbirləri, gündən-günə gözəlləşən paytaxtımızda aparılan işləri yüksək qiymətləndirdilər.*

*Dövlətimizin başçısı və xanımı sakinlərlə xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 85 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ XATİRƏ GECƏSİNDƏ

*«Gülüstan» sarayı*

*10 may 2008-ci il*

*Mayın 10-da Bakıda «Gülüstan» sarayında Azərbaycan xalqının ümummilli lideri, müstəqil dövlətçiliyimizin xilaskarı Heydər Əliyevin 85 illik yubileyinə həsr edilmiş xatirə gecəsi keçirilmişdir.*

*Salona toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Xatirə gecəsində nitq söyləyən prezident İlham Əliyev vurğuladı ki, ictimai, siyasi quruluşundan asılı olmayaraq, ulu öndər Heydər Əliyev bütün dövrlərdə doğma Azərbaycan xalqına sədaqətlə xidmət etmişdir. Ulu öndərin respublikaya rəhbərliyinin birinci dövründə gördüyü böyük işləri, Azərbaycanı ən geridə qalmış respublikadan öncül yerə çıxardığını xatırladaraq dedi ki, o vaxt yaradılmış iqtisadi potensial, infrastruktur hazırda müstəqil Azərbaycana xidmət edir.*

*Dövlətimizin başçısı bildirdi ki, ulu öndər Moskvada SSRİ-nin rəhbərlərindən biri olduğu illərdə də Azərbaycanın inkişafı üçün çalışırdı. Lakin Qorbaçov və onun ətrafındakı düşmənlərimizin əli ilə hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra nəinki o özü cürbəcür təzyiqlərə məruz qaldı, eyni zamanda, səriştəsiz, xalqdan uzaq rəhbərlər sayəsində Azərbaycan tənəzzülə, böhrana doğru getməyə başladı. Xalqımız Qarabağ münaqişəsi ilə üzləşdi, Qanlı Yanvar qırğınına məruz qaldı. Halbuki, Heydər Əliyev hakimiyyətdə olsaydı, bunların baş*

*verməsi mümkün deyildi. Çünki Heydər Əliyev gördüyü bütün işlərlə xalqın məhəbbətini qazanmışdı. Bu məhəbbət 1993-cü ildə də həlledici oldu. Çətin sınaqlarla üz-üzə qalan xalq inandığı, sevdiyi liderini yenidən hakimiyyətə dəvət etdi. Heydər Əliyev gəldi və dövlətçiliyi xilas etdi, ölkəni inkişaf yoluna çıxartdı, Azərbaycanı bütün dünyada tanıtdı.*

*Biz bugünkü bütün uğurlarımızı Heydər Əliyevin siyasəti sayəsində qazanmışıq. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi rəhbəri olmuşdur.*

*Prezident İlham Əliyev ulu öndərin həmişə qalib olduğunu vurğulayaraq dedi:* O, bütün döyüşlərdən qalib kimi çıxıb və heç kim ona qalib gələ bilməmişdir. 1987-ci, 1990-cı, 1991-ci illərdəki müvəqqəti məğlubiyyət əslində məğlubiyyət deyildi. O, yeni güclə, yeni enerji ilə siyasi mübarizəyə qoşuldu, yenidən qələbə qazandı və tarixdə qalib kimi qaldı. Heç kim və heç nə ona qalib gələ bilmədi. Nə xarici düşmənlər, nə də Azərbaycanda özünü ona rəqib qismində təqdim etməyə çalışanlar, bəzi uğursuz siyasətçilər. Ona zaman da qalib gələ bilmədi.

Bu gün Heydər Əliyev bizimlə deyil. Ancaq o bizim ürəyimizdə yaşayır, qəlbimizdə yaşayır, onun əməlləri, onun ideyaları yaşayır, onun siyasəti yaşayır və əbədi yaşayacaqdır!

*Sonra xatirə gecəsi konsert proqramı ilə davam etdirildi.*

## Ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinə həsr olunmuş xatirə gecəsində nitq

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün biz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyini qeyd edirik. Bu gözəl gündə ulu öndərin həyat və fəaliyyətini yenidən təhlil edərkən bir daha görürük ki, ictimai-siyasi quruluşdan asılı ol-

mayaraq, Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmişdir.

1993-cü ildə Azərbaycan xalqının tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra o demişdir: «Mən ömrümün qalan hissəsini də Azərbaycan xalqına bəxş edirəm!». Doğrudan da 1993–2003-cü illərdə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, ölkəmizin hərtərəfli inkişafında, Azərbaycanın o ağır, çətin vəziyyətdən xilas edilməsində Heydər Əliyevin müstəsna rolu vardır.

Heydər Əliyev haqqında çoxlu kitablar, elmi əsərlər, publisistik əsərlər yazılmışdır, məqalələr, təhlillər dərc olunmuşdur. Dünyanın aparıcı siyasi və ictimai xadimlərinin onun haqqında dedikləri sözlər hamımıza bəllidir. Nadir şəxsiyyət Azərbaycan xalqının inkişafı üçün misilsiz xidmətlər göstərmişdir. Heydər Əliyev çox istedadlı bir insan idi. Onun istedadı bütün sahələrdə özünü göstərirdi. Əgər o, siyasətçi olmasaydı, çox gözəl alim ola bilərdi, filosof ola bilərdi. Nəzəri baxışları, fəlsəfi tezisləri və təhlilləri onun dünyagörüşünü, nə qədər müdrik insan olduğunu göstərirdi.

Heydər Əliyev Azərbaycan tarixini, ədəbiyyatını çox gözəl bilirdi. O çox gözəl ədəbiyyatşünas, yazıçı ola bilərdi. Bildiyiniz kimi, onun rəssamlıq sənətinə böyük həvəsi var idi və gənc yaşlarından rəssamlıqla məşğul olurdu. Onun çəkdiyi rəsmlər göstərir ki, bu insan doğrudan da böyük istedad sahibi idi. Uşaqlıq, gənc yaşlarında Naxçıvanda məktəbdə oxuyarkən teatrda tamaşalarda çıxış edirdi və onu da deməliyəm ki, ancaq baş rollarda və qəhrəman obrazlarında. Onun həm xarici görünüşü, həm də daxili aləmi bunu diktə edirdi, səhnədə yalnız müsbət personajları oynayırdı. Bütün bunları ona görə deyirəm ki, bu istedadlı insan istənilən sahədə böyük zirvələrə çata bilərdi. Əgər o, siyasətlə yox, başqa sahə ilə məşğul olsaydı, o sahədə də ən yüksək zirvələri fəth edəcəkdi.

Heydər Əliyev çox cəsarətli insan idi. O, həlledici anlarda öz müdrikliyi və cəsarəti sayəsində xalqımızı ağır

bəlalardan qurtara bilmişdir. Onun həm hərbi xidmətdə olduğu zaman – o vaxt çox mötəbər döyüş ordenləri ilə təltif edilmişdi – həm də müstəqil Azərbaycanın rəhbəri kimi, vaxtında atdığı cəsarətli addımlar Azərbaycanın bugünkü gözəl inkişafına xidmət edirdi.

Bir sözlə, Heydər Əliyev haqqında bir çıxışda böyük təhlil aparmaq çox çətindir. Onu deyə bilərəm ki, Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi rəhbəri olmuşdur. Xalqımızın, ölkəmizin ən çətin, ən həlledici anlarında onun sözü, qətiyyəti, qəbul etdiyi qərarlar bu gün Azərbaycanın uğurla inkişaf etməsi üçün çox böyük rol oynayır.

1969-cu ildə ilk dəfə Azərbaycanın rəhbəri vəzifəsinə seçiləndə respublikanın iqtisadiyyatı çox bərbad vəziyyətdə idi. İndi bunu bəlkə də bəziləri xatırlamır, ancaq statistik göstəricilərdən biz bunu görürük. Bütün müttəfiq sovet respublikaları arasında Azərbaycan ən axırıncı yerdə idi. Həm ümumi daxili məhsul istehsalı baxımından, həm də inkişaf baxımından bütövlükdə Azərbaycan XX əsrin 60-cı illərində SSRİ-də geridə qalmış respublika kimi tanınmışdı. Demək olar ki, iqtisadiyyat çox məhdud idi, sənaye potensialı əslində yox idi və respublikanın gələcəyi də mərkəzi fondlardan daha çox asılı idi. Yəni Azərbaycan özü-özünü təmin edə bilən respublika deyildi.

Ancaq Heydər Əliyevin rəhbərliyi altında bu illər ərzində görülən işlər 1982-ci ildə ona gətirib çıxardı ki, Azərbaycan SSRİ-də ən qabaqcıl respublika oldu. Həm iqtisadi inkişaf baxımından, sənaye istehsalı baxımından, həm də bütün göstəricilər baxımından. Azərbaycanda ictimai proseslər başqa respublikalardan böyük dərəcədə fərqlənirdi. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda böyük quruculuq, abadlıq işləri aparılmışdır. Məhz o illərdə bu gün də müstəqil Azərbaycana xidmət edən güclü sənaye potensialı yaranmışdı. Azərbaycan sənaye respublikasına çevrilmişdi. Bu gün Azərbaycanın neft-qaz sektoru üçün əvəzsiz olan infrastruktur məhz Heydər Əliyevin təşəbbüsü ilə keçən

əsrin 70-ci illərində yaradılmışdır. Əgər o vaxt o infrastruktur yaradılmasaydı, müstəqillik dövründə böyük neftqaz layihələrinin icrası ən azı 10 il, bəlkə də 15 il gecikə bilərdi. 1994-cü ildə Azərbaycan xarici investorları ölkəmizə dəvət edəndə artıq burada çox güclü infrastruktur var idi. O infrastruktur məhz Heydər Əliyevin vaxtında yaradılmışdır.

Yəni 1969-cu ildən 1982-ci ilə qədər Azərbaycanın keçdiyi yol inkişaf yolu olmuşdur. Həm kənd təsərrüfatında, həm sənaye potensialının möhkəmlənməsində, həm də respublikanın mədəni həyatında böyük nailiyyətlər əldə edilmişdi. Azərbaycanı tanımağa, Azərbaycana hörmət etməyə başlamışdılar. O illərdə Azərbaycanda çox güclü iqtisadi potensial yaradılmışdı.

Biz onu da qeyd etməliyik ki, 1982-ci ildə Heydər Əliyev Siyasi Büroya üzv seçiləndən və Moskvada işə başlayandan sonra Azərbaycanda vəziyyət getdikcə, yavaş-yavaş tənəzzülə uğramağa başlamışdı. Həm iqtisadi inkişaf baxımından, həm də respublikada ictimai proseslər mənfi istiqamətdə cərəyan edirdi və nəticədə bu çox böyük çətinliklərə, böyük fəlakətlərə gətirib çıxarmışdı.

Heydər Əliyevin siyasi nüfuzu, Azərbaycanda onun rəhbərliyi altında aparılan böyük quruculuq işləri xalqın ona böyük məhəbbətinin yaranmasına səbəb olmuşdu. O münasibət 1993-cü ildə də həlledici olmuşdu. Çünki o illərdə Azərbaycan xalqı böyük fəlakətlərlə üz-üzə qalanda məhz öz liderinə üz tutub onu yenidən Azərbaycana dəvət etmişdi. Ancaq 1982-ci ildən 90-cı illərə qədər və ondan sonrakı illər ərzində Azərbaycanda həm ictimai-siyasi proseslər narahatlıq doğururdu, həm də ölkənin imkanları yavaş-yavaş daralırdı. Baxmayaraq ki, 1982–87-ci illərdə Siyasi Büronun üzvü və Sovet İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini kimi, Heydər Əliyevin qərarları və təşəbbüsləri ilə Azərbaycanın hərtərəfli inkişafı üçün bir neçə vacib qərarlar qəbul edilmişdi. O, Moskvada işləyərkən, əlbəttə, bütün Sovet İttifaqının iqtisadiyyatına cavabdehlik daşıyırdı. Bunu hamı yaxşı bilir, o, beş il ərzində

məhz Azərbaycanın inkişafı üçün, Azərbaycanda yeni müəssisələrin yaranması üçün, Azərbaycana mərkəzi fondlardan daha artıq sərmayənin gətirilməsi üçün çox çalışdı. Əgər o, siyasi hakimiyyətdən gedəndən sonra həmin illərdə nəzərdə tutulmuş proqramlar dayanmasaydı, onların Azərbaycanın bugünkü potensialına da böyük köməyi olardı. Ancaq 1987-ci ildə o, müxtəlif səbəblər üzündən siyasi hakimiyyətdən uzaqlaşdırıldı. Əlbəttə, burada şəxsi-qərəzlik məqamları kifayət qədər idi.

Heydər Əliyev çox parlaq müstəqil şəxsiyyət idi. Baxmayaraq ki, XX əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində Azərbaycana rəhbərlik etdiyi dövrdə Sovet İttifaqında, ümumiyyətlə, bütün sistem böyük dərəcədə mərkəzləşdirilmiş idi, yenə də onun təşəbbüsləri, bəzi hallarda rəsmi həddə olan, Azərbaycan çərçivəsində olan düzəlişlər onun müstəqilliyini göstərirdi. Bəziləri bu müstəqilliyi qəbul etmək istəmirdilər, bəziləri buna qısqanclıqla yanaşırdılar. Amma o bir insan kimi, müstəqil idi. O, azad insan idi. O heç vaxt öz iradəsinin ziddinə heç bir addım atmazdı. Əgər hansısa qərarla razılaşmırdısa, heç vaxt o qərarı dəstəkləməzdi. Bunun nəticəsində və başqa amillər nəticəsində 1987-ci ildə Siyasi Bürodan uzaqlaşdırıldı. Beləliklə, onun hakimiyyətdən getməsi Azərbaycanda vəziyyətin gərginləşməsinə gətirib çıxarmışdı. Bu iki hadisənin arasında birbaşa bağlılıq var idi. İlk növbədə, ondan sonrakı rəhbərlər 1993-cü ilə qədər bəziləri səriştəsizlik, bəziləri isə xəyanət üzündən Azərbaycanı fəlakətə sürüklədilər. Azərbaycanı parçalanma ərəfəsinə gətirib çıxarmışdılar. O illərdə Azərbaycanda gedən proseslər məhz bu böhranı şərtləndirən amillər olmuşdur.

O, 1987-ci ildə hakimiyyətdən gedəndən təxminən iki həftə sonra erməni separatçıları Dağlıq Qarabağın Azərbaycandan ayrılması haqqında ilk dəfə məsələ qaldırdılar. Özü də xarici mətbuatda. Erməni lobbisinin SSRİ-dəki fəal üzvləri, onların böyük əksəriyyəti o vaxt SSRİ-nin rəhbəri Qorbaçovun ətrafında birləşmişdilər. Demək olar ki, Qorbaçovun ətrafı böyük

dərəcədə ermənilərdən ibarət idi. Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırılmasında o separatçıların, millətçilərin, Azərbaycana, Azərbaycan xalqına düşmən kimi baxan insanların da böyük rolu olmuşdur. Çünki onlar bilirdilər ki, Heydər Əliyev nə qədər Moskvada, Kremldə oturur, Dağlıq Qarabağın Azərbaycandan ayrılması məsələsi heç vaxt qaldırıla bilməz. Əfsuslar olsun ki, Azərbaycanda bəzi milli xainlər də ona qarşı erməni millətçiləri tərəfindən mərkəzə ünvanlanmış anonim məktublara qoşulmuşdular. Onların da bu işlərdə əli olmuşdur. Nəticədə Azərbaycanda rəhbərliyə gəlmiş insanlar respublikanı idarə edə bilməmiş və faktiki olaraq, mərkəzi hakimiyyətin vassallarına çevrilmişdilər. Düzdür, Azərbaycan 1987-ci ildə müstəqil deyildi. Buna baxmayaraq, respublikanın kifayət qədər imkanları var idi ki, milli məsələlərdə müəyyən dərəcədə öz prinsipiallığını, müstəqilliyini göstərsin və başqa respublikalar kimi, mərkəzi hakimiyyətə öz iradəsini diktə etsin. Əfsuslar olsun ki, bu belə olmadı və Azərbaycanın yavaş-yavaş tənəzzülə uğraması başladı və nəticədə qanlı yanvar hadisəsi baş verdi.

Qanlı yanvar hadisəsi Azərbaycan xalqına qarşı ən böyük cinayətlərdən biridir. Bu cinayəti mərkəzi hakimiyyət öz vətəndaşlarına qarşı törətmişdir. Buraya yeridilən qoşunlar günahsız dinc insanları qətlə yetirmişdir. Yüzdən artıq insan öldürülmüş, yüzlərlə adam yaralanmış, itkin düşmüşdür. Yenə də o ağır anda baxmayaraq ki, Heydər Əliyev təqaüddə idi və mən bunu yaxşı bilirəm, ümumiyyətlə, 1987-ci ildən onun siyasətlə məşğul olmağa heç bir marağı yox idi – Azərbaycan xalqına qarşı bu təcavüzə dözə bilmədi. Baxmayaraq ki, o vaxt Sovet İttifaqının və Kommunist Partiyasının kifayət qədər böyük gücü var idi, hələ Sovet İttifaqının dağılmasına iki il qalırdı. O vaxt heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı nə vaxtsa dağılacaqdır.

Heydər Əliyev yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mərkəzi hakimiyyəti, Qorbaçovu, Kommunist Partiyasını açıq ittiham etdi. Açıq bil-

dirdi ki, bu, Azərbaycan xalqına qarşı edilən cinayətdir. Ondan sonra nə oldu – bunu hamımız yaxşı bilirik. Bundan sonra ona qarşı həm kommunist mətbuatında böyük kampaniya başlanmışdı, həm də təftiş orqanlarına göstəriş verilmişdi ki, Heydər Əliyevin fəaliyyəti araşdırılsın və o cəzalandırılsın. Onu da deyə bilərəm – bunu ictimaiyyət bilir, mən bu işlərin içində olan bir adam kimi deyirəm – o vaxt Heydər Əliyevin həbsi haqqında planlar hazırlanmışdı və artıq hər şey buna doğru gedirdi. Bu bir daha onu göstərir ki, Heydər Əliyev əyilməz iradə sahibi idi, prinsipial və əsl vətənpərvər insan idi. O, təqaüddə idi, daim təzyiqlər və nəzarət altında idi və bəlkə də onun yerində başqası olsa, deyərdi ki, bu mənim işim deyil.

Ancaq Heydər Əliyev üçün başlıcası Azərbaycan xalqının maraqları idi və o, ədalətsizliyə dözə bilmədi. Azərbaycan xalqına qarşı törədilən cinayətə dözə bilmədi, öz səsini ucaltdı və onun səsi bütün dünyaya yayılmışdı. Dünya mətbuat orqanları onun daimi nümayəndəlikdəki mətbuat konfransında dediyi sözləri yaymışdı. Beləliklə, bu hadisə dünyada daha da geniş yayıldı. Əgər o olmasaydı, qapalı bir dövlət olan Sovet İttifaqı bəlkə də o vaxt bunu ört-basdır edə bilərdi.

Bundan sonra təbii ki, ona qarşı təzyiqlər güclənmişdi və Moskvada qalmaq təhlükəli idi və o, doğma Vətənə, Azərbaycana üz tutdu. Ancaq Azərbaycanın o vaxtkı rəhbərləri birbaşa cinayətkar kommunist və Qorbaçov rəhbərliyinin əlaltıları idilər və imkan vermirdilər ki, Heydər Əliyev Bakıda qalsın. O Bakıda küçəyə gəzintiyə çıxmışdı. Dərhal böyük izdiham yarandı, insanlar onun arxasınca getməyə başladılar. O haraya gedir, insanlar da onun arxasınca gedir və bu kütlə böyüyürdü. Bu o vaxtkı rəhbərləri narahat etmişdi. Polisləri göndərmiş və Heydər Əliyevə xəbərdarlıq etmişdilər ki, siz burada qanunsuz mitinq keçirməyin. O da demişdi ki, mən mitinq keçirmirəm, sadəcə olaraq, öz doğma şəhərimdə gəzintiyə çıxmışam.

Yəni biz bu hadisələri xatırlayarkən bir daha görürük ki, ədalətsizliyin, əsassız ittihamların və haqq-ədalətə qarşı hərəkətin heç vaxt uğurlu nəticəsi ola bilməz.

Heydər Əliyev Naxçıvana getməyə məcbur oldu və naxçıvanlılar onu Ali Məclisin sədri vəzifəsinə seçdilər. O illərdə ilk dəfə olaraq, Azərbaycanda üçrəngli bayraq məhz Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Məclisinin qərarı ilə onun binasında ucaldıldı. O vaxt bu, Bakıda sovet Azərbaycanının bayrağı altında oturanlar üçün də böyük bir dərs oldu. Onda Sovet İttifaqı dağılmamışdı, Azərbaycan müstəqil deyildi. Amma Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını Heydər Əliyev Naxçıvanda Dövlət bayrağı elan etmişdi. Naxçıvanda, Azərbaycanın ayrılmaz hissəsində üçrəngli bayraq Dövlət bayrağı elan olunmuşdu. Sovet İttifaqı dağılandan sonra burada, Bakıda da bu bayraq ucaldıldı və indi o, Azərbaycanın Dövlət bayrağıdır.

Naxçıvanın erməni qəsbkarlarından xilas edilməsində Heydər Əliyevin çox böyük rolu olmuşdur. O, Naxçıvanı qorudu və Ermənistan tərəfindən bütün silahlı basqınların qarşısı alındı, düşmən yerində oturduldu. Naxçıvanın hüdudlarını qoruya bildi. Baxmayaraq ki, Naxçıvan, demək olar ki, mühasirədə idi, çünki sərhədin böyük hissəsi Ermənistanladır. Heydər Əliyevin həm siyasi səriştəsi, təcrübəsi, həm qətiyyəti, həm də cəsarəti sayəsində bütün naxçıvanlılar səfərbər olunmuşdu və doğma diyarı qoruya bildilər.

Azərbaycanda 1993-cü ildə böhran yarananda, bundan əvvəl Heydər Əliyevi Naxçıvanda hakimiyyətdən devirmək istəyənlər – o vaxtkı Xalq Cəbhəsi–Müsavat hakimiyyətinin rəhbərləri məcbur olub onu Bakıya dəvət etdilər. Ona görə yox ki, Azərbaycanın xilasının yalnız Heydər Əliyevlə bağlı olduğunu anladılar. Ona görə ki, onların özlərinin həyatı təhlükə qarşısında idi. Çünki onlara qarşı edilən hərəkətlər onları təşvişə salmışdı, bəziləri qaçıb gizlənmişdilər, bəziləri isə öz vəzifələrini dondurmuşdular. 1993-cü ildə Azərbaycanda yaşanan böhran əslində gənc Azərbaycan Respub-

likasının müstəqilliyinə son qoya bilərdi. Biz bu acı tarixi artıq bir dəfə – 1920-ci ildə yaşamışdıq. O vaxt da cəmi iki il ərzində Azərbaycan müstəqil respublika kimi yaşaya bildi, ondan sonra süqut etdi.

1993-cü ildə eyni vəziyyət təkrarlana bilərdi. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində bunun qarşısı alındı, böhrana son qoyuldu, bütün qanunsuz silahlı birləşmələr tərksilah edildi və ölkə inkişaf etməyə başladı. 1993–2003-cü illər bizim hamımızın yaxşı xatirindədir: sabitlik və inkişaf illəri, Azərbaycanın dirçəliş illəri, Azərbaycanın xarici mövqelərinin möhkəmlənməsi illəri, neft müqavilələrinin imzalanması illəri. Bu gün Azərbaycanın uğurlu inkişafında o vaxt Heydər Əliyev tərəfindən atılmış addımlar müstəsna rol oynayır. Bu gün bizim dövlət büdcəmiz, icmal büdcə 16 milyard dollara yaxındır. Nəyin hesabına?! Məhz 1994-cü ildə bu salonda imzalanmış «Əsrin müqaviləsi»nin icrası hesabına. Azərbaycan dünya üçün böyük həcmdə qaz ixrac edən ölkəyə çevrilibdir. Nəyin hesabına?! Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildə «Şahdəniz» müqaviləsinin imzalanması hesabına. Yəni belə misallar çoxdur, istənilən sahədə – istər iqtisadi, sosial, xarici siyasət sahəsində, istərsə də qaçqınların və məcburi köçkünlərin yeni şəraitlə, yeni qəsəbələrlə təmin olunması sahəsində vardır. Bütün istiqamətlərdə Heydər Əliyevin fəaliyyəti Azərbaycanı inkişaf etdirdi, onun müstəqilliyini möhkəmləndirdi. Bu gün biz gələcəyə inamla baxırıq. Bu gün Heydər Əliyevin siyasi xətti davam etdirilir.

Mən 2003-cü ildə prezident seçkiləri ərəfəsində və seçkilərdən sonra andiçmə mərasimində demişdim ki, Azərbaycanın gələcək uğurları Heydər Əliyevin siyasəti ilə bağlıdır. Bu siyasətə alternativ yoxdur. Yalnız bu siyasət Azərbaycanı uğurlu gələcəyə aparacaqdır. Həyat və bizim fəaliyyətimiz, Heydər Əliyevin davamçılarının fəaliyyəti bunu sübut etdi. Bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Son dörd il ərzində iqtisadiyyatımız 96 faiz art-

mışdır. Yoxsulluq 49 faizdən 16 faizə düşmüşdür. 600 mindən çox yeni iş yerləri açılmışdır və dövlət büdcəsi 10 dəfədən çox artmışdır. Biz buna Heydər Əliyev siyasi xəttinə sadiqliyimiz hesabına nail ola bilmişik. Azərbaycanın uğurlu gələcəyi, Azərbaycanın güclü inkişaf etmiş ölkəyə çevrilməsi – buna artıq heç kimdə şübhə yoxdur. Çünki bunlar Heydər Əliyevin siyasi xətti ilə bağlıdır. Biz, onun davamçıları bu siyasətə sadiqik və bundan sonra əlimizdən gələni edəcəyik ki, Azərbaycan daha da inkişaf etsin, qüdrətli və inkişaf etmiş ölkəyə çevrilsin.

Heydər Əliyev qalib idi. O, bütün döyüşlərdən qalib kimi çıxıb, heç kim ona qalib gələ bilməmişdir. 1987-ci, 1990-cı, 1991-ci illərdəki müvəqqəti məğlubiyyət əslində məğlubiyyət deyildi. O, yeni güclə, yeni enerji ilə siyasi mübarizəyə qoşuldu, yenidən qələbə qazandı və tarixdə qalib kimi qaldı. Heç kim və heç nə ona qalib gələ bilmədi. Nə xarici düşmənlər, nə də Azərbaycanda özünü ona rəqib qismində təqdim etməyə çalışanlar, bəzi uğursuz siyasətçilər. Ona zaman da qalib gələ bilmədi.

Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq o, bizim ürəyimizdə yaşayır, qəlbimizdə yaşayır, onun əməlləri, ideyaları yaşayır, onun siyasəti yaşayır və əbədi yaşayacaqdır!

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ PASKAL KUŞPENİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*12 may 2008-ci il*

*Mayın 12-də İsveçrə Konfederasiyasının Prezidenti Raskal Kuşpen Bakıya gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İsveçrə prezidenti Paskal Kuşpeni və xanımı Brijit Kuşpeni səmimiyyətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi İsveçrə prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında İsveçrənin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və Paskal Kuşpen Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. İsveçrə prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Paskal Kuşpenə, İsveçrə nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ PREZİDENTİ PASKAL KUŞPENİN TƏKBƏTƏK GÖRÜŞÜ

*12 may 2008-ci il*

*Mayın 12-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişafından məmnunluq ifadə edildi və əlaqələrin daha da genişlənməsi üçün yaxşı perspektivlərin olduğu vurğulandı.*

*Azərbaycanla İsveçrə Konfederasiyası arasında yüksək səviyyəli görüşlərin əhəmiyyətinə toxunuldu və prezident Paskal Kuşpenin ölkəmizə səfərinin qarşılıqlı əlaqələrin daha da genişlənməsinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

*Dövlət başçıları ikitərəfli münasibətlərə, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi apardılar.*

## AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*12 may 2008-ci il*

*Mayın 12-də Azərbaycan və İsveçrə Konfederasiyasının dövlət başçıları geniş tərkibdə görüş keçirmişlər.*

*Azərbaycan prezidenti İlham Əliyev görüşü açaraq dedi:*

– Bu bizim münasibətlərimiz tarixində İsveçrə Konfederasiyası Prezidentinin Azərbaycana ilk səfəridir. Mən bilirəm ki, Siz Azərbaycanda müəyyən yerlərə səfər etmisiniz və insanlarla görüşmüsünüz. Bizim bugünkü danışıqlarımız dostluq və konstruktiv şəraitdə keçibdir. Əminəm ki, Sizin Azərbaycana səfəriniz və onun nəticələri uğurlu olacaqdır. Bu bizim əlaqələrimizin yeni səhifəsidir. Biz tərəfdaşlığımızın bütün istiqamətlərində inkişafa böyük nikbinliklə baxırıq. Hazırda hər iki ölkədə səfirliklər var, ikitərəfli layihələr və inkişaf üçün geniş imkanlar mövcuddur. Ümid edirəm ki, səfəriniz başlandığı kimi, uğurla da davam edəcəkdir. Sizə xoş arzularımı yetirirəm.

**Paskal Kuşpen**: Cənab Prezident, bu gözəl sözlərə və səmimi qəbula görə təşəkkür edirəm. Bu səmimi münasibəti biz ölkəyə gəldiyimiz andan hiss edirik. Doğrudur, artıq bizim aramızda yaxşı münasibətlər yaranmışdır, lakin bunun daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar var. Qeyd etmək istəyirəm ki, səfirlərimiz də iqtisadi münasibətlərimizin daha da genişlənməsinə öz töhfələrini verə bilərlər. Təbii ki, bu münasibətlər gələcəkdə daha da genişlənəcəkdir. Mədəni əlaqələrimizi də inkişaf etdirməliyik ki, bir-birimizi daha yaxından tanıyaq. Bu çox vacibdir.

Çünki indiki əlaqələrimizin səviyyəsi bizi o qədər də qane edə bilməz. Lakin biz mövcud əlaqələrdən də başlaya bilərik, onlar yaxşı səviyyədədir. Onu da deyim ki, iki ölkə arasında ticarət dövriyyəsi get-gedə artır və əminəm ki, bundan sonra da artacaqdır.

# AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*12 may 2008-ci il*

*Geniş tərkibdə görüşdən sonra hər iki ölkənin prezidenti bəyanatla çıxış etdilər.*

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Cənab Prezident!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Sizi və nümayəndə heyətinizi burada qəbul etməkdən çox məmnunam. Biz bu gün qarşılıqlı maraq doğuran bir çox məsələləri geniş müzakirə etdik. İkitərəfli məsələləri müzakirə etdik, ölkələrimiz arasında siyasi müstəvidə əlaqələrimizin səviyyəsindən razılıq ifadə olundu. Bu, iki ölkə arasındakı ikitərəfli əlaqələrin tarixində İsveçrə prezidentinin Azərbaycana ilk səfəridir. Əminəm ki, bu səfər iki ölkə arasındakı əlaqələrin inkişafında yeni mərhələ açacaqdır. Biz əməkdaşlığımızın daha da gücləndirilməsinə, qarşılıqlı layihələrə, o cümlədən sərmayə imkanlarına dair məsələləri, beynəlxalq məsələləri, regional inkişafı və şübhəsiz ki, gələcək perspektivləri müzakirə etdik. Biz şadıq ki, İsveçrənin aparıcı şirkətləri bir neçə ildir ölkəmizdə fəaliyyət göstərir və buradakı işlərini genişləndirmək məqsədi ilə yeni layihələr və yatırımlar baxımından bəzi fikirləri də var. Biz İsveçrənin şirkətlərini dövlət büdcəsindən maliyyələşən yeni layihələrdə sərmayədar və ya müqaviləçi qismində iştirak etməyə dəvət edirik.

Biz enerji sektorunda əməkdaşlıq imkanlarını da müzakirə etdik və hazırda əlaqələrin dərinləşdirilməsi üçün yeni imkanların olduğunu görürük. Azərbaycan böyük neft və qaz ehtiyatlarına malik olan ölkədir. Hasilat ilbəil artır, bizim müasir və çox səmərəli nəqliyyat infrastrukturumuz mövcuddur, o cümlədən beynəlxalq və Avropa bazarlarını bizə açan neft və qaz kəmərlərimiz var. Biz İsveçrəni bu işlərdə ölkəmiz üçün potensial tərəfdaş hesab edirik. Biz şadıq ki, şirkətlər səviyyəsində ciddi danışıqlar aparılır və ümid edirik, yaxın gələcəkdə bu danışıqların əyani nəticəsinin şahidi olacağıq.

Prezidentin xarici ölkəyə səfəri əlaqələr baxımından həmişə ən mühüm ictimai hadisədir. Hesab edirəm ki, bu, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafına böyük təkan verəcəkdir. Biz təkcə siyasi və iqtisadi əlaqələrlə kifayətlənməməliyik. Hesab edirəm ki, humanitar sahədə də mühüm işlər görülə bilər və insanların bir-biri ilə ünsiyyəti çox vacibdir. Mən çox şadam ki, İsveçrə prezidenti Azərbaycanın müxtəlif yerlərinə səfər etmək, mühüm infrastruktur obyektləri ilə yaxından tanış olmaq imkanı əldə etdi. Artıq indi onun Azərbaycan haqqında daha ətraflı məlumatı var. Düşünürəm ki, səfərin özü və onun nəticələri ölkələrimiz arasında əlaqələrin dərinləşməsinə gətirib çıxaracaqdır. Biz bunu görməkdə maraqlıyıq. Biz İsveçrəni ölkəmiz üçün əhəmiyyətli dost və tərəfdaş hesab edirik və ikitərəfli əlaqələrin inkişafı qarşılıqlı maraqlara xidmət edəcəkdir. Təşəkkür edirəm.

## İsveçrə prezidenti Paskal Kuşpenin bəyanatı

Azərbaycana səfər etməkdən və prezident İlham Əliyevlə görüşməkdən məmnunam. Biz onunla bu ilin əvvəlində Davosda görüşmüşük. Orada görüşümüz qısa oldu. İki ay bundan əvvəl isə NATO-nun Buxarest sammitində görüş-

müşük. İsveçrə prezidenti üçün bu səfər ölkənizdə baş verənlərin şəxsən şahidi olmaq baxımından yaxşı imkandır. Deyim ki, ölkənizin inkişafından çox təəssüratlandım. Bu inkişafda əsas tərəflərin və xüsusilə də dövlət başçısının, siyasi rəhbərliyin açıqlığını qeyd etməliyəm. Səhərki danışıqlarımız çox konstruktiv şəkildə keçdi. Biz iqtisadi əməkdaşlığı daha da genişləndirmək fikrini bölüşdük. İsveçrə şirkətlərinin nümayəndələri tikinti və energetika sektorunda fəaliyyət göstərmək üçün bizə müraciət ediblər və cənab Prezidentin dediyi kimi, böyük layihələr həyata keçirilir. Xəyallarda yox, reallıqda. İsveçrə şirkətləri Azərbaycana sərmayə qoymağa hazırdılar. Çünki onlar Azərbaycanın və regionun gələcəyinə inanırlar. Azərbaycan dünyanın bu regionunun inkişafına müsbət təsir göstərir.

Mədəni sahədə əlaqələrimizin genişləndirilməsini müzakirə etdik. Son illər ərzində həm İsveçrədə, həm də Azərbaycanda bir neçə mədəni tədbirlər keçirilmişdir. Burada mən beynəlxalq caz festivalını qeyd etmək istəyirəm. Mədəniyyət və Turizm nazirinizin sözlərinə görə, o, İsveçrədə keçirilən caz festivalında iştirak etmişdir.

Biz regionda siyasi vəziyyəti, gələcəyi və qonşularından biri tərəfindən təcavüzə məruz qalan Azərbaycanın mövqeyini də müzakirə etdik. Minsk qrupunun fəaliyyəti və nəticələrin ləng olması ilə bağlı fikir mübadiləsi apardıq. Ümid edirik ki, münaqişə yaxın gələcəkdə öz həllini tapacaq, çünki bu, regionun inkişafı üçün çox vacibdir. Biz Azərbaycanda keçiriləcək seçkilər barədə də danışdıq. Bundan əlavə, görüşlərimizin və əlaqələrimizin yaxşı səviyyədə olduğunu vurğuladıq. Lakin biz bu istiqamətdə konkret addımlar atmaq istəyirik ki, ticari-iqtisadi, siyasi və mədəni əlaqələrimizi daha da inkişaf etdirək. Sizin qonaqpərvərliyinizə görə dərin təşəkkürümü bildirirəm və Sizi İsveçrədə görməkdən məmnun olaram.

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ PASKAL KUŞPEN HEYDƏR ƏLİYEV FONDUNDA

*12 may 2008-ci il*

*İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpen mayın 12-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və fondun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva İsveçrənin dövlət başçısını və onun xanımı Brijit Kuşpeni səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədləri, ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar barədə ətraflı məlumat verdi.*

*İsveçrə Konfederasiyasının Prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.*

*Prezident Paskal Kuşpen fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*İsveçrənin dövlət başçısına Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu. Qonaqlar Heydər Əliyev Fondunun fəaliyyəti haqqında filmə baxdılar.*

*Ali qonaq fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*12 may 2008-ci il*

*Mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları qəbulda nitq söylədilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli xanım Kuşpen!

Əziz qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, mən ilk növbədə, Sizi və nümayəndə heyətinizi bir daha burada salamlamaq istəyirəm və səfərin nəticələrindən məmnun olduğumu bildirirəm. Bu gün bizim təkbətək söhbətimiz və nümayəndə heyətlərinin geniş tərkibli görüşü zamanı çox səmərəli və konstruktiv danışıqlarımız oldu. Təmaslar zamanı münasibətlərimizi daha da genişləndirmək kimi ümumi arzumuzu ifadə etdik.

Sizin səfəriniz tarixidir, çünki bu, İsveçrə prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Biz Sizin bu gəlişinizə böyük əhəmiyyət veririk. Çox şadam ki, səfərin nəticələri olduqca müsbətdir.

Onu da qeyd etmək istəyirəm ki, İsveçrə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşdur. Ölkəmiz uzun əsrlərdən, illərdən sonra öz müstəqilliyini bərpa etmişdir. Bu vaxt çərçivəsində münasibətlərimiz uğurla inkişaf etmiş, yaxşı təmaslarımız olmuşdur. Amma səmimi desək,

həmin münasibətlər yalnız bu yaxınlarda daha sürətlə inkişaf etməyə başlamışdır. Ölkəmizə səfəriniz əlaqələrin sonrakı inkişafına əlavə təkan verəcəkdir. Əla siyasi münasibətlər olduğu halda, əlbəttə ki, biz ticari əlaqələrimizin genişləndirilməsinə daha böyük diqqət ayıracağıq. Artıq ölkəmizdə bir neçə tanınmış İsveçrə şirkəti sərmayədar və ya podratçı qismində fəaliyyət göstərir. Biz digər şirkətlərin də buraya gəlməsini alqışlayardıq.

Hazırda regionun əhəmiyyəti artmaqdadır. Biz yüksək peşəkarlıq tələb edən böyük layihələr həyata keçiririk. İsveçrə şirkətlərinin təcrübəsi, iş göstəriciləri və keyfiyyəti bütün dünyada tanınır. Gələcək əməkdaşlıq üçün sahələr çox geniş ola bilər. Bu gün biz artıq həmin güclü münasibətlərin inkişafı ilə məşğuluq. Ticari əlaqələr, energetika sahəsində əməkdaşlıq, sərmayələrin qoyulması, tikinti işləri sahəsində, habelə humanitar sahədə işləməliyik. Humanitar sahə haqqında xüsusi düşünməliyik ki, insanlar bir-biri ilə təmasda olsunlar. Mədəniyyət sahəsində mübadilələr olmalıdır.

Azərbaycanı tanıtmaq üçün bir çox işlər görməliyik. Beləliklə, reallıq və ölkəmizdə baş verən hadisələr haqqında beynəlxalq ictimaiyyətdə məlumat olmalıdır. Biz müstəqillik baxımından gənc ölkəyik, lakin tariximiz və mədəniyyətimiz çox zəngindir. Əlbəttə ki, ölkəmizin bugünkü sürətli inkişafı, siyasi islahatlar, beynəlxalq birliyə inteqrasiya vacibdir. Keçid dövrünün çətinliklərini aradan qaldırmaq və çoxşaxəli inkişaf etmək üçün bütün səylərimizi göstəririk. Hazırda iqtisadi göstəricilərimiz çox ümidvericidir. İqtisadi artım ən yüksək səviyyədədir.

Lakin bu regionda problemlər və narahatlıq doğuran məsələlər də var. Əsas məsələ isə Ermənistan ilə Azərbaycan arasında həll olunmamış münaqişədir. Uzun illərdir ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmamış qalır. Torpaqlarımızın işğal altında qalması qəbuledilməzdir. Biz bu münaqişəni sülh yolu ilə həll etməyə çalışırıq, lakin məsələ yalnız beynəlxalq hüquq normaları əsasında həll olun-

malıdır. Azərbaycanın bütün əraziləri, o cümlədən Dağlıq Qarabağ erməni işğalçı qüvvələrindən azad edilməlidir. Qaçqın və məcburi köçkünlərimiz öz torpaqlarına qayıtmaq hüququna malik olmalıdırlar. Belə olarsa, regionda sülh bərqərar olacaqdır. Bu halda, hamı bundan yararlanar. Biz problemin həlli ilə bağlı səylərimizi davam etdirəcəyik, lakin eyni zamanda, başa düşürük ki, bunu həll etmək üçün imkanlarımız daha da güclənməlidir. Ona görə də biz siyasi, iqtisadi və hərbi islahatlara xüsusi diqqət yetiririk. Bütün bunlar istənilən ölkəni gücləndirir. Bunu etmək üçün potensialımız var.

Xarici siyasət təşəbbüslərinə gəldikdə, bütün bunlar tərəfdaşlıq və dostluğun möhkəmləndirilməsinə yönəlibdir. Biz İsveçrəni özümüzə dost ölkə hesab edirik. Bu ölkə öz tarixində böyük nailiyyətlər əldə etmişdir və indi hər bir sahədə dünyanın ən inkişaf etmiş ölkələrindən biridir. Əlbəttə ki, Sizin ölkənizlə münasibətlər bizim üçün çox əhəmiyyətlidir və səfərinizi ikitərəfli münasibətlərimizdə mühüm bir hadisə hesab edirik.

Cənab Prezident, mən bu badəni Sizin, xanım Kuşpenin və İsveçrə xalqının sağlığına, İsveçrə ilə Azərbaycan arasında dostluğun şərəfinə qaldırmaq istəyirəm.

## İsveçrə prezidenti Paskal Kuşpenin nitqi

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İndi, bu gün axşam İsveçrə Konfederasiyasının Prezidenti kimi, ilk rəsmi səfərimlə bağlı təəssüratları bölüşmək növbəsi mənimdir. Sizin burada söylədiyiniz fikirlərə mən tam şərik çıxıram. Əminəm ki, çox mehriban münasibətlərə əsaslanaraq, ölkələrimiz gələcəyə doğru birgə addımlar ata və mədəni, iqtisadi və siyasi inkişaf sahəsində nəticələr əldə etmək üçün bir-birinə kömək edə bilər.

Mən ölkəniz haqqında çox eşitmişdim. Cənab Prezident, mən Sizinlə bu il iki dəfə görüşmüşəm. Lakin onu deyə bilərəm ki, yarım saat vaxt ərzində Azərbaycanın bütün gözəlliyini təsvir etmək mümkün deyildir. Mən müasir dünyaya açıq olan, inkişaf edən cəmiyyəti ilə seçilən, yaxşı təhsil almış gənclərə malik və nəhayət, tutduğu yolla qətiyyətli və vətənpərvərlik hissləri ilə addımlayan, vətəndaşlarının həyatını yaxşılaşdırmağa çalışan siyasi rəhbərliyi olan ölkəni özüm üçün kəşf etdim.

Siz atanızın əsas tutduğu eyni fəlsəfəni davam etdirirsiniz. Elə indicə biz Heydər Əliyev Fondunu ziyarət edərək, atanızın, demək olar ki, həyatı ilə addım-addım tanış olduq. İnanıram ki, O, Sizi və hökumətinizin üzvlərini öz işlərinizdə şövqləndirən şəxsiyyətdir.

İsveçrənin də kəşməkəşli tarixi olubdur. Biz Avropanın mərkəzində yerləşirik və əvvəllər böyük dövlətlərdən asılı idik. Lakin biz uğurlar əldə etdik, baxmayaraq ki, onlar da asan olmamışdır. Bəzi hallarda güzəştlərə gedirdik və həll yollarını araşdırırdıq. Bir çox söhbətlər və mübahisələr olurdu. Lakin ölkəmizin azadlığını qoruyub saxlaya bildik. Bu gün isə biz bütün Avropa ölkələrinin tərəfdar çıxdığı dəyərləri təşviq edirik.

Azərbaycan Avropa məkanına aiddir. Ölkəniz ümumi dəyərləri bölüşmək istəyir və bunu edir. Bu amil hətta iqtisadi münasibətlərdən daha çox bizi bir-birimizə bağlayır. Bilirik ki, həmin dəyərləri ümumi şəkildə bölüşmək ölkələr üçün vacibdir. Sizin rəhbərliyiniz altında ölkənizin iqtisadi inkişaf sürəti mənə böyük təəssürat bağışladı. Hesab edirəm ki, Sizin kimi rəhbərin olması və neft amili istənilən hər bir ölkə üçün ideal variantdır.

Mən öz badəmi şəxsən Sizin, birinci xanımın, Heydər Əliyev Fondunun prezidenti xanım Əliyevanın sağlığına və ölkənizin hakimiyyət orqanlarının, cənab spikerin, burada əyləşən nazirlərin, dostlarımızın sağlığına və ölkənizin şərəfinə qaldırmaq istəyirəm.

## İNDONEZİYANIN XARİCİ İŞLƏR NAZİRİ NOER HƏSƏN VİRAYUDA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Prezident sarayında İndoneziyanın Xarici İşlər naziri Noer Həsən Virayudanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev İndoneziyanın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, nazirin ölkəmizə səfəri qarşılıqlı əlaqələrin daha da inkişafına töhfə verəcəkdir.*

*Noer Həsən Virayuda İndoneziya prezidenti Susilo Bambanq Yudhoyononun salamlarını və ölkəsinə dəvətini dövlətimizin başçısına çatdırdı. İndoneziya naziri ölkələrimiz arasında siyasi əlaqələrin daim genişləndiyini, ikitərəfli münasibətlərin digər sahələrdə, o cümlədən iqtisadi sahədə daha da möhkəmlənməsi üçün yaxşı perspektivlərin olduğunu bildirdi.*

*Dövlətimizin başçısı İndoneziya prezidenti Susilo Bambanq Yudhoyononun salamlarına və dəvətinə görə minnətdarlığını bildirdi, özünün də salamlarını İndoneziyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ BORİS QRIZLOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Prezident sarayında Rusiya Federasiyası Dövlət Dumasının sədri Boris Qrızlovu qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, parlamentlərarası əlaqələrin genişlənməsinin ikitərəfli münasibətlərin daha da dərinləşməsinə xidmət etdiyi bildirildi.*

*Söhbət zamanı ali qanunverici orqanlar arasında əməkdaşlığın perspektivləri, eləcə də ikitərəfli əlaqələrin müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı, əməkdaşlığın bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

## KUBANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ MARTİ MARTİNES XORXE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Prezident sarayında Kubanın ölkəmizdəki səfiri Marti Martines Xorxeni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir. Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğu vurğulandı, bu əlaqələrin müxtəlif sahələrdə daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

## RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN STATS-KATİBİ, NAZİR MÜAVİNİ QRİQORİ KARASİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Prezident sarayında Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin stats-katibi, nazir müavini Qriqori Karasini qəbul etmişdir.*

*Qriqori Karasin ölkələrimiz arasında əlaqələrin dinamik şəkildə inkişaf etdiyini vurğuladı. Qonaq bildirdi ki, Rusiya rəhbərliyi ikitərəfli münasibətlərin daha da genişlənməsinə böyük önəm verir.*

*Prezident İlham Əliyev Azərbaycan–Rusiya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirdi və ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyinə əminliyini söylədi.*

## «AVROPADA SUBREGİONAL ÇƏRÇİVƏDƏ SAVADLILIQ PROBLEMLƏRİNƏ BAXIŞ: TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİNİN QURULMASI VƏ İNNOVATİV YANAŞMALARIN TƏTBİQİNƏ DƏSTƏK» MÖVZUSUNDA YUNESKO-nun REGİONAL KONFRANSINA

Hörmətli konfrans iştirakçıları!

Sizin hamınızı səmimi-qəlbdən salamlayır, hər birinizə uzun ömür, cansağlığı və konfransınızın işinə uğurlar arzu edirəm.

Qloballaşma proseslərinin getdikcə dərinləşdiyi müasir dünyada təhsilin vahid ölkə çərçivəsindən çıxaraq, ümumbəşəri dəyərə çevrildiyi bir şəraitdə sizin savadlılıq problemi ətrafında müzakirələr aparmağınız təqdirəlayiqdir. İnformasiya cəmiyyətinin qurulması yolunda uğurlu addımlar atan Azərbaycan rastlaşdığı yeni tipli problemləri həll etməyə çalışır. Məhz bu baxımdan Bakıda belə bir konfransın keçirilməsi böyük əhəmiyyət kəsb edir və bizə Avropa ölkələrinin müsbət təcrübəsindən bəhrələnmək üçün geniş imkanlar yaradır. Əminəm ki, konfrans YUNESKO ilə əməkdaşlığımızın daha da genişləndirilməsinə öz töhfəsini verəcəkdir.

Bu gün ölkəmizdə savadsızlıq probleminin hələ əlli il bundan əvvəl öz həllini tapdığını düşünənlər əksəriyyət təşkil edir. Sizin konfransınız qloballaşan dünyada savadlılıq anlayışının yeni mənasını açıqlayır və hər bir insanın yaxın gələcəkdə istər əmək bazarında, istərsə də cəmiyyətdə ciddi problemlərlə üzləşə biləcəyindən xəbər verir. Digər tərəfdən, konfransda qoyulan məsələlər vətəndaş cəmiyyətinin bütün strukturları üçün geniş fəaliyyət dairəsi açır və insanların bütün ömür boyu təhsil almalarının zəruriliyini xüsusi vurğulayır.

Sürətli iqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycanda cəmiyyət həyatının strateji sahələrindən olan təhsilə qayğı gündən-günə artırılır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma torpaqlarından qovulmuş bir milyondan artıq qaçqın və məcburi köçkünün təhsil problemləri isə daim diqqət mərkəzindədir. Ümidvaram ki, onların təhsili ilə bağlı məsələlər də konfransınızın müzakirə obyektinə çevriləcəkdir.

Sözsüz ki, sizin konfrans Avropada savadlılıq səviyyəsinin artırılması istiqamətində atılmış ciddi addım olacaq və YUNESKO-nun təhsillə əlaqədar strateji sənədlərində bəyan etdiyi məqsədlərə çatmaq istiqamətində yeni mərhələ təşkil edəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2008-ci il*

## YUNESKO-nun BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Prezident sarayında YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla YUNESKO arasında əlaqələrin yüksək səviyyədə olduğu, ölkəmizdə bu təşkilatın xətti ilə keçirilən uğurlu tədbirlərin əməkdaşlığın daha da genişlənməsinə töhfə verdiyi bildirildi. Cənab Koişiro Matsuura ilə Azərbaycan prezidenti arasında keçirilən səmərəli görüşlərin əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti vurğulandı və əməkdaşlığın bundan sonra da dərinləşəcəyinə əminlik ifadə olundu.*

# BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNDƏ APARILAN TİKİNTİ İŞLƏRİ İLƏ TANIŞLIQ

*15 may 2008-ci il*

*Mayın 15-də Azərbaycan prezidenti İlham Əliyev YUNESKO-nun dəstəyi ilə yaradılan Beynəlxalq Muğam Mərkəzində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Muğam Mərkəzi ilə tanışlıqda Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva, habelə ölkəmizdə səfərdə olan YUNESKO-nun Baş direktoru Koişiro Matsuura, təşkilatın Xoşməramlı səfirləri – İordaniya şahzadəsi xanım Ferial, İslandiyanın sabiq prezidenti xanım Viqdos Finnboqadottir də iştirak edirdilər.*

*Mədəniyyət naziri Əbülfəs Qarayev tikinti işlərinin gedişi barədə ətraflı məlumat verdi. Bildirildi ki, Heydər Əliyev Fondunun milli-mədəni dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı möhtəşəm layihələr sırasında xüsusi əhəmiyyəti olan mərkəz fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə tikilir.*

*2005-ci ilin avqustunda prezident İlham Əliyevin, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın və YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın iştirakı ilə təməli qoyulmuş Beynəlxalq Muğam Mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarət olacaqdır. Binanın forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. Ən müasir texnologiyadan istifadə edilməklə tikilən bina üçün lazımi avadanlıq İtaliya, Avstriya, Fransa və Türkiyədən gətirilir. İnşaat işləri zamanı 2 mindən çox müxtəlif ölçülü şüşədən istifadə olunmuşdur.*

*Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulan Beynəlxalq Muğam Mərkəzində 350 yerlik konsert salonu, klub, 80 nəfərlik restoran, dərs otaqları, səsyazma studiyası olacaqdır. Bina müasir havalandırma və istilik sistemləri ilə təchiz ediləcəkdir.*

*Tarın qolunu xatırladan dəhlizdə Azərbaycanın görkəmli muğam ifaçılarının büstləri qoyulacaqdır.*

*Prezident İlham Əliyev Mərkəzin salonunu, otaqlarını gəzdi, maketinə baxdı, tikinti işlərinin yüksək səviyyədə və vaxtında başa çatdırılması ilə bağlı tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN XALÇASI VƏ XALQ TƏTBİQİ SƏNƏTİ DÖVLƏT MUZEYİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*15 may 2008-ci il*

*Mayın 15-də dənizkənarı Milli Parkın ərazisində Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi binasının təməlqoyma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Heydər Əliyev Fondunun təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə inşa olunacaq bina bükülmüş xalçanı xatırladacaqdır. Binanın layihəsini müsabiqədə qalib gəlmiş Avstriyanın HOFFMANN-JANZ-MATZAKA şirkəti hazırlamışdır. Tikinti işlərini isə yerli AİKON şirkəti həyata keçirəcəkdir.*

*Ümumi sahəsi 18 min 446 kvadratmetr olacaq üçmərtəbəli binanın birinci mərtəbəsində sərgi salonu, kitabxana, elmi xalçaçılıq toxuma və tikmə mərkəzi, suvenir və kitab köşkü, ikinci mərtəbədə danışıqlar və audiovizual təqdimatlar otağı, üçüncü mərtəbədə böyük tərtibat imkanlarına malik sərgi zonası olacaqdır. Binanın altında arxiv, anbar, laboratoriya, bərpa və konservləşdirmə şöbələri yerləşəcəkdir. Açıq havada heykəllərin və xalçaların nümayişi üçün sahə də nəzərdə tutulmuşdur. Muzeyin foyesində cəvahirat və bahalı bəzək əşyalarının sərgisi üçün seyf tipli otaqlar olacaqdır.*

*Layihəyə əsasən, binanın uzunluğu 121,25 metr, eni 22,3 metr, hündürlüyü 18,5 metrdir.*

*Mərasimə toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranı, YUNESKO-nun Xoşməramlı səfirləri –*

*İordaniya şahzadəsi xanım Ferialı və İslandiyanın sabiq prezidenti xanım Viqdos Finnboqadottiri hərarətlə qarşıladılar.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Avstriya şirkətinin nümayəndəsi prezident İlham Əliyevə layihə haqqında məlumat verdilər.*

*Sonra Azərbaycanın qədim el sənətindən bəhs edən «Xalça» filmi nümayiş etdirildi. Filmdə ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Azərbaycanın xalq sənətlərinin, o cümlədən xalçaçılığın qorunmasına və inkişafına qayğısından da bəhs olunur.*

*Prezident İlham Əliyev və YUNESKO-nun Baş direktoru Koişiro Matsuura təməlqoyma mərasimində nitq söylədilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Bu gün ölkəmizin mədəni həyatında çox əlamətdar bir gündür. Bu gün biz Bakıda yeni Xalça Muzeyinin tikintisinə başlayırıq və bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Xalçaçılıq sənəti Azərbaycan mədəniyyətinin bir hissəsidir və qədim dövrlərdən Azərbaycanda yaşayır və inkişaf edir. Azərbaycanda birinci xalçalar eramızdan əvvəl toxunmuşdur. Azərbaycan xalçası öz gözəlliyi, keyfiyyəti ilə həmişə seçilmişdir. Eyni zamanda, Azərbaycan xalçası xalqımızın istedadını göstərir. Xalçaçılıq xalq sənətidir. Ancaq eyni zamanda, Azərbaycanın görkəmli xalçaçılıq ustaları Azərbaycan xalça sənətinin zənginləşməsinə öz böyük töhfələrini vermişlər. Azərbaycan xalçaları dünyanın ən məşhur muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır və nümayiş etdirilir.

Bir sözlə, xalçaçılıq sənəti hər bir azərbaycanlı üçün çox doğma, əziz sənətdir və heç bir azərbaycanlı öz həyatını xalçasız təsəvvür edə bilmir. Amma bütün bunlara baxmayaraq, əfsuslar olsun ki, Azərbaycanda Xalça Muzeyi uyğunlaşdırılmış binada yerləşirdi və əlbəttə ki, Bakıda gözəl xalça muzeyinin tikintisi zərurət idi. Mən çox şadam ki, bu gün biz bu böyük işə başlayırıq. Azərbaycan Xalça Muzeyi indi Muzey Mərkəzində yerləşir, orada həmçinin üç-dörd muzey də yerləşir. Mən o muzeylə tanış olanda gördüm ki, vəziyyət o qədər də ürəkaçan deyil, mütləq və mütləq Azərbaycanda yeni böyük və gözəl xalça muzeyi də tikilməlidir.

Bu gün mən muzeyin layihəsinin yaranmasında böyük rol oynamış Avstriya memarlarını xüsusi salamlayıram. Onların təklifi bütün başqa təkliflərdən üstün olmuş və açıq müsabiqə keçirilmişdir. Hesab edirəm ki, bu layihə öz müasirliyi və Azərbaycan xalçasına xas olan gözəlliyi ilə seçilir. Ümid edirəm ki, qısa müddət ərzində Bakıda gözəl xalça muzeyi tikiləcəkdir. Xalça muzeyini Azərbaycan mütəxəssisləri və fəhlələri tikəcəklər. Onlar bizimlə bərabər buradadırlar və bu işlərdə onlara da böyük uğurlar arzulayıram.

Bu gün mən Azərbaycana gəlmiş YUNESKO-nun Baş direktoru cənab Matsuuranı xüsusi salamlayır və Azərbaycan xalqının hörmətini ona bildirmək istəyirəm. YUNESKO ilə Azərbaycan arasında münasibətlər çox sürətlə və uğurla inkişaf edir. Bu münasibətlər bizə imkan yaradır ki, mədəniyyətlə bağlı olan məsələləri daha da böyük fəallıqla həll edək və bu sahəni ən yüksək səviyyəyə qaldıraq.

Biz Azərbaycanda mədəni irsimizin, tarixi abidələrimizin qorunmasına çox böyük əhəmiyyət veririk. Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda yaşayan bütün xalqların tarixi abidələri lazımi səviyyədə qorunur və bərpa olunur. Əfsuslar olsun ki, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində xalqımıza məxsus bütün tarixi abidələr dağıdılmışdır. Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti tarixi abidələrimizə də böyük ziyan vurmuşdur. Biz

isə Azərbaycanda, ölkəmizdə yaşayan bütün xalqların tarixinə, keçmişinə böyük hörmətlə yanaşırıq və öz əməli işlərimizdə bu məsələlərlə məşğuluq.

Bu gün cənab Matsuura ilə biz vaxtilə birlikdə təməlini qoyduğumuz Muğam Mərkəzinə də baş çəkdik və inşaat işləri ilə maraqlandıq. Cənab Matsuuranın Azərbaycana hər bir gəlişi yeni gözəl layihələrin başlanması ilə nəticələnir. Ümid edirəm ki, növbəti səfər zamanı da biz yeni bir gözəl layihənin başlamasının şahidi olacağıq.

Mən xüsusilə cənab Matsuuranın fəaliyyətini vurğulamaq istəyirəm. Onun Azərbaycana, Azərbaycan mədəniyyətinə olan hörməti və xoş münasibəti hər bir Azərbaycan vətəndaşı üçün çox əzizdir. YUNESKO-nun xətti ilə bu günlərdə Azərbaycanda keçirilən konfransda iştirak etmək üçün gəlmiş bütün əziz qonaqları səmimiyyətlə salamlayıram.

Bu layihənin timsalında bugünkü Azərbaycanı görmək olar. Öz tarixi keçmişimizə, mədəniyyətimizə olan hörmət və eyni zamanda, irəliyə aparan yollar yenilik və ölkəmizin müasirləşməsidir.

Əziz qonaqlar, əziz dostlar! Bu gözəl hadisə münasibətilə mən sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, bütün işlərinizdə uğurlar arzulayıram.

Sağ olun.

## YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın nitqi

Hörmətli Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli Azərbaycan Respublikasının birinci xanımı!

Hörmətli İslandiyanın sabiq Prezidenti!

Hörmətli əlahəzrət İordaniya şahzadəsi!

Hörmətli dostlar, xanımlar və cənablar!

Bu gün mən burada olmağımdan çox xoşbəxtəm. Cənab Prezidentin qeyd etdiyi kimi, mənim yaxşı xatirimdədir, biz

2005-ci ilin avqust ayında cənab Prezidentlə və Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva ilə Beynəlxalq Muğam Mərkəzinin təməlqoyma mərasimində birlikdə iştirak etdik. Bu çox böyük təəssürat bağışlayan mərasim idi. Həmin mərasimdən əvvəl Azərbaycanın muğam sənəti YUNESKO-nun Dünya Mədəni İrsinin şah əsərləri siyahısına daxil edilmişdi. Bundan sonra isə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva məhz muğam sənətinin daha gözəl şəkildə nümayiş etdirilməsi üçün bir çox təqdimatlar keçirmiş və böyük təşəbbüs göstərmişdir. Azərbaycanın muğam sənəti mənim üçün olduqca maraqlıdır və mən bu hadisəni səbirsizliklə gözləyirdim. Məhz buna görə də Azərbaycanda Beynəlxalq Muğam Mərkəzinin təməlqoyma mərasimində iştirak etmək mənim üçün böyük şərəf oldu və bundan çox məmnun qaldım. Amma hər halda, etiraf etməliyəm ki, mən o vaxt gələndə ora tamamilə boş bir yer idi, indi isə çox işlər artıq görülmüşdür. Yəni mən hesab edirdim ki, bu iş çox vaxt aparacaq, amma indi gəlib görürəm ki, mənim zənnim tamamilə əsassız imiş. Muğam Mərkəzinin tikintisi, demək olar ki, başa çatdırılıbdır. Bu mənə böyük təəssürat bağışladı və tikinti, onun dizaynı və istifadə olunmuş yeni texnologiyalarla tanışlıqdan çox məmnun qaldım. Muğamın ifasında istifadə olunan ənənəvi musiqi alətinin forması Muğam Mərkəzinin müasir üslubda tikilmiş binasında öz əksini tapmışdır.

Cənab Prezident!

Hörmətli birinci xanım!

Mən Muğam Mərkəzinin tikilməsi ilə bağlı irəli sürdüyünüz təşəbbüsə görə sizə olduqca minnətdaram. Buraya gəlməyim mənim üçün ikiqat sevindiricidir. Bu gün mən həm də digər bir mühüm binanın tikilməsi ilə bağlı təməlqoyma mərasimində iştirak edirəm. Hesab edirəm ki, artıq Muğam Mərkəzinin tikintisini gördükdən sonra burada aparılacaq tikinti işləri ilə bağlı heç bir tərəddüdüm yoxdur.

Cənab Prezident!

Mən yeni tikiləcək Xalça Muzeyinin çox gözəl layihəsi münasibətilə Sizi təbrik etmək istəyirəm. Burada foto-şəkilləri seyr etdim, maketlərlə tanış oldum və deyə bilərəm ki, tikiləcək Xalça Muzeyi Muğam Mərkəzi ilə tam ahəngdar formada olacaqdır. Azərbaycanın xalçaları həmişə, hər zaman mənim çox ürəyimcə olubdur.

Cənab Prezident, Sizin atanız, rəhmətlik prezident Heydər Əliyevin YUNESKO-ya hədiyyə kimi təqdim etdiyi çox böyük və gözəl Azərbaycan xalçası daimi olaraq YUNESKO-nun binasında nümayiş etdirilir. Bu gün xanım Əliyeva bizim ziyafətimiz üçün çox gözəl bir yer seçmişdir. Biz gözəl Azərbaycan xalçalarının hər tərəfdən asıldığı gözəl bir həyətdə çox dadlı, ləziz Azərbaycan mətbəxi ilə tanış olduq.

Ziyafətdən sonra xanım Əliyeva bizi xalçaların toxunduğu sexə dəvət etdi. Biz orada gənc azərbaycanlı qadınların, qızların toxuduqları xalça ilə tanış olduq. Mən bu gün xanım Əliyevaya xüsusilə minnətdaram ki, həyatımda birinci dəfədir ki, xalça artıq toxunub qurtarandan sonra onun kəsilməsi mərasimində şəxsən iştirak etdim. Mənə hətta o qayçıları verəndə bir az tərəddüd etdim, bilmirdim ki, necə kəsmək lazımdır. Xanım Əliyeva isə çox yaxşıca nümayiş etdirdi ki, bunu necə etmək lazımdır. Onun etdiyini təkrarlayaraq, mən də kəsməyə başladım. Amma onu da deyim ki, mən ipləri xanım Əliyeva kimi kəsə bilmirdim.

Cənab Prezident, bu yeni təşəbbüsü irəli sürdüyünüzə görə mən Sizə minnətdarlığımı bildirirəm. Əmin olduğumu vurğulamaq istəyirəm ki, Xalça Muzeyi yaxın zamanda tam tikilib qurtaracaqdır.

Bir daha Sizə öz təşəkkürümü bildirirəm. Bu gün Xalça Muzeyinin təməlqoyma mərasiminə məni dəvət etdiyinizə görə Sizə minnətdaram. Bugünkü mərasim gözəl bir yerdə, gözəl hava şəraitində keçir.

Cənab Prezident, Sizə məlumat vermək istəyirəm ki, mən gələn il də YUNESKO-nun Baş direktoru kimi, ölkənizə səfər edəcəyəm. Cənab Prezident, hörmətli xanım Əliyeva,

ictimaiyyət qarşısında burada bəyan edirəm ki, əgər sizin yeni bir təşəbbüsünüz olarsa, mən hər hansı yeni təməlqoyma mərasimində məmnunluqla iştirak edəcəyəm.

Cənab Prezident, hörmətli xanım Əliyeva, çox sağ olun.

Hamınıza minnətdaram.

* * *

*Sonra muzeyin təməli qoyuldu. Prezident İlham Əliyev gilizi binanın təməlinə qoydu və beton qarışığı tökdü. YUNESKO-nun Baş direktoru Koişiro Matsuura, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, YUNESKO-nun Xoşməramlı səfirləri – İordaniya şahzadəsi xanım Ferial, İslandiyanın sabiq prezidenti xanım Viqdos Finnboqadottir də təmələ beton qarışığı tökdülər.*

*Mərasim iştirakçılarına xatirə hədiyyələri, YUNESKO-nun nəşrləri, xanımlara həm də gül dəstələri təqdim olundu.*

*Cənab Koişiro Matsuura Azərbaycan prezidenti İlham Əliyevə YUNESKO-nun qızıl medalını təqdim etdi.*

*Dövlətimizin başçısı Koişiro Matsuuraya Azərbaycan paytaxtında aparılan yenidənqurma işləri barədə məlumat verdi.*

## İSRAİLİN KƏND TƏSƏRRÜFATI VƏ KƏND RAYONLARININ İNKİŞAFI NAZİRİ ŞALOM SİMHON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də İsrailin Kənd Təsərrüfatı və Kənd Rayonlarının Inkişafı naziri Şalom Simhonu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla İsrail arasında iqtisadi sahədə, o cümlədən kənd təsərrüfatı sahəsində əməkdaşlığın mümkün perspektivləri barədə fikir mübadiləsi aparıldı, İsrail nazirinin səfərinin azərbaycanlı həmkarları ilə bu sahədə müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığı vurğulandı.*

## ABŞ-ın HARVARD UNİVERSİTETİNİN PROFESSORU COZEF NAY İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da ABŞ-ın Harvard Universitetinin professoru Cozef Nayı qəbul etmişdir.*

*Ölkəmizə ilk dəfə səfər etdiyini deyən professor Cozef Nay bildirdi ki, səfərinin əsas məqsədi Azərbaycandakı proseslərlə yaxından tanış olmaq və ölkəmizlə bağlı daha geniş informasiya əldə etməkdir. O, Azərbaycanın ABŞ üçün əhəmiyyətli ölkə olduğunu, əlaqələrin daha da möhkəmləndirilməsinin zəruriliyini bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin daha da genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu dedi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Cozef Nayın ölkəmizə səfəri onun Azərbaycanla yaxından tanış olması üçün yaxşı imkan yaradacaqdır.*

## CƏNUBİ KOREYANIN «KOLON» ŞİRKƏTİNİN SƏDRİ VUNQ YUL LİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Prezident sarayında Cənubi Koreyanın «Kolon» şirkətinin sədri Vunq Yul Lini qəbul etmişdir.*

*Görüşdə Cənubi Koreya şirkətlərinin uzun illər Azərbaycanda səmərəli fəaliyyət göstərdiyi və bunun ölkələrimiz arasında ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi əlaqələrin daha da genişlənməsinə xidmət etdiyi vurğulandı və «Kolon» şirkətinin də Azərbaycanda uğurlu iş quracağına əminlik ifadə olundu.*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ**

Hörmətli Mixeil Nikolozoviç!

Milli bayram – Dövlət müstəqilliyinin bərpa edilməsi günü münasibətilə Sizi və bütün dost Gürcüstan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Azərbaycan və Gürcüstanı əsrlərdən bəri sıx dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək telləri bağlayır. Əminəm ki, bizim birgə səylərimiz bundan sonra da dövlətlərarası münasibətlərimizin dinamik inkişafı, xalqlarımızın firavanlığı naminə, sülh, sabitlik və tərəqqi naminə hərtərəfli əməkdaşlıq və strateji tərəfdaşlıq üçün sarsılmaz bünövrə olan bu xeyirxah ənənələrin daim və hərtərəfli möhkəmləndirilməsinə yönələcəkdir.

Əziz dostum, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Gürcüstan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 may 2008-ci il*

**İORDANİYA KRALI ƏLAHƏZRƏT**
**II ABDULLAHA**

Əlahəzrət!

Əziz dostum!

İordaniya Haşimilər Krallığının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə İordaniya arasındakı dostluq və tərəfdaşlıq münasibətləri uğurla davam etməkdədir. Əminəm ki, ikitərəfli əlaqələrimizin inkişafı, beynəlxalq qurumlar çərçivəsində birgə işimiz və qarşılıqlı dəstəyimiz bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Ümidvaram ki, bu yaxınlarda ölkəmizə səfəriniz, bu səfər çərçivəsində keçirdiyimiz görüşlər, imzalanan sənədlər əməkdaşlığımızın daha da dərinləşməsinə yeni təkan verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İordaniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə və ən səmimi hisslərlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 may 2008-ci il*

## ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – May inqilabının ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Argentina münasibətləri daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edərək, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə ən səmimi arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 may 2008-ci il*

## KOREYA RESPUBLİKASININ BAŞ NAZİRİ HAN SİN SUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Koreya Respublikasının Baş naziri Han Sin Sunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə uğurla və sürətlə inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev son illər Azərbaycanla Cənubi Koreya arasında səmərəli əməkdaşlığa nail olunduğunu qeyd etdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Koreya Respublikası Baş nazirinin ölkəmizə səfəri və imzalanan mühüm sənədlər əlaqələrin daha da genişlənməsi işinə töhfə verəcəkdir.*

*Baş nazir Han Sin Su Koreya Respublikasının Prezidenti Li Men Bakın ən xoş arzularını və səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycan prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sürətli iqtisadi inkişafın getdiyinin şahidi olduqlarını vurğuladı. Qarşılıqlı əməkdaşlığımızın uğurla inkişaf etdiyini deyən Han Sin Su bildirdi ki, imzalanmış sənədlər Azərbaycan–Cənubi Koreya münasibətlərinin yaxşı göstəricisidir. O, ticarət sahəsində əlaqələrin son bir neçə ildə sürətlə genişləndiyini və bunun gələcəkdə də davam etdiriləcəyinə əminliyini vurğuladı.*

*Dövlətimizin başçısı Koreya Respublikasının Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

## AŞ PA-nın MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ İLƏ GÖRÜŞ

*19 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da AŞ PA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri Andres Herkeli və Yevgeniya Jivkovanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla AŞPA arasında əməkdaşlığa və həmməruzəçilərin ölkəmizə səfəri ilə bağlı müxtəlif məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*19 may 2008-ci il*

*Mayın 19-da Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdiməhəmmədov Bakıya gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev prezident Qurbanqulu Berdiməhəmmədovu səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkmənistan prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Türkmənistanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Türkmənistan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Qurbanqulu Berdiməhəmmədova, Türkmənistan nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*19 may 2008-ci il*

*Mayın 19-da Azərbaycan prezidenti İlham Əliyevin və Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan–Türkmənistan münasibətlərinin inkişaf perspektivləri və bu prosesin fəallaşmasında dövlət başçılarının görüşlərinin rolu vurğulandı. Türkmənistanın dövlət başçısının Azərbaycana bu rəsmi səfərinin ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə xidmət edəcəyinə əminlik bildirildi.*

*Prezidentlər beynəlxalq həyat və regional əməkdaşlıqla bağlı məsələləri də müzakirə etdilər.*

## AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Mayın 19-da Azərbaycanın və Türkmənistanın dövlət başçıları arasında hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş olmuşdur.*

**İlham Əliyev:** Hörmətli Qurbanqulu Malikquliyeviç!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycan torpağında salamlayıram. Ölkəmizə səfər etdiyinizə görə sizə təşəkkür edirik və əminik ki, bu səfər ölkələrimiz və xalqlarımız arasında qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsində mühüm mərhələ olacaq, ölkələrimizin potensialını və əməkdaşlıq perspektivlərini daha tam reallaşdırmağa imkan verəcəkdir. Mən çox şadam ki, Siz Azərbaycana böyük nümayəndə heyəti ilə gəlmisiniz. Nümayəndə heyətinin üzvləri müxtəlif sahələri təmsil edirlər və bu fakt bizim çoxşaxəli, hərtərəfli əməkdaşlığı, iqtisadi və humanitar əlaqələri inkişaf etdirmək arzumuzun ortaq olmasını vurğulayır.

Bizim ölkələrimiz arasında ümumi cəhətlər çoxdur, keçmişdə həmişə sülh və dostluq şəraitində yaşamışıq. Bu gün də müstəqil Türkmənistan və müstəqil Azərbaycan fəal inkişaf etməkdə olan dövlətlərdir. Əminəm ki, bu gün bizim ikitərəfli əməkdaşlığın perspektivlərini müzakirə etməyimiz bu əməkdaşlığın geniş proqramını müəyyən etməyə imkan verəcəkdir.

Bu gün biz ikitərəfli münasibətlərin çox mühüm məsələlərini müzakirə etdik. İndi müzakirələrimizi geniş tərkibdə davam etdirəcəyik.

Bizim qonağımız olduğunuza görə Sizə təşəkkür etmək, Sizə və qardaş türkmən xalqına firavanlıq və səadət diləmək istəyirəm.

**Qurbanqulu Berdiməhəmmədov**: Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

Hörmətli İlham Heydər oğlu, mən bu cür səmimi qəbul üçün, qardaş Azərbaycan torpağında bizə göstərdiyiniz qonaqpərvərlik üçün Sizə səmimi təşəkkürümü bildirmək, Azərbaycan xalqına sülh, firavanlıq və tərəqqi arzu etmək istəyirəm.

Bizim bu səfərimiz ikitərəfli dialoqun fəallaşması şəraitində keçir və münasibətlərimizin bütün spektrinin keyfiyyətcə yeni səviyyəsi ilə xarakterizə olunur. Onu da qeyd etmək istəyirəm ki, biz Azərbaycan prezidenti ilə müntəzəm əlaqə saxlayırıq və beynəlxalq forumlarda bizim görüşlərimiz buna sübutdur. İndicə Sizinlə çox ətraflı fikir mübadiləsi apardıq, iki dövlət arasında qarşılıqlı münasibətlərin vəziyyətini və perspektivlərini, qarşılıqlı maraq doğuran bir sıra beynəlxalq məsələləri müzakirə etdik.

Onu da vurğulamaq istəyirəm ki, bizim xalqlarımızın rifahına yönəlmiş əməkdaşlığımızın böyük gələcəyi var. Bununla əlaqədar hökumətlərarası səviyyədə, Türkmənistanın və Azərbaycanın dövlət orqanları arasında getdikcə genişlənməkdə olan əlaqələr böyük əhəmiyyət kəsb edir.

Keçən il yaradılmış və ikitərəfli əməkdaşlığın dərinləşməsi baxımından mühüm mexanizm kimi fəaliyyət göstərən Türkmənistan–Azərbaycan hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının işi hərtərəfli dəstəklənməyə layiqdir.

Ölkələrimiz beynəlxalq aləmdə, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayır. Bu baxımdan biz regional və qlobal səviyyələrdə sülh, təhlükəsizlik və inkişafın mühüm problemlərinə dair fikir mübadiləsi aparırıq.

Biz belə hesab edirik ki, Birləşmiş Millətlər Təşkilatı planetdə sülh, təhlükəsizlik və davamlı inkişaf məsələlərini həll etməli olan universal beynəlxalq hüquqi mexanizmdir.

Müasir dövrün qarşılıqlı maraq doğuran aktual problemləri barədə məsləhətləşmələrimizin davam etdirilməsinin məqsədəuyğun olmasını da qeyd etmək lazımdır. Fürsətdən istifadə edərək, azərbaycanlı dostlarımıza, şəxsən hörmətli prezident İlham Əliyevə Aşqabadda BMT-nin Preventiv Diplomatiya üzrə Regional Mərkəzinin yaradılması barədə Türkmənistanın təşəbbüsünü dəstəklədiyinə görə təşəkkür etmək istəyirəm.

**Sənədlərin imzalanma mərasimi**

*Mayın 19-da Azərbaycan prezidenti İlham Əliyevin və Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun geniş tərkibdə görüşündən sonra dövlət başçılarının iştirakı ilə Azərbaycan–Türkmənistan sənədlərinin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Türkmənistan Respublikasının Ticarət və Sənaye Palatası arasında Əməkdaşlıq haqqında sazişi Azərbaycan Ticarət və Sənaye Palatasının sədri Süleyman Tatlıyev və Türkmənistan Ticarət və Sənaye Palatasının prezidenti Palvan Taqanov imzaladılar.*

*Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Türkmənistan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi arasında Əməkdaşlıq haqqında sazişi Azərbaycanın Maliyyə naziri Samir Şərifov və Türkmənistan Respublikası Baş nazirinin müavini Xocamurad Geldimuradov imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikasının Hökuməti arasında Beynəlxalq kombinə edilmiş yükdaşımaları haqqında sazişi Azərbaycanın Nəqliyyat naziri Ziya Məmmədov və Türkmənistanın Dəmiryol Nəqliyyatı naziri Dəryaqulu Məhəmmədquluyev imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Respublikası Hökuməti arasında Beynəlxalq avtomobil əlaqələri haqqında sazişi Azərbaycanın Nəqliyyat naziri Ziya Məmmədov və Türkmənistanın Dəmiryol Nəqliyyatı naziri Dəryaqulu Məhəmmədquluyev imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Respublikası Hökuməti arasında Standartlaşdırma, metrologiya və akkreditasiya sahəsində Əməkdaşlıq haqqında sazişi Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistan Respublikası Baş nazirinin müavini Xocamurad Geldimuradov imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Respublikası Hökuməti arasında Gənclərlə iş və idman sahəsində Əməkdaşlıq haqqında sazişi Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistan Respublikası Baş nazirinin müavini Xıdır Saparlıyev imzaladılar.*

*Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Türkmənistan Respublikasının Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq haqqında protokolu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkmənistan Respublikası Baş nazirinin müavini, Xarici İşlər naziri Rəşid Meredov imzaladılar.*

# AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*19 may 2008-ci il*

*Mayın 19-da Prezident sarayında Azərbaycan–Türkmənistan sənədlərinin imzalanma mərasimindən sonra prezidentlər mətbuat üçün bəyanatlarla çıxış etdilər*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Qurbanqulu Malikquliyeviç!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Prezident başda olmaqla, qardaş Türkmənistanın nümayəndə heyətini Azərbaycan torpağında bir daha salamlamaq istəyirəm. Bu gün qarşılıqlı maraq doğuran məsələlər barədə çox geniş fikir mübadiləsi oldu. Biz ikitərəfli əməkdaşlığı, onun inkişaf perspektivlərini, regional məsələləri, regionumuzda təhlükəsizlik sisteminin möhkəmləndirilməsi məsələlərini müzakirə etdik. Müzakirə edilən bütün məsələlər barədə bizim mövqelərimiz tamamilə üst-üstə düşür.

Biz Türkmənistan prezidentinin Azərbaycana səfərinə çox böyük əhəmiyyət veririk. Mən bu səfəri ikitərəfli münasibətlərimizin inkişafında keyfiyyətcə yeni mərhələ açan tarixi səfər hesab edirəm. Son vaxtlar biz ikitərəfli münasibətlərimizin coşğun inkişafının şahidləriyik. İqtisadi əlaqələrimiz möhkəmlənir, siyasi təmaslarımız daimi xarakter daşıyır, həyatımızın bir sıra istiqamətləri üzrə çox sıx qarşılıqlı əlaqə mövcuddur. Bütün bunlar, əlbəttə ki, bizi çox sevindirir.

Türkmənistan və Azərbaycan çox dinamik inkişaf edən müstəqil dövlətlərdir. Onlar özlərini təmin etmək iqtidarında olan, zəngin təbii ehtiyatlara, coşğun inkişaf imkanlarına malik və iqtisadi inkişaf sürətinə görə regionumuzda ən yüksək nəticələr nümayiş etdirən dövlətlərdir.

Biz bu əməkdaşlığın inkişaf etdirilməsində çox maraqlıyıq. Bu gün biz nəqliyyat problemləri ilə əlaqədar məsələləri və bunların həllinin konkret yollarını müzakirə etdik. Bu məsələlərin həlli ölkələrimizi daha da yaxınlaşdıracaq, habelə regionda güclü nəqliyyat infrastrukturu yaradılmasına kömək edəcəkdir. Biz ölkələrimizin çox yüksək göstəricilər nümayiş etdirdiyi energetika sahəsində əməkdaşlıq məsələlərini də müzakirə etdik. Azərbaycan və Türkmənistan başqa ölkələrin enerji təhlükəsizliyində iştirak edir.

Bu gün müzakirə etdiyimiz mövzulardan biri də Xəzər problemi idi. Biz Xəzəryanı ölkələrin dövlət başçılarının Tehran sammitinin yekunlarını, eləcə də Xəzərdə əməkdaşlığın inkişaf etdirilməsinin gələcək yollarını razılıq hissi ilə qeyd etdik. Əminik ki, Türkmənistanın və Azərbaycanın bu istiqamətdə səmərəli qarşılıqlı fəaliyyəti həmin məsələnin hərtərəfli tənzimlənməsinə kömək edəcəkdir.

Başqa sözlə desək, müzakirə edilən bütün məsələlər və mövzular barədə qarşılıqlı anlaşma çox yüksək səviyyədədir, mövqelərimiz üst-üstə düşür. Əminəm ki, bu səfər və onun nəticələri ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına xidmət edəcəkdir.

İndicə çox mühüm ikitərəfli sazişlər imzalandı. Həmin sazişlər əməkdaşlığın bu istiqamətdə formatını müəyyən edir. Lakin biz əməkdaşlığımızı təkcə imzalanmış sənədlərlə məhdudlaşdırmırıq. Biz inanırıq ki, əməkdaşlığımız həyatımızın bütün sahələrini əhatə edəcək, qardaş Türkmənistan və Azərbaycan xalqları bundan sonra da sülh şəraitində yaşayacaq, əməkdaşlıq edəcək, ölkələrimizin və xalqlarımızın inkişafına şərait yaradacaqlar. Biz buna çox böyük əhəmiyyət veririk. Türkmənistan prezidenti hörmətli Qurban-

qulu Malikquliyeviç mənim təklifimi qəbul edərək bugünkü səfərə gəldiyinə görə ona təşəkkür etmək istəyirəm. Əminəm ki, çox uğurla başlamış səfər uğurla da başa çatacaqdır.

Diqqətinizə görə sağ olun.

**Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun bəyanatı**

Möhtərəm İlham Heydər oğlu!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən qonaqpərvər Azərbaycan torpağında olmağımdan çox şadam. Burada bizim bütün nümayəndə heyəti azərbaycanlı dostlarımızın səmimiyyəti və mehribanlığını hiss etdi. Bu səfər və yüksək səviyyədə baş tutmuş danışıqlar bir daha sübut etdi ki, həm Türkmənistan, həm də Azərbaycan iki qonşu, qardaş ölkə arasında ən sıx əməkdaşlıq yaradılmasına çox böyük əhəmiyyət verir. Məmnuniyyətlə demək istəyirəm ki, son vaxtlar dövlətlərimiz arasında siyasi dialoq xeyli fəallaşmış, yeni məzmun kəsb etmişdir. Əslində, bu əməkdaşlığın dinamikasını son səkkiz ayda istər hökumət nümayəndə heyətləri səviyyəsində, istərsə də mütəxəssislər səviyyəsində Türkmənistanla Azərbaycan arasında səfərlər mübadiləsinin xronikasına əsasən asanlıqla izləmək olar.

Türkmənistan–Azərbaycan hökumətlərarası komissiyasının yaradılması da ölkələrimizin ənənəvi əməkdaşlığa daha məhsuldar və konstruktiv xarakter vermək istəyini göstərir. Yəqin bilirsiniz, bu komissiyanın nisbətən yaxın vaxtlarda yaradılmasına baxmayaraq, tərəflər qarşılıqlı maraqlarımızın reallaşdırılması üçün təsirli və səmərəli mexanizm yaratmağa müvəffəq olmuşlar.

Məsələn, komissiyanın birinci iclası çərçivəsində əvvəllər bizim tərəfdaşlıq münasibətlərimizin inkişafını ləngidən maliyyə məsələləri və digər mühüm məsələlər tənzimlənmişdir.

İki ölkə arasında əmtəə dövriyyəsi durmadan artır. Son vaxtlar bu göstərici, demək olar, üç dəfə artmışdır. Lakin hətta bu rəqəm də həm Türkmənistan, həm də Azərbaycan xalqlarının mənafeyi naminə reallaşdırmağa çalışdığımız əməkdaşlıq potensialını tam əks etdirmir. İlk növbədə, bütün dünyada enerji dövlətləri statusuna malik olan hər iki ölkənin iqtisadiyyatı üçün baza əhəmiyyəti kəsb edən yanacaq-energetika sektorunda tərəfdaşlıqdan söhbət gedir. Möhtərəm İlham Heydər oğlu ilə bugünkü danışıqların gedişində biz bu mövzuya xüsusi diqqət yetirdik. Bizim ümumi fikrimiz belədir ki, məhz bu sahə gələcək dövlətlərarası tərəfdaşlığın strateji istiqamətinə çevriləcəkdir. Əməkdaşlıq imkanlarını hərtərəfli öyrənmək və bu imkanları dünyaya təqdim etmək üçün biz bu il sentyabr ayında Bakıda «Türkmənistan və Azərbaycan nefti və qazı» mövzusunda konfrans keçirmək barədə razılığa gəldik.

Ümumi fikrə görə, ikitərəfli qarşılıqlı əlaqələrin ən mühüm sahələrindən biri də nəqliyyatdır. Asiya ilə Avropanın qovuşduğu məkanda yerləşən Türkmənistanın və Azərbaycanın əlverişli geosiyasi mövqeyi qonşu ölkələrimizin bu üstünlüklərindən həm öz mənafelərimiz üçün, həm də Qərbdə və Şərqdə yerləşən başqa dövlətlərin mənafeyi üçün istifadə etməyə imkan verir.

Hesab edirəm ki, bu cür imkanların olması bütün coğrafi-iqtisadi xəritənin dəyişməsi üçün yaxşı üfüqlər açır. Bununla əlaqədar qeyd etmək istəyirəm ki, hazırda Türkmənistan öz nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi üçün mühüm addımlar atır. Biz Qazaxıstandan və İrandan olan tərəfdaşlarımızla birlikdə Şimal–Cənub transmilli nəqliyyat dəhlizi yaradılmasına dair layihələri həyata keçirməyə başlamışıq və mən bilirəm ki, Azərbaycanda da buna oxşar tikinti işləri aparılır. Buna görə də biz rəqabət haqqında deyil, qüvvələrimizi birləşdirmək barədə danışırıq. Bu, regionun bütün ölkələri üçün real iqtisadi səmərə vəd edir və əlbəttə, yük və sərnişin daşımalarının artmasına şərait yaradacaqdır.

Ticari-iqtisadi əlaqələrin inkişafı məsələsinə gəldikdə, burada da bizim bir-birimizə təkliflərimiz var. Çox böyük iqtisadi resurs potensialına malik olan bu iki ölkənin coğrafi yaxınlığını nəzərə alsaq, ticarətin inkişafı üçün çox gözəl perspektiv imkanlar var. Məsələn, Türkmənistan hazırda ən müasir avadanlıqla təchiz olunmuş müəssisələrdə istehsal edilən və dünya bazarında yüksək qiymətləndirilən toxuculuq, kimya sənayesi və digər məhsullarını Azərbaycana satmağa hazırdır.

Əlbəttə, görüşlərin gedişində biz Xəzər mövzusuna xüsusi diqqət yetirdik, Xəzər dənizinin hüquqi statusu barədə beş sahilyanı dövlətin hamısının mövqelərini razılaşdırmağa dair konstruktiv danışıqları davam etdirməyin vacibliyi barədə vahid fikrə gəldik. Bu məsələnin həlli Xəzər dənizini sülh, mehriban qonşuluq, sabitlik və qarşılıqlı surətdə faydalı əməkdaşlıq zonasına çevirməyin zəruri olmasının dərk edilməsinə əsaslanır. Bununla əlaqədar qeyd etmək istərdim ki, Xəzərin hüquqi statusu haqqında Konvensiyanın hazırlanması və imzalanması Xəzəryanı dövlətlərin hamısının birinci dərəcəli və təxirəsalınmaz vəzifəsidir. Bu məsələdə Xəzəryanı dövlətlərin Xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupunun fəaliyyəti çox əhəmiyyətlidir. Biz belə hesab edirik ki, Xəzər dənizinin statusunun tezliklə müəyyən edilməsi onun karbohidrogen və bioloji resurslarının effektiv və səmərəli mənimsənilməsi, Xəzər hövzəsinin nadir ekoloji sisteminin qorunub saxlanması, eləcə də Xəzərdə fəal beynəlxalq əməkdaşlıq üçün əlverişli şərait yaratmağa imkan verəcəkdir.

Bu gün imzalanmış ikitərəfli sənədlər paketi də bir-birimizin mənafelərinə hörmət etməklə, əməkdaşlıq üçün çox böyük imkanlar olmasını nəzərə almaqla düzgün yolla getdiyimizi göstərir. Əlbəttə, bunu qeyd etmək mənə xoşdur ki, sülh və dostluq dənizi ilə birləşən xalqlarımızı bir-birinə bağlayan tarixi və mədəni tellər humanitar əməkdaşlığın daha da inkişaf etməsi üçün etibarlı platforma yaradır.

Başlanğıcı əsrlərin və minilliklərin dərinliklərindən gələn bu ənənəvi əlaqələrimizi möhkəmlətmək zərurəti fikri bu gün yeni qüvvə ilə səsləndi. Başlıcası odur ki, xoş niyyətlə birləşən xalqlarımız bu dialoqu genişləndirməyə və möhkəmlətməyə çalışır.

Böyük türkmən alimlərinin, keçmiş mütəfəkkirlərin və tarixi şəxsiyyətlərin həyat və yaradıcılığına həsr edilmiş mötəbər beynəlxalq konfranslarda və forumlarda Azərbaycanın elm və mədəniyyət xadimlərinin fəal iştirak etməsi buna sübutdur. Biz yaxşı başa düşürük ki, qabaqcıl elmi təfəkkürün nailiyyətlərinin və yüksək texnologiyaların tətbiqi cəmiyyətin sosial-iqtisadi inkişafının baza prinsipidir. Bununla əlaqədar, biz bu gün daha çox tələbat olan elmi əlaqələrin bərpasını alqışlayırıq. Biz mövcud potensialları birləşdirə bilərik və buna hazırıq. Ona görə də humanitar sahədə əməkdaşlıq haqqında ikitərəfli sazişin hazırlanmasını və gələcəkdə imzalanmasını məqsədəuyğun sayırıq.

Beləliklə, gördüyünüz kimi, danışıqların gündəliyi kifayət qədər geniş olmuşdur və əminəm ki, əldə etdiyimiz razılaşmalar dövlətlərarası dialoqu yeni səviyyəyə çatdıracaq, ona yeni dinamika və yeni keyfiyyət bəxş edəcəkdir. Biz Türkmənistan–Azərbaycan qarşılıqlı əlaqələrinin ən mühüm və aktual məsələlərini müzakirə etdik, onların strateji istiqamətlərini müəyyənləşdirdik və əminəm ki, gələcəkdə sıx ünsiyyətdə işləyəcək, çoxəsrlik dostluq və qardaşlıq tellərini daha da möhkəmlədəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*19 may 2008-ci il*

*Mayın 19-da «Gülüstan» sarayında Azərbaycan prezidenti İlham Əliyevin adından Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun şərəfinə təşkil edilmiş rəsmi qəbulda hər iki ölkənin dövlət başçıları nitq söylədilər*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Möhtərəm Qurbanqulu Malikquliyeviç!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Bu gün Türkmənistan prezidentini Azərbaycan torpağında bir daha salamlamaq, bütün qonaqlara «Xoş gəlmisiniz!» demək istəyirəm.

Bizim xalqlarımızı çoxəsrlik dostluq və əməkdaşlıq telləri bağlayır. Onlar əsrlər boyu fəal əlaqələr saxlamış, dostluq etmiş, birgə çalışmışlar. Bu gün də bizim müstəqil dövlətlərimiz arasında münasibətlər bu möhkəm tarixi zəmin üzərində qurulur. Hazırda Türkmənistanın və Azərbaycanın dinamik inkişafı regional əməkdaşlığın çox mühüm amilidir. Ölkələrimiz müstəqillik əldə edəndən sonrakı dövrdə böyük irəliləyiş yolu keçmiş, böyük uğurlar qazanmış, öz müstəqilliklərini möhkəmləndirmişlər və indi onlar nəinki regionda, hətta dünya miqyasında ən dinamik inkişaf edən ölkələrdəndir. Biz keçid dövrünün problemləri ilə əlaqədar qarşımızda duran vəzifələri uğurla yerinə yetirmişik və bu gün gələcəyə inamla baxırıq.

Bu gün Türkmənistan prezidenti ilə ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edərkən bir daha yəqin etdim ki, ölkələrimizin ikitərəfli münasibətlər, regional əməkdaşlıq, regional təhlükəsizlik problemlərinə yanaşmalarında ortaq cəhətlər çoxdur. Bizim ölkələr müstəqillik əldə edəndən sonra öz potensialını tam həcmdə reallaşdırmaq imkanı qazanmış və indi müstəqil siyasət, milli maraqlarımıza əsaslanan siyasət yeridirlər. Çox sevindirici haldır ki, bu gün biz Türkmənistanın ali nümayəndə heyətini qəbul edərkən öz keçmişimizi bir daha təhlil etmək və irəliyə doğru hərəkət yollarını müəyyənləşdirmək imkanına malikik.

Bu gün imzalanmış sənədlər ölkələrimizin qarşıdakı illər üçün səmərəli əməkdaşlığını irəlicədən müəyyənləşdirəcəkdir. Son dövrdəki fəal siyasi dialoq sayəsində biz müəyyən müddət həll olunmamış qalan bir sıra problemləri həll etməyə, gələcək əməkdaşlığımızın perspektivlərini planlaşdırmağa və bununla da bizim gələcək münasibətlərimizin inkişafının möhkəm təməlini yaratmağa nail olmuşuq.

Mən belə hesab edirəm ki, Türkmənistan prezidentinin Azərbaycana səfəri ölkələrimiz arasında münasibətlərin keyfiyyətcə yeni səviyyəsinin başlanğıcı olacaqdır. Biz iqtisadi əməkdaşlıq, qarşılıqlı siyasi əlaqələr məsələlərini, energetika kompleksi, nəqliyyat kompleksi ilə bağlı məsələləri müzakirə etdik. Qarşılıqlı surətdə faydalı planlarımız, ideyalarımız, layihələr çoxdur, artıq indi onların həyata keçirilməsi üçün çox möhkəm potensial vardır, infrastruktur yaradılmışdır və ən başlıcası, hər iki tərəfin bir-birinə daha çox yaxınlaşmaq, əməkdaşlıq etmək, qarşılıqlı ticarətin həcmini artırmaq, humanitar sahədə əməkdaşlığı inkişaf etdirmək arzusu böyükdür.

Bu gün mənə çox xoşdur ki, Türkmənistan prezidenti, mənim hörmətli dostum böyük nümayəndə heyətinin müşayiəti ilə Azərbaycana gəlmişdir. Bu nümayəndə heyətində energetika, yanacaq, nəqliyyat və başqa sektorların nümayəndələri ilə yanaşı, incəsənət xadimləri, humanitar sektorun nümayəndələri də var. Bu bizim möhkəm tarixi təməli olan

münasibətlərimizin çox mühüm seqmentidir. Əminəm ki, bizim nümayəndə heyətlərinin üzvləri arasında keçirilmiş bugünkü görüşlər ən yaxın vaxtda əməli nəticələrə gətirib çıxaracaqdır. Bu gün bizim bu barədə danışmaq və ölkələrimizin nümayəndələri arasında alimlər, tədqiqatçılar, mədəniyyət xadimləri səviyyəsində fəal humanitar əməkdaşlığın konkret yollarını nəzərdə tutmaq imkanımız oldu. İkitərəfli münasibətlərimizin bu seqmenti hər hansı iqtisadi layihələrdən heç də az əhəmiyyət daşımır.

Deməк istəyirəm ki, Türkmənistan prezidentinin Azərbaycana səfəri mahiyyət etibarilə münasibətlərimizin tamamilə yeni mərhələsidir. Artıq dediyim kimi, qısa müddətdə biz elə məsələləri həll etməyə nail olmuşuq ki, onların həlli bəzən çox çətin görünürdü. Lakin prezidentlərin iradəsi sayəsində, ölkələrimiz arasında inteqrasiya prosesinin bütün iştirakçıları sayəsində bu, mümkün oldu.

Biz gələcəyə inamla baxırıq, bizim dövlətlər özlərini təmin edən, çox böyük intellektual potensialı, zəngin təbii ehtiyatları, əlverişli coğrafi mövqeyi olan dövlətlərdir. Bütün bunlar bizim əməkdaşlığımızı şərtləndirir.

Bu gün Türkmənistan prezidentinin səfərinin birinci gününün sonunda artıq əminliklə deyə bilərik ki, səfərin ilk günü uğurlu olmuşdur və mən inanıram ki, yaxın vaxtlarda biz bu səfərin nəticələrini görəcəyik.

Fürsətdən istifadə edib, bir daha qardaş Türkmənistan xalqına dərin hörmət və məhəbbət hisslərimi bildirmək, qardaş ölkəyə yeni uğurlar, nailiyyətlər, yeni zəfərlər arzulamaq istəyirəm. Qonşularınız kimi, dostlarınız kimi, qardaşlarınız kimi, biz sizin uğurlarınıza həmişə sevinirik.

Mən bu badəni Türkmənistan prezidentinin sağlığına, qardaş Türkmənistan xalqının şərəfinə, Türkmənistanla Azərbaycan arasında münasibətlərin inkişafı şərəfinə qaldırmaq istəyirəm.

## Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun nitqi

Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar!

Xanımlar və cənablar!

İlk növbədə, Türkmənistan xalqına ünvanlanmış xoş sözlərə və Türkmənistanla Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi arzularına görə hörmətli İlham Heydər oğluna təşəkkürümü bildirmək istəyirəm.

İcazə verin, Azərbaycan torpağında Türkmənistan nümayəndə heyətinə göstərilmiş qonaqpərvərliyə və səmimi qəbula görə də minnətdarlığımızı bildirim. Biz burada yüksək dostluq ab-havası hiss edirik və bu mühit iki dövlət və onların xalqları arasında qarşılıqlı anlaşmanın və etimadın möhkəmlənməsinə kömək edir.

Hörmətli İlham Heydər oğlu!

Bizi Azərbaycana rəsmi səfərə dəvətinizi mehriban qonşuluq münasibətlərimizin daha da genişləndirilməsini ürəkdən istəyən xeyirxah dost tərəfindən olan bir müraciət kimi qəbul etdik.

Bu gün keçirilmiş görüşlərin və danışıqların yekunları inandırıcı şəkildə göstərir ki, ölkələrimiz ikitərəfli əməkdaşlığın keyfiyyətcə yeni mərhələsinə qədəm qoyurlar. Hörmətli Azərbaycan prezidenti ilə biz əmin olduğumuzu bildirdik ki, tərəfdaşlığımızın möhkəm təməli var və bu əməkdaşlıq yaxşı perspektivləri olan böyük gələcəyə istiqamətlənmişdir. Bu fikrin təsdiqi və inkişafı kimi, bu gün biz ölkələrimiz arasında mövcud normativ hüquqi bazanı daha da gücləndirən ikitərəfli sənədlər imzaladıq. Müasir reallıqlar nəzərə alınmaqla, bu gün əldə edilmiş razılaşmalar əvvəllər imzalanmış ikitərəfli sənədlərlə birlikdə gələcək birgə fəaliyyət üçün ciddi stimuldur.

Əziz dostlar!

Hazırda iqtisadi yüksəliş yolu ilə, xalqın maddi rifahının daha da yüksəldilməsi, ictimai sabitliyin möhkəmlənməsi, beynəlxalq aləmdə ölkənin nüfuzunun artırılması yolu ilə irəliləyən Azərbaycanda görülən işlərə biz Türkmənistanda böyük hörmətlə yanaşırıq. Biz xalqlarımızı birləşdirən, onları çoxəsrlik dostluq telləri ilə bağlayan hər şeyi qayğı ilə qoruyuruq. Xalqımız Türkmənistanla Azərbaycan arasında indiki və gələcək nəsillərin qarşılıqlı surətdə zənginləşməsinin əsasını təşkil edən dil, mədəniyyət və mənəviyyat ümumiliyini yüksək qiymətləndirir və onlara hörmət bəsləyir. Bu məqamda mən bizim xalq arasında da tamamilə eyni məna daşıyan gözəl Azərbaycan məsəllərini xatırlatmaq istəyirəm: «Sədaqətli dost – əbədi dostdur», yaxud «Dostumun evinə öz evim kimi gedirəm» və ya «Dost gəlişi bayram olar».

Əziz dostlar, biz burada olduğumuz müddətdə nümayəndə heyətimizin necə səmimi qəbul edilməsinə əsasən xalq məsəllərinin düzgünlüyünü əyani şəkildə yəqin etdik. Bu gün biz gördük ki, Azərbaycan sürətlə inkişaf edir və ən başlıcası, bu ölkənin xalqı öz Vətəninin rifahı naminə, onun firavanlığı və sülh naminə yaşayır və işləyir.

Xüsusi vurğulamaq istəyirəm ki, həm türkmənlər, həm də azərbaycanlılar bugünkü həyatımızı qurarkən həmişə yaşlı nəsillərin təcrübəsinə əsaslanırlar, onların sayəsində biz sabaha inamla baxırıq. Bu barədə danışarkən belə bir məqamı da xatırlatmaq və vurğulamaq istəyirəm ki, bizim aramızda yaşca böyüklər də var. Onlara türkmənlər də «yaşlı» deyirlər, sizdə də belə deyirlər. Bu sözü ehtiramla işlədirlər. Mən Azərbaycan xalqının böyük oğlu, 85 illik yubileyini bu yaxınlarda qeyd etdiyiniz Heydər Əlirza oglu Əliyevin xatirəsini xoş sözlərlə yad etmək istəyirəm.

Azərbaycanın ötən əsrdəki tarixinin, demək olar ki, yarısı bu dünya miqyaslı görkəmli dövlət xadiminin adı ilə bağlıdır. Türkmənistanda həmin dövr bizim ilk prezidentimiz Saparmurad Niyazovun adı ilə bağlı olduğu kimi. Heç

şübhəsiz, Heydər Əliyev yeni Azərbaycanın memarı və qurucusu, xalqın və ölkənin sıx birliyinin rəmzidir.

Buna görə biz də sizinlə bərabər öz ölkələrimizin naminə, gələcək nəsillərin naminə çox iş görməliyik.

Qardaş Azərbaycana ən xoş arzularımı bildirmək, öz inkişafında yeni zirvələr fəth etməsi yolunda ona uğurlar arzulamaq məni məmnun edir. Bundan ötrü hər cür şərait və ilk növbədə, Türkmənistanın, onun xalqının timsalında mehriban qonşularınız vardır.

Əziz dostlar, mən bu badəni hörmətli dostum, Azərbaycan prezidenti İlham Heydər oğlu Əliyevin sağlığına və onun uğurları şərəfinə qaldırmaq istəyirəm.

Ölkənizin rəhbərliyinə və bütün Azərbaycan xalqına sülh, səadət, əmin-amanlıq və tərəqqi arzulayıram.

Qoy Türkmənistan və Azərbaycan arasında dostluq və qardaşlıq möhkəmlənsin!

## TÜRKMƏNİSTAN PREZİDENTİ HEYDƏR ƏLİYEV FONDUNDA

*20 may 2008-ci il*

*Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov mayın 20-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev burada Türkmənistan prezidentini səmimiyyətlə qarşıladı.*

*Ali qonağı fonddakı eksponatlarla tanış edən Azərbaycanın dövlət başçısı ulu öndər Heydər Əliyevin fəaliyyəti haqqında məlumat verdi.*

*Türkmənistan prezidenti ümummilli liderin şəxsi arxivindən götürülmüş və fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlara, fotoşəkillərə, fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən sənədlərə maraqla baxdı.*

*Ali qonağa ulu öndər Heydər Əliyevin ölkə iqtisadiyyatının sürətli inkişafını və dünyaya inteqrasiyasını təmin etmək üçün gördüyü irimiqyaslı işlərlə bağlı müxtəlif məqamları əks etdirən eksponatlar barədə də ətraflı məlumat verildi.*

*Türkmənistan prezidenti Heydər Əliyev Fondunun Xatirə kitabına ürək sözlərini yazdı.*

*Ali qonağa ümummilli liderin əksi təsvir olunmuş xatirə hədiyyələri təqdim olundu.*

*Türkmənistan prezidenti Heydər Əliyev Fonduna əllə toxunmuş xalça hədiyyə etdi.*

*Heydər Əliyev Fondu ilə tanışlıq ali qonaqda zəngin təəssürat doğurdu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA RƏSMİ SƏFƏRİ

*21 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Ukraynaya rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Ukraynaya rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş Borispol Hava Limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Milli geyimli qızlar Azərbaycan prezidentinə duz-çörək təqdim etdilər.*

*Dövlətimizin başçısını Ukraynanın yüksək vəzifəli rəsmi şəxsləri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Kiyevdə Ukrayna prezidenti katibliyinin binası qarşısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Ukrayna prezidenti Viktor Yuşşenko Azərbaycan prezidenti İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Ukraynanın dövlət himnləri səsləndi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Azərbaycan prezidenti İlham Əliyev Ukrayna əsgərlərini salamladı.*

*Ukraynanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə prezident Viktor Yuşşenkoya təqdim olundu.*

*Fəxri qarovul dəstəsi prezidentlərin qarşısından keçdi.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Kiyev, «Qorodetski Evi»*

*22 may 2008-ci il*

*Kiyevdə «Qorodetski Evi»ndə Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü olmuşdur.*

*Görüşdə iki ölkə arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın və ikitərəfli münasibətlərin uğurla inkişafından məmnunluq ifadə olundu. Yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı və Azərbaycan prezidentinin Kiyevə hazırkı səfərinin də əlaqələrin daha da genişlənməsinə xidmət edəcəyi bildirildi.*

*Dövlət başçıları ikitərəfli, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi apardılar.*

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Mayın 22-də Kiyevdə «Qorodetski Evi»ndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yuşşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə əlaqələri inkişaf etdirmək üçün yaxşı potensialın olduğu və bu sahələrdə layihələrin həyata keçirilməsinin zəruriliyi bildirildi.*

*İkitərəfli münasibətlərin hazırkı səviyyəsindən, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq etdiyi vurğulandı.*

### Sənədlərin imzalanma mərasimi

*Mayın 22-də «Qorodetski Evi»ndə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan və Ukrayna arasında sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Ukrayna prezidenti Viktor Yuşşenko Azərbaycan Respublikası və Ukrayna Prezidentləri Şurasının Nizamnaməsini və «Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında bəyannamə»ni imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Ukrayna Respublikası Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında saziş»i Azərbaycanın Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov və Ukraynanın Nəqliyyat və Rabitə naziri İosif Vinski imzaladılar.*

*«Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Ukraynanın Ailə, Gənclər və İdman Məsələləri Nazirliyi arasında gənclər siyasəti və idman sahəsində 2008–2009-cu illər üçün əməkdaşlıq proqramı»nı Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Ukraynanın Ailə, Gənclər və İdman Məsələləri naziri Yuri Pavlenko imzaladılar.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Ukraynanın Mədəniyyət və Turizm Nazirliyi arasında 2008–2012-ci illər üzrə əməkdaşlıq haqqında protokol»u Azərbaycanın Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Ukraynanın Mədəniyyət və Turizm naziri Vasili Vovkun imzaladılar.*

*«Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Ukraynanın Qiymətli Kağızlar və Fond Bazarı üzrə Dövlət Komissiyası arasında qarşılıqlı anlaşma memorandumu»nu Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Gündüz Məmmədov və Qiymətli Kağızlar və Fond Bazarı üzrə Dövlət Komissiyasının sədri Anatoli Balyuk imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Ukrayna Respublikası Hökuməti arasında dövlət qulluğunun inkişafı sahəsində əməkdaşlıq haqqında saziş»i Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri Bəhram Xəlilov və Ukrayna Dövlət Qulluğu İdarəsinin rəisi Timofey Motrenko imzaladılar.*

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSI VƏ BƏYANATLARI

*22 may 2008-ci il*

*Mayın 22-də Azərbaycan–Ukrayna sənədlərinin imzalanması mərasimi başa çatandan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yuşşenkonun mətbuat konfransı olmuşdur.*

*Əvvəlcə mətbuat üçün bəyanatla çıxış edən Ukrayna dövlətinin başçısı vurğuladı ki, son illərdə yüksək dinamikası ilə fərqlənən ikitərəfli əlaqələrin genişləndirilməsi üçün çox iş görülmüşdür. O bildirdi ki, Azərbaycan prezidenti ilə danışıqlarda siyasi, iqtisadi, energetika və humanitar sahələrdə əməkdaşlıq məsələlərinin geniş spektrinə toxunulmuşdur.*

*Viktor Yuşşenko energetika sahəsində əməkdaşlıqdan danışarkən Odessa–Brodı–Plotsk–Qdansk neft kəməri və Xəzər neftinin Ukraynada emal edilməsi layihələrinin reallaşdırılmasının böyük əhəmiyyəti olduğunu vurğuladı.*

*O, Azərbaycanda Ukrayna səfirliyinin binasının tikintisi üçün ərazi ayrılması və yaxın vaxtlarda Bakıda Ukrayna ədəbiyyatının klassiki Taras Şevçenkoya abidə ucaldılması haqqında qəbul edilmiş qərara görə prezident İlham Əliyevə təşəkkür etdi. Ukrayna prezidenti bildirdi ki, bu ilin payızında Bakıda «Ukrayna mədəniyyəti günləri» keçirilməsi barədə də razılıq əldə edilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev ukraynalı həmkarı ilə aparılmış danışıqları yüksək qiymətləndirərək vurğuladı ki, iki ölkə müstəqillik əldə edən vaxtdan onların arasında çox sıx dostluq münasibətləri yaranmışdır və hazırda bu, keyfiyyətcə yeni mərhələyə çıxmışdır. Azərbaycan dövlətinin başçısı dedi*

*ki, bu gün imzalanmış sənədlər, ilk növbədə, bizim münasibətlərimizin xarakterini və ruhunu əks etdirən «Dostluq və strateji tərəfdaşlıq haqqında» bəyannamə buna sübutdur. O bildirdi ki, Azərbaycan və Ukrayna Prezidentləri Şurasının yaradılması haqqında qərar qəbul edilmiş və Şura ikitərəfli əməkdaşlığın üstün istiqamətlərinin müəyyən edilməsi, eləcə də qəbul olunmuş qərarların yerinə yetirilməsinə nəzarət edilməsi üçün səmərəli orqan olacaqdır.*

*Prezident İlham Əliyev BMT-nin Baş Məclisində Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət haqqında qətnaməyə dair səsvermə zamanı Azərbaycanın mövqeyini dəstəklədiyinə görə Ukrayna dövlətinin başçısına təşəkkürünü bildirdi.*

*Dövlətimizin başçısı Xəzər neftinin dünya bazarlarına çatdırılması marşrutlarının şaxələndirilməsinin vacibliyini vurğulayaraq dedi ki, enerji ehtiyatlarının iri təchizatçısı kimi, Azərbaycan özünün enerji potensialını daha tam reallaşdırmağa imkan verəcək yeni layihələr hazırlayır.*

**Ukrayna prezidenti Viktor Yuşşenkonun bəyanatı**

Hörmətli İlham Heydər oğlu!

Əziz azərbaycanlı dostlarımız!

Ukrayna nümayəndə heyəti adından sizin hamınızı Ukrayna torpağında salamlayırıq.

Biz geniş tərkibdə danışıqlar apardıq, ikitərəfli münasibətlərlə bağlı məsələləri müzakirə etdik. Bəri başdan demək istəyirəm ki, bizim münasibətlərimiz üçün çox yaxşı dinamika səciyyəvidir. Biz həm siyasi, diplomatik, həm də ticarət, iqtisadi məsələləri nəzərdə tuturuq. Münasibətlərimizin həm insani səviyyədə, həm də dövlət səviyyəsində yaxşı dinamikaya malik olması üçün son illərdə həqiqətən çox iş görmüşük. Bu gün deyə bilərik ki, belə dinamikaya nail olmuşuq. Mən çıxışımda bu barədə bir neçə kəlmə və statistik rəqəm deyəcəyəm.

İkincisi, bu münasibətlərin statusunu inkişaf etdirmək çox vacibdir. Bu gün imzaladığımız iki mühüm sənəd bu münasibətlərin statusunu artırır. İndidən belə, bizim münasibətlərimiz strateji xarakter daşıyır, bu gün imzaladığımız bəyannamə də buna sübutdur. Bu gün biz Prezidentlər Şurasının Nizamnaməsini imzaladıq. Beləliklə, münasibətlərimizi əlaqələndirən və onların inkişafını ən yüksək səviyyədə təmin edən yeni təsisat fəaliyyətə başlamışdır.

İqtisadi əlaqələrimizin inkişafı bizi qane edir. Bununla əlaqədar iki rəqəm göstərmək istəyirəm. Keçən il qarşılıqlı ticarətimizin həcmi 43 faiz artmışdır. Bu çox yaxşı dinamikadır. Ticarət dövriyyəsinin Ukraynaya aid hissəsinə gəldikdə, ixrac 50 faiz artmışdır. Bu da çox vacibdir ki, ixracın 24 faizi maşınqayırmanın payına düşür. Milli iqtisadiyyatın əsas sektorları olan kənd təsərrüfatı, metallurgiya, kimya sahələri ticarət dövriyyəsində çox ciddi, dinamik şəkildə təmsil olunmuşdur. Biz bu gün nəqliyyat, rabitə və kosmos sahəsində əməkdaşlığın inkişaf etdirilməsi barədə də danışdıq.

Bununla əlaqədar bir məqamı qeyd etmək xüsusən vacibdir ki, gələcəkdə – Azərbaycanın peykinin buraxılması məsələsi gündəliyə gələndə Ukrayna raketlərindən istifadə edilməsi nəzərdən keçirilir. Bu layihə 2010-cu il üçün planlaşdırılır və belə bir qərara gəlməyimiz bizim üçün çox mühümdür. Biz energetikanın inkişaf perspektivləri barədə danışdıq. Bu, danışıqlar prosesinin ayrıca mövzusudur.

Biz onu əsas götürürük ki, sabah Ukraynada işə başlayacaq enerji sammiti energetika sahəsində münasibətlər siyasətinin optimallaşdırılmasına imkan verən bir tədbir olacaqdır. İkitərəfli münasibətlərə gəldikdə, Xəzərdən çıxarılan Azərbaycan neftinin Avropa İttifaqı ölkələrinə çatdırılması layihəsinin həyata keçirilməsi bizim üçün çox vacibdir. Buna görə də biz bu gün Odessa–Brodı–Avropa İttifaqı marşrutu barədə, boru kəmərinin neftlə doldurulması texnologiyasından tutmuş, onun istismarının başlanmasına qədər bütün məsələlər barədə ətraflı söhbət etdik. Birgə işçi qrupu artıq

fəaliyyətdədir, iyulun 1-də bu qrupun ilk hesabatı alınacaq və elə həmin gün biz cənab Prezidentlə görüşərək, bu istiqamətdə layihələrin inkişafını qiymətləndirəcəyik.

Biz ikitərəfli münasibətlərdə nəqliyyat və rabitə sahəsində əməkdaşlığın inkişafına böyük əhəmiyyət veririk. Bu gün biz həmin məsələ ilə bağlı bəzi layihələri müzakirə etdik.

Humanitar sahə. Azərbaycan Respublikasında Ukrayna səfirliyinin binasının tikilməsi üçün ərazi ayrılmasına görə biz cənab Prezidentə və Azərbaycan hökumətinə minnətdarıq. Yaxın vaxtlarda Ukrayna adından Bakıda Taras Qriqoryeviç Şevçenkonun abidəsinin açılması imkanına görə təşəkkür edirik. Bu gün biz sentyabr və ya oktyabr aylarında Azərbaycanda «Ukrayna mədəniyyəti günləri» keçirilməsi barədə də söhbət etdik. Onu da deyim ki, bu tədbirlər qarşılıqlı əsasda keçiriləcəkdir.

Biz ikitərəfli münasibətlərimizlə bağlı bir çox başqa sahələrə – təhsil, mədəniyyət, hərbi-texniki əməkdaşlıq sahələrinə dair layihələr barədə danışdıq.

Son olaraq demək istəyirəm ki, dövlətlərimiz, hökumətlərimiz, ictimai təşkilatlar, biznes strukturları səviyyəsində münasibətləri çox yüksək qiymətləndiririk və bu münasibətlərdə müşahidə olunan dinamika, yuxarıda qeyd etdiyim status bir faktı nümayiş etdirir – hazırda Ukrayna ilə Azərbaycan arasında münasibətlər həqiqətən dostluq münasibətləri və strateji dövlətlərarası münasibətlərdir. Bu bizim böyük uğurumuzdur. Mən bu münasibətlərin şəxsən təşkilinə, öz hökuməti ilə birlikdə bu münasibətlərin inkişafına verdiyi töhfəyə görə İlham Heydər oğluna təşəkkür edirəm. Biz əminik ki, bu uğurların qazanılmasında həm dövlətlərarası, həm də şəxsi münasibətlərin rolu böyükdür. Demək istəyirəm ki, biz bunu çox yüksək qiymətləndirir və onun qədrini bilirik.

Sağ olun. Ukraynaya xoş gəlmisiniz!

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Viktor Andreyeviç!

Hörmətli xanımlar və cənablar!

Əvvələn, məni ölkənizə rəsmi səfərə dəvət etdiyinə görə, ölkənizdə olduğumuz ilk gündən mənə və bizim nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə Ukrayna prezidentinə təşəkkür etmək istəyirəm.

Viktor Andreyeviçin qeyd etdiyi kimi, bu gün biz ikitərəfli münasibətlərin xarakterini və gələcəyini müəyyən edən məsələlərin çox geniş spektrini müzakirə etdik. Bu məsələlər çoxşaxəlidir, onlar həm iqtisadi və siyasi, həm də humanitar seqmentləri əhatə edir. Bütün bu istiqamətlərdə biz hər iki ölkənin bir-birinə yaxınlaşmaq, birgə layihələr həyata keçirmək, artıq imzalanmış müqavilələr çərçivəsində konstruktiv iş aparmaq və bununla da Ukrayna və Azərbaycanın əməkdaşlığının daha yüksək səviyyəyə çatmasına şərait yaratmaq istəyini görürük.

Ölkələrimiz müstəqillik əldə etdiyi ilk vaxtdan onların arasında çox sıx və dostluq münasibətləri yaranmışdır. Deyə bilərəm ki, hazırda bu münasibətlər keyfiyyətcə yeni mərhələyə çatmışdır. Bu gün imzalanmış sənədlər, ilk növbədə siyasi xarakterli sənədlər buna sübutdur. Bu gün «Dostluq və strateji tərəfdaşlıq haqqında» bəyannamə imzalanmışdır. Bu sənədin elə adı bizim münasibətlərin xarakterini və ruhunu əks etdirir. Prezidentlər Şurasının yaradılması haqqında qərar qəbul olunmuşdur. Ümid edirəm ki, bu format əməkdaşlığımızın prioritetlərinin müəyyən olunması baxımından, eləcə də qəbul edilmiş qərarların yerinə yetirilməsinə nəzarət mənasında çox səmərəli olacaqdır ki, bu da çox vacibdir.

Viktor Andreyeviçin dediyi kimi, bu gün biz hər iki ölkədə davamlı iqtisadi artım və əmtəə dövriyyəsinin artımını müşahidə edirik. Bu da həm ölkələrimizin artan potensialının, həm də Ukrayna ilə Azərbaycan arasında səmimi, qar-

şılıqlı siyasi əlaqələrin olmasının göstəricisidir. Siyasi baxımdan ölkələrimiz müttəfiqdir, beynəlxalq təşkilatlarda həmişə bir-birini dəstəkləyir. Bu barədə mən bu gün Viktor Andreyeviçlə danışmışam, indi bir də demək istəyirəm. Mən Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət haqqında Azərbaycanın BMT-nin Baş Məclisində təklif etdiyi qətnaməni dəstəklədiyinə görə Ukrayna rəhbərliyinə və şəxsən Prezidentə təşəkkürümü bildirirəm. Bu, Ukrayna rəhbərliyinin prinsipiallığının, Azərbaycana münasibətdə dostluğun, münaqişələrin həllinə ədalətli münasibətin daha bir təzahürüdür.

Beləliklə, siyasi münasibətlər, prezidentlər arasında şəxsi münasibətlər başqa sahələrdə münasibətlərin istiqamətlərinin inkişafını da çox cəhətdən müəyyən edir. Bu gün biz növbəti energetika sammiti keçirilməsi ərəfəsindəyik. Əlbəttə, bütün başqa məsələlərlə yanaşı, energetika problemləri də bu gün fəal müzakirə olundu və əməkdaşlığı inkişaf etdirmək üçün bizim çox yaxşı perspektivlərimiz var.

Krakovda keçirilmiş birinci sammitdən sonrakı bir il ərzində görülən işlər onu göstərir ki, bu prosesin bütün iştirakçıları əməkdaşlığın möhkəmlənməsinə sadiqdirlər. Təbii ki, Ukraynanın və Azərbaycanın bu prosesdə fəal iştirakı bizim ciddi nəticələr əldə etməyimizə şərait yaradır.

Bunun üçün imkanlar var. Azərbaycan artıq dünya bazarlarına böyük həcmdə enerji daşıyıcıları göndərən ölkəyə çevrilmişdir. Bu, neftə və qaza, onların ixracının artırılması perspektivinə aiddir. Təbii ki, marşrutların şaxələndirilməsi bizim üçün vacib məqamdır və buna xeyli dərəcədə nail olmuşuq. Lakin indi biz öz enerji potensialımızı daha tam reallaşdırmağa imkan verə biləcək yeni layihələr üzərində işləyirik.

Bu gün biz humanitar əməkdaşlıq məsələsinə böyük diqqət yetirdik və bu sahədə münasibətlərin yüksək səviyyədə olmasını böyük məmnuniyyətlə vurğuladıq. Yaxın gələcəkdə Bakıda Ukraynanın böyük oğlu Taras Şevçenkonun abidəsi-

nin açılışı gözlənilir. Bu, Azərbaycanda Ukraynaya, Ukrayna xalqına, Ukrayna mədəniyyətinə nə qədər böyük hörmət və məhəbbət bəslənməsinin yalnız bir təzahürüdür.

Bu gün biz bu sahədə fəal əməkdaşlığı inkişaf etdirmək barədə razılığa gəldik ki, qarşılıqlı siyasi əlaqələrin yüksək səviyyəsi, müxtəlif dövlət qurumları, özəl qurumlar, nazirliklər arasında əməkdaşlıq həm də sırf insani ünsiyyətlə tamamlansın. Bunun üçün möhkəm tarixi baza var. İctimai-siyasi formasiyalardan asılı olmayaraq, ölkələrimiz və xalqlarımız arasında münasibətlər həmişə çox müsbət olmuşdur.

Mən danışıqların yekunlarından, bizim görüşümüzün nəticələrindən çox razıyam və əminəm ki, gələcəkdə qarşılıqlı əməkdaşlığın potensialını fəal surətdə artıracağıq.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l** (*«Space» teleşirkəti, Azərbaycan*): **Mənim sualım hər iki Prezidentədir. Siz qeyd etdiniz ki, son illərdə ölkələrimiz arasında iqtisadi münasibətlər dinamik inkişaf edir, ticarət dövriyyəsi genişlənir. Bu baxımdan bilmək maraqlı olardı, sizin fikrinizcə, qarşılıqlı investisiya qoyuluşunun konkret perspektivləri necədir?**

**V i k t o r  Y u ş ş e n k o:** Biz bunu əsas tuturuq ki, hazırda həm iqtisadi, həm də ticarət münasibətlərində mövcud olan dinamika sizin sualınıza müsbət cavab vermək üçün yaxşı zəmindir. Bizim Azərbaycanla müzakirə etdiyimiz məsələlər portfelində Azərbaycan tərəfinə təkliflərimiz neftin Ukrayna ərazisində emal edilməsinə dair layihədir. Bu layihə barədə bizim işçi qrupu çərçivəsində artıq ikinci dəfə söhbət getmişdir. Bildiyiniz kimi, Energetika, neft və qaz nazirliklərinin mütəxəssislərindən təşkil edilmiş işçi qrupu fəaliyyətdədir. Biz buna əsaslanırıq ki, iyulun 1-də bu qrupun işi

barədə ilk hesabat alacağıq və bu cür investisiyaların mümkün olub-olmaması sualına ilk cavab o vaxt məlum olacaqdır. Bu investisiyalar bizim üçün çox vacibdir, özü də biz bu layihənin həyata keçirilməsinə kompleks yanaşmadan danışırıq. Onu nəzərdə tuturuq ki, yeni müəssisədə neftin dərin emalı ilə məşğul olmaq üçün gələn investor Ukrayna ərazisində özünün yanacaqdoldurma stansiyaları şəbəkəsini yaratmaq layihəsi ilə gəlir və ən başlıcası, müvafiq neft məhsullarının Avropa İttifaqı ölkələrinin ərazilərinə ixrac edilməsi üçün onun çox böyük potensialı vardır.

Bu gün biz aviasiya ilə bağlı çoxsaylı layihələr haqqında danışdıq. Bizim təkliflərimiz arasında elə layihələr var ki, bəlkə də onlar hələlik qapalı variantda mövcuddur. Biz hərbi-texniki sahədə əməkdaşlıq barədə, bu və ya digər məhsulların istehsalı üçün səylərimizi birləşdirmək imkanları barədə danışdıq. Nəqliyyat və rabitə sahəsində yaxşı perspektivlər var. Kosmosun öyrənilməsi sahəsində yaxşı perspektivlər var. Bunlar bizim üçün milli sənayenin ənənəvi ixtisaslaşmasıdır və cənab Prezidentlə təkbətək danışıqlarda biz, mənim fikrimcə, Azərbaycan tərəfini maraqlandıra biləcək bir sıra layihələr haqqında söhbət etdik. Ümid edirəm ki, bu məsələlər öyrəniləcək və yaxın bir ay–ay yarım ərzində biz bu təşəbbüslərə ikinci dəfə qayıdacağıq.

Bundan əlavə, sabah başlanacaq zirvə toplantısında biz Xəzər neftinin nəql edilməsi üçün bütün marşrutun işə salınması məsələsinə dair təkliflər verəcəyik və bu layihə ilə əlaqədar bütün infrastruktur Azərbaycan tərəfi üçün açıqdır. Mən dostuma dəfələrlə demişəm və bu gün də səmimi vurğulamaq istəyirəm ki, biz Azərbaycan və Ukrayna biznesləri arasında inteqrasiyanın olduqca dərinləşməsində son dərəcə maraqlıyıq. Biz ürəkdən istəyirik ki, Azərbaycanın ölkə kimi və yaxud Azərbaycan biznesinin Ukraynada sanballı infrastrukturu olsun. Biz əminik ki, Ukraynanın geosiyasi imkanları, coğrafi şəraiti və nadir istehlak

bazarı bu layihələri cazibədar edir. Mən ümid edirəm ki, biz bu təşəbbüslərin müsbət həllini tapacağıq. Sağ olun.

**İ l h a m Ə l i y e v:** Mən əlavə etmək istəyirəm ki, biz ölkələrimizin qarşılıqlı investisiyalarını hərtərəfli alqışlayırıq və hesab edirəm ki, investisiyalara daha çox ehtiyac olan sahələrə sərmayə qoyulması üçün yaxşı imkanlar var. Hazırda Ukrayna və Azərbaycan öz iqtisadi potensialına görə ölkələrimizin hüdudlarından kənarda külli məbləğdə sərmayə qoymaq imkanına malikdir. Yəqin ki, cəmi 5-7 il bundan əvvəl belə imkanlar yox idi. İndi isə belə imkanlar, o cümlədən maliyyə imkanları var. Üstəlik, siyasi münasibətlər yüksək səviyyədə olanda, ölkələrimizin iqtisadiyyatına investisiyalar daha cəlbedici olur. Çünki istər şəxsi biznesin, istərsə də dövlət müəssisələrinin vəsaitləri olsun, bunlar, adətən, o ölkələrə daha rahatlıqla yönəldilir ki, həmin ölkələrlə çox yaxşı siyasi münasibətlər olsun, bu isə bizim ölkələr üçün səciyyəvi haldır.

Son dövrlərdə Azərbaycan qonşu dövlətlərdə bir sıra iri investisiya layihəsi həyata keçirmişdir. Bu yaxınlarda tikilmiş neft və qaz kəmərlərinə qoyduğumuz investisiyaları nəzərə almasaq, həmin layihələrin ümumi həcmi 2,5 milyard dollardan çoxdur. Biz gələcəkdə bu istiqamətdə fəaliyyətimizi genişləndirməyi planlaşdırırıq. Ukraynanın energetika sektoru bizim üçün böyük maraq doğurur və Viktor Andreyeviçin dediyi kimi, bu gün həmin mövzu işçi qruplar səviyyəsində müzakirə edilmişdir. Energetikaya investisiya qoyulması ilə əlaqədar bütün məsələlər praktik olaraq müzakirə edilir və işçi qrupunun fəaliyyətinin nəticəsi müsbət olacağı təqdirdə – mən isə buna əminəm – bu proses dərhal başlanacaqdır. Biz Azərbaycan iqtisadiyyatına, onun müxtəlif sektorlarına Ukrayna şirkətlərinin sərmayə qoymasında da maraqlıyıq. Hazırda biz iqtisadiyyatı şaxələndirmə siyasəti yeridirik. Biz əsas diqqəti qeyri-neft sektoruna yönəldirik, çünki neft-qaz sektorunda bizim qarşımızda duran bütün vəzifələr artıq həyata keçirilmişdir. Biz neft və qaz

amilindən asılı olmayan iqtisadiyyat yaratmalıyıq. Ona görə də ukraynalı tərəfdaşlarımızın bu baxımdan bütün təşəbbüslərini və təkliflərini alqışlayırıq. İqtisadiyyatın inkişafı və ölkələrimiz arasında əmtəə dövriyyəsinin artması qarşılıqlı investisiyaların həcminin artırılmasını nəzərdə tutur. İnanıram ki, bu, ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına kömək edəcəkdir.

**S u a l** (*Birinci milli kanal, Ukrayna*): **Mənim birinci sualım Ukrayna prezidentinədir. Viktor Andreyeviç, Sizin fikrinizcə, Odessa–Brodı marşrutu təxminən nə vaxt birbaşa rejimdə işə düşə bilər? Bu sualım isə Azərbaycan prezidentinədir. Azərbaycan Odessa–Brodı kəməri üçün hansı həcmdə neft göndərməyə hazırdır və Sizin fikrinizcə, ilk müqavilələr nə vaxt bağlana bilər?**

**V i k t o r  Y u ş ş e n k o:** Bugünkü danışıqlar və işçi qrupunun təmasları çərçivəsində Odessa–Brodı neft kəmərinə, daha sonra Ukraynanın və başqa ölkələrin neft emalı müəssisələrinə Xəzər neftinin göndərilməsi məsələsinə texniki səviyyədə baxılmışdır. İndi kəmərin Bakı nefti ilə doldurulması barədə hesablamalarla bağlı işçi müzakirələr gedir, buna görə də mən deyərdim ki, məsələ texniki səviyyədədir.

**İ l h a m  Ə l i y e v**: Bildiyiniz kimi, bu məsələ çoxdan müzakirə edilir. İndi isə müzakirələr daha konkret xarakter daşıyır. Sabah energetika sammitində müzakirə ediləcək mövzulardan biri də bu layihə ilə bağlıdır. Azərbaycan həmişə ixracın şaxələndirilməsi siyasətinə tərəfdar olmuşdur. Mahiyyət etibarilə biz buna nail olmuşuq. Hazırda Azərbaycandan üç istiqamətdə neft nəql edilir və ya nəql edilə bilər. Boru kəmərlərindən ikisi Qara dəniz bazarına, biri isə Aralıq dənizi bazarına istiqamətlənmişdir. Lap bu yaxınlarda, cəmi bir neçə gün əvvəl Gürcüstanın Qara dəniz sahilindəki Kulevi şəhərində Azərbaycanın neft şirkəti tərəfindən tikilmiş yeni terminal açılmışdır. Bu həm Gürcüstan iqtisadiyyatına Azərbaycanın birbaşa sərmayə qoyması, həm də Qara dənizdə güclü infrastruktur yaradılması deməkdir.

Başqa sözlə, bu terminal Odessa–Brodı–Plotsk–Qdansk layihəsinin cəlb olunmasını nəzərdə tutur və enerji dəhlizinin ayrılmaz tərkib hissəsidir.

Ümumiyyətlə, biz regional xarakterli enerji və nəqliyyat layihələri üzərində çox fəal işləyirik və bu istiqamətdə çox iş görülmüşdür. Odessa–Brodı layihəsi çərçivəsində əməliyyatların həyata keçirilməyə başlanmasının konkret müddətlərinə gəldikdə isə əminəm ki, işçi qrupu iyulun əvvəlinə həm iqtisadi, həm də texniki xarakterli konkret təkliflərini təqdim edəcəkdir. Hazırda layihənin texniki-iqtisadi əsaslandırılması prosesi gedir. Bu gün biz həmin marşrutun təkcə nəzəri baxımdan deyil, həm də praktik cəhətdən testləşdirilməsi üçün müəyyən pilot layihələrinin imkanlarını müzakirə etdik. Ona görə ki, iqtisadi göstəricilər nəzəriyyədə bir, praktikada isə başqa ola bilər.

Təbii ki, biz həmişə bunu nəzərdə tutmuşuq və bu gün də Azərbaycanın həmin layihədə daha geniş kontekstdə iştirakını müzakirə etdik. Ona görə ki, Azərbaycan nefti Qara dəniz hövzəsinə sərbəst nəql edilir və Odessa–Brodı boru kəmərinin doldurulması üçün ondan istifadə edilə bilər. Lakin əməkdaşlığın daha geniş formatından – neftin emalı, distribyusiyası, neft məhsullarının Ukrayna bazarlarına və ola bilsin ki, qonşu dövlətlərin bazarlarına da çıxarılması üçün birgə tədbirlər görülməsindən söhbət gedir. Yəni biz bu məsələyə geniş formatda yanaşırıq. Bilirəm ki, Ukraynanın da mövqeyi belədir və bu layihə təkcə Ukrayna ilə Azərbaycan arasında deyil, həm də ona qoşulan başqa ölkələr arasında da əməkdaşlığın çox genişlənməsinə səbəb olmalıdır.

Biz Xəzər dənizi ilə Baltik dənizini birləşdirən və ya birləşdirə biləcək enerji dəhlizinin yaradılmasından danışırıq. Bu, Xəzər regionu–Qara dəniz–Baltik dənizi hövzələrinin regional əməkdaşlığının yeni elementidir. Yəni layihənin formatı çox böyük olacaqdır. Bu layihəyə qoşulmuş bütün ölkələrin siyasi dəstəyi vardır. İndi yalnız iqtisadi və texniki

detalları razılaşdırmalıyıq, artıq qeyd etdiyim kimi, praktikada testləşdirib nəticələri təhlil etməliyik.

## Azərbaycan prezidentinin şərəfinə rəsmi nahar verilmişdir

*Mayın 22-də Kiyevdə «Qorodetski Evi»ndə Ukrayna prezidenti Viktor Yuşşenkonun adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.*

## UKRAYNANIN BAŞ NAZİRİ YULİYA TİMOŞENKO İLƏ GÖRÜŞ

*22 may 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 22-də onun üçün ayrılmış iqamətgahda Ukraynanın Baş naziri xanım Yuliya Timoşenko ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin genişlənməsi, ticarət dövriyyəsinin həcminin artması razılıqla vurğulandı.*

*Bildirildi ki, müxtəlif sahələrdə, o cümlədən maşınqayırma, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün yaxşı potensial vardır.*

*Birgə iqtisadi komissiyanın işinin fəallaşdırılmasının vacibliyi vurğulanan görüşdə iqtisadi əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## ALİ RADADA GÖRÜŞ

*22 may 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 22-də Ukrayna Ali Radasının sədri Arseni Yatsenyuk ilə görüşmüşdür.*

*Ali Radanın sədri vurğuladı ki, Azərbaycan prezidentinin Ukrayna parlamentinə gəlməsi çox böyük qürur hissi ilə qarşılanır. Ölkələrimizin siyasi, iqtisadi və digər sahələrdə əlaqələrinin, o cümlədən parlamentlərarası münasibətlərin yüksək səviyyədə olduğunu bildirən Arseni Yatsenyuk dedi ki, Azərbaycan və Ukrayna beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir.*

*Azərbaycan iqtisadiyyatının sürətlə inkişafının Ukraynada da maraqla izlənildiyini bildirən Ali Radanın sədri ölkələrimiz arasında münasibətlərin, o cümlədən parlamentlərarası əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini söylədi.*

*İkitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan Azərbaycan prezidenti İlham Əliyev parlamentlərin əlaqələrini, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığı yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı Azərbaycan–Ukrayna əlaqələrinin daha da inkişaf edəcəyinə əmin olduğunu vurğuladı.*

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN ALİ DÖVLƏT MÜKAFATLARI İLƏ QARŞILIQLI TƏLTİF EDİLMƏSİ

*Kiyev, «Qorodetski Evi»*

*22 may 2008-ci il*

*Mayın 22-də Kiyevdə «Qorodetski Evi»ndə Azərbaycan və Ukrayna prezidentlərinin ali dövlət mükafatları ilə qarşılıqlı təltif edilməsi mərasimi olmuşdur.*

*Ukrayna–Azərbaycan münasibətlərinin möhkəmlənməsinə verdiyi mühüm şəxsi töhfəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynanın ən yüksək ordeni olan I dərəcəli Knyaz Yaroslav Mudrı ordeni ilə təltif edilməsi haqqında Ukrayna prezidentinin Fərmanı oxundu.*

*Ukrayna prezidenti Viktor Yuşşenko ordeni Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi.*

*Sonra Ukrayna prezidenti Viktor Yuşşenkonun ölkəmizin ali mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif edilməsi haqqında Azərbaycan prezidentinin sərəncamı oxundu.*

*Azərbaycan prezidenti İlham Əliyev ordeni Ukrayna prezidenti Viktor Yuşşenkoya təqdim etdi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ TARAS ŞEVÇENKO ADINA KİYEV MİLLİ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİMATI

*22 may 2008-ci il*

*Mayın 22-də Taras Şevçenko adına Kiyev Milli Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bu təhsil müəssisəsinin Fəxri doktoru adı verilməsi münasibətilə təntənəli mərasim olmuşdur.*

*Mərasim iştirakçıları Azərbaycan dövlətinin başçısını hərarətlə qarşıladılar.*

*Universitetin rektoru vəzifəsini icra edən akademik Leonid Quberski Azərbaycan prezidenti İlham Əliyevin həyat və fəaliyyəti haqqında ətraflı məlumat verdi. O, dövlətimizin başçısının təhsilin inkişafında rolu barədə danışarkən vurğuladı ki, Azərbaycan prezidentinin fəal dəstəyi sayəsində Azərbaycan və Ukrayna ali məktəbləri arasında dostluq əlaqələri və əməkdaşlıq genişlənmiş və dərinləşmişdir. Bu böyük və mühüm işdə Kiyev Universiteti də fəal iştirak edir. Vaxtilə burada təhsil almış Azərbaycan vətəndaşları hazırda ölkənin ictimai-siyasi həyatında mühüm yer tuturlar.*

*Akademik Quberski dedi ki, Azərbaycan prezidenti beynəlxalq siyasi səhnədə müdrik dövlət başçısı, nüfuzlu siyasi xadim, Heydər Əliyevin böyük işlərinin layiqli davamçısı kimi imic qazanmışdır. O, ölkənin sosial-iqtisadi tərəqqisi naminə Azərbaycana və regiona yeni, müasir siyasət təklif etmiş dövlət başçısı kimi tanınmışdır.*

*Leonid Quberski vurğuladı ki, strateji tərəfdaşı və müttəfiqi, onun yaxın dostu kimi, Ukrayna Azərbaycanın beynəlxalq aləmdə qazandığı böyük uğurlara sevinir, regional və*

*beynəlxalq layihələrin həyata keçirilməsi üçün Azərbaycanın atdığı qətiyyətli addımları yüksək qiymətləndirir. Son illərdə həyata keçirilmiş iri beynəlxalq iqtisadi layihələr, uğurlu xarici siyasət Azərbaycanın nəinki regionda, hətta bütün dünyada yüksək nüfuza malik olan bir ölkə kimi tanınmasına kömək etmişdir.*

*Akademik Leonid Quberski bildirdi ki, Taras Şevçenko adına Kiyev Milli Universitetinin Elmi Şurası Azərbaycan prezidenti İlham Əliyevə bu ali məktəbin Fəxri doktoru adı verilməsi barədə qərar qəbul etmişdir. O, Fəxri doktor diplomunu və mantiyasını Azərbaycan prezidentinə təqdim etdi.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Hörmətli rektor, mənim ünvanıma söylədiyiniz xoş sözlərə görə sağ olun. Dünyanın aparıcı ali məktəblərindən birinin – Taras Şevçenko adına Kiyev Milli Universitetinin Fəxri doktoru adına layiq görülmək mənim üçün böyük şərəfdir.

Mən bu adı ölkələrimiz arasında çox dinamik, səmərəli şəkildə inkişaf edən, yeni formalar kəsb edən, son nəticədə təkcə ikitərəfli münasibətlərin möhkəmlənməsinə deyil, həm də iri regional layihələrin həyata keçirilməsinə gətirib çıxaracaq dostluq, qardaşlıq münasibətlərinin inkişafı və möhkəmlənməsi işində fəaliyyətimin qiymətləndirilməsi hesab edirəm.

Mən bilirəm ki, bu gün Ukraynanın tarixində xüsusi bir gündür. Mənə dedilər ki, bu gün Taras Şevçenkonun nəşinin yenidən dəfn edildiyi gündür. Ukrayna xalqının bu görkəmli oğlunun xatirəsinə Azərbaycanda da böyük hörmətlə yanaşırlar. Fürsətdən istifadə edib bildirmək istəyirəm ki, yaxın vaxtlarda Bakıda, şəhərimizin mərkəzi rayonlarının birində Taras Şevçenkonun abidəsinin açılışı olacaqdır. Bu da

dövlətlərimiz arasında olan dostluq və qardaşlıq münasibətlərinin nümunəsidir.

Artıq qeyd etdiyim kimi, bu münasibətlər çox səmərəli və dinamik şəkildə inkişaf edir və bu gün biz həmin münasibətlərin keyfiyyətcə tamamilə yeni səviyyəsinin şahidiyik. Bu gün mən Ukraynada rəsmi səfərdəyəm. Bu, son dörd ildə sizin ölkənizə mənim dördüncü səfərimdir və bunun özü ölkələrimiz arasında sıx əlaqələrin göstəricisidir.

Bugünkü səfər bizim münasibətlərimizin inkişafında yeni mərhələdir. Ölkələrimiz arasında münasibətlərin gələcək inkişafını müəyyənləşdirəcək çox mühüm sənədlər imzalanmışdır. Bu sənədlər həyatımızın bir çox sahələrini əhatə edir, lakin ölkələrimiz arasında «Dostluq və strateji tərəfdaşlıq haqqında» bəyannaməni xüsusi vurğulamaq istəyirəm. Bu sənədin elə adı bizim münasibətlərimizin xarakterini və ruhunu, yəni dostluq və strateji tərəfdaşlığı əks etdirir. Əminəm ki, gələcəkdə bizim münasibətlərimiz daha səmərəli inkişaf edəcək, həyatımızın yeni sahələrini, iqtisadiyyatın, humanitar sahənin yeni sektorlarını əhatə edəcəkdir. İki qardaş dövlət kimi, həm Ukrayna, həm də Azərbaycan islahatları uğurla həyata keçirəcək, ölkələrimizi demokratiya və tərəqqi yolu ilə irəli aparacaqlar.

Bu gün dünyanın aparıcı ali məktəblərindən birinin yüksək Fəxri adını almaq mənə çox xoşdur. Vaxtilə mənim də müəllimlik fəaliyyətim olub və həyatımın bu dövrü mənə çox əzizdir. Bu gün də Azərbaycanın prezidenti kimi, təhsil sisteminin inkişafına böyük diqqət yetirməyə çalışıram. Hər bir ölkənin, hər bir xalqın gələcəyi təhsillə bağlıdır.

Əlbəttə ki, zəngin təbii ehtiyatlara malik olan Azərbaycan iqtisadi islahatları səmərəli şəkildə həyata keçirir. Lakin mən tam əminəm ki, yüksək təhsil səviyyəsi olmasa, peşəkarlıq olmasa, gənclər ən mütərəqqi texnologiyalara yiyələnməsələr, həqiqətən inkişaf etmiş dövlət qurmaq mümkün deyildir. Buna görə də təhsil bizim üçün prioritet sahədir. Son vaxtlarda Azərbaycanda bu istiqamətdə çox iş görül-

müşdür. Bu sahəyə xərclər ilbəil artır. Deməliyəm ki, Azərbaycan büdcəsinin maddələri arasında təhsil sahəsi ikinci yer tutur. Son 3-4 ildə Azərbaycanda 1300-dən çox məktəb tikilmiş, onlar hamısı internet şəbəkəsinə qoşulmuş kompyuterlərlə təchiz olunmuşdur.

Biz gənclərimizin dünyanın aparıcı ali məktəblərində təhsil alması üzrə proqramı həyata keçirməyə başlayırıq. Mənə çox xoşdur ki, bizim gənclər sizin universitetdə təhsil alırlar. Rektorun artıq qeyd etdiyi kimi, bu sahədə yaxşı ənənə də mövcuddur. Kiyev Milli Universitetinin məzunlarının çoxu bu gün hakimiyyət strukturunda mühüm mövqelər tutur və ictimai həyatda əhəmiyyətli rol oynayırlar.

Bütövlükdə, Azərbaycanın bugünkü inkişafını səciyyələndirərək deməliyəm ki, ölkəmiz siyasi və iqtisadi islahatlar yolu ilə inamla irəliləyir. İslahatlar paralel şəkildə həyata keçirilir, hüquqi dövlət qurulması, cəmiyyətin demokratikləşməsi məsələlərinə çox böyük əhəmiyyət verilir. Güclü siyasi sistem yaradılması bizim bütün gələcək uğurlarımızın rəhnidir, çünki möhkəm demokratik təsisatları olmayan heç bir cəmiyyət inkişaf edə bilməz.

Bu istiqamətdə çox böyük iş görülmüşdür, hələ çox işlər də görülməlidir. Bununla paralel olaraq, çox ciddi və əsaslı iqtisadi islahatlar həyata keçirilir. Bütün bunlar əhalinin maddi rifahının yüksəlməsinə, habelə iqtisadi potensialımızın möhkəmlənməsinə, bütövlükdə beynəlxalq aləmdə ölkəmizin mövqelərinin möhkəmlənməsinə öz təsirini göstərir.

İqtisadi və siyasi islahatlar nəticəsində son dörd ildə Azərbaycanda iqtisadi artım 96 faiz olmuşdur. Son üç ildə biz ÜDM-in artım sürətinə görə dünyada ən yüksək nəticələr əldə etmişik, artım hər il 20–30 faiz olur. Sənaye istehsalının artımı da təxminən iqtisadi artım səviyyəsindədir. Biz irimiqyaslı sosial islahatlar həyata keçiririk, bunun nəticəsində yoxsulluğun səviyyəsi bir neçə dəfə azalmışdır və bu gün həmin göstəriciyə görə Azərbaycan dünya miqyasında layiqli yerdədir. Bizim vəzifəmiz yoxsulluğun kökünü tamamilə

kəsməkdir və mən əminəm ki, yaxın vaxtlarda biz buna nail olacağıq.

Biz Azərbaycanın regionlarının inkişafına çox böyük diqqət yetiririk, çünki regional inkişaf ölkəmizin hərtərəfli inkişaf yoludur. Bu, yeni iş yerləri, müasir infrastruktur, o cümlədən təhsil və səhiyyə infrastrukturu yaradılması deməkdir. Ölkəmizdə bütün bunların həyata keçirilməsi mümkündür və bizim reallaşdırdığımız proqramlar əslində həyatımızın bütün sahələrini əhatə edir.

Azərbaycan zəngin təbii ehtiyatlara malik olan ölkədir. Əlbəttə, burada əsas rolu təbiət oynayır. Lakin biri var həmin təbii ehtiyatlar suyun dərin qatları altında qalsın, biri də var ki, onlar hasil edilsin, boru kəmərləri çəkilsin və həmin resurslar dünya bazarlarına çatdırılsın. Biz keçən əsrin 90-cı illərinin ortalarından başlayaraq, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə enerji sektorunda irimiqyaslı əsaslı islahatlar həyata keçirməyə nail olmuşuq və həmin illərin ortalarında qarşıya qoyulmuş bütün vəzifələr hazırda uğurla yerinə yetirilmişdir.

Azərbaycan enerji ehtiyatlarının iri hasilatçısına və onları Avropa və dünya bazarlarına çatdıran dövlətə çevrilmişdir. Azərbaycan qədim ölkədir. Dünyada ilk dəfə sənaye üsulu ilə neft 1847-ci ildə Azərbaycanda çıxarılmışdır. Lakin o vaxt Azərbaycan xalqı öz sərvətlərinin sahibi deyildi. O dövrdə və sonrakı illərdə Azərbaycan müstəqil dövlət deyildi. Yalnız müstəqillik əldə edəndən sonra Azərbaycan xalqı özünün təbii sərvətlərindən birbaşa istifadə etmək imkanı qazanmışdır və indi bizim təbii sərvətlərimiz ölkəmizin hərtərəfli inkişafına şərait yaradır. Biz öz təbii resurslarımızdan dövlətimizin rifahı naminə istifadə edirik və bunun da nəticəsində enerji resurslarının satışından əldə edilən gəlir müntəzəm və ədalətli qaydada bölünür. Biz hasilat sahəsində şəffaflığın maksimum səviyyəsinə nail olmuşuq və bu göstərici üzrə dünya miqyasında liderik. Bunu aparıcı beynəlxalq təşkilatlar da etiraf etmişdir. Keçən il Birləşmiş Millətlər

Təşkilatı neft gəlirlərinin xərclənməsində şəffaflığın yüksək səviyyəsinə görə Azərbaycanı mükafatlandırmışdır.

Biz boru kəməri siyasətini və Azərbaycanın enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasının şaxələndirilməsini uğurla həyata keçirmişik. Hazırda nefti üç istiqamətdə nəql edirik, bunlardan ikisi Qara dəniz hövzəsi, biri Aralıq dənizi hövzəsidir. Biz yeni enerji dəhlizlərinin yaradılması məsələsində öz tərəfdaşlarımızla, o cümlədən Ukrayna ilə fəal əməkdaşlıq edirik. Sizə məlum olduğu kimi, sabah Kiyevdə energetika məsələlərinə həsr edilmiş sammit açılacaqdır. Həmin sammitdə müzakirə ediləcək məsələlərdən biri Odessa–Brodı–Plotsk–Qdansk boru kəməri layihəsinin həyata keçirilməsi məsələsi olacaqdır. Azərbaycan lap əvvəldən bu layihəni siyasi cəhətdən dəstəklədiyini bildirmişdir və indi də bu fikirdədir. Bizim neft şirkətimiz həmin layihəni həyata keçirən «Sarmatiya» şirkətinin səhmdarlarından biridir və ümid edirik ki, enerji sammitinin nəticələri həm bu layihənin həyata keçirilməsi yolunda, həm də bütövlükdə, Xəzər dənizini Qara dəniz və Baltik dənizi ilə birləşdirən etibarlı enerji dəhlizi yaradılmasında irəliyə doğru daha bir addım olacaqdır.

Biz Xəzər hövzəsində yataqlarımızın işlənilməsinə xarici şirkətləri dəvət etmiş ilk ölkə olmuşuq. Bu gün Azərbaycan nefti dünyanın bütün guşələrinə, bütün qitələrə nəql edilir. Biz qarşımızda duran əsas strateji məsələləri uğurla həll etmişik və indi gələcəyə baxırıq. Enerji resurslarımızla regional əməkdaşlıq, regionumuzda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi işinə daha çox töhfə vermək üçün nə edə biləcəyimiz barədə fikirləşirik. Biz gələcəkdə də bu istiqamətdə səylərimizi artırmaq və qarşıya qoyulmuş bütün vəzifələri yerinə yetirməyə çalışmaq əzmindəyik.

Bu yaxınlarda Azərbaycan qaz hasil edən və dünya bazarına qaz göndərən ölkəyə çevrilmişdir. Əvvəllər bu belə deyildi. Lakin qazla bağlı ən mühüm layihələri uğurla həyata keçirən Azərbaycan artıq indi Avropa İttifaqı bazarlarına

qaz nəql edir. Gələcəkdə isə bildiyiniz kimi, enerji təhlükəsizliyi məsələləri beynəlxalq münasibətlərin gündəliyində üstünlük təşkil edəcəkdir. Artıq bu gün enerji təhlükəsizliyi məsələlərinə ölkənin milli təhlükəsizliyi kontekstində yanaşırlar. İndiki halda Xəzərin və ilk növbədə Azərbaycanın enerji resursları bu məsələdə artıq müsbət rol oynayır. Biz öz enerji ehtiyatlarımızdan regionda etimadın möhkəmlənməsi, regional əməkdaşlığın möhkəmlənməsi üçün istifadə edirik. Enerji ehtiyatlarından bizim dostlarımız və tərəfdaşlarımız arasında, strateji münasibətlərə malik olduğumuz ölkələr arasında dostluğu möhkəmlətmək üçün istifadə edirik.

Beləliklə, dünya enerji bazarı üçün, qlobal təhlükəsizlik məsələləri üçün Azərbaycanın dünya siyasətində rolu və yeri möhkəmlənir. Bu, əlbəttə, bizə yeni imkanlar verir, lakin həm də bizim üzərimizə əlavə məsuliyyət qoyur. Hazırda dünyada hər şey – istehlakçıların enerji təhlükəsizliyi məsələləri də, resursların satışından alınan səmərənin hasilatçılar üçün faydası məsələləri də bir-biri ilə qarşılıqlı surətdə bağlıdır. Bunlar vəhdət halında maraqların tarazlığını formalaşdırmalıdır. Biz belə tarazlığın tərəfdarıyıq və bu proseslərin müsbət məcrada getməsi üçün, enerji resurslarının mübahisə və münaqişə predmetinə çevrilməməsi üçün öz tərəfimizdən nə lazımdırsa edəcəyik. Bu gün bu məqsədə nail olmuşuq, belə ki, həmişə etimadın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət etmişik.

Ölkəmizdə müxtəlif sahələrdə görülən işlər barədə çox danışa bilərəm. Artıq qeyd etdiyim kimi, bütün sahələr üzrə konkret proqramlar həyata keçirilir. Bizim xeyli maliyyə ehtiyatlarımız yaranmışdır və çoxsaylı sosial proqramlar həyata keçiririk. Sadəcə olaraq, vaxtın məhdudluğu üzündən yalnız bizi narahat edən əsas məqamlar üzərində dayanmalı olacağam.

Bizim uğurlarımızla, gələcəyə böyük nikbinliklə baxmağımızla yanaşı, regionda sabitliyin pozulması, qarşıdurma təhlükələri də mövcuddur. Əslində, onlar həmişə olmuşdur

və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi kontekstində görürük ki, bu proses dondurulmuş hesab edilə bilməz. Məsələ həll edilməmiş qaldıqda, münaqişənin daim yenidən alovlanması qorxusu var. Azərbaycanın bu məsələyə münasibətdə mövqeyi birmənalıdır və bu mövqe beynəlxalq hüququn prinsip və normalarına əsaslanır, yəni Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə siyasətindən zərər çəkmiş bir milyon azərbaycanlı özlərinin daimi yaşayış yerlərinə qayıtmalıdır, Azərbaycanın ərazilərinin işğalına son qoyulmalıdır və yalnız o vaxt regionda sülh bərpa olunacaqdır. Bizim mövqeyimiz istər tarixi baxımdan, istərsə də hüquqi, siyasi, iqtisadi baxımdan, qüvvələr balansı – o cümlədən hərbi sahədə – baxımından möhkəmdir.

Dağlıq Qarabağın ərazisində tarixən həmişə Azərbaycan xalqının nümayəndələri yaşamışdır. 1828-ci ildə həmin əraziyə erməni xalqının nümayəndələri köçürülmüş, sonradan onlar orada çoxluq təşkil etmiş və bu, separatçılıq təzahürlərinin başlanmasına təkan vermişdir.

Bu gün Dağlıq Qarabağ rejimi heç kim tərəfindən tanınmamışdır. Ora kriminal rejimin idarə etdiyi qanunsuz, qeyrileqal qurumdur və orada heç bir qanun işləmir, beynəlxalq monitorinq keçirilmir, kriminallaşma, narkotrafik, terrorizm kimi çox təhlükəli proseslər baş verir və bunların hamısı bütün qitə üçün təhlükədir. Ona görə ki, indi dünyada, xüsusən Avropada nəzarətsiz zonaların sayı o qədər də çox deyildir. Bu, bütün regionda sabitliyin pozulmasına gətirib çıxara biləcək böyük təhlükədir.

Beynəlxalq hüquq normaları baxımından BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin bizim ərazidən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir, lakin onlara əməl olunmur. Bu yaxınlarda BMT-nin Baş Məclisi işğalçı qüvvələrin ərazimizdən çıxarılmasını tələb edən yeni qətnamə qəbul etmişdir. Biz Ukraynaya çox minnətdarıq ki,

o, BMT-də səsvermə zamanı Azərbaycanı dəstəklədi, əslində, ədaləti dəstəklədi və beynəlxalq hüquq normalarının bərqərar olmasına tərəfdar çıxdı.

Mən bu məsələnin siyasi tərəfi barədə danışanda qeyd etməliyəm ki, bu gün, heç şübhəsiz, regional əməkdaşlıq, qlobal enerji təhlükəsizliyi məsələlərində Azərbaycanın əhəmiyyəti və rolu artır. Azərbaycanın iqtisadi potensialı çox sürətlə artır və indi bizim iqtisadiyyatımız hələ də beynəlxalq hüququn norma və prinsiplərinə riayət etmək istəməyən həmin ölkənin iqtisadiyyatından, demək olar ki, 7 dəfə artıqdır. Münaqişənin həlli bizim üçün bir nömrəli və ölkəmizin qarşısında duran ən ciddi problemdir. Bu bizim yeganə problemimizdir, çünki iqtisadi islahatlar, siyasi islahatlar, sosial proqramlar – bütün bunlar ona doğru aparır ki, biz Azərbaycanın, sözün tam mənasında, inkişaf etmiş dövlətə çevrilməsinə nail olacağıq.

Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi bütün regionun təhlükəsizliyi üçün təhdiddir. Bir daha demək istəyirəm ki, bizi dəstəklədiyinə görə qardaş Ukraynaya minnətdarıq və gələcəkdə də diplomatik və siyasi səylərimizi artırmağa çalışacağıq və əlbəttə, müdafiə qabiliyyətinin artırılmasını da unutmayacağıq. Son vaxtlar bu istiqamətdə az iş görülməmişdir. Qısaca onu deyə bilərəm ki, hazırda Azərbaycanın müdafiə xərcləri təxminən iki milyard dollara bərabərdir, bu isə Ermənistanın illik büdcəsi ilə müqayisə edilə bilər.

Vaxtın məhdud olması ilə əlaqədar mən öz çıxışımı tamamlamağa məcburam. Bir daha demək istəyirəm ki, bu gündən etibarən Kiyev Milli Universitetinin Fəxri doktoru adını daşımaq mənim üçün böyük şərəfdir. Mən gələcək fəaliyyətimdə çalışacağam ki, Ukrayna ilə Azərbaycan arasında münasibətlər daim inkişaf etsin, yeni formalarla, yeni layihələrlə zənginləşsin. Bizim ölkələrimizin xalqları arasında tarixən yaxınlıq vardır. Bu gün bir-birimizə strateji tərəfdaşlar kimi baxdıqda, təbii ki, ölkələrimiz arasında münasibətlərin keyfiyyəti

tamam başqadır. Əminəm ki, gələcəkdə biz bütün sahələri – təkcə energetikanı deyil, iqtisadiyyat, nəqliyyat sahələrini, humanitar əməkdaşlığı və sairi də əhatə edən bütün planları və layihələri reallaşdıracağıq. Onda təbii ki, ölkələrimizin potensialı xeyli artacaqdır. Biz artıq indi görürük ki, möhkəm siyasi əlaqələr keçən il əmtəə dövriyyəsinin 40 faizdən çox artmasına gətirib çıxarmışdır. Bu, yalnız başlanğıcdır. Biz öz ölkələrimizin – müstəqil Ukraynanın və müstəqil Azərbaycanın, müstəqil siyasət yeridən ölkələrin inkişafının keyfiyyətcə yeni mərhələsindəyik. Xalqlarımız əsrlər boyu öz taleyini özünün müəyyənləşdirəcəyi günün həsrətini çəkmişdir. Bizim nəslin xoşbəxtliyi ondadır ki, həmin günü gördük və ən başlıcası, bu müstəqilliyi möhkəmlətmək və gələcək nəsillərimiz üçün qoruyub saxlamaq imkanımız vardır.

Universitetin Elmi Şurasına, mənə bu Fəxri adın verilməsi barədə qərar qəbul edənlərin hamısına təşəkkür etmək, qardaş Ukrayna xalqına öz dərin hörmət və məhəbbətimi ifadə etmək, sizin bütün planlarınızın həyata keçməsini və gələcəkdə Ukraynaya bütün işlərində böyük uğurlar diləmək istəyirəm.

Sağ olun.

* * *

*Universitetin rektoru vəzifəsini icra edən akademik Leonid Quberski Azərbaycan dövlətinin başçısını Taras Şevçenko adına Kiyev Milli Universitetinin Fəxri doktoru adına layiq görülməsi münasibətilə bir daha səmimi təbrik etdi, ona cansağlığı və Azərbaycan xalqının rifahı naminə fəaliyyətində uğurlar, Azərbaycan xalqına isə sülh, xoşbəxtlik və tərəqqi arzuladı.*

* * *

**İ l h a m  Ə l i y e v:** Mən sizin hamınızı salamlayıram. Şadam ki, Azərbaycanın gəncləri burada oxuyurlar. Bu universitetin dünyanın aparıcı ali məktəblərindən biri olduğunu qeyd etdim, çox şadam ki, Azərbaycanın Ukraynada oxuyan tələbələrinin sayı artır. Siz gərək təhsili bitirəndən

sonra Vətənə qayıdasınız. Xüsusilə indi Azərbaycanda işlər çoxdur. Sizin kimi gənc mütəxəssislər istənilən sahədə çox lazımdır. Azərbaycan inkişaf edir. Bilirsiniz ki, xaricdə tələbələrin təhsil alması ilə bağlı proqram da hazırlanıbdır. Amma mən artıq əminəm ki, təhsil yaxşı olacaq və siz yaxşı biliklərlə Vətənə qayıdacaqsınız. Ukrayna dilini də bilirsiniz?

**T ə l ə b ə:** Bəli, cənab Prezident, Ukrayna dilində təhsil alırıq!

**İ l h a m  Ə l i y e v:** Ukrayna dilində oxuyursunuz? Ukrayna bizim üçün dost ölkədir. Mən bu gün də dedim, bu dostluğu möhkəmləndirmək üçün bütün imkanlardan istifadə edəcəyəm. Siz isə necə deyərlər, təbii olaraq, Ukraynada Azərbaycanın səfirlərisiniz. Siz gələcəkdə də yəqin ki, öz işinizdə Ukrayna ilə bağlı olacaqsınız. Bir halda ki, Ukrayna dilini bilirsiniz, bu bizim dostluğumuzu daha da möhkəmləndirəcəkdir. Mən qeyd etdim, bu universiteti bitirmiş insanlar Azərbaycanda müxtəlif sahələrdə və məsul vəzifələrdə çalışırlar. Yaxşı bilik sahibi olmalısınız ki, Azərbaycanda yaxşı yer tuta biləsiniz. Bu gün doğrudan da ölkəmizə istənilən sahədə yaxşı mütəxəssislər lazımdır. Sizə uğurlar arzulayıram.

* * *

*Tələbələr gənclər üçün yaradılmış şəraitə görə dövlətimizin başçısına təşəkkür etdilər, Azərbaycanı başqa ölkələrdə həmişə ləyaqətlə təmsil etməyə çalışacaqlarını vurğuladılar.*

*Prezident İlham Əliyev tələbələrlə xatirə şəkli çəkdirdi.*

## 1930-cu İLLƏRDƏ ACLIQDAN HƏLAK OLANLARIN XATİRƏSİNƏ EHTİRAM

*22 may 2008-ci il*

*Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev keçən əsrin 30-cu illərində aclıqdan həlak olanların xatirəsinə ucaldılmış abidəni ziyarət etmişdir.*

*Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoydu, aclıq qurbanlarının xatirəsinə ehtiramını bildirdi.*

### «Naməlum əsgər» abidəsini ziyarət

*Mayın 22-də Azərbaycan prezidenti İlham Əliyev Kiyev şəhərindəki «Naməlum əsgər» abidəsini ziyarət etmişdir.*

*Abidənin qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev «Əbədi məşəl»in önünə əklil qoydu, 1941–45-ci illərin Böyük Vətən müharibəsində həlak olmuş döyüşçülərin xatirəsini ehtiramla yad etdi.*

*Azərbaycanın və Ukraynanın dövlət himnləri səsləndi.*

## KİYEVDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*23 may 2008-ci il*

*Mayın 23-də prezident İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Kiyevin mərkəzində ucaldılmış abidəsini ziyarət etmişdir.*

*Dövlət başçısı burada Ukraynadakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdü. Bu ölkənin müxtəlif vilayətlərində yaşayan həmyerlilərimiz ukraynalıların Azərbaycan prezidentinə xüsusi rəğbət bəslədiyini və bunun nəticəsi olaraq azərbaycanlıların Ukraynanın ictimai-siyasi həyatında və biznes dairələrində nüfuzlarının getdikcə artdığını söylədilər.*

*Prezident İlham Əliyev soydaşlarımıza doğma Azərbaycana daha möhkəm bağlanmaqla diasporun güclənməsinə və Ukrayna–Azərbaycan əlaqələrinin möhkəmlənməsinə yeni-yeni töhfələr verməyi tövsiyə etdi.*

# ABŞ DÖVLƏT DEPARTAMENTİNİN NÜMAYƏNDƏSİ BOYDEN QREY VƏ ABŞ DÖVLƏT KATİBİNİN MÜŞAVİRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*Kiyev, «Qorodetski Evi»*

*23 may 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 23-də Kiyevdə «Qorodetski Evi»ndə ABŞ Dövlət Departamentinin enerji məsələləri üzrə xüsusi nümayəndəsi Boyden Qreyi və ABŞ Dövlət katibinin müşaviri Mətyu Brayzəni qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərə, o cümlədən enerji sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

# ENERJİ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ SAMMİT

*Kiyev*

*23 may 2008-ci il*

*Mayın 23-də Kiyevdə enerji təhlükəsizliyi məsələlərinə həsr olunmuş sammit keçirilmişdir.*

*Sammitin ümumi iclasında Azərbaycan prezidenti İlham Əliyev, Ukrayna prezidenti Viktor Yuşşenko, Gürcüstan, Latviya, Litva, Estoniya, Polşa prezidentləri, həmçinin Avropa Komissiyasının energetika məsələləri üzrə komissarı Andris Pibalqs, ABŞ Dövlət Departamentinin enerji məsələləri üzrə xüsusi nümayəndəsi Boyden Qrey, ümumilikdə 30-dan çox ölkənin yüksək vəzifəli nümayəndələri və diplomatlar iştirak edirdilər.*

*Sammitdə əsasən Avrasiya neft nəqli dəhlizi layihəsinin texniki-iqtisadi əsaslandırılması, Baltik dənizi – Qara dəniz – Xəzər dənizi enerji tranziti birliyinin yaradılması konsepsiyası və sair məsələlər müzakirə olundu.*

*Ukrayna prezidenti Viktor Yuşşenko iclası açaraq iştirakçıları təqdim etdi və sammitin Kiyevdə keçirilməsinin əhəmiyyətini vurğuladı. O bildirdi ki, Krakov və Vilnüs görüşlərindən sonra bu estafeti Ukrayna paytaxtı qəbul etmişdir. Enerji məsələlərinin hazırda dünyanın aktual problemlərindən biri olduğunu vurğulayan Viktor Yuşşenko ölkəsinin Avropanın enerji təhlükəsizliyində fəal rol oynamaq istədiyini bildirdi.*

*Ukrayna prezidenti imzalanmaq üçün təqdim olunan sənədlər barədə də məlumat verdi.*

*Sonra Azərbaycan prezidenti çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Cənab Prezident!

Belə bir əhəmiyyətli tədbirin Ukraynada təşkil olunmasına və qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Mən artıq dünəndən buradayam, Ukraynaya rəsmi səfərim uğurla keçir və müzakirə olunan məsələlər arasında enerji təhlükəsizliyinə mühüm yer ayrılmışdır. Hesab edirəm ki, bir il bundan öncə, yəni başladığımız dövrə nəzər salsaq, qısa müddət ərzində bir çox nailiyyətlərin əldə olunduğunu deyə bilərik. Krakovda keçirilən ilk sammitdən sonra biz tərəfdaşlığımızı, regional əməkdaşlığı gücləndirmək məqsədi ilə əməli işlər görürük və bu gün, həmin vaxtdan bir il keçdikdən sonra artıq biz Xəzər dənizi, Qara dəniz və Baltik dənizi enerji dəhlizi haqqında danışırıq. Bu, təkcə bizim nailiyyətimiz deyil. Artıq bu istiqamətdə əməli addımlar atılıb, sənədlər imzalanıbdır. Bu gün imzalanacaq və qəbul olunacaq sənədlər bu layihələrimizin həyata keçirilməsi üçün güclü bünövrə olacaqdır.

Azərbaycan əvvəldən enerji təchizatının şaxələndirilməsi siyasətinin tərəfdarı olubdur. Neft və qaz hasil edən bir ölkə kimi, biz çoxşaxəli boru kəmərləri infrastrukturunun olmasında maraqlıyıq, həmçinin tranzit ölkələrin və istehlakçıların ehtiyaclarına və tələbatlarına diqqətlə yanaşırıq. Çünki yalnız bütün bu üç tərəfin tarazlaşdırılmış maraqları məqsədlərimizə nail olmaq üçün maksimum səmərəliliyi təmin edə bilər. Bu gün burada hasilatçılar, tranzit ölkələr və istehlakçılar iştirak edir və hesab edirəm ki, aramızdakı tərəfdaşlıq ruhu enerji təhlükəsizliyi məsələlərinin necə həll olunmasının yaxşı nümunəsidir.

Azərbaycan böyük neft və qaz ehtiyatlarına malikdir. Beynəlxalq hesablamalara görə, bu ehtiyatlar bizə ən azı 100 il üçün yetərlidir. Hazırda Azərbaycanda neft hasilatı artmaqdadır və onu daha da yüksəltmək üçün bu sahəyə böyük

həcmdə sərmayələr qoyuruq. Bu il neft hasilatı 50 milyon ton, gələn il isə 60 milyon tondan artıq olacaqdır. Ümumiyyətlə, biz artıq kəşfiyyat, hasilat və nəql ilə bağlı bütün əsas layihələrimizi həyata keçirmişik. Müasir və səmərəli infrastruktur yaratmışıq. Artıq bu gün Azərbaycan nefti dünya bazarlarına üç istiqamətdə nəql olunur. Kəmərlərdən ikisi Qara dənizə, biri isə Aralıq dənizinə gedir.

Bu yaxınlarda Azərbaycan Dövlət Neft Şirkəti gürcüstanlı tərəfdaşları ilə birgə Qara dəniz sahilində böyük neft terminalının açılışını edibdir. Azərbaycan Dövlət Neft Şirkəti bu layihəyə təqribən 400 milyon dollar həcmində sərmayə qoyubdur. Bu, haqqında danışdığımız infrastruktur layihələrinin mühüm hissəsidir və şübhəsiz ki, enerji sahəsində regional əməkdaşlıq işinə xidmət edəcəkdir.

Artıq neçə ildir ki, biz Odessa–Brodı–Plotsk–Qdansk layihəsini dəstəkləyirik və bildiyiniz kimi, bu məsələ bəlkə də 10 il olar ki, müzakirə prosesində olubdur. Müzakirələr bəzən daha fəal aparılıb, lakin indiyədək bu istiqamətdə heç bir əməli addım atılmayıbdır. Qrupumuzun bütün iştirakçılarının səylərini, xüsusilə də Polşa prezidenti, dostum cənab Kaçinskinin Krakov sammitinin keçirilməsi üçün təşəbbüsünü qeyd etmək istərdim. O zaman ola bilsin ki, qısa bir vaxt ərzində planlarımızın həyata keçirilməsi haqqında müzakirələr aparacağımızı qabaqcadan görə bilməzdik.

Mən bütün iştirakçılar arasında olan dostluq və tərəfdaşlıq ruhunu yüksək qiymətləndirirəm. Biz dost ölkələrik. Azərbaycan daim özünün böyük enerji ehtiyatlarından güclü tərəfdaşlıq qurmaq üçün istifadə edibdir. Biz heç vaxt bundan kiməsə qarşı istifadə etməmişik. Yalnız qarşılıqlı əməkdaşlıq naminə istifadə etmişik. Belə demək mümkündürsə, qrupumuzun nümunəsi bütün beynəlxalq ictimaiyyət üçün yaxşı bir mesajdır ki, enerji təhlükəsizliyi məsələlərinə necə yanaşılmalıdır. Bu istiqamətdə biz səylərimizi davam etdirəcəyik.

Ötən gün mən dostum, Ukrayna prezidenti Yuşşenko ilə Odessa–Brodı kəmərindən sınaq nəqlinin başlanılması ilə bağlı müzakirələr apardıq. Biz bu müzakirələri davam etdirəcəyik və ümidvarıq ki, bu yayın ortalarına kimi müəyyən təşəbbüslər olacaqdır.

Azərbaycan mühüm qaz ixracatçısına çevrilibdir. Biz böyük qaz yataqları kəşf etmişik və hesablamalara görə, ehtiyatlar minimum 2 trilyon kubmetrdir. Qazın nəql olunması üçün bizim infrastrukturumuz artıq mövcuddur. Biz Türkiyəyə və Gürcüstana qaz nəql edirik. Hələ ötən il Azərbaycan qazı ilk dəfə olaraq Avropa İttifaqı bazarına – Yunanıstana daxil olubdur. Biz istehlakçılarımızın coğrafi ərazisinin genişlənməsinə ümid edirik. Avropa İttifaqı ilə sıx əməkdaşlıq edirik və mən burada dostumuz Pibalqsı görməkdən məmnunluğumu bildirirəm. İki il öncə Azərbaycan və Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanıb və bu, əlaqələrimizin inkişafı üçün güclü zəmindir.

Biz artıq neft və qazın nəqlinin şaxələndirilməsinə nail olmuşuq. Azərbaycan neftini beynəlxalq bazarlara nəql edə biləcək üç, qazı nəql edə biləcək isə dörd kəmərimiz var. Lakin biz əlavə imkanları da axtarırıq. Biz geniş enerji tərəfdaşlığına töhfə vermək üçün ciddi çalışırıq, çünki indi enerji təhlükəsizliyi ölkənin milli təhlükəsizliyi deməkdir.

Xarici siyasətimizdə enerji amili əhəmiyyətli yer tutur və bir daha demək istərdim ki, biz resurslarımızdan güclü tərəfdaşlığın qurulması və ölkəmizin inkişaf etdirilməsi üçün istifadə edirik. Biz təbii ehtiyatları insan kapitalına çeviririk. Son illər ərzində Azərbaycanın əsas sərmayələr yatırdığı sahələr insan kapitalı – təhsil, səhiyyə, infrastruktur, regional layihələrdir. Ümumi daxili məhsulumuzda çox böyük artım var. Son 4 il ərzində Azərbaycanda ümumi daxili məhsulun artımı 96 faiz təşkil edibdir. Neftin qiymətinin artması ilə bizim əlavə maliyyə imkanlarımız yaranmışdır. Bütün bunlar müsbət elementlərdir. Biz bu sahədə maksimum

şəffaflığa nail olmuşuq. Ötən il BMT Azərbaycan Dövlət Neft Fondunu şəffaflığa görə yüksək mükafata layiq görübdür. Azərbaycan Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünə qoşulan ilk ölkələrdən biridir və bu proqramı fəal şəkildə icra edirik. Bu gün Azərbaycanın enerji inkişafına istənilən nöqteyi-nəzərdən yanaşsaq görərik ki, neft və qaz ölkə əhalisinin rifahına xidmət edir. Neft və qaz gəlirləri ölkəmizdə ədalətli şəkildə bölünür və bu, gələcək nailiyyətlərimizin əsas səbəbidir.

Bir daha vurğulamaq istəyirəm ki, biz tərəfdaşlığın bu çərçivəsinə sadiqik, bu formatda artıq üçüncü dəfədir görüşürük. Mən çox şadam ki, qrupumuz getdikcə genişlənir. Əminəm ki, bu meyil davam edəcək, başladığımız proses uğurla davam etdiriləcək və planlaşdırdığımız işlərin həyata keçirilməsi ilə nəticələnəcəkdir.

Bir daha təşəkkür edirəm və sammitin işinə uğurlar arzulayıram.

* * *

*Digər dövlət başçıları da çıxış edərək, müzakirə olunan məsələlərə münasibətlərini bildirdilər.*

*Sonra sammitin sənədləri imzalandı.*

## DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

*23 may 2008-ci il*

*Mayın 23-də Kiyevdə sammitin sənədlərinin imzalanma mərasimindən sonra dövlət başçılarının birgə mətbuat konfransı olmuşdur.*

*Mətbuat konfransını açan Ukrayna prezidenti Viktor Yuşşenko əvvəlcə mayın 23-də Donetsk vilayətindəki kömür şaxtasında baş vermiş qəzada həlak olanların ailələrinə başsağlığı verdi.*

*Sammitdə açıq və şəffaf müzakirələrin aparıldığını bildirən Viktor Yuşşenko dedi ki, qaldırılan məsələlər bütün iştirakçı dövlətlər üçün aktual xarakter daşıyırdı. Biz Avropanın enerji təhlükəsizliyini yaxşılaşdırmaq məsələlərinə toxunduq. Kiyev sammitinin tarixə düşəcəyinə əminliyini söyləyən Ukrayna prezidenti vurğuladı ki, biz təhlükəsiz enerji tranziti məkanına dair dialoqu başlamışıq, bununla bağlı birgə bəyannamə də qəbul olunmuşdur. Sammit iştirakçıları qərara gəlmişlər ki, Baltik dənizi–Qara dəniz–Xəzər dənizi enerji tranziti məkanının formalaşdırılması istiqamətində işçi qrupu yaradılsın. İşçi qrupu ilk hesabatını noyabrda növbəti enerji sammitində təqdim edəcəkdir.*

*Sammitdə təhlükəsiz enerji tranziti məkanına dair geniş müzakirələrin aparıldığını vurğulayan Viktor Yuşşenko qeyd etdi ki, Xəzər hövzəsində çıxarılan enerji daşıyıcılarının Avropaya nəqli ilə bağlı Avrasiya enerji tranziti dəhlizi layihəsinin texniki-iqtisadi əsaslandırılması hazırdır. Ukrayna prezidenti Azərbaycanla əməkdaşlığa toxunaraq bildirdi ki, Azərbaycanın Ukraynada neft emalı zavodu inşa etməsi ilə bağlı*

*danışıqlar aparılır. Enerji sahəsində əməkdaşlıq ölkələrimizin Avropaya inteqrasiyasına kömək edəcəkdir.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli Prezidentlər!

Xanımlar və cənablar!

Mən bir daha dostum, prezident Yuşşenkoya belə bir mötəbər beynəlxalq tədbirin keçirilməsinə görə təşəkkür edirəm. Sammitin nəticələri çox ümidvericidir. Son il ərzində biz qarşımıza qoyduğumuz mühüm məqsədlərə nail olmuşuq.

Bu gün imzalanan sənədlər bizim əvvəlki fəaliyyətimizi və gələcək üçün olan niyyət və planlarımızı əks etdirir. Qısa zaman ərzində əldə olunan uğurlar səylərimizin birləşdiyini göstərir. Biz birlikdə çalışırıq ki, bütün enerji təhlükəsizliyi məsələləri həll oluna bilsin. Bu gün biz sammit iştirakçıları arasında enerji resurslarının hasilatçılarını, tranzit ölkələri və istehlakçıları görürük. Bu, enerji siyasətinin hər üç komponentinin necə bir araya gəlməsinin, dostluq şəraitində və əməkdaşlıq ruhunda müzakirələr aparmasının və nailiyyətlər əldə edilməsinin gözəl nümunəsidir.

Bu gün biz enerji təhlükəsizliyi və şaxələndirmə baxımından böyük əhəmiyyət kəsb edəcək Baltik dənizi – Qara dəniz – Xəzər dənizi enerji dəhlizinin yaranmasının şahidi oluruq. Əminəm ki, regionlarımızı birləşdirən enerji dəhlizi əməkdaşlığımızın daha da inkişaf etməsinə gətirib çıxaracaqdır.

Nəqliyyat dəhlizi, humanitar dəhliz – bütün bunlar ölkələrimiz arasında daha yaxşı anlaşmaya doğru aparacaq və qarşılıqlı maraqlarımıza xidmət edəcəkdir. Neft və qaz ixrac edən ölkə kimi, Azərbaycan qarşısında duran əsas enerji məsələlərinin həllinə artıq nail olubdur. Biz neft və qazın nəqlinin şaxələndirilməsinə nail olmuşuq. İndi neft və qaz Azərbaycandan müxtəlif istiqamətlərə nəql olunur və oluna bilər.

Dostlarımızı və tərəfdaşlarımızı dəstəkləmək üçün çox sıx çalışırıq ki, nəinki hasilatçılar, hətta istehlakçılar da rəqabətli əsaslarla seçim edə bilsin. Şaxələndirmə istehlakçılar, hasilatçılar və tranzit ölkələrin birgə nailiyyəti üçün əsas şərtdir.

Mən hesab edirəm ki, sammitin nəticələri çox müsbətdir. Əminəm ki, növbəti sammitə qədər biz sizə daha çox məlumat verə biləcəyik. Bir daha hesab edirəm ki, bugünkü müzakirənin ən mühüm nəticələri sammit iştirakçılarının səylərinin birləşdirilməsi və əməkdaşlığa, dostluğa, tərəfdaşlığa olan sadiqlikdir ki, qarşımızda duran bütün məsələləri həll edə bilək.

Təşəkkür edirəm.

* * *

*Mətbuat konfransında Gürcüstan, Estoniya, Latviya, Litva, Polşa prezidentləri, Avropa İttifaqının, Çexiyanın, Qazaxıstanın, Rumıniyanın və ABŞ-ın nümayəndələri də çıxış etdilər.*

*Sonra sammit iştirakçıları jurnalistlərin suallarına cavab verdilər, rəsmi foto çəkdirdilər.*

## Səfər başa çatdı

*Azərbaycan prezidenti İlham Əliyevin mayın 23-də Ukraynaya rəsmi səfəri başa çatmışdır.*

*«Borispol» Beynəlxalq Hava Limanında Azərbaycan prezidentini Ukraynanın yüksək vəzifəli şəxsləri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün gecə Bakıya gəldi. Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də ABŞ Konqresinin üzvləri Adam Şif, Elison Şvarts və Ueyn Gilkrestdən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizdə sürətli inkişaf proseslərinin getdiyini vurğulayaraq əmin olduğunu bildirdi ki, ABŞ nümayəndə heyətinin səfəri qonaqlara bu proseslərlə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacaqdır.*

*Qonaqlar ölkəmizə səfərindən və prezident İlham Əliyevlə görüşlərindən məmnun olduqlarını söylədilər. Bildirdilər ki, səfərin əsas məqsədi Azərbaycanda və regionda gedən proseslərlə yaxından tanış olmaqdan ibarətdir.*

# BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ TİCARƏT NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Birləşmiş Ərəb Əmirliklərinin Xarici Ticarət naziri xanım şeyxa Lübnə bint Xalid əl-Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə daha da genişlənməsi üçün böyük imkanların olduğu bildirildi. Dövlətimizin başçısının Birləşmiş Ərəb Əmirliklərinə uğurlu səfərinin bu əlaqələrin möhkəmlənməsində mühüm rol oynadığı vurğulandı. Birləşmiş Ərəb Əmirlikləri nümayəndə heyətinin ölkəmizə səfərinin ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

## İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–İtaliya münasibətlərinin gündən-günə inkişafı məmnunluq doğurur. Əminəm ki, dost ölkələrimiz arasında əməkdaşlıq, daim genişlənən əlaqələrimiz bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İtaliya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2008-ci il*

## İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SİLVİO BERLUSKONİYƏ

Hörmətli cənab sədr!

Milli bayramınız – Respublika elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Biz Azərbaycan–İtaliya dövlətlərarası münasibətlərinin, dostluq əlaqələrimizin daim inkişafına və genişlənməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasında istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar və Avropa strukturları çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2008-ci il*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİŞEL SÜLEYMANA**

Hörmətli cənab prezident!

Livan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Livan arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Livan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2008-ci il*

## AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRI BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ

*Bakı*

*26 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva mayın 26-da Azərbaycan Dövlət Rus Dram Teatrı binasının bərpa və yenidənqurma işlərindən sonra açılış mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyev teatrın binasının bərpa və yenidənqurmadan əvvəlki və indiki görünüşünü əks etdirən şəkillərə baxdı. Sonra teatrın açılışını bildirən qırmızı lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ölkəmizin teatr tarixində özünəməxsus yer tutan Azərbaycan Dövlət Rus Dram Teatrının binasında bərpa və yenidənqurma işlərinə 2006-cı ilin oktyabrında başlanılmışdı. Əsaslı bərpa işləri ilə yanaşı, binada ən müasir avadanlıq da quraşdırılıb və bunlar ən yüksək standartlar səviyyəsindədir. Əvvəllər 40-dək projektorla təchiz edilmiş səhnə-işıq sistemi hazırda müasir tipli 147 ədəd profil, səpələyici, linzalı və izləyici projektorlarla, eləcə də xüsusi işıq effektləri verən 10 ədəd fırlanan başlıqla təchiz edilmişdir. Sistem müasir səviyyəli pult vasitəsilə idarə olunacaqdır. Səsgücləndirmə sistemi də dünyanın ən müasir standartlarına cavab verir.*

*Bildirildi ki, tamaşa salonunun çilçırağı, kresloları yeniləri ilə əvəz olunub, qrim və iş otaqları müvafiq mebel və inventarlarla təchiz edilib, teatrın inzibati və yaradıcı heyəti*

*üçün yüksək səviyyəli iş şəraiti yaradılıbdır. Binada müasir tələblərə cavab verən mərkəzləşdirilmiş kondisioner-ventilyasiya və istilik sistemləri, o cümlədən təhlükəsizlik, yanğın və fövqəladə hallarda xəbərvermə sistemləri quraşdırılmışdır. Binanın fasadına yüksək keyfiyyətli materiallardan üzlük çəkilmiş, xüsusi gecə işıqlandırıcıları quraşdırılmışdır.*

*Teatrda aparılan əsaslı bərpa və yenidənqurma işləri ilə tanışlıqdan sonra prezident İlham Əliyev Baş rejissor, Xalq artisti Aleksandr Şarovski ilə görüşdü, ona Azərbaycanın yüksək dövlət mükafatlarından olan «Şöhrət» ordenini təqdim etdi.*

**İ l h a m   Ə l i y e v**: Hörmətli Aleksandr Yakovleviç, teatrın açılışı münasibətilə sizi təbrik edirəm. Bu, teatrın yeni həyatı deməkdir. Bildiyiniz kimi, mən sizi «Şöhrət» ordeni ilə təltif etmişəm. Bu, ilin əvvəlində olmuşdu, lakin həmin ordeni sizə təqdim etməyə imkan yox idi. Bu, Azərbaycan dövlətinin yüksək mükafatını sizə təqdim etmək üçün ən yaxşı fürsətdir. Sizi təbrik edirəm.

**A l e k s a n d r   Ş a r o v s k i:** Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım! Bu gün mənim həyatımda ən əsas, ən mühüm, ən həyəcanlı gün olduğunu deməyə ehtiyac yoxdur. Mən bu ordeni sonsuz hörmət bəslədiyim Prezidentin, doğulduğum və bütün həyatım boyu yaşadığım, çox sevdiyim ölkənin Prezidentinin əlindən qəbul etdim. Bu mənim üçün çox böyük şərəf, çox böyük fəxrdir, hisslərim aşıb-daşır, hətta danışmağa da bir qədər çətinlik çəkirəm. Siz olduqca səxavətlisiniz, Siz mənə və həmkarlarıma teatrı bəxş etdiniz. Bu, teatr deyil, bizim arzumuzdur.

Buna görə də, möhtərəm cənab Prezident, bu barədə bir neçə ay əvvəl yazmışdıq. Biz bir tamaşa hazırlayırıq, tamaşa elə belə də adlanır: «Arzular çin olur». Bu tamaşa Sizə, bugünkü günə həsr edilmişdir. Sizdən çox xahiş edirəm, vaxt tapsanız, sentyabrın 15-də hörmətli Mehriban xanımla birlikdə bizim teatra təşrif gətirin. Biz çox istəyirik ki, bu tamaşanı Sizə göstərək, çünki Siz bu qədər nəhəng işlər

görürsünüz, böyük Heydər Əlirza oğlunun işini davam etdirirsiniz, çoxsaylı körpülər, yollar, zavodlar, elektrik stansiyaları ilə yanaşı, Siz vaxt tapıb bizə bu teatrı da tikdiniz. Bu, misilsiz işdir, mən deməyə söz tapmıram.

Mən böyük vəcdlə, böyük sevinclə deyə bilərəm ki, qarşıdakı seçkilərdə Rus Dram Teatrı İlham Əliyevə səs verəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Bu sözlərə görə çox sağ olun. Mən çox şadam ki, iki il bundan əvvəl planlaşdırdığımız və başladığımız işin bəhrəsini bu gün gördüm. Əslində, burada yeni teatr binası tikilmişdir. Siz bütün tikinti müddətində burada olmusunuz, mən də buraya gəlirdim. Burada yalnız divarlar qalmışdı, onlar da tamam çürümüşdü. Azərbaycanda, Bakıda yeni Rus Dram Teatrı böyük hadisədir. Teatr həm özünün xarici görkəminə görə, həm də avadanlığına görə fərqlənir. Buradakı avadanlıqla, texnika ilə, müasir qurğularla tanış olandan sonra bunu yəqin etmək çətin deyildir. Bütün bunlar çox vacibdir. Bu, yollardan, körpülərdən, elektrik stansiyalarından heç də az əhəmiyyətli deyildir. Bu mədəniyyətdir, mənəvi həyatdır.

Azərbaycan dolğun həyat sürür, hərtərəfli inkişaf edir. Buna görə də bizim həyatımızın bütün cəhətləri, xüsusən mənəviyyatla bağlı cəhətlər bir prezident kimi, mənim üçün çox vacibdir. Rus Dram Teatrı əslində təzədən yaradılmış ilk teatrlardan biridir. Siz bilirsiniz, bizim bütün teatrların yenidən qurulması proqramımız var. Biz ən kiçik teatrlardan – əvvəlcə Kukla Teatrından başladıq. O da Bakının ən gözəl tarixi binalarından birində yerləşir. Sonra növbədə Rus Dram Teatrı idi. Rus mədəniyyətinə, rus dilinə münasibət, bütövlükdə bugünkü Azərbaycanın ruhu, bütün millətlərin, bütün xalqların, bütün dinlərin nümayəndələrinin bir ailə kimi yaşaması bizim fəxrimizdir. Hesab edirəm, müasir Azərbaycanın ən böyük nailiyyətlərindən biri ondan ibarətdir ki, burada bütün millətlərin nümayəndələri öz doğma diyarında yaşayırlar, onlar öz ölkəsinin vətənpər-

vərləridir və müasir Azərbaycanın malik olduğu hər şeydən istifadə edirlər.

Mən sizi təbrik edirəm. Hələ teatrın kollektivi ilə də görüşəcək və onları da təbrik edəcəyəm. Sizə uğurlar, uzun ömür, fəallıq, gümrahlıq arzulayıram. Arzu edirəm ki, yeni tamaşalarla bizi sevindirəsiniz. Mən isə sizin yeni tamaşa hazır olan kimi, məmnuniyyətlə ona baxmağa gələcəyəm.

Əziz dostlar, Rus Dram Teatrının yeni binasının açılışı münasibətilə mən sizin hamınızı təbrik edirəm. Bu teatrın nə vəziyyətdə olmasını biz hamımız yaxşı xatırlayırıq. Biz təmirə başlayan kimi, hamımız başa düşdük ki, burada bircə normal divar da yoxdur, binanın damı da daxil olmaqla, hər şeyi təzələmək lazımdır. Buna görə də işlərin əvvəlcə nəzərdə tutulan həcmi, əlbəttə, artdı. Lakin bu bizi dayandırmadı, işi axıra çatdırmağımıza mane olmadı. Bərpa işlərinin və əslində, binanın tikintisinin başlanmasından ötən iki ildən də az vaxt sonra, bu gün ölkəmizin, müstəqil Azərbaycanın həyatında əlamətdar gündür. Əslində, yeni teatr tikilmişdir, bu teatr ən yüksək standartlara uyğundur. Hər şey – istər texniki cəhət, istər avadanlıqlar, istər artistlər üçün otaqlar ən yüksək səviyyədədir. Bizim çox dinamik inkişaf edən ölkəmizdə belə də olmalıdır.

Bu gün həyatımızın bütün sahələri məhz dinamizmi, səmərəliliyi ilə, yüksək peşəkarlıq və yüksək standartlarla səciyyələnir. Azərbaycanda görülən bütün işlər ən yüksək səviyyədə olmalıdır. Mən əminəm ki, şəhər infrastrukturunun iqtisadiyyatla bağlı olmayan mühüm obyektləri ilə yanaşı, biz ölkəmizin, xalqımızın mənəvi həyatını da yüksəltməliyik, buna həmişə xüsusi diqqət, xüsusi qayğı göstərilməlidir. Həyatlarını incəsənətə, yaradıcılığa həsr etmiş insanlar daim dövlət tərəfindən qayğı hiss etməlidirlər. O cümlədən iş üçün, yaradıcılıq üçün də ən əlverişli şərait olmalıdır.

İndi Azərbaycanda, Bakıda və başqa şəhərlərdə mədəniyyət sahəsinin inkişafına böyük diqqət yetirilir. Bizim Bakı şəhərinin bütün teatrlarının yenidən qurulması üçün proqra-

mımız var. Bu gün mən Aleksandr Yakovleviçə yüksək mükafatı təqdim edərkən dediyim kimi, biz ən kiçik teatrdan – Kukla Teatrından başladıq. Rus Dram Teatrı ikinci oldu.

İndi bizim planımızda Gənc Tamaşaçılar Teatrını təzədən tikmək durur. Sonra Azərbaycan Milli Dram Teatrının növbəsidir, onun bərpasına yəqin ki, payızda başlayacağıq. Daha sonra Opera və Balet Teatrı gəlir. Orada biz sadəcə, ona görə hələ işə başlamamışıq ki, Heydər Əliyev adına saray təmirdədir, yayda onun təmiri başa çatandan dərhal sonra bu teatrın yenidən qurulması işləri başlanacaqdır.

Bununla yanaşı, bildiyiniz kimi, tezliklə Muğam Mərkəzi – nadir memarlıq nümunəsi istifadəyə veriləcək və Azərbaycan xalqının milli muğam sənəti onun inkişafına dövlət qayğısı baxımından layiqli qiymətini alacaqdır. Muğam Mərkəzinin yanında Xalça Muzeyi tikiləcəkdir. Bu da nadir memarlıq nümunəsidir, dəqiq deyə bilərəm ki, dünyada ikinci bu cür bina yoxdur. Muzey Mərkəzinin yenidən qurulması indi başa çatır. Bu, keçmiş Lenin Muzeyidir. Tarix Muzeyi açılmış və özünün ilkin görkəmində bərpa edilmişdir, həm Tarix Muzeyinin özü kimi, həm də Zeynalabdin Tağıyevin tikdiyi ev kimi, bu çox vacibdir. Ədəbiyyat Muzeyində təmir işləri başa çatmağa yaxınlaşır.

Ümumiyyətlə, şəhərdə bütün mədəniyyət ocaqları, istirahət yerləri qaydaya salınır. Ən başlıcası isə, onlar hamısı yüksək standartlara uyğundur, çünki Azərbaycan vətəndaşları yaşamaq, istirahət üçün layiqli şəraitə malik olmalıdırlar. Bu baxımdan bugünkü gün ölkəmiz üçün, Azərbaycanda yaşayan hər bir xalqın ənənələri, mədəniyyəti, tarixi və dini eyni dərəcədə əziz olan müstəqil Azərbaycan dövləti üçün çox səciyyəvidir.

Milliyyətindən, dini etiqadından asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları, bərabər hüquqlara malikdirlər, hamıya münasibət eynidir. Belə də olmalıdır. Əlbəttə, bu, Konstitusiyada yazılmışdır. Praktik olaraq, hər bir ölkənin Konstitusiyasında bu cür bəndlər var. Lakin biri var kağız

üzərində, sənəddə olsun, biri də var həyatda. Mən çox şadam ki, Azərbaycanda müstəqillik illərində sözün yaxşı mənasında, əməkdaşlıq və beynəlmiləlçilik ruhu qorunub saxlanır, möhkəmlənir və hesab edirəm ki, hamı – bizim ölkəmiz kimi çoxmillətli olan sizin truppa da bunu hiss edir.

Mən sizə uğurlar arzulayıram, bu gün sizi görməyimə çox şadam. Mən bilirdim ki, bütün işlər yüksək səviyyədə görüləcəkdir, lakin gördüklərim gözlədiklərimdən də artıqdır. Yəni burada yaradıcılıq üçün, işləmək üçün yaxşı şərait var. Adam buraya daxil olanda əhvalı yaxşılaşır. Mən sizə yaradıcılıq uğurları, yeni tamaşalar arzulayır və ən xoş diləklərimi bildirirəm.

* * *

*Yaradıcı kollektivin üzvləri prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə xatirə şəkli çəkdirdilər.*

## PAYTAXTIN SƏBAİL RAYONUNDA YENİDƏN QURULMUŞ BAĞLA TANIŞLIQ

*Bakı*

*27 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Bakının Mehdi Hüseyn və Lermontov küçələri arasındakı ərazidə – Nazirlər Kabineti qarşısında yerləşən və əsaslı şəkildə yenidən qurulmuş bağla tanış olmuşdur.*

*Bir müddət əvvəl prezident İlham Əliyevin birbaşa tapşırığı ilə bağın əsaslı şəkildə yenidən qurulması işlərinə yüksək səviyyəli mütəxəssislər cəlb edilmişdi. Qısa vaxt ərzində müasir tələblər səviyyəsində tamamilə yenidən qurulmuş bağ indi özünün təzə görkəmi ilə göz oxşayır və paytaxt sakinlərinin sevimli istirahət yerinə çevrilmişdir.*

*Bağla tanış olan dövlətimizin başçısına görülmüş işlər barədə ətraflı məlumat verildi. Burada yaradılmış şəlalələr kompleksi bir ansambl təşkil edərək bağa xüsusi yaraşıq verir. Böyük bir ərazidə yeni yaşıllıqlar zolağı salınmış, müxtəlif bəzək kolları və güllər əkilmişdir. Bağda istiyə və rütubətə davamlı xüsusi materiallardan hazırlanmış oturacaqlar qoyulmuş, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Bir sözlə, burada dincəlmək üçün çox yaxşı şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev bağda yenidənqurma işlərini aparan mütəxəssislərlə söhbət etdi, xüsusi istirahət guşəsi ilə də tanış oldu, isti yay günlərində bağa sərinlik gətirən hovuz və fəvvarələrə baxdı. Bağda görülmüş yenidənqurma işləri razılıq doğurdu.*

* * *

*Prezident İlham Əliyev yenidən qurulmuş bağın gecə mənzərəsini seyr etmək üçün həmin gün ailə üzvləri ilə birlikdə buraya ilk gəzintiyə çıxmışdır.*

*Bağın gecə görüntüsü paytaxtın bu guşəsinə xüsusi yaraşıq verir. Müasir işıqlandırma sistemi bağın özəlliklərinin daha qabarıq görünməsinə imkan yaradır. Bakı gecələrinin maraqlı elementlərindən birinə çevrilən bu bağ paytaxtın memarlıq ansamblında özünəməxsus yerini tutmuşdur.*

*Prezident İlham Əliyev və ailə üzvləri nura boyanmış bağın əsrarəngiz mənzərəsini maraqla seyr etdilər.*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*Bakı*

*27 may 2008-ci il*

*Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir.*

*Abidənin ətrafında Fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

*«Gülüstan» sarayı*

*27 may 2008-ci il*

*Mayın 27-də «Gülüstan» sarayında Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinə həsr olunmuş mərasim keçirilmişdir.*

*Salona toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi və xanımını hərarətlə qarşıladılar.*

*Müdafiə Nazirliyinin Əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına xoşbəxtlik və yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dünya miqyasında tarixi bir hadisə idi. İlk dəfə olaraq Şərqdə, müsəlman aləmində demokratik respublika yaranmışdı. Azərbaycan xalqı üçün isə bu, xüsusi əhəmiyyətli hadisə idi. Azərbaycan xalqı öz müstəqil dövlətini yaratmışdı. Əsrlər boyu müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı, nəhayət, öz müstəqil dövlətinə sahib olmuşdu.

Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin, onun qurucularının fəaliyyətinə həmişə böyük hörmətlə yanaşmışdır, onların fəaliyyətinə böyük qiymət vermişdir. Bildiyiniz kimi, keçən il Bakının mərkəzində, İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Bir müddət bundan əvvəl mənim tərəfimdən imzalanmış sərəncama əsasən, Xalq Cümhuriyyətinin 90 illik yubileyi Azərbaycanda geniş şəkildə qeyd olunur. Müxtəlif yerlərdə, ölkəmizin hər bir yerində böyük tədbirlər keçirilir və bu bir daha xalqımızın Azərbaycan Xalq Cümhuriyyətinə hörmətinin əlamətidir.

Bildiyiniz kimi, ilk respublikanın ömrü uzun olmadı və iki ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri olmuşdur. Bu hadisə bir də onu göstərir ki, müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan daha asan məsələdir. Əfsuslar olsun ki, bu acı tarix XX əsrdə ikinci dəfə 90-cı illərin əvvəllərində təkrarlana bilərdi. O vaxt da Azərbaycan öz dövlət müstəqilliyini bərpa etmişdi və iki ildən sonra ölkədə gedən xoşagəlməz proseslər nəticəsində müstəqillik faktiki olaraq əldən gedirdi və Azərbaycan xalqı yenə də böyük fəlakətlə üzləşə bilərdi.

1993-cü ildə vəziyyət böhran həddinə çatmışdı – həm iqtisadi, həm siyasi, həm də hərbi böhran, vətəndaş müharibəsinin başlanması, torpaqlarımızın işğal altına düşməsi. Xüsusilə Şuşa, Kəlbəcər və Laçın rayonlarının işğalı o biri rayonların işğal altına düşməsinin təməlini qoydu, yəni bunu şərtləndirən amillər olmuşdur. Çünki artıq Ermənistanla Dağlıq Qarabağ arasındakı ərazidə azərbaycanlıların yaşadıqları rayonlarda heç kim qalmamışdı. Etnik təmizləmə siyasəti nəticəsində bütün azərbaycanlılar Şuşa, Laçın və Kəlbəcər rayonlarından qovulmuşdu. Beləliklə, müharibənin birinci mərhələsinin nəticələri müəyyən olunmuşdur.

Ancaq ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışından sonra vəziyyət sabitliyə doğru inkişaf et-

məyə başlamışdır. Azərbaycan xalqı 1993-cü ildə, demək olar ki, ən ağır, ən çətin vəziyyətdən məhz ulu öndərin rəhbərliyi altında şərəflə çıxa bilmişdir. 1993-cü ildən başlayaraq, ardıcıl siyasət nəticəsində bütün xoşagəlməz hallara son qoyuldu, böhrana son qoyuldu və Azərbaycan inkişaf dövrünü yaşamağa başladı. Bu dövr bizim hamımızın yaxşı xatirindədir. Bu, inkişaf və sabitlik dövrüdür və demokratik, inkişaf edən ölkəni şərtləndirən bütün amillər Azərbaycanda tətbiq edilməyə başlanmışdır. Azərbaycan demokratiya yolunu, bazar iqtisadiyyatı yolunu seçmişdir. Azərbaycanda gedən əsaslı iqtisadi və siyasi islahatlar ölkəmizi böyük dərəcədə gücləndirə bilmişdir. 1993–2003-cü illər Azərbaycan tarixində inkişaf illəri kimi yadda qalır. Bu illər ərzində, demək olar ki, əsas çətinliklər arxada qaldı. Ölkəmiz beynəlxalq aləmə sürətlə inteqrasiya etməyə başladı. Ən cəsarətli və qətiyyətli iqtisadi islahatlar həyata keçirilməyə başlandı. Heydər Əliyevin neft strategiyası başlandı və bu salonda 1994-cü ildə «Əsrin müqaviləsi» imzalandı ki, o bu gün də Azərbaycanın uğurlu və müstəqil həyatını böyük dərəcədə təmin edir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixinin keçmişinə böyük hörməti var idi və məhz onun qərarları nəticəsində həm yaxın, həm də uzaq keçmişimizə düzgün və ədalətli qiymət verilmişdir.

Bu gün Azərbaycan dünyada öz yerini möhkəmləndirir. Bizim həm iqtisadi cəhətdən, həm də siyasi cəhətdən bütün səylərimiz ölkəmizin möhkəmlənməsinə yönəldilibdir. Mən bunu artıq bir neçə dəfə qeyd etmişəm və bir daha demək istəyirəm ki, Azərbaycanda bütün islahatlar – iqtisadi islahatlar və siyasi islahatlar paralel şəkildə aparılır. Biz keçmişdən və başqa ölkələrin tarixindən yaxşı bilirik ki, əgər bu islahatlar paralel şəkildə keçirilməsə, xüsusilə keçid dövrünü yaşayan ölkələrdə böyük çətinliklər yarana bilər. Bizim əldə etdiyimiz nəticələr, Azərbaycanda görülən işlər və bunların düzgün istiqamətdə getməsi bir daha onu göstərir ki, bu,

yeganə düzgün seçimdir, yeganə düzgün siyasətdir. Bu siyasət nəticəsində Azərbaycanda həm sabitlik qorunub saxlanılır, möhkəmlənir, həm də ictimai-siyasi asayiş tam şəkildə bərqərar olmuşdur.

Azərbaycan demokratiya yolu ilə inkişaf edir. İqtisadi və sosial islahatlar uğurla icra edilir. Biz dünya birliyinə sürətlə inteqrasiya edirik və bu inteqrasiya, əlbəttə ki, ölkəmizin hərtərəfli inkişafı üçün böyük rol oynayır. Ona görə bu gün əminliklə deyə bilərik ki, artıq Azərbaycan müstəqil dövlət kimi, tam şəkildə formalaşıbdır. Müstəqillik o deməkdir ki, ölkə müstəqil siyasət aparmaq iqtidarında olsun və bunu biz görürük. Azərbaycan bütün sahələrdə müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının milli maraqları üzərində qurulur, onun təməlində Azərbaycan xalqının maraqları dayanır. Müstəqil siyasət aparmaqla biz eyni zamanda, bütün ölkələrlə və beynəlxalq təşkilatlarla bərabərhüquqlu, qarşılıqlı hörmət əsasında ikitərəfli və çoxtərəfli münasibətlərin yaranmasına da nail ola bilmişik. Biz açıq siyasət aparırıq. Bizim sözümüzlə əməlimiz arasında fərq yoxdur. İstər beynəlxalq münasibətlərdə, istər daxili siyasətdə bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və bu, əlbəttə ki, gələcəkdə islahatların davam etdirilməsi üçün bizə əlavə qüvvə verir. Çünki hər bir hakimiyyətin mənbəyi xalqdır və Azərbaycan xalqı öz strateji seçiminə sadiqdir. 1993-cü ildə bu seçimi edib və bu gün ona sadiqdir.

Biz çalışmalıyıq ki, gələcəkdə Azərbaycanı daha da sürətlə inkişaf etdirək. Bunu etmək üçün bütün imkanlar var. Mən qeyd etdim ki, Azərbaycan açıq qapılar siyasəti aparır. Biz dünyaya açığıq, əməkdaşlığa, dostluğa meyilliyik. Çox sevindirici haldır ki, Azərbaycan bütün ölkələrlə normal, işgüzar, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin qurulmasına nail ola bilmişdir. Biz beynəlxalq təşkilatlarla uğurla əməkdaşlıq edirik. Beynəlxalq təşkilatlara üzv olanda müəyyən öhdəliklər götürmüşük və biz bu öhdəlikləri yerinə yetiririk. Biz istənilən beynəlxalq təşkilata könüllü şəkildə

daxil olmuşuq. O təşkilatlara ona görə daxil olmuşuq ki, öz maraqlarımızı daha da böyük dərəcədə müdafiə edək, islahatları daha da dərinləşdirək və dünya birliyinə daha da sürətlə inteqrasiya edək. Ancaq indiki şəraitdə biz onu da bilirik ki, Azərbaycanın önəmi artır. Azərbaycan güclü dövlət kimi, dünyada, bizim bölgədə böyük hörmətə malik olan bir ölkədir. Bizim xarici siyasətlə bağlı təşəbbüslərimiz dünyada çox yüksək qiymətləndirilir. Azərbaycanın birmənalı siyasəti və dostluğa, əməkdaşlığa istiqamətlənmiş siyasət, əlbəttə ki, bütün dünyada yüksək qiymətləndirilir.

Biz siyasi islahatları davam etdirməklə ölkəmizi müasirləşdiririk, gücləndiririk. Çünki siyasi islahatlar hər bir ölkə üçün vacibdir. İstər inkişaf etmiş ölkə olsun və tam şəkildə özünü demokratik ölkə kimi tanıtsın, yaxud da keçid dövrünü yaşayan ölkələr – hər bir ölkədə siyasi islahatlar getməlidir. O cümlədən Azərbaycanda. Biz bu siyasətə sadiqik və bugünkü Azərbaycanın inkişafı, o cümlədən siyasi islahatlar nəticəsində mümkün olmuşdur. Demokratikləşmə prosesinin dərinləşməsi nəticəsində mümkün olmuşdur və əlbəttə ki, bunun çox güclü iqtisadi bazası olmalıdır. Çünki əks-təqdirdə bu siyasətin uğuru olmaz.

Biz iqtisadi bazanı yaratmışıq. Dünyada ikinci belə ölkə yoxdur ki, iqtisadiyyatı dörd il ərzində iki dəfə artsın, sənaye istehsalı iki dəfə artsın, yoxsulluq kəskin şəkildə aşağı düşsün və işsizlik probleminin böyük əksəriyyəti həll olunsun. Biz bütün bunlara öz əməyimizlə, öz siyasətimizlə və Azərbaycan xalqının bizə verdiyi dəstək hesabına nail olmuşuq. Bu gün Azərbaycan iqtisadi cəhətdən nəinki özünü təmin edir, dost, qonşu ölkələr üçün də çox güclü və etibarlı tərəfdaşa çevrilir. Biz lazım olan hallarda öz dostlarımıza da yardımımızı əsirgəmirik. Mən hesab edirəm ki, bundan sonra da belə olmalıdır. Çünki biz iqtisadi imkanlarımızdan dostluğun, əməkdaşlığın inkişafı üçün istifadə edirik.

Biz böyük enerji resurslarına malikik. Azərbaycan neft-qazla zəngin olan ölkədir və indi bu resurslar həm Azər-

baycan xalqının maraqlarına, həm də geniş mənada Avropa qitəsində bizə dost olan ölkələrin maraqlarına xidmət edir və bu iki tərəf arasında heç bir ziddiyyət yoxdur. Biz onu sübut etmişik. Biz nümayiş etdirmişik ki, enerji resursları dostluğun, əməkdaşlığın inkişafına xidmət göstərməlidir və biz onlardan məhz bu istiqamətdə istifadə edirik. Demək olar ki, bu sahədəki bütün planlarımız həyatda öz əksini tapıbdır.

Bir daha demək istəyirəm ki, 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlamış uğurlu neft strategiyamız bu gün Azərbaycanın iqtisadi və siyasi potensialını böyük dərəcədə müəyyənləşdirir. Sirr deyil ki, dünyada iqtisadi və siyasi maraqlar hər bir ölkə üçün əsas şərtdir. Hər bir ölkə öz maraqlarını təmin etməlidir, öz maraqlarını müdafiə etməlidir. O cümlədən Azərbaycan. Biz bu resurslarımızı işə salmaqla öz maraqlarımızı tam şəkildə təmin edirik və şübhə yoxdur ki, bizimlə daha yaxşı münasibətlər qurmaq istəyən ölkələrin sayı artmaqdadır. Burada həm enerji resurslarının önəmi var, bizim coğrafi mövqeyimizin, uğurlu siyasi və iqtisadi islahatlarımızın, eyni zamanda, bütövlükdə Azərbaycanın artan önəminin rolu vardır. Bu gün Azərbaycanla yaxşı münasibətlər yaratmaq və onları gücləndirmək istəyən ölkələrin sayı artır. Biz bunun şahidiyik və əlavə şərh etməyə ehtiyac yoxdur. Gələcəkdə, əlbəttə ki, Azərbaycanın qarşısında duran vəzifələr çox böyükdür.

Biz böyük uğurlar əldə etmişik, ölkəmizdə güclü iqtisadi inkişaf üçün möhkəm baza yaratmışıq. Bu gün bizim büdcə xərclərimiz sürətlə artır və son 4-5 il ərzində on dəfədən çox artmışdır. Bütün sosial proqramlar, infrastruktur layihələri, bizim xaricə qoyduğumuz sərmayələr – onlar da strateji xarakter daşıyır – bütün bunlar artan iqtisadi imkanlar hesabına mümkündür. Bizim strateji valyuta ehtiyatlarımız artır. Son məlumata görə, Azərbaycanın valyuta ehtiyatları 10 milyard dolları ötübdür. Bu, böyük məbləğdir. Bu, yalnız başlanğıcdır. Biz elə etməliyik ki, Azərbaycanın uzunmüddətli, dayanıqlı inkişafını təmin edək. Hazırda aparılan

islahatlar və başlanan layihələr bir neçə ildən sonra böyük nəticələrə gətirib çıxaracaqdır.

Qeyri-neft sektorunun inkişafı, sahibkarlığın, kənd təsərrüfatının inkişafı, işsizliyin aradan qaldırılması – bütün bunlar Azərbaycanın reallıqlarıdır. Güclü sosial siyasət, insanların rifah halının yaxşılaşması, təhsilə, mədəniyyətə, səhiyyəyə, informasiya texnologiyalarına göstərilən diqqət və ayrılan vəsait – bütün bunlar insan kapitalına qoyulan sərmayədir.

Biz öz təbii sərvətlərimizdən səmərəli istifadə edərək, onları təhlükəsiz və çoxşaxəli yollarla dünya bazarlarına çıxararaq, insan kapitalına vəsait qoyuruq. Bu gün Azərbaycanı dünya enerji bazarları ilə birləşdirən yeddi kəmər var. Onlardan üçü neft, dördü isə qaz kəməridir. Azərbaycan istənilən istiqamətə öz enerji resurslarını ixrac edə bilər və beləliklə, neft hasil və ixrac edən ölkələrin qarşısında duran əsas vəzifəni – ixracın şaxələndirilməsini biz təmin etdik. Bundan sonra bizim qarşımızda duran vəzifələr daha da qlobal xarakter daşıyır: Azərbaycanın nəinki bu bölgədə, dünyada rolunun möhkəmlənməsi, dünya miqyasında önəmli ölkəyə çevrilməsi, sosial rifahın tam şəkildə təmin olunması, işsizliyin, yoxsulluğun tam şəkildə aradan qaldırılması, bütün regionların inkişaf etdirilməsi, güclü infrastruktur layihələrinin davam etdirilməsi və başa çatdırılması, səhiyyə, təhsil, mədəniyyət sahələrində bütün məsələlərin həlli. Beləliklə, Azərbaycanın bütün sahələrində müsbət nəticələrin əldə olunması vəzifələri qarşıda dayanır. Bildiyiniz kimi, bizim hər bir sahəni əhatə edən proqramlarımız var, düşünülmüş strategiyamız var. Bütün proqramlar konkret xarakter daşıyır. Hər bir proqramın əsasında maddi resurslar var və biz uğurla irəliyə gedirik.

Mən şübhə etmirəm, biz qarşıda duran vəzifəyə – Azərbaycanın inkişaf etmiş ölkəyə çevrilməsinə nail olacağıq. Bunun üçün imkanlar var: həm xalqımızın istedadı, həm xalqla iqtidar arasında olan birlik, həm də bizim coğrafi və-

ziyyətimiz, enerji resurslarımız, nəqliyyat imkanlarımız, bölgədə artan rolumuz, nüfuzumuz, qonşu, dost ölkələrlə işgüzar münasibətlərimiz, Azərbaycanın dünya miqyasında artan nüfuzu və rolu. Bax, budur bizim uğurumuzu şərtləndirən amillər. Mən şübhə etmirəm ki, Azərbaycan dövlət müstəqilliyi yolunda daha da böyük nailiyyətlərə çatacaqdır.

Bir daha demək istəyirəm ki, mən bizim qarşımızda heç bir maneə görmürəm, sadəcə, qəbul olunmuş bütün qərarlar vaxtlı-vaxtında icra edilməli və ciddi ictimai nəzarət olmalıdır. Biz siyasi islahatları aparmaqla yanaşı, güclü ictimai nəzarətə də diqqət göstəririk ki, dövlətin, hökumətin bütün addımları xalq tərəfindən izlənilsin, ona güclü təhlil verilsin. Lazım gələrsə, müəyyən islahatlarda düzəlişlər də edilməlidir. Geniş müzakirələr keçirilmədən biz buna nail ola bilmərik. Ona görə Azərbaycanda bütün qəbul edilmiş əsas qərarlar həm ictimaiyyətdə, həm Milli Məclisdə, həm də hökumətdə, ictimai təşkilatlarda geniş müzakirə predmetinə çevrilir. Azərbaycan xalqının və Azərbaycan iqtidarının o istiqamətdəki baxışları, yanaşmaları, mövqeyi üst-üstə düşür.

Bizim qarşımızda yeganə ciddi problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həll olunmamasıdır. Siz mənim mövqeyimi bilirsiniz. Mən bu barədə öz fikirlərimi dəfələrlə bildirmişəm. Bu məsələ yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Məsələnin bu dərəcədə uzanmasının səbəbi də yəqin məhz bundadır ki, Azərbaycan prinsipial mövqeyindən bir addım da geriyə çəkilmir.

Baxmayaraq ki, müxtəlif yollarla Azərbaycanı daha da böyük güzəştlərə sövq etmək istəyən tərəflər var və müəyyən mənada təzyiq mexanizmləri də işə salınır. Bu təzyiq mexanizmlərinin bəzilərində guya ki, Azərbaycanda demokratiyanın inkişafında hansısa problemin mövcudluğu haqqında deyilən sözlər də rol oynayır. Bu və ya digər irad, yaxud təklif nə üçün, nə vaxt və hansı məqsədlə olub – bütün bunları Azərbaycan xalqı yaxşı bilir. Ancaq Azərbaycan

dövlətinə, onun rəhbərliyinə, Azərbaycan xalqına hər hansı təzyiqin heç bir mənası yoxdur. Çünki bizim siyasətimiz açıqdır, xalq tərəfindən dəstəklənir, prinsipial, ədalətli siyasətdir.

Mən hesab edirəm ki, növbəti aylarda, yəqin ki, ilin sonuna qədər və 2009-cu ildə biz Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı öz fikirlərimizi artıq daha da geniş mənada bildirəcəyik. Çünki məsələnin uzadılması qəbuledilməzdir. Eyni zamanda, Azərbaycan tərəfindən əlavə güzəştlər də mümkünsüzdür. Bir tərəfdən, bizi sülh danışıqlarına dəvət edirlər və biz xoş niyyət göstərərək, bu danışıqlarda hələ ki, iştirak edirik. Digər tərəfdən, irəliləyişə nail ola bilmirik. Düzdür, müzakirə zamanı müəyyən irəliləyiş var və deyə bilərəm ki, Azərbaycanın mövqeyi bu gün müzakirə olunan məsələlərdə nəzərə alınır. Ancaq nəticə yoxdur.

Sevindirici haldır ki, bizim mövqelərimizin möhkəmlənməsi sayəsində danışıqlar mövzusunda Azərbaycanın ərazi bütövlüyü birinci yer tutur. Yəni danışıqların bütün mahiyyətində Azərbaycanın ərazi bütövlüyünün bərpası və işğal olunmuş bütün rayonların azad edilməsi dayanır. Danışıqlar masasında Dağlıq Qarabağın Azərbaycandan nə vaxtsa ayrılma mexanizmləri yoxdur. Bu reallıqdır və Ermənistan tərəfi bu məsələyə dair öz subyektiv, təhrif edilmiş fikirlərini nə qədər söyləsə də, bunun əhəmiyyəti yoxdur. Çünki danışıqları təkcə biz aparmırıq. Vasitəçilər də bu işin içindədirlər. Dağlıq Qarabağın ayrılması mexanizmi yoxdur. Yəni bu, müsbət haldır və imkan verir ki, əgər Ermənistan tərəfi konstruktivlik göstərərsə, biz tezliklə sülh razılaşmasına nail ola bilərik.

Ancaq, əlbəttə, hər şey Ermənistan tərəfinin mövqeyindən asılıdır. Onlar anlamalıdırlar ki, təcavüz siyasəti, etnik təmizləmə siyasəti nəticəsində müvəqqəti olaraq torpaqlarımızın işğal altında saxlanması onlara xeyir gətirmir. Onları bütün layihələrdən təcrid edir, onların inkişafına əngəl törədir. Bu gün reallıq belədir ki, bu bölgənin ən önəmli, ən

güclü ölkəsi Azərbaycandır. Bizimlə heç kim rəqabət apara bilməz. Sadəcə olaraq, indi bəzi statistik rəqəmlərə diqqət yetirsək, kifayətdir.

Hazırda Azərbaycanın dövlət xərcləri Ermənistanın dövlət xərclərindən təxminən 8 dəfə çoxdur. Bizim hərbi xərclər Ermənistanın bütün dövlət xərclərinə bərabərdir. Biz bu vəzifəni qarşıya qoymuşduq və ona nail olmuşuq. Ona görə Ermənistan tərəfi özü qərar verməlidir: ya o bundan sonra daha da çətin vəziyyətə, təcrid olunmuş vəziyyətə düşəcək, ya da işğalçı siyasətinə son qoyaraq, Azərbaycan torpaqlarından çəkilərək, bölgəyə sülhün gətirilməsi üçün konstruktiv siyasət aparacaqdır.

Hər halda, Ermənistanda baş vermiş son hadisələr bir daha onu göstərir ki, orada yaşayan insanlar o siyasətə dəstək vermirlər. Çünki özünü təcrid etmiş, Azərbaycana, azərbaycanlılara düşmənçilik mövqeyi ilə yaşayan rəhbərlik xalq tərəfindən dəstəklənmir. Ermənistandakı qanlı hadisələr bunun əyani sübutudur.

Bir sözlə, bir daha demək istəyirəm ki, Azərbaycan öz prinsipial mövqeyindən bir addım da geri çəkilməyəcəkdir. Biz həm diplomatik, həm siyasi, həm də iqtisadi gücümüzü artıracağıq. Uğurlarımız hər yerdə var. Bu yaxınlarda BMT-nin Baş Məclisində keçirilən səsvermə bir daha bizim gücümüzü göstərdi. Bizi dəstəkləyən bütün ölkələr bir daha öz prinsipiallıqlarını göstərmişlər. Bu, böyük siyasi və diplomatik qələbədir. Belə qələbələr hər sahədə var. Biz iqtisadi sahədə, enerji, hərbi quruculuq, ordu quruculuğu sahəsində güclənirik. Bu reallıqdır. Bizi istəyən, bizimlə dostluq edən ölkələr buna sevinirlər. Bizə düşmənçilik mövqeyində dayanan bir ölkə, əlbəttə ki, bundan nəticə çıxarmalıdır.

Əziz dostlar, mən hər bir Azərbaycan vətəndaşı üçün əziz olan bu gündə bir daha demək istəyirəm ki, bizim üçün, Azərbaycan xalqı üçün müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir. Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi, bu müstəqilliyi yaxınlaşdırmaq istəyirdi.

Nəsillər gəlirdi, gedirdi, insanlar doğulurdu, həyatdan gedirdi, ancaq biz başqa ölkələrin tərkibində yaşayırdıq. Bu gün bizim nəsillərimiz və bu salonda olan, bu gün Azərbaycanda yaşayan bütün insanlar xoşbəxtdirlər ki, biz bu müstəqilliyi görürük və müstəqil ölkənin inkişafı üçün, möhkəmlənməsi üçün əməli, praktik işləri görürük.

Birinci Xalq Cümhuriyyəti iki il yaşadı, bu gün müstəqil Azərbaycan dövləti təxminən 17 ildir yaşayır. Bundan sonra da yaşayacaq və əbədi yaşayacaqdır.

Bu gözəl bayram münasibətilə bütün Azərbaycan xalqını bir daha təbrik etmək istəyirəm, hər bir vətəndaşa cansağlığı, ailə səadəti arzulayıram.

Sağ olun.

**İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – İsveç Bayrağı günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, xalqlarımız arasında dostluğun möhkəmlənməsi, əməkdaşlığımızın genişlənməsi naminə birgə səylərimizlə Azərbaycan–İsveç münasibətlərinin inkişafına töhfələr verəcəyik.

Bu tarixi gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveç xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 may 2008-ci il*

**İSVEÇ KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FREDRİK RAYNFELDTƏ**

Hörmətli cənab Baş nazir!

Milli bayramınız – İsveç Bayrağı günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, dost ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli inkişafı üçün mövcud imkanlardan bundan sonra da səmərəli istifadə edəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 may 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FİNLANDİYAYA RƏSMİ SƏFƏRİ

*Heydər Əliyev Beynəlxalq Aeroportu*

*28 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Finlandiya Respublikasına rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycanın və Finlandiyanın dövlət bayraqları ilə bəzədilmiş Helsinkinin Vantaa Beynəlxalq Hava Limanında Azərbaycan prezidentini və xanımını Finlandiyanın yüksək vəzifəli rəsmi şəxsləri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Mayın 29-da Finlandiya prezidentinin iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Finlandiyanın dövlət bayraqları ilə bəzədilmiş meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Finlandiya prezidenti xanım Tarya Halonen və həyat yoldaşı Pentti Arayarvi Azərbaycan prezidenti İlham Əliyevi*

*və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladılar. Cənab Pentti Arayarvi Mehriban xanıma gül dəstəsi təqdim etdi.*

*Azərbaycanın və Finlandiyanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev Finlandiya əsgərlərini salamladı.*

*Finlandiyanın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti Finlandiya prezidenti Tarya Halonenə təqdim edildi.*

*Azərbaycan prezidenti İlham Əliyev Fəxri qonaqlar kitabını imzaladı.*

*Prezidentlər qarşılıqlı hədiyyələr təqdim etdilər, rəsmi foto çəkdirdilər.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FİNLANDİYA PREZİDENTİ XANIM TARYA HALONENİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Helsinki, Prezident sarayı*

*29 may 2008-ci il*

*Mayın 29-da Finlandiyanın Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Finlandiya prezidenti xanım Tarya Halonenin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı. O cümlədən prezident Tarya Halonenin Azərbaycana və prezident İlham Əliyevin Finlandiyaya rəsmi səfərlərinin ikitərəfli əlaqələrin daha da genişlənməsinə xidmət etdiyi bildirildi.*

*Tərəflər iqtisadi-ticarət əlaqələrinin genişlənməsi üçün böyük potensialın olduğunu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın uğurla həyata keçirildiyini vurğuladılar.*

*Görüşdə ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ FİNLANDİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Helsinki, Prezident sarayı*

*29 may 2008-ci il*

*Mayın 29-da Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonenin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

*Görüşdə Azərbaycan və Finlandiya arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin perspektivləri müzakirə olundu.*

*Prezident İlham Əliyev Azərbaycanda gedən inkişaf proseslərindən danışdı. Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verdi və bildirdi ki, Ermənistanın bu işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində 1 milyon insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.*

*Finlandiya prezidenti xanım Tarya Halonen ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğunu söylədi, Azərbaycana rəsmi səfərini xatırladaraq, onun uğurla keçdiyini bildirdi. O, prezident İlham Əliyevin Finlandiyaya indiki rəsmi səfərinin də uğurla keçəcəyinə əminliyini vurğulayaraq dedi ki, bu səfər əlaqələrimizin genişlənməsinə xidmət edəcəkdir.*

*Tərəflər qarşılıqlı investisiya imkanlarının geniş olduğunu, sənaye, ekologiya, ətraf mühitin qorunması və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün potensialın mövcudluğunu vurğuladılar.*

## AZƏRBAYCAN VƏ FİNLANDİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*Helsinki, Prezident sarayı*

*29 may 2008-ci il*

*Mayın 29-da Prezident sarayında Azərbaycan və Finlandiya dövlət başçılarının hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşündən sonra prezidentlər birgə mətbuat konfransı keçirmişlər.*

*Finlandiya prezidenti xanım Tarya Halonen Azərbaycan prezidentini və nümayəndə heyətini bir daha salamlayaraq, keçirilən görüşlərdə ölkələrimiz arasında əlaqələrin dərinləşdirilməsi və genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması, ətraf mühitin qorunması məsələlərinin müzakirə olunduğunu bildirdi. O, Azərbaycan iş adamlarını Finlandiyada görmək istəyini də söylədi.*

*Azərbaycan prezidenti İlham Əliyev onu rəsmi səfərə dəvət etdiyinə və Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Finlandiya prezidentinə təşəkkür etdi, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdiyini və Finlandiya ilə iqtisadi əməkdaşlığın yüksək səviyyəyə qaldırılmasının vacibliyini vurğuladı. Azərbaycanda iqtisadiyyatın sürətlə inkişaf etdiyini bildirən dövlətimizin başçısı ölkəmizdə həyata keçirilən müxtəlif layihələrdən də söhbət açdı. Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxundu, ölkəmizin ərazisinin 20 faizinin işğal olunduğunu, etnik təmizləmə siyasəti nəticəsində 1 mil-*

*yon azərbaycanlının öz doğma yurd-yuvasından zorla çıxarıldığını bildirdi.*

*Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.*

## Finlandiya prezidenti xanım Tarya Halonenin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Düşünürəm ki, həmkarım Azərbaycan prezidentinin, onun xanımının və nümayəndə heyətinin ölkəmizə səfəri uğurludur. Ölkələrimiz arasında çox yaxşı münasibətlər var. Lakin apardığımız danışıqlarda biz bu əlaqələrimizin müxtəlif sahələrdə daha da genişlənməsi və dərinləşməsi istəyimizi vurğuladıq. Mən həmkarımın səfərini çox əhəmiyyətli hesab edirəm və artıq yeni səfərlərə, əlaqələrə və praktik əməkdaşlığa ümidlə baxıram.

Hazırda ölkələrimiz arasında iqtisadi əlaqələr o qədər geniş olmasa da, artıq Finlandiya şirkətləri Bakıda və ümumiyyətlə, Azərbaycanda fəaliyyət göstərir. Ümid edirəm ki, biz birgə səylərlə əməkdaşlığın genişləndirilməsi üçün imkanları araşdıracağıq. Biz Azərbaycanın iş adamlarını Finlandiyada fəaliyyət göstərməyə dəvət edirik.

Biz Azərbaycanda, regionda və ümumiyyətlə, Avropadakı siyasi vəziyyəti ətraflı şəkildə müzakirə etdik. Dənizlərdəki vəziyyəti, ətraf mühitin qorunması və ekoloji məsələlər barədə danışdıq. Belə ki, bunlar daim gündəlikdə olan məsələlərdir. Hesab edirəm ki, bu və başqa sahələrdə bir-birimizlə təcrübəmizi bölüşə bilərik.

Finlandiya hazırda ATƏT-ə sədrlik edən ölkədir və biz çalışacağıq ki, Cənubi Qafqazdakı məsələlərin həllinə əlimizdən gələn köməyi edək. Lakin hələlik bu istiqamətdə nailiyyətlərimiz o qədər də böyük deyildir. Region ölkələrinin və beynəlxalq təşkilatların dəstəyinə bizim ehtiyacımız var. Mən bir daha əmin oldum ki, biz bu istiqamətdə müəyyən işlər aparırıq.

Biz finlandiyalılar bu məsələlərə ciddi yanaşırıq və problemlərin həlli yollarının tapılmasında köməyimizi əsirgəmirik.

Xanımlar və cənablar, bununla da sözü həmkarıma verirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Xanım Prezident, təşəkkür edirəm!

Hörmətli xanımlar və cənablar!

Mən Finlandiyada rəsmi səfərdə olmağımdan çox məmnunam. Bu mənim sizin ölkənizə ilk rəsmi səfərimdir. Bu dəvətə, eləcə də mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilən qonaqpərvərliyə görə xanım Prezidentə öz təşəkkürümü bildirirəm. Ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir, ikitərəfli əlaqələrimiz güclüdür və mən əminəm ki, bu səfərdən sonra daha da güclənəcəkdir. Biz fəal siyasi dialoqumuzu da davam etdirəcəyik. Ölkələrimizin iqtisadi potensialını nəzərə alaraq, iqtisadi əməkdaşlığımızı genişləndirmək məqsədi ilə imkanlar da axtaracağıq. Çünki indiki vəziyyət o qədər də qənaətbəxş deyildir. Lakin bu gün müzakirələr zamanı biz ortaq bir fikir söylədik ki, işgüzar dairələrimiz arasında daha sıx əlaqələrə və məlumatlılığa ehtiyacımız var. Əməkdaşlığı, iqtisadi inteqrasiyanı daha da genişləndirmək üçün daha nə edə biləcəyimizi müəyyən etdik.

İndi Azərbaycanda böyük imkanlar var, ölkə inkişaf edir, iqtisadiyyatın yeni sektorları daha da güclənir. Bizim böyük sərmayə planlarımız var və mən bu gün Finlandiya şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət etdim. Güclü siyasi münasibətlər, şübhəsiz ki, güclü iqtisadi əməkdaşlığı müəyyən edəcəkdir.

Xanım Prezidentin qeyd etdiyi kimi, biz bu gün iqtisadi, ticari və enerji tərəfdaşlığını və ətraf mühitin qorunması məsələlərini müzakirə etdik. Müzakirələr geniş sahələri əhatə etdi, Cənubi Qafqazdakı vəziyyət, həll edilməmiş münaqi-

şələr və xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun həlli – bütün bunlar bu gün apardığımız danışıqların mövzusu olubdur. Mən bir daha Azərbaycanın mövqeyini bəyan edərək bildirmək istəyirəm ki, Cənubi Qafqazda və digər ərazilərdəki münaqişələr yalnız beynəlxalq hüquq normaları və ölkələrin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Ümumiyyətlə, qeyd etmək istərdim ki, səfərimin başlamasından çox razıyam. Biz müxtəlif məsələlərlə bağlı açıq və çox səmimi danışıqlar apardıq. Mən xanım Prezidentin üç il bundan öncə Azərbaycana etdiyi səfərini xatırlayıram. Məhz o vaxt bizim tərəfdaşlığımız başladı və mən çox şadam ki, bütün məsələləri müzakirə etməyimizə imkan verən açıq, dostcasına və səmimi münasibətlərimiz var. Bu gün bu dialoqu davam etdirmək üçün gözəl bir imkandır və mən əminəm ki, səfərin nəticələri çox uğurlu olacaqdır.

Təşəkkür edirəm.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**– Hazırda Finlandiya ATƏT-də sədrlik edir. Bu müddətdə Finlandiya Qarabağ münaqişəsinin həllinə hansı töhfələri verə bilər?**

**T a r y a  H a l o n e n:** Şübhəsiz ki, bu məhz tərəflərin özünün, Azərbaycanın və Ermənistanın məqsədidir. Aldığım məlumata görə, bu yaxınlarda Azərbaycan və Ermənistan prezidentləri görüşəcəklər. Ümid edirəm ki, onlar yeni dövr üçün əlverişli şəraitin yaranmasına çalışacaqlar. Təbiidir, biz deyə bilmərik ki, bütün məsələlər tez bir zamanda öz həllini tapacaqdır. Lakin ümid edirik ki, prezidentlərin görüşü yeni ab-hava yaradacaq və danışıqlar səmimi olacaqdır.

Finlandiyanın ATƏT-də sədrliyinə gəlincə, onu deyə bilərəm ki, belə məsələlərin həllində bizim böyük təcrübəmiz var. Şübhəsiz ki, biz həm ATƏT-in, həm də həmsədrlər

qrupunun bu sahədəki fəaliyyətini dəstəkləyirik. Beləliklə, deyə bilərik ki, biz bu prosesləri və addımları dəstəkləyirik və ümid edirik, qrupun bu istiqamətdəki fəaliyyətinə hörmətlə yanaşılacaq və əməkdaşlığa nail olunacaqdır. Burada iki məsələ var. Ümid edirik ki, hər iki ölkə – Azərbaycan və Ermənistan danışıqlar zamanı yaxşı yeni başlanğıc əldə edəcək və ATƏT-in bu məsələdə yardımçı səylərinə ədalətli şəkildə dəstək verəcəklər.

**– Cənab Prezident, bu yaxınlarda münaqişə zonasında bəzi toqquşmalar baş vermişdir. Nə üçün oradakı vəziyyət bu qədər gərgindir, Azərbaycan və Ermənistan arasında açıq hərbi əməliyyatların başlanması ehtimalı varmı?**

**İ l h a m  Ə l i y e v:** Bu münaqişə artıq iyirmi ilə yaxındır davam edir. 1994-cü ildən bəri biz atəşkəs rejimindəyik, lakin hələ ki, sülhə nail olunmayıbdır. Bəzi ərazilərdə təmas xətti çox yaxındır və şübhəsiz ki, baş verən bu toqquşmalar narahatlıq doğurur. Lakin bəzən bu toqquşmaların qarşısını almaq çox çətindir, çünki münaqişə hələ də həll olunmamış qalır. Təbii ki, biz bu toqquşmaların baş verməsindən təəssüf edirik. Bunlar insan itkisinə və tələfatlara səbəb olur. Bununla belə, bu reallıqdır. Reallıq budur ki, münaqişə hələ də həll edilməyibdir. Bəziləri güman edə bilər ki, münaqişə dondurulub, lakin bu belə deyildir. Bu münaqişə özündə təhlükə daşıyır və regionda potensial qeyri-sabitliyin əsas amilidir. Təbii ki, əgər münaqişənin sülh yolu ilə həlli tapılarsa, Azərbaycanın bütün əraziləri azad edilərsə və qaçqın-köçkünlərin öz doğma torpaqlarına qayıtmaq imkanı olarsa, onda regionda sülh bərqərar olar. Bu mərhələdə hər iki tərəf vəziyyəti nəzarətdə saxlamalıdır ki, toqquşmalar genişmiqyaslı hərbi əməliyyatlara çevrilməsin. Lakin regionda vəziyyətin təhlükəli inkişafı istisna olunmur. Çünki danışıqlar heç bir nəticə vermədən 14 il davam edirsə, əgər Ermənistan tərəfi konstruktiv mövqe nümayiş etdirmirsə, BMT Təhlükəsizlik Şurasının və Baş Məclisinin qətnamələrinə uyğun davranmırsa, Azərbaycan torpaqlarını qanunsuz olaraq işğal

altında saxlamağa davam edirsə, istənilən hal baş verə bilər. Bununla belə, Azərbaycan sülh prosesinə sadiqdir. Bizim uzun illər danışıqlar prosesində iştirakımız bu münaqişənin yeganə həlli yolunun sülh danışıqları olduğunu hesab etdiyimizə dəlalət edən bir işarədir.

**– Sualım hər iki Prezidentədir. İqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi perspektivləri və qarşılıqlı sərmayələrin qoyulması baxımından ölkələrimiz hansı sahələrdə əməkdaşlıq edə bilər?**

**T a r y a  H a l o n e n:** Cavab çox nikbin olacaqdır. Çünki hesab edirəm, Finlandiyada buna bənzər təcrübəmiz var və Azərbaycan üçün çox faydalı ola bilər. Azərbaycanın enerji daşıyıcılarının hasilatı və nəqli üçün böyük ehtiyatları var. Bizim isə enerji ehtiyatlarımız olmasa da, bu sahədə böyük iş təcrübəmiz var. Düşünürəm ki, artıq energetika sektorunda bizim ilk belə əyani təcrübəmiz var və biz bu sahədə çox irəliləmişik, müasir texnologiyalara sahibik və bu istiqamətdə var gücümüzlə çalışırıq. Ümid edirəm ki, enerji sektoru gələcəkdə daha geniş əhatə olunacaqdır.

Burada bir sıra digər məsələlər də vardır. Məsələn, biz bilirik ki, enerji sektoru ilə bağlı əsas məsələlərdən biri də ekologiyadır. Biz bu sahədə təcrübəmizi və məlumatları bölüşməyə hazırıq. Mən Baltik dənizi əməkdaşlığı haqqında məlumat vermişəm. Hesab edirəm ki, ekologiya sahəsində fəaliyyət göstərən bəzi şirkətlərimiz ölkənizin bu sahəyə cavabdeh olan qurumları ilə əməkdaşlıq edə bilər. Bizim bəzi sazişlərimiz mövcuddur, lakin bir sıra digər ikitərəfli müqavilələrə ehtiyacımız var. Biz bu sazişlərə müsbət yanaşırıq və bu istiqamətdə işlərimizi davam etdiririk. Düşünürəm ki, bizim Xarici Ticarət və İnkişaf naziri cənab Vyayryunen Azərbaycana səfər etməyə ciddi hazırlaşır və ümid edirəm ki, biz dövlət səviyyəsində də tezliklə irəliyə doğru müəyyən addımlar atacağıq. Bazar iqtisadiyyatı bazar iqtisadiyyatıdır və biz həmçinin hər iki tərəfin geniş əməkdaşlığa can atan şirkətlərinin maraqlarına da güvənirik.

**İ l h a m   Ə l i y e v:** Biz bu məsələni geniş müzakirə etdik və qarşılıqlı sərmayə qoyuluşlarını təqdir etdiyimizə dair ortaq fikir irəli sürdük. Azərbaycanın indiki inkişaf mərhələsində biz öz maliyyə imkanlarımızla artıq qonşu ölkələrdə müxtəlif infrastruktur layihələrində iştirak edirik. Son il yarım ərzində Azərbaycanın ölkədən kənarda qoyduğu sərmayələrin ümumi məbləği, ən azı, 2,5 milyard dollar olubdur. Beləliklə, biz müxtəlif yerlərdə sərmayə qoyuluşu imkanlarını ciddi şəkildə araşdırırıq. Azərbaycanda da sərmayə qoyuluşu üçün yaxşı mühit var. Azərbaycan adambaşına düşən birbaşa xarici sərmayələrin həcmi baxımından regionda lider ölkədir. Bütün sərmayələr müvafiq qaydada qanunla qorunur. İndiyədək Azərbaycanda hökumət və iri sərmayədarlar arasında heç bir mübahisə baş verməmişdir.

Mən xanım Prezidenti ölkəmizdə bu il 6 milyard dollardan artıq olacaq dövlət sərmayə proqramı haqqında məlumatlandırdım. Bu layihələr həyatımızın bütün sahələrini əhatə edəcək və mən Finlandiya şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət etdim. Ona görə ki, Finlandiya şirkətlərinin böyük nüfuzu, peşəkar səviyyələri və fəaliyyəti var. Artıq bizim Finlandiya şirkətləri ilə yaxşı iş təcrübəmiz var, xüsusilə də ölkəmizdə elektrik stansiyalarının tikintisində. Şübhəsiz ki, iqtisadi əməkdaşlıq daha da geniş ola bilər və bu gün nümayəndə heyətlərimizin üzvləri nəyin edilə biləcəyi haqqında fikir mübadiləsi aparmaq imkanı əldə etdilər.

Hesab edirəm ki, bu sıx təmasları biz gələcəkdə də davam etdirməliyik. Bizim aramızdakı təmaslar və danışıqlar sadəcə, prezidentlər və Xarici İşlər nazirləri arasındakı görüşlərlə məhdudlaşmamalıdır. Bu daha geniş bir əməkdaşlıq olmalıdır və ola bilsin ki, biz tərəfdaşlığın praktik sahələrini müzakirə etmək üçün nazirlərin qarşılıqlı səfərlərinin təşkil edilməsi haqqında düşünək. Əminəm ki, biz bu istiqamətdə ciddi irəliləyişə nail ola bilərik.

**– Cənab Prezident, ölkənizdə oktyabr ayında prezident seçkiləri keçiriləcəkdir. Ötən illərdə seçkilərin ədalətli keçirilmədiyi haqda bəzi ittihamlar səslənibdir. Qarşıdakı seçkilərdə bu məsələlər öz həllini necə tapacaqdır?**

**İ l h a m Ə l i y e v:** Bizim bölgə barədə belə ittihamlar vaxtaşırı səslənir. Lakin Azərbaycanda keçirilən son seçkilərin nəticələri xalqın iradəsini və real vəziyyəti 100 faiz özündə əks etdiribdir. Bu həm 2003-cü ildəki prezident seçkilərində, həm də 2005-ci ildə parlament seçkilərində belə olubdur. Əgər xatırlayırsınızsa, 2005-ci ildə bizim bölgədəki parlament seçkilərinə maraq çox böyük idi, xüsusilə də qonşu ölkələrdə inqilabi ssenarilərin həyata keçirilməsindən sonra. Bəziləri elə düşünürdü ki, bu inqilabi ssenarilər hər yerdə baş tutacaqdır. Lakin bu, Azərbaycanda baş vermədi. Əsasən də ona görə ki, istər daxili, istərsə də xarici olmasından asılı olmayaraq, xalq həmin qüvvələri dəstəkləmədi. 2005-ci ildə beynəlxalq təşkilatlar tərəfindən keçirilən exit-poll aydın şəkildə göstərdi ki, açıqlanan rəsmi nəticələr exit-pollun nəticələri ilə, demək olar, tam üst-üstə düşdü və bu da seçkilərin tamamilə azad və ədalətli keçirilməsinin ən yaxşı sübutudur. Pozuntu hallarının baş verdiyi seçki dairələrində səsvermənin nəticələri ləğv edildi. Orada seçkilər yenidən təşkil edildi və bu da normal hal kimi qəbul olunubdur.

Beləliklə, biz qarşıdan gələn prezident seçkilərində heç bir problem və ya heç bir çətinliklər görmürük. Seçkilər azad və ədalətli keçiriləcəkdir. Biz beynəlxalq təşkilatları müşahidəçi qismində ölkəmizə dəvət edəcəyik. Əvvəlki təcrübəmizi nəzərə alaraq, gələcək müşahidəçilərdən yeganə xahişimiz odur ki, yalnız gördüklərini əks etdirsinlər. Ədalətli və qərəzsiz olsunlar və Cənubi Qafqazdakı müstəqil ölkələrə eyni bucaqdan yanaşmağa çalışsınlar. Çünki bəzən belə olmur. Xüsusilə yaxın keçmişdə Ermənistanda kütləvi saxtakarlıq, ordunun müdaxiləsi və 28 nəfərin qətlə yetirilməsi ilə müşayiət olunmuş, qeyri-azad və ədalətsiz keçirildiyi hesab edilən seçkilərə Qərbdə nə üçün göz yumulduğunun səbəbini biz

bilmirik. Buna səbəb Ermənistanı bütün tənqidlərdən qoruyan güclü erməni diasporu ola bilər. Digər səbəblər də ola bilər. Lakin biz Cənubi Qafqazda, qonşu ölkələrdə nə baş verdiyini bilirik. Azərbaycana qarşı, xüsusilə də demokratikləşmə prosesləri ilə bağlı, digər ölkələrlə müqayisədə fərqli münasibət görürüksə, şübhəsiz, bu çox təəssüfedici haldır. Bir daha əminəm ki, seçkilər yaxşı keçəcək, biz müşahidəçiləri dəvət edəcəyik. Lakin müşahidələr və bu müşahidələrə dair hesabatlar qabaqcadan formalaşmış seçki fakirləri ilə yox, ədalətli və qərəzsiz olmalıdır. Amma təəssüf ki, biz ötən zamanlarda bunun şahidi olmuşuq.

**Tarya Halonen:** Həmkarımın fikirlərinə onu əlavə etmək istərdim ki, qarşıda gələn prezident seçkiləri bizim danışıqlarımızın mövzusu olubdur. Dəvətlərin gələcəyini eşitməkdən çox məmnun oldum və ümid edirəm ki, bunlar erkən dəvətlər olacaqdır.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*29 may 2008-ci il*

*Mayın 29-da Helsinkidə Prezident sarayında Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonenin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları qəbulda nitq söylədilər.*

**Finlandiya prezidenti Tarya Halonenin nitqi**

Cənab Prezident, həyat yoldaşım və mən Sizi və xanım Əliyevanı Finlandiyada bir daha salamlamaqdan böyük məmnunluq duyuruq. Bu, Azərbaycan prezidentinin Finlandiyaya ilk rəsmi səfəridir və ölkələrimiz arasında gözəl münasibətlərin olmasını nümayiş etdirir. 2005-ci ildə Azərbaycanın gözəl paytaxtı Bakı şəhərində sizin qonaqpərvərliyinizi duymaq imkanına nail olduq.

Hər iki ölkənin paytaxt şəhərləri dəniz sahilindədir. Xəzər dənizi dünyanın quru ərazilərlə əhatə olunmuş ən böyük su hövzəsidir. Bizim Baltik dənizi də qapalı dəniz sayılır və Qara dənizdən sonra dünyada ikinci ən böyük duzlu su ehtiyatı buradadır. Hər ikimiz bilirik ki, dənizlər xalqları ayırmır, onları birləşdirir. Onlar müsbət iqtisadi, mədəni və ətraf mühit qüvvəsinə çevrilə biləcək təbii əlaqəni təşkil edir. Finlandiyada biz istəyirik ki, Baltik dənizi regionunda ölkələr arasında daha sıx əməkdaşlıq inkişaf etsin və arzu edirik ki, regional əməkdaşlıqda müxtəlif formada iştirak edən ölkələrlə təcrübəmizi bölüşək.

Mən Minsk prosesi ilə bağlı ölkənizə Finlandiyanın Xarici İşlər naziri kimi səfərim zamanı 1996-cı ildən etibarən Azərbaycanın inkişafını daha yaxından izləmək imkanını əldə etdim. Son illər ərzində ölkəniz vətəndaşlarınızın rifahına və davamlı inkişafa yönəlmiş təbii sərvətlərdən irəli gələn imkanlarını istifadə edərək, sürətli iqtisadi inkişafa nail olmuşdur.

2005-ci ildə mən Azərbaycanda rəsmi səfərdə olarkən, bir neçə həftə sonra ölkənizdə parlament seçkiləri keçirilməli idi. Sizin Finlandiyaya səfəriniz də ölkənizdə seçki ilinə düşür. Biz, finlandiyalılar demokratik islahatlar sahəsində Sizin göstərdiyiniz səyləri dəyərləndiririk. İnanıram ki, müsbət meyil qarşıdan gələn prezident seçkilərində davam edəcək və beynəlxalq müşahidəçilər ölkənizə məmnunluqla səfər edəcəklər.

Finlandiya bu il Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında – ATƏT-də sədrlik edir. Bu baxımdan, Siz bu yaxınlarda bizim Xarici İşlər nazirini qəbul etmisiniz. ATƏT prosesi 33 il əvvəl burada, Helsinkidə başladı. Hazırda dünya 1975-ci ildə olduğundan xeyli fərqlənir. Bununla belə, təşkilatın fundamental prinsipləri eyni olaraq qalır: demokratiyaya riayət və onun bərqərar olunması, qanunun aliliyi, insan hüquqları və söz azadlığı siyasi sabitliyin, təhlükəsizliyin, iqtisadi artımın və vətəndaşların rifahının təmin edilməsində əsas vasitələrdir. Avropa Şurasının üzvləri kimi, biz həmin fundamental dəyərlərə sadiqik.

ATƏT-də sədrlik edən ölkə kimi, Finlandiya Dağlıq Qarabağ münaqişəsinin həllinə yardım göstərmək məqsədi ilə əlindən gələn səyləri göstərir. Hesab edirəm ki, bu münaqişənin həlli bütün Cənubi Qafqazda və qonşu yerlərdə yeni böyük inkişaf potensialını təmin edəcəkdir. Müsbət nəticə regionun iqtisadi və siyasi əhəmiyyətini artırardı. Ümidvaram ki, tərəflər Minsk prosesindən istifadə edərək, nizamlanmaya nail olmaq üçün cəsarət və siyasi iradə nümayiş etdirəcəklər.

Bu gün qloballaşan dünyada ölkələr tədricən bir-birindən asılı vəziyyətə düşür. Biz həmin qarşılıqlı asılılığı müsbət amilə çevirməliyik və qloballaşmadan ekoloji baxımdan davamlı inkişaf və sosial ədalətin təşviqi üçün resurs kimi istifadə etməliyik. Birləşmiş Millətlər Təşkilatı həmin səylərin göstərilməsi məqsədi ilə əsas çoxtərəfli əməkdaşlıq forumu ola bilər.

Düşünürəm ki, çiçəklənən dövlət nümunəsi və təhsilə, uzunmüddətli tədrisə sərmayələrin qoyulması, eləcə də yeniliklər Finlandiyanın uğurlarını şərtləndirən amillərdir. Bir sıra beynəlxalq araşdırmalar nəticəsində Finlandiya dünyada ən rəqabətədavamlı ölkələr sırasına daxil edilmişdir və bizim rəhbərliyimiz şəffaf və yaxşı işlədiyinə görə tez-tez tərifə layiq görülür.

Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» qonşu ölkələrdə sabitliyin, rifahın və tərəqqinin təşviqinə, həmin ölkələr ilə Aİ arasında daha sıx əməkdaşlıq etməyə, eləcə də qonşuların özlərinin arasında işbirliyinin qurulmasına yönəlibdir. Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişaf etdirilməsində olan məqsədimiz Azərbaycan üzrə tədbirlər planının qəbul edilməsi ilə yanaşı, Finlandiyanın Avropa İttifaqında sədrliyi ərzində tərəqqinin əldə olunmasından ibarətdir.

Finlandiya və Azərbaycan vaxtilə eyni imperiyanın bir hissəsi idi. Bu gün isə müstəqil ölkələr kimi, biz bir çox eyni beynəlxalq təşkilatların üzvləriyik. Əlbəttə ki, çoxtərəfli münasibətlər vacibdir. Biz ikitərəfli əlaqələrimizin də təşviq və inkişaf etdirilməsində maraqlıyıq. Ümid edirəm ki, səfəriniz ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və ticarətin inkişafına töhfə verəcəkdir.

Biz həmçinin mədəni əməkdaşlıq sahəsində daha çox işlər görə bilərik. Hər iki ölkənin mədəniyyətinə Şərq və Qərb təsir etmişdir və hər iki tərəfin zəngin poeziya, rəqs və musiqi ənənələri var. Misal üçün, Finlandiyada Azərbaycan filmləri və musiqi festivalları keçirilmişdir.

Cənab Prezident, mədəni mübadilələr sahəsində bizim zəngin təcrübəmiz var və bizim cəmiyyətlərimizin gördüyü işlərə əsaslanaraq, bu təcrübəni bölüşə bilərik.

Cənab Prezident, mən bu badəni Sizin və xanımınız Mehriban Əliyevanın sağlığına, Azərbaycan xalqının xoşbəxtliyi və tərəqqisi, eləcə də ölkələrimiz arasında dərin əməkdaşlığın şərəfinə qaldırmaq istəyirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli xanım Prezident!

Hörmətli cənab Pentti Arayarvi!

Hörmətli xanımlar və cənablar!

Xanım Prezident, ilk növbədə məni Finlandiyaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Finlandiya torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm.

Bu, Azərbaycan prezidentinin Finlandiyaya ilk rəsmi səfəridir. İnanıram ki, bu səfər ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Keçirdiyimiz görüşlər, apardığımız danışıqlar əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Finlandiya ilə Azərbaycan arasında keçmişdə də yaxşı əlaqələr olmuşdur. Keçən əsrin əvvəllərində Bakıda yaşayan finlandiyalılar Azərbaycanın neft sənayesinin inkişafında fəal rol oynamışlar. Finlandiyanın keçmiş rəhbərləri Urho Kekkonen və Mauno Koyvisto müxtəlif vaxtlarda Azərbaycana səfər etmişlər.

Ötən əsrdə xalqlarımız arasında ədəbiyyat, incəsənət və musiqi sahələrində zəngin mədəni mübadilələr olmuşdur. Finlandiyada «Azərbaycan–Finlandiya Mədəniyyət Körpüsü» Cəmiyyəti Azərbaycan mədəniyyətinin təbliğində, Azərbaycan haqqında məlumatların Finlandiya ictimaiyyətinə çatdırılmasında səmərəli fəaliyyət göstərir.

Xanım Prezident, 2005-ci ilin sentyabrında Sizin Azərbaycana səfəriniz əlaqələrimizin inkişafında yeni səhifə açmışdır. Bu gün Finlandiya şirkətləri, finlandiyalı iş adamları ölkəmizdə elektrik stansiyalarının və buxar-qaz qurğularının tikintisini həyata keçirirlər. Mən beynəlxalq və regional təşkilatlar, o cümlədən Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» proqramı çərçivəsində əlaqələrimizə xüsusi önəm verirəm.

Son illərdə irimiqyaslı beynəlxalq layihələrin, xüsusən Böyük İpək Yolunun bərpası, Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin yaradılması istiqamətində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Bu əməkdaşlıq Baltik dənizi, Qara dəniz və Xəzər dənizi regionları ölkələrinin inteqrasiyasına, eləcə də Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığa öz töhfəsini verir.

Azərbaycan Avropa İttifaqı ilə Enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalayaraq, neft və qaz layihələrini həyata keçirərək və Bakı–Tbilisi–Ceyhan neft boru kəməri, Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri və digər boru kəmərləri vasitəsilə Avropa və beynəlxalq bazarlara öz enerji məhsullarını çatdırmaqla enerji təhlükəsizliyinə mühüm töhfə verir.

Azərbaycan son illər ərzində sürətli inkişaf yolu keçmiş və iqtisadi baxımdan regionun lider dövlətinə çevrilmişdir. Keçən il Azərbaycanda ÜDM-in artımı 25 faiz olmuşdur. Son 4 il ərzində ölkə iqtisadiyyatı təxminən 2 dəfə artmışdır. Ölkədə, əsasən regionlarda 660 mindən çox yeni iş yerləri açılmışdır ki, biz şaxələndirilmiş iqtisadiyyat haqqında danışaq. Bizim məqsədimiz güclü qeyri-neft iqtisadiyyatı yaratmaqdan ibarətdir ki, gələcək nəsillər neft və neft qiymətlərindən asılı olmasınlar.

Ölkəmizdə xarici sərmayələrin cəlb edilməsi üçün əlverişli şərait yaradılmışdır. Biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə regionda lider ölkəyik. Son illər

ərzində ölkə iqtisadiyyatına 40 milyard ABŞ dollarından çox sərmayə qoyulmuşdur.

Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin və beynəlxalq əməkdaşlığın inkişafında mühüm rol oynayır. Lakin artıq 20 ilə yaxındır ki, Azərbaycan Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etmiş və burada etnik təmizləmə siyasəti aparmışdır. Nəticədə ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır.

Beynəlxalq ictimaiyyət və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun olaraq ədalətli şəkildə həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri var.

Bu yaxınlarda BMT-nin Baş Məclisi Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiq edən və erməni qüvvələrinin bütün işğal olunmuş ərazilərdən tam şəkildə dərhal çıxarılmasını tələb edən qətnamə qəbul etmişdir. Bu münaqişə yalnız beynəlxalq hüquq və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Biz bu məsələdə hazırda ATƏT-də sədrlik edən Finlandiyanın da dəstəyinə ümid bəsləyirik.

Hörmətli xanım Prezident, Siz bu gün Şəhər Şurasında ziyafət zamanı qeyd etdiniz ki, Helsinki və Bakı bir-biri ilə oxşardır. Mən onu da qeyd etmək istəyirəm ki, Sizin işlədiyiniz iqamətgahdan açılan görünüş, demək olar ki, mənim Bakıdakı iqamətgahımdan görünən panorama bənzəyir. Bizim paytaxt şəhərlərimizin dəniz sahilində yerləşməsi böyük üstünlükdür.

Həmçinin bu gün müzakirə etdiyimiz beynəlxalq məsələlərdə yanaşmamız oxşardır. Finlandiya və Azərbaycan, hər ikisi Rusiya imperiyasının dağılması nəticəsində müstəqil oldular. Lakin siz müstəqilliyinizi qoruyub saxlaya və

dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilə bildiniz. Əfsuslar olsun ki, bizim müstəqilliyimiz iki il çəkdi. Biz müstəqilliyimizi onilliklər ərzində, yəni 70 il ərzində itirdik. İndi isə müstəqilliyimiz bərpa olunub və biz dünyada gedən proseslərə çatmalıyıq. Ona görə biz insan kapitalına, təhsilə, informasiya texnologiyalarına və müasir texnologiyalara sərmayə qoyuruq. Bütün bunlar müstəqillik dövründə əldə edilmişdir.

Siz təbii sərvətlər olmadan bütün sosial problemləri maksimum səviyyədə həll etmiş, inkişaf etmiş müasir ölkəyə çevrilmək üçün çox yaxşı nümunəsiniz. Bütün beynəlxalq təşkilatların nüfuz cədvəllərində sizin ölkəniz ilk onluqda gedir. Siz dəyişməyi planlaşdırmaq üçün ölkələrə yaxşı nümunəsiniz. Bizim planlarımız qanunun aliliyi ilə seçilən, çoxlu sosial proqramları olan müasir, demokratik ölkəyə çevrilməkdir və bunun üçün yaxşı imkanlarımız vardır. Bu baxımdan sizin təcrübəniz bizim üçün çox vacibdir. Mənim ölkənizə bu səfərim həm münasibətlərin inkişafı, həm də təcrübə mübadiləsi baxımından əhəmiyyətlidir.

Xanım Prezident, mən bu badəni Sizin, cənab Pentti Arajarvinin sağlığına, Finlandiya xalqının və xalqlarımız arasındakı dostluğun şərəfinə qaldırmaq istəyirəm.

## FİNLANDİYA PARLAMENTİNİN SƏDRİ SAULİ NİİNİSTÖ İLƏ GÖRÜŞ

*29 may 2008-ci il*

*Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Finlandiya parlamentində olmuşdur.*

*Dövlətimizin başçısını binanın önündə parlamentin – Eduskuntanın sədri Sauli Niinistö, Baş katib Seppo Tiitinen, Xarici Əlaqələr Departamentinin rəisi xanım Katriina Kuusinen böyük ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev parlamentin üzvləri ilə görüşdü və Fəxri qonaqlar kitabını imzaladı.*

### Parlamentin sədri Sauli Niinistönün çıxışı

Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Hörmətli xanımlar və cənablar!

Finlandiyanın parlamentində – Eduskuntada sizi salamlamaqdan çox məmnunam. İki il bundan əvvəl biz burada parlamentin 100 illik yubileyini qeyd etmişik. Yüz il əvvəl Finlandiyanın bütün vətəndaşlarına seçkilərdə iştirak etmək və namizədliyini irəli sürmək üçün tam hüquqlar verilmişdir. Bu tarix 1906-cı ilə təsadüf edir. O vaxt Finlandiyanın demokratiyası üçün güclü zəmin yaradıldı və bu bizim firavan ölkənin bünövrəsi idi.

Bilirəm ki, ötən gün Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90-cı ildönümü qeyd olunubdur. İcazə verin, bir gün gec də olsa, bu münasibətlə Sizi təbrik edim. Mən bir müddət sonra Azərbaycan parlamentinin yaranmasının 90-cı ildönümü ilə əlaqədar öz təbriklərimi çatdıracağam.

Ötən aylar ərzində əlaqələrimiz daha da intensivləşibdir. Belə ki, Finlandiyanın bir çox siyasətçisi Azərbaycana səfər etmək imkanı əldə etdi. Hələ yanvar ayında bizim parlamentin xarici əlaqələr komitəsinin nümayəndə heyəti Sizin parlamentlə tanış olub, fevral ayında isə bizim Xarici İşlər nazirimiz, ATƏT-də sədrlik edən şəxs kimi, Azərbaycana səfər etmişdir. Bu gün isə, cənab Prezident, Sizi burada, Finlandiya demokratiyasının əsası sayılan parlamentdə qonaq qismində qəbul etməkdən çox məmnunuq.

Ölkələrimiz arasındakı münasibətləri əla xarakterizə edirik və aramızda heç bir problem yoxdur. Bunu mən səmimiyyətlə təsdiq edə bilərəm. Bundan başqa, razılıqla deməliyəm ki, dünyada sülh və tərəqqinin genişləndirilməsi naminə beynəlxalq əməkdaşlıqda biz qüvvələrimizi birləşdirmişik. Son on ildə Azərbaycanda neft və qaz sənayesi inkişaf etməkdədir və xarici sərmayədarlar ölkənizin iqtisadiyyatına etibar edir. Həqiqətən də bu inkişaf çox sabit görünür. Biz Sizin Avropa enerji bazarına gələcəkdə qaz təminatçısı kimi, verəcəyiniz güclü töhfəni görməkdən çox məmnun olacağıq.

Cənab Prezident, Sizi bizim parlamentdə ali qonaq qismində bir daha salamlamaq istəyirəm və əminəm ki, Sizin Finlandiyaya səfəriniz xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaqdır. Bir daha Sizi salamlayıram, xoş gəlmisiniz!

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Cənab sədr, çox sağ olun!

Xanımlar və cənablar!

Parlamentdə belə bir səmimi qəbula görə sizə təşəkkür edirəm. Burada olmağımdan çox şadam. Bu gün Azərbaycan Respublikası prezidentinin Finlandiyaya ilk rəsmi səfəri həyata keçir və bu, ölkələrimiz arasındakı əlaqələrin tarixində mühüm hadisədir.

Biz öz müstəqilliyimizi 1991-ci ildə bərpa etdik və o zamandan bəri bu, Finlandiyaya ilk rəsmi səfərdir. Çox uğurlu səfərdir, bu gün səhər biz xanım Prezidentlə ətraflı danışıqlar apardıq. Biz ikitərəfli əlaqələri, regional məsələləri, enerji siyasətini, siyasi və iqtisadi islahatlar siyasətini müzakirə etdik. Bizim baxışlarımız və yanaşmalarımız üst-üstə düşür.

Bizim demokratik respublikanın ildönümü ilə bağlı təbriklərinizə görə Sizə təşəkkür edirəm. Bu bizim yaşadığımız bölgə üçün tarixi hadisə olub və ümumiyyətlə, müsəlman dünyasında yaranan ilk demokratik respublika idi. Lakin sonradan uzun illər ölkəmiz müstəqillikdən məhrum olmuşdur. Çünki demokratik respublika cəmi iki il yaşadı. Sonra biz yenidən digər ölkənin bir hissəsinə çevrildik. Biz indiki müstəqilliyimizi çox əziz tuturuq və onun daha da möhkəmləndirilməsi üçün əlimizdən gələni edirik.

Biz Avropaya inteqrasiya edirik. Avropa İttifaqı ilə Azərbaycanın tərəfdaşlığı genişlənməkdədir. Biz Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nin iştirakçısıyıq. Tərəfdaşlığı və əməkdaşlığı gücləndirmək məqsədi ilə Avropa İttifaqı və üzv-ölkələrlə ikitərəfli və çoxtərəfli əsaslarla əməkdaşlıq edirik. Bu gün bunları inkişaf etdirmək üçün böyük imkanların olduğunu görürük. Siyasi əlaqələrimiz çox yaxşı səviyyədədir və iqtisadi sahədə yeni imkanlar mövcuddur. Siz bizim iqtisadi inkişafımızı qeyd etdiniz. Bu bizim üçün böyük nailiyyətdir. Son üç il ərzində ölkəmiz ÜDM-in artımına görə dünyada liderlik edir və ötən 4 il ərzində bizim iqtisadiyyatımız ikiqat artıbdır. Şübhəsiz ki, bu, böyük bir uğurdur. İndi ölkəni müasirləşdirmək üçün böyük imkanlarımız var və eyni zamanda, üzərimizə böyük məsuliyyət düşür. Buna görə də Azərbaycanda siyasi, iqtisadi islahatlar, demokratik proseslər və sosial proqramlar paralel şəkildə aparılır. Vətəndaşlarının istedadı və müasir islahatlar sayəsində böyük nailiyyətlər əldə edən bir ölkə nümunəsi olmaq bizim üçün çox əhəmiyyətlidir.

Bu gün biz xanım Prezidentlə Finlandiyanın heç bir enerji resursları olmadan inkişaf etməsi və həyat səviyyəsi, azadlıq və sosial rifah baxımından dünyanın ən aparıcı ölkələrindən birinə çevrildiyi haqda müzakirələr apardıq. Bizə əlavə dəstək verən enerji resurslarımızın olduğunu nəzərə alsaq, güclü ictimai nəzarətin və hər bir vətəndaşın bərabər imkanlarının mövcud olduğu demokratik və müasir ölkəyə çevrilmək üçün bütün imkanlarımız var və biz bu istiqamətdə fəaliyyət göstəririk.

Bizim Finlandiya ilə ikitərəfli münasibətlərimiz iqtisadi maraqlar və birgə layihələrlə məhdudlaşmır. Biz əslində, daha geniş mənada, Xəzər və Baltik regionları arasında əməkdaşlığa cəlb olunmaq istəyirik. Artıq indi bu istiqamətdə ilk addımlar atılmaqdadır. Azərbaycan etibarlı tərəfdaş və dost ölkə kimi, regionlarımız arasında tərəfdaşlığa töhfə vermək üçün əlindən gələni edəcəkdir.

Bu gün Şəhər Şurasında olarkən mən qeyd etdim ki, Helsinki və Bakı dəniz sahilində yerləşən gözəl paytaxt şəhərləridir və bu da şəhərlərimiz arasında olan oxşarlıqdır. Bir çox digər oxşarlıqlar da var və biz bu oxşarlıqların davam etməsini istəyirik. Azərbaycan demokratik və sosial tərəqqi baxımından gələcəkdə inkişaf etmiş ölkələrin səviyyəsinə çatacaqdır. Biz özümüzü gələcəkdə inkişaf etmiş bir ölkə kimi görürük və bu səbəbdən sizin təcrübənizi və nailiyyətlərinizi öyrənmək və ölkəmizdə daha nə edə biləcəyimizi görmək bizim üçün çox maraqlıdır.

Parlamentdə olmaq imkanına görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Sizə uğurlar arzulayıram və əminəm ki, bu səfərdən sonra əlaqələrimiz uğurla və sürətlə inkişaf edəcəkdir.

Sağ olun.

## PAASKİVİ CƏMİYYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Helsinki*

*29 may 2008-ci il*

*Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Helsinkidə Paaskivi Cəmiyyətinin üzvləri ilə görüşü olmuşdur.*

*Cəmiyyətin sədri professor Mikko Viitasalo dövlətimizin başçısını salamladı, 1958-ci ildə yaradılmış bu qurumun Finlandiyanın xarici siyasəti ilə bağlı müzakirələr apardığını və vətəndaş forumunu təşkil etdiyini bildirdi. O dedi ki, Azərbaycan prezidenti ilə görüşdə siyasi xadimlər, politoloqlar, diplomatlar iştirak edirlər. Prezident İlham Əliyevə onların dəvətini qəbul etdiyinə görə minnətdarlığını bildirən Mikko Viitasalo bu görüşün faydalı və səmərəli keçəcəyinə əminliyini söylədi. Cəmiyyətin sədri bildirdi ki, biz Qafqazda vəziyyəti izləyirik və bilirik ki, prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dinamik inkişaf edir və beynəlxalq layihələr həyata keçirir.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, bu gün sizin qonağınız olmaq məqsədi ilə məni Paaskivi Cəmiyyətinizə dəvət etdiyinizə və Azərbaycan, onun yerləşdiyi regionda olan proseslər haqqında danışmaq, eləcə də gələcək inkişafla bağlı bəzi fikir və düşüncələrimi bölüşmək imkanı yaratdığınıza görə minnətdarlığımı bildirmək istəyirəm.

Mən onunla başlamaq istəyirəm ki, bu, Finlandiya ilə Azərbaycan arasında olan münasibətlər tarixində Azərbaycan prezidentinin ölkənizə etdiyi ilk səfərdir. Biz bu səfərə böyük əhəmiyyət veririk, çünki əminəm ki, o, ölkələrimiz arasında münasibətlərin yeni səhifəsini açacaq. Münasibətlərimiz uğurla inkişaf edir, siyasi əlaqələrimiz çox yaxşıdır.

Prezident Halonenin 2005-ci ildə Azərbaycana səfəri xatirimdədir. Həmin səfər də uğurlu olmuşdur. Bu gün keçirdiyimiz müzakirələr bu prosesin davamıdır. Gələcəkdə biz qarşılıqlı imkanlarımızın araşdırılması üçün daha böyük işləri yerinə yetirəcəyik. Daha uğurla əməkdaşlıq edəcəyimiz sahələri müəyyən edəcəyik və həmin sahələrdə güclü tərəfdaşlıq qurmaq imkanını öyrənəcəyik. Bu gün keçirdiyim müzakirələr çox həvəsləndiricidir. Biz ikitərəfli münasibətləri, iqtisadi əməkdaşlığı, gələcəkdə tərəfdaşlığın potensial sahələrini müzakirə etdik. Yanaşmamız və məqsədlərimiz bir çox hallarda üst-üstə düşür. Biz Finlandiya ilə Azərbaycan arasında qarşılıqlı maraq, hörmət və gözlənilən nəticələr əsasında möhkəm münasibətlər qurmaq arzusundayıq. Əlbəttə ki, bu gün müzakirə etdiyimiz məsələlərdən biri iqtisadi əməkdaşlıq və tərəfdaşlığın genişləndirilməsi imkanları olmuşdur. Azərbaycanın burada qeyd olunan iqtisadi artım sürəti qarşımızda yeni imkanlar açır.

Dünən Azərbaycan tarixdə malik olduğu ilk demokratik respublikasının 90-cı ildönümünü qeyd edirdi. 1918-ci ildə böyük siyasi proseslər nəticəsində Azərbaycan xalqı öz müstəqil dövlətini qurmaq üçün xüsusi imkana malik oldu. Bu, azərbaycanlıların həyatında və ümumiyyətlə, tarixi hadisə idi. İlk dəfə idi ki, müsəlman ölkədə demokratik respublika quruldu. Əfsuslar olsun ki, sonra baş vermiş hadisələr müstəqilliyimizə son qoydu. Müstəqillik yalnız iki il çəkdi, 1920-ci ildə Azərbaycan öz müstəqilliyini itirdi və yenidən, digər ölkənin bir hissəsinə çevrildi. Bu dövr isə 70 ildən artıq çəkdi. Yalnız Sovet İttifaqının süqutundan sonra xalqımız yenidən müstəqil olmaq imkanı qazandı. Lakin bu

dəfə müstəqilliyi qazanmaq asan idi, çünki həmin hadisə məhz Sovet İttifaqının dağılmasından irəli gəlirdi. Müstəqilliyi qoruyub saxlamaq isə çətin idi. Dəyişikliklər etmək və böyük potensialı, sabit vəziyyəti olan ölkəyə çevrilmək çox mürəkkəb idi. Azərbaycan indi buna nail olmuşdur. Lakin yenə də deyirəm, bu, çətin olmuşdur. Müstəqillikdən dərhal sonra biz həddindən artıq böyük çətinliklərlə üzləşdik. Siyasi hərc-mərclik, iqtisadi və hərbi böhran, vətəndaş müharibəsi, iqtisadi tənəzzül və sənayenin uçurumda olması – 17 il öncə Azərbaycan bu vəziyyəti yaşamışdır. Lakin ciddi siyasi və iqtisadi islahatlar siyasəti nəticəsində 1993-cü ildən etibarən ölkə çətinlikləri aradan qaldırmağa başladı. Biz sabitlik və asayişi bərqərar edə bildik. Azərbaycan müxtəliflik əsasında inkişafa qədəm qoydu. İqtisadi dəyişikliklər kimi, siyasi dəyişikliklər də eyni dərəcədə vacib idi. Azərbaycan müstəqilliyini qazandığı zaman bazar iqtisadiyyatının payı sıfır həddində idi. Bu gün isə iqtisadiyyatımızın 80 faizindən çoxu özəl sektorun payına düşür. Azərbaycan öz tarixində siyasi sistemə yalnız həmin iki illik dövrdə, 1918-ci ildən 1920-ci ilə qədər malik olmuşdur. O vaxtın özü də böhranlı olmuşdur. Biz postkommunist totalitar ölkədən demokratik ölkəyə çevrilməli idik və bu illərdə əldə edilmiş uğurlar olduqca gözəçarpandır.

Azərbaycan siyasi islahatları həyata keçirən, demokratik təsisatlara malik, dünyaya açıqlığı ilə seçilən, dünyanın siyasi və iqtisadi işlərində yeri olan və sürətlə inkişaf edən ölkədir. Buna nail olmaq asan deyildi. Əminəm ki, müstəqilliyin 17 ili ərzində nail olduğumuz nəticələr əldə oluna biləcək səviyyənin maksimum dərəcəsini təşkil edir. Biz bütün əsas problemləri aradan qaldırmağa nail olduq və son dörd il ərzində, iqtisadiyyatımız, demək olar ki, iki dəfə artmışdır. Son üç il ərzində biz ÜDM-in artım sürətinə görə dünyada birinci yeri tuturuq. Bu artım 25 faizdən 35 faizə qədər olmuşdur. Biz əsas beynəlxalq şirkətləri neft və qaz sektoruna sərmayə qoymaq məqsədi ilə dəvət etməyə nail olduq.

Bu, indi sürətlə inkişaf edən ölkə kimi, əldə etdiyimiz nailiyyətlər üçün çox əhəmiyyətli idi. Bu sərmayələr digər sahələrə kapital qoyuluşu üçün imkanlar açdı. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan indi regionumuzda və dünyada birinci yeri tutur. Bütün bunlar Azərbaycanın müstəqilliyi, həyata keçirdiyimiz iqtisadi, siyasi və sosial islahatlar sayəsində mümkün olmuşdur.

Biz keçmişdən miras qalmış sosial problemlərin həllinə xüsusi əhəmiyyət veririk. Sosial məsələlər iqtisadi islahatlar qədər vacibdir. Vəsaitlərin düzgün bölüşdürülməsi nəticəsində biz çox qısa müddət ərzində ölkədə yoxsulluğun səviyyəsini 49 faizdən 16 faizə qədər azalda bildik. Məqsədimiz Azərbaycanda yoxsulluğun tamamilə aradan qaldırılmasından ibarətdir. Bunun üçün bütün imkanlarımız var. Yoxsullara sosial dəstəyin verilməsi üzrə böyük proqramlarımız var. Bizim regional inkişaf proqramlarımız mövcuddur. Bunun nəticəsində son illər ərzində ölkədə yüz minlərlə iş yerləri yaradılmışdır.

Beynəlxalq münasibətlər baxımından danışsaq, Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv oldu və bu bizim strateji seçimimiz idi. Biz Avroatlantik tərəfdaşlığı siyasətinə sadiqik. Avropa Şurası kimi təşkilatda olmaq bizim üçün çox əhəmiyyətli idi. Biz demokratik inkişaf sahəsində bir çox nailiyyətlər əldə edə bildik və yeni qanunlar qəbul etdik. Azərbaycan insan hüquqlarını, demokratiya, ədalət və qanunun aliliyini əhatə edən bir çox beynəlxalq və Avropa konvensiyalarına qoşulmuşdur. Bu, islahatlarımızın vacib hissəsidir, çünki biz neft və qazla zəngin olan bir çox ölkələrin tarixini bilirik. Həmin ölkələrin heç də hamısında zəngin təbii sərvətlər sosial rifahla və vəsaitlərin düzgün şəkildə bölüşdürülməsi ilə nəticələnməmişdir. Ona görə biz güclü ictimai nəzarətə və möhkəm siyasi təsisatlara malik olmalıyıq ki, inkişaf etmiş ölkəyə çevrilək. Şəffaflıq qarşımıza qoyduğumuz məqsədlərdən biridir. Hasilat sənayesində maksimum şəffaflığa nail olmuşuq. Ötən il BMT Azərbaycanın

Dövlət Neft Fondunu yüksək şəffaflığa görə mükafatla təltif etmişdir. Ölkəmizdə neft gəlirlərinin şəffaf şəkildə toplanması və xərclənməsi sistemi mövcuddur. Bu məsələdə vətəndaşlarımız parlamentdəki nümayəndələri vasitəsilə qərarların qəbul olunmasında iştirak edirlər.

Əsas sərmayələr infrastruktur layihələrinə və sosial sahəyə yatırılır. Vəsaitlər əsasən, keçən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın Azərbaycana qarşı təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində ölkədə yaranmış yüz minlərlə qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə yönəldilir. Biz gələcəyə nikbinliklə baxırıq. Həyatın bütün sahələrini əhatə edən proqramlarımız var. Enerji sektoru, təbii ki, iqtisadiyyatımızın əsas sahəsidir. İqtisadiyyatımızı şaxələndirməyə və əsasən, qeyri-neft sektoruna sərmayələrin qoyulmasına ürəkdən çalışdığımıza baxmayaraq, enerji sektoru bir neçə il bundan sonra da iqtisadiyyatımızda əsas yeri tutacaqdır. Neft hasilatını artırırıq, qaz hasil və ixrac edən ölkəyə çevrilirik. Enerji resurslarının hazırkı qiymətlərini nəzərə alsaq, bu amil iqtisadi sistemimizdə uzun illər ərzində əsas yeri tutacaqdır.

Şaxələndirmə, insan kapitalına – təhsilə, səhiyyəyə və informasiya texnologiyaları sahəsinə sərmayələrin qoyuluşu Azərbaycan üçün əsas prioritetləri təşkil edir. Biz çox fərəhlənirik ki, son üç il ərzində ölkədə 1300 məktəb tikmişik və onların hamısı kompyuterləşib və internetə qoşulub. Kompyuterləşmə və internetə çıxış bütün məktəblərdə bizim üçün prioritetlərdən biridir. Bizə hazırda və gələcəkdə təhsilli və bacarıqlı gənc nəsil lazım olacaqdır. Bu insanlar ölkəmizin maraqlarına yüksək peşəkarlıqla xidmət edəcəklər. Təbii sərvətlər bizim üçün məqsəd deyildir. Bu, sadəcə, üstünlükdür. Biz bilməliyik ki, gec-tez neft və qaz tükənəcəkdir. Bəs sonra necə olacaq? Biz əlli il və hətta ondan da sonranı düşünməliyik. Bu gün biz ölkəmizin gələcəkdə davamlı inkişafının əsaslarını formalaşdırmalıyıq.

Əsrlər boyu azərbaycanlılar digər ölkələrin və imperiyaların tərkibində yaşamışlar. Əsrlər boyu biz müstəqilliyimizdən məhrum olmuşuq. İndi isə müstəqil ölkəyik. Müstəqil siyasət həyata keçiririk. Müstəqilliyi gücləndirmək üçün əlimizdən gələni etməliyik. Biz bütün gücümüzlə çalışmalıyıq ki, Azərbaycan müasir, iqtisadi baxımdan güclü ölkə kimi, öz uğurlu inkişafını davam etdirsin. Bir daha qeyd etmək istəyirəm, buna nail olmaq üçün bütün imkanlara malikik. Biz buna öz səylərimiz sayəsində nail olmuşuq. Müstəqilliyin başlanğıcında Azərbaycanın düşdüyü vəziyyət digər sovet respublikaları ilə müqayisədə bəlkə də ən ağır idi. Onlardan fərqli olaraq, ölkəmizdə vətəndaş müharibəsi, sosial böhran və torpaqlarımızın işğalı mövcud idi. Bu, ən ağır başlanğıc idi.

Lakin biz son üç il ərzində dünyada ən sürətlə inkişaf edən iqtisadiyyata malik ölkəyə çevrilə bildik. Enerji layihələrimizi həyata keçirə bildik və indi biz Avropanın enerji təhlükəsizliyi üçün mühüm ölkəyik. Enerji resurslarımız əməkdaşlıq, dostluq və tərəfdaşlığa xidmət edir. Biz enerji resurslarımızı heç vaxt kiməsə qarşı və yaxud hansısa məqsədlərə nail olmaq üçün istifadə etməmişik və etməyəcəyik. Keçmişimiz, atdığımız addımlar onu göstərir ki, biz bu resursları tərəfdaşlıq üçün istifadə edirik. Lazım olanda biz öz qonşularımıza və dostlarımıza dəstək veririk. Bu resurslardan möhkəm tərəfdaşlıq qurmaq məqsədi ilə istifadə edirik və gələcəkdə də edəcəyik. İndi heç bir regional layihə Azərbaycanın iştirakı olmadan mümkün deyildir. Biz Bakıdan Aralıq dənizinə gedən transmilli neft boru kəmərinin, eləcə də Azərbaycandan Avropaya çəkilmiş qaz boru kəmərinin təşəbbüskarıyıq.

Artıq ötən il tarixdə ilk dəfə olaraq Avropa Azərbaycan qazını almağa başladı. Bu, real şaxələndirmə deməkdir. Bizim üçün şaxələndirmə bir istehlakçıdan, Avropa üçün isə bir təchizatçıdan asılı olmamaq vasitəsidir. Biz istehlakçıların narahatlığını başa düşürük. Əlbəttə ki, bizi narahat

edən məsələlər də anlanılmalıdır. Bir sözlə, biz şaxələndirməyə artıq nail olmuşuq. Üç boru kəməri üç müxtəlif istiqamətdə neftimizi nəql edir. Dörd qaz boru kəməri dörd müxtəlif istiqamətdə qazımızın çatdırılmasını təmin edir. Əlbəttə ki, gələcəkdə Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq davam edəcəkdir. Biz Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə qoşulmuşuq.

2006-cı ildə Avropa İttifaqı və Azərbaycan Enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzaladı. Bütün bunlar apardığımız əməkdaşlığın mühüm çərçivəsidir. Hazırda biz regional əməkdaşlığın genişləndirilməsi üzərində çalışırıq. Bu gün biz nəinki Qafqaz–Qara dəniz əməkdaşlığı, həm də Xəzər dənizi–Qara dəniz–Baltik dənizi regionları arasında işbirliyi haqqında danışırıq. Biz bu regionları daha da yaxınlaşdırmaq imkanlarını araşdırırıq. Əlbəttə, enerji və daşınma mühüm rol oynayacaqdır. Hər iki sahədə biz avropalı tərəfdaşlarımızla sıx işləyirik. Coğrafi mövqeyimiz də çox əlverişlidir. Biz malların Asiyadan Avropaya və geriyə daşınması sahəsində vacib tranzit ölkəyə çevrilməyi planlaşdırırıq.

Mən Azərbaycanda görülmüş işlər və planlaşdırılan addımlar haqqında çox danışa bilərəm. Lakin məhdud vaxtı nəzərə alaraq, əldə etdiyimiz nailiyyətlərə və gələcək planlarımıza təhlükə olan məsələ haqqında danışmaq istərdim. Bu, Qafqazdakı vəziyyət və oradakı separatçı rejimlər, eləcə də, əfsuslar olsun ki, keçmiş Sovet İttifaqının ərazisində mövcud olan tanınmamış qeyri-qanuni qurumlar – yəni, Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Dnestryanı bölgələrdəki qurumlardır. Həmin yerlərdə eyni vəziyyət yaranmışdır. Eyni separatçı hərəkətlər, oxşar etnik təmizləmə siyasəti, həmin hərəkətlərin bir-birinə oxşar nəticələri, həmin ərazilərin ölkələrdən de-fakto ayrılması və Azərbaycan, Gürcüstan ilə Moldovanın ərazi bütövlüyünün pozulması müşahidə olunur.

Biz bu məsələlərə sırf hüquqi nöqteyi-nəzərdən baxırıq. Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış hissəsidir. Hazırda bu, tanınmamış qurumdur. Onun

başında de-fakto cinayətkar rejim dayanır. Həll yolu yalnız beynəlxalq hüquq, münaqişənin əvvəlində BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamə və bu ilin mart ayında Baş Məclisin qəbul etdiyi qətnamə əsasında olmalıdır. Qətnamələrdə erməni qüvvələrinin torpaqlarımızdan dərhal çıxarılması tələb olunur. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini aparıb və bunun nəticəsində təqribən 1 milyon həmvətənimiz qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu, humanitar fəlakətdir, ən böyük ədalətsizlik və beynəlxalq hüququn pozulmasıdır. Lakin beynəlxalq ictimaiyyətin, ATƏT-in məsələ ilə məşğul olmasına baxmayaraq, nəticə baxımından heç bir irəliləyiş yoxdur. Danışıqlar prosesində bəzi irəliləyişə nail olmuşuq. Amma bu, kifayət deyildir.

Qafqazdakı reallıqlar onu göstərir ki, hazırda Azərbaycanla rəqabət aparmaq çox çətindir. İstər iqtisadi inkişaf və ya hərbi potensial baxımından, istərsə də siyasi çəki və yaxud regional layihələrdə və təşəbbüslərdə iştirak baxımından. Ona görə Ermənistanda nə qədər tez başa düşsələr ki, onların apardığı siyasətin sonu yoxdur, bu hər kəs üçün yaxşı olar. Belə olan halda, Qafqazda sülh bərqərar olacaq, regional inkişaf daha sürətlə gedəcək və Qafqazda yaşayan bütün millətlər bundan yararlanacaqlar. Mən sizin diqqətinizi bu məsələyə cəlb etmək istəyirəm, çünki bu bizi ən narahat edən amildir. Bu nəinki bizim üçün, həm də bütün region üçün əsas təhlükədir. Düşmənçilik və hərbi əməliyyatlar olarsa, regiondakı bütün sabitlik sual altına düşər və gözlənilməz nəticələr yarana bilər.

Hörmətli dostlar, mən vaxtınızı çox almaq istəmirəm, qarşınızda çıxış etmək, Azərbaycan reallıqlarını çatdırmaq imkanına görə sizə bir daha minnətdaram. Əminəm ki, bu səfərin gələcəkdə ölkələrimiz, habelə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər üçün çox yaxşı nəticələri olacaqdır.

Çox sağ olun.

**M i k k o  V i i t a s a l o:** Cənab Prezident, çox maraqlı çıxışınıza görə təşəkkür edirəm.

Xanımlar və cənablar, indi isə suallar üçün müəyyən vaxtımız qalır. Əgər sualınız varsa, buyurun.

**S u a l: Cənab Prezident, mən Finlandiyanın keçmiş səfiriyəm. Çox yaxşı çıxışınıza görə minnətdaram. Mən dost paytaxt şəhərinizə səfər etmişəm. Ləziz yeməkləriniz hələ də yadımdadır.**

**Sualım belədir: ötən vaxtlarda mən Çeçenistanda işləmişəm. Bu, Şimali Qafqazdadır. Daha sonra Dağıstan var. Sizinlə sərhəddə yerləşir. Hətta xatirimdədir ki, Azərbaycanda kiçik çeçen diasporu yaşayırdı, çünki onların vətənində müharibə gedirdi. Bu gün Dağıstan və Çeçenistana gəldikdə, praktik əməkdaşlıq nə yerdədir?**

**İ l h a m  Ə l i y e v:** Tarixi nöqteyi-nəzərdən Dağıstan ilə Azərbaycan bir zona kimi hesab edilirdi. Dağıstan və Azərbaycan xalqları arasındakı münasibətlər səmimidir. Əsrlər boyu biz bir yerdə yaşamışıq. Bir çox azərbaycanlılar Dağıstanda öz torpaqlarında yaşayır. Həmçinin bizim ölkədə müxtəlif bölgələrdə Dağıstan xalqlarından olan azlıqlar, qardaşlarımız yaşayırlar. Bu baxımdan Rusiya ilə Azərbaycan arasında əməkdaşlıq səviyyəsi Qafqazda uzunmüddətli sülhün bərqərar olunmasında vacib amildir. Qafqaz bütöv orqanizmdir. Cənubi Qafqaz ölkələri müstəqildir. Şimali Qafqaz Rusiya Federasiyasının hissəsidir. Lakin bu bir orqanizmdir. Qafqazın istər şimalında, istərsə də cənubunda baş verən hadisələr ölkələrimizdə olan vəziyyətə təsir göstərə bilər.

Əlbəttə, bunu nəzərə alaraq, biz regional əməkdaşlıq və təhlükəsizlik məsələləri üzərində daha sıx işləməliyik. Qafqazda təhlükələr var. Biz gərgin qonşuluq şəraitində yaşayırıq. Beləliklə, biz çağırışlara hazır olmalıyıq. Terrorçuluq, ekstremizm hamımız üçün təhlükəli amillərdir. Biz çox istəyirik ki, Qafqazın həm şimalı, həm cənub bölgələri inkişaf etsin. Bunun üçün bütün imkanlar var. Gözəçarpan maliyyə resurslarına malik olan Azərbaycan regiona rifah

gətirəcək müxtəlif layihələrə dəstək vermək üçün daha çox işlər görməyə hazırdır. Təhlükəli məsələlərdən irəli gələn ən böyük problemlərdən biri işsizlik, yoxsulluq və sərmayələrin çatışmamasıdır. Azərbaycan resurslara malik olan ölkə kimi, bu məsələlərin həllinə töhfə verə bilər.

**S u a l: Cənab Prezident, hazırda neftin qiyməti həddindən artıq yüksəkdir. Fikrinizcə, neft hasil edən ölkələr elə bir sistem yarada bilərmi ki, yoxsul ölkələr enerji daşıyıcılarını aşağı qiymətlə alsın? Məsələn, Banqladeş və ya Afrikadakı kimi zəif inkişaf etmiş ölkələr. Lakin bu o demək deyil ki, onlar ucuz qiymətlə istədikləri həcmdə ala bilərlər. Belədə onlar sadəcə, ucuz alıb, üçüncü ölkələrə baha satar və beləliklə, pul qazanarlar. Sağ olun.**

**İ l h a m  Ə l i y e v:** Bu, ciddi sualdır və bazar iqtisadiyyatı prinsipləri ilə sosial ədaləti özündə əks etdirir. Bəzi hallarda bu iki mühüm prinsip bir-biri ilə ziddiyyət təşkil edir. Misal üçün, biz Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinə tam sadiqik. Bu bizim uğurlu inkişafımız üçün əsas şərt olmuşdur. Lakin əgər bizdə təbii qazın və elektrik enerjisinin, eləcə də yanacaqdoldurma stansiyalarında benzinin qiymətlərinə nəzər yetirsəniz görərsiniz ki, onlar dünya qiymətlərindən aşağıdır. Biz buna imkan verə bilərik. Xalqımıza və istehsalçılarımıza dəstək verə bilərik. Fermer üçün güzəştli şərtlər tətbiq olunur. Onlar enerji daşıyıcılarını yarı qiymətə alırlar. Amma, əlbəttə ki, digər ölkələrə gəldikdə, ola bilsin, qərar hər bir ölkənin özündən asılı olur. Mən hesab etmirəm ki, bir gün vaxt gələcək və yoxsul ölkələr üçün hər hansı birtərəfli endirim sistemi yaradılacaqdır. Çünki hər bir ölkə qərarı özü qəbul edir. İndi neft bazarı təkformalı deyildir. Azərbaycan bu yaxınlarda mühüm hasilatçı və ixracatçıya çevrilibdir. Amma, əlbəttə ki, ixracatçı ölkə kimi, uzun tarixə malik olanlar da var. Lakin bu istiqamətdə əgər hər hansı addım atılarsa, bu, hasilatçı kimi, uzun tarixi olan ölkələr tərəfindən edilməlidir. Biz gözləyəcəyik ki, nəticə nə olacaqdır.

**S u a l: Cənab Prezident, bir neçə həftə öncə İsveçrə prezidentinin ölkənizə uğurlu səfəri olubdur. Siz Transavropa boru kəməri vasitəsilə çatdırılacaq qazla bağlı çox uğurlu razılaşmaya nail oldunuz. Beləliklə, İtaliyaya qaz çatdırıla bilər. Bilirəm ki, Beynəlxalq Valyuta Fondunda siz İsveçrənin səs verdiyi qrupun üzvüsünüz. Birinci sual ondan ibarətdir ki, bu məqsədlə siz Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının xidmətlərindən istifadə edə bilərsinizmi? Siz bu qurumların üzvüsünüz.**

**İkinci sualım Qafqaz ölkələrinin inteqrasiyası ilə bağlıdır. Siz Rusiyanın da daxil olduğu 12 ölkədən ibarət Müstəqil Dövlətlər Birliyinin üzvüsünüz. Bu sahədə inkişafı necə görürsünüz və bunun daha sıx inteqrasiyaya xidmət etdiyinə əminsinizmi? Məsələ ilə bağlı Sizin şərhlərinizi eşitmək maraqlı olardı.**

**İ l h a m Ə l i y e v:** İlk növbədə onu demək istəyirəm ki, İsveçrə prezidentinin Azərbaycana olduqca uğurlu səfəri zamanı biz qaz təchizatı ilə bağlı hansısa saziş imzalamamışıq, çünki İsveçrə potensial qaz boru kəmərinin sonuncu nöqtəsində yerləşir. Bu, potensial təchizat marşrutlarından biridir.

Biz qaz yataqlarını işlətməyə, hasilata başlayanda ölkəmiz Avropa İttifaqı tərəfindən təchizatçı hesab edilmirdi. Nabukko və digər layihələr üçün qaz mənbəyi kimi, Azərbaycan nəzərdə tutulmurdu. Lakin digər səbəblərə görə, Azərbaycan qazına olan maraq artır. Biz isə hasilatı artırmaq üçün əlimizdən gələni edirik. Qaz hasilatını artırmaq üçün bizim istehlakçılarla müqavilələrimiz olmalıdır, çünki qaz neft deyil. Siz onu beynəlxalq bazarda yox, yalnız istehlakçıya sata bilərsiniz. Ona görə hasilatçı, tranzit və istehlakçı ölkələr arasında razılaşmalar bir paket formasında olmalıdır. Bu günə qədər belə razılaşmalar yoxdur. Bu vaxta qədər Avropa ölkələrinin bizdən qaz almaq üçün əsasən, istəkləri olubdur. Biz bunu etməyə hazırıq. Azərbaycan qazının Avropa bazarı üçün yeganə yeni mənbə olduğunu nəzərə alaraq, əlbəttə ki, bizə və potensialımıza olan diqqət

artır. Biz hazırıq. Azərbaycanda aşkar edilmiş qaz ehtiyatlarının sübuta yetirilmiş minimum həcmi 2 trilyon kubmetrdir. Bizim üçün bu həcm 200 ilə kifayətdir. Əgər biz istədiyimiz qədər ixrac etsək, bu rəqəm 100 ilə bəs edəcəkdir. Bundan əlavə, həmin həcm sübuta yetirilmiş minimum ehtiyatlardır. Adətən, nə qədər çox hasil etdikcə, bir o qədər yeni ehtiyatlar aşkar edilir. Azərbaycan ən azı bir əsr ərzində qaz ixrac edən ölkə olacaqdır.

İnteqrasiyaya gəldikdə, siz Müstəqil Dövlətlər Birliyini nəzərdə tuturdunuz. Bu təşkilat Sovet İttifaqının dağılmasından sonra yaradılmışdır. Ona daxil olan ölkələr SSRİ-nin süqutundan sonra müstəqillik qazanmış respublikalardır. Bu, həmin təşkilatı yaratmaqda ilkin səbəb idi. Azərbaycan bu təşkilatda öz rolunu oynayır, lakin əməkdaşlığımız əsasən ikitərəfli əlaqələrə söykənir. Biz MDB üzvləri ilə çox da təşkilat çərçivəsində yox, ikitərəfli əsaslarla işləyirik. Bu təşkilatın gələcəyi qarşılıqlı etimad, əməkdaşlıq səviyyəsindən və üzv-dövlətlərin siyasi marağından asılı olacaqdır. Sizə deyə bilərəm, Ermənistan ilə Azərbaycan MDB-nin üzvləridir. Bizim Ermənistanla heç bir əlaqəmiz yoxdur, lakin hər iki ölkə təşkilatdadır. Həmin təşkilatda digər ölkələr var ki, onların arasındakı münasibətlər yaxşı deyildir. Bir sözlə, bu, asan deyildir. Lakin Azərbaycan regional əməkdaşlıq sahəsində səylərini davam etdirməyə hazırdır. Bu bizim üçün vacibdir və iqtisadi, siyasi maraqlarımızı nəzərə alaraq, biz orada üzvlüyümüzü davam etdirəcəyik.

**S u a l: Cənab Prezident, əla təqdimatınıza görə olduqca minnətdaram. Sizin bu gün İranla münasibətləriniz necədir?**

**İ l h a m Ə l i y e v:** Bizim İranla münasibətlərimiz yaxşıdır, normaldır. Enerji, ticarət sahəsində birgə həyata keçirdiyimiz müxtəlif layihələrimiz var. Əməkdaşlıq səviyyəsi çox yüksəkdir. Biz bütün qonşu ölkələrlə – İran, Rusiya, Gürcüstan və Türkiyə ilə normal münasibətlərin olmasına çalışırıq. Bu qonşularla heç bir problemimiz yoxdur. Bu, regional sabitliyin vacib elementidir və ölkəmiz üçün mühüm olan

regional əməkdaşlıq layihələrində iştirak etmək imkanını yaradır. Regional əməkdaşlıq qarşılıqlı işbirliyinə aparır. Çünki bu gün regional formatda iştirak edən ölkələr layihələr irəli sürür. Həmin layihələr qarşılıqlı şəkildə faydalıdır. Sonra isə layihələrin əhəmiyyəti artır. Mən bu münasibətləri regional sabitlik üçün çox vacib hesab edirəm və əminəm ki, bunu uğurla davam etdirəcəyik.

**S u a l: Cənab Prezident, Rusiya ilə münasibətləriniz və bu ölkənin Qafqazdakı təsiri barədə nə deyə bilərsiniz? Seçkilərdən sonra prezident Medvedev və hökumətin sədri Putinlə bağlı hər hansı yenilik gözlənilirmi?**

**İ l h a m Ə l i y e v:** Mən yalnız Azərbaycan–Rusiya münasibətlərinə aid şərh verə bilərəm. Xarici siyasətə aidiyyəti olan bütün şəxslərə prezident kimi, mənim verdiyim təlimatlarda hər hansı digər daxili işlərə müdaxilə etməmək nəzərdə tutulur. Bizim Azərbaycanda görəcəyimiz işlər çoxdur. Diqqətimizi öz işlərimizə yönəltməliyik. Əlbəttə ki, qonşularla və digər ölkələrlə münasibətlər qarşılıqlı maraqlara əsaslanır. Bizim marağımız yaxşı münasibətlərin formalaşdırılmasına arxalanır. Təsirə gəldikdə, biz Azərbaycanda hər hansı təsirə məruz qalmırıq. Biz bunu hiss etmirik. Bunu zənn etməyə də əsas yoxdur. Azərbaycan özünü təmin edən ölkədir. Bizim vacib üstünlüyümüz var. Bu, enerji resurslarıdır. İqtisadi inkişaf və enerji təhlükəsizliyi baxımından biz özünü təmin edən ölkəyik. Əksinə, biz regionumuzda digər ölkələrin enerji təhlükəsizliyində iştirak edirik. Ona görə təsir göstərmək üçün əsas yoxdur. Düzünü desəm, biz heç vaxt hiss etməmişik ki, kimsə Azərbaycana təsir göstərməyə çalışır. Biz öz suverenliyimizin sahibləriyik. Artıq çıxışımda qeyd etdiyim kimi, biz müstəqilliyi əsrlər boyu gözləmişik və yenidən yarımmüstəqil ölkə olmaq fikrində deyilik. Bizim üçün müstəqil olmaq, müstəqil siyasət yürütmək deməkdir. Biz buna nail olmuşuq. Hesab edirəm ki, bu, Azərbaycanın son 17 ildə əldə etdiyi ən böyük nailiyyətdir. Bir sözlə, Rusiya ilə münasibətlər yaxşı qonşuluğa və qarşılıqlı iqtisadi ma-

rağa əsaslanır. Enerji məsələlərində, görünə bilər ki, maraqlarımız başqa sahələrdədir. Lakin eyni zamanda, biz rəqabət aparmırıq. Rusiyanın özünün böyük enerji bazarı var, bizim öz enerji bazarımız var. Bu təbiidir. Hamı öz milli maraqlarını qorumaq istəyir. Əminəm ki, Rusiyanın yeni prezidenti ilə bizim münasibətlərimiz uğurla davam edəcəkdir. Hazırda bizim çox yaxşı əlaqələrimiz var və deyərdim ki, bu əlaqələr digər böyük ölkə ilə kiçik ölkə, əvvəlcə bir ölkədə yaşamış ölkələr arasında olan münasibətlərə nümunə ola bilər. Münasibətlərimiz çox güclüdür, gözləniləndir və qarşılıqlı hörmət kimi vacib amilə əsaslanır. Ümid edirəm ki, bu siyasət davam edəcəkdir.

**Mikko Viitasalo**: Digər suallarınız varmı?

Görürəm artıq vaxt yetişibdir. Cənab Prezident, Sizə minnətdarıq, çıxışınıza görə çox sağ olun. Çox müdrik cavablarınıza görə təşəkkür edirik. Görüşü başa çatdırmazdan öncə mən xatirə hədiyyəsi olaraq, prezident Halonenin imzaladığı medalı Sizə təqdim etmək istəyirəm.

*Azərbaycan prezidenti İlham Əliyevə Paaskivi Cəmiyyətinin Fəxri qonaqlar üçün nəzərdə tutulan xüsusi medalı təqdim olundu.*

# FİNLANDİYA RESPUBLİKASININ BAŞ NAZİRİ İLƏ GÖRÜŞ

*30 may 2008-ci il*

*Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Finlandiya Respublikasının Baş naziri Matti Vanhanen ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələr, əməkdaşlığın indiki vəziyyəti və perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Söhbət zamanı bir sıra sahələrdə bu əməkdaşlığın yaxşı perspektivləri olduğu bildirildi. Təhsil, sərmayə qoyuluşu, informasiya texnologiyaları sahələrində də müəyyən işlərin görülməsinin, vəziyyətin öyrənilməsinin zəruriliyi vurğulandı.*

## HİETANİEMİ QƏBİRİSTANLIĞINI ZİYARƏT

*30 may 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 30-da Helsinkidə Hietaniemi qəbiristanlığını ziyarət etmişdir.*

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Ölkənin Fəxri xiyabanı sayılan Hietaniemi qəbiristanlığında Finlandiyanın dövlət xadimi, marşal Mannerheym, Finlandiyanın vəfat etmiş digər bütün prezidentləri, habelə İkinci dünya müharibəsində həlak olmuş insanlar dəfn edilmişdir. Burada onların şərəfinə xatirə abidələri yaradılmışdır.*

*Prezident İlham Əliyev xatirə abidələrinin hər birinin önünə əklil qoydu.*

### Səfər başa çatdı

*Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Finlandiyaya rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Finlandiyanın dövlət bayraqları ilə bəzədilmiş Helsinkinin Vantaa Beynəlxalq Hava Limanında Azərbaycan prezidentini və xanımını Finlandiyanın yüksək vəzifəli rəsmi şəxsləri böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya gəldi.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ VƏ MƏRKƏZİ ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ RİÇARD BAUÇER VƏ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD MERKEL İLƏ GÖRÜŞ

*30 may 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da ABŞ Dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə müavini Riçard Bauçeri və Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Devid Merkeli qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığın gələcək perspektivləri barədə fikir mübadiləsi aparıldı və ikitərəfli əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.*

# X ƏNƏNƏVİ BEYNƏLXALQ «ŞƏRQ-QƏRB» BAKI KİNOFESTİVALINA

Sizi – X Ənənəvi Beynəlxalq «Şərq-Qərb» Bakı Kinofestivalının iştirakçılarını ürəkdən salamlayıram, hər birinizə cansağlığı, xoşbəxtlik və festivalınızın işində müvəffəqiyyətlər arzu edirəm.

Sürətlə qloballaşan və yeni texnologiyalarla zənginləşən müasir dünyada digər sənət növlərindən fərqli olaraq kino innovasiyalarla ayaqlaşan yaradıcılıq sahəsidir. Ona xas olan ənənəvi kütləvilik bu gün elektron məkanda da tolerantlıq, qarşılıqlı anlaşma və sivilizasiyaların dinc yanaşı yaşama prinsiplərini geniş yaymaq imkanı verir. Məhz bu baxımdan kinematoqrafiya nəhəng auditoriyaya misilsiz təsiredici qüvvəsi ilə səciyyələnir.

Bir əsrdən artıq özünəməxsus parlaq yol keçmiş və nəzərəçarpacaq nailiyyətlər qazanmış Azərbaycan kino sənətinin inkişafı tarixində sizin kinofestivalın xüsusi yeri vardır. Bu gün artıq on illik yubileyi qeyd edilən Beynəlxalq «Şərq-Qərb» Bakı Kinofestivalı Azərbaycan kinematoqrafının sadiq qaldığı ümumbəşəri dəyərlərin təbliği naminə müxtəlif ölkələrin kino işçilərinə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradır.

Dünyanın bir çox ölkəsindən gəlmiş kino xadimlərinin təmsil olunduğu kinoforum ölkəmizin mədəni həyatında əlamətdar hadisəyə çevrilmişdir. Bu dostluq və sənət bayramı incəsənətimizin zəngin ənənələrinin qorunub saxlanması ilə yanaşı, mədəniyyətlər arasında dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verir.

İnanıram ki, nüfuzu ildən-ilə artmaqda olan kinofestivalınız müxtəlif mədəniyyətlərin qarşılıqlı zənginləşməsi işinə xidmət edəcək, dünya kinematoqrafiyasının aparıcı me-

yilləri istiqamətində əməkdaşlığı, təcrübə mübadiləsini genişləndirəcək və milli kinomuzun bundan sonrakı inkişafına müsbət təsir göstərəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyun 2008-ci il*

## NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ XANIM LİV MONİKA STABHOLDTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Norveçin Dövlət katibi, Neft Sənayesi və Energetika nazirinin müavini xanım Liv Monika Stabholdtun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*XV Beynəlxalq Xəzər neft və qaz sərgisində iştirak etmək üçün Bakıya səfər etdiyini bildirən Liv Monika Stabholdt Azərbaycanın istər regional baxımdan, istərsə də iqtisadi potensialına görə çox önəmli bir ölkə olduğunu vurğuladı. Qonaq Beynəlxalq Xəzər neft və qaz sərgisinin qlobal neft sənayesində kifayət qədər əhəmiyyətli bir hadisəyə çevrildiyini, müxtəlif sahələrin nümayəndələrinin bir araya gəlməsi üçün bu tədbirin yaxşı imkanlar yaratdığını dedi.*

*Dövlətimizin başçısı beynəlxalq konfransların keçirilməsində ölkəmizin zəngin təcrübəyə malik olduğunu, Xəzər neft və qaz sərgisinin də gözəl bir ənənəyə çevrildiyini vurğuladı. Prezident İlham Əliyev məmnunluqla bildirdi ki, Beynəlxalq Xəzər neft və qaz sərgisinə dünyada çox böyük maraq vardır.*

*Görüşdə Azərbaycanla Norveç arasında energetika sahəsində uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulandı.*

## UKRAYNANIN MÜDAFİƏ NAZİRİ YURİ YEXANUROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Ukraynanın Müdafiə naziri Yuri Yexanurovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Ukrayna arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Kiyevə bu yaxınlardakı səfərini məmnunluqla xatırladaraq, Ukrayna prezidenti ilə keçirdiyi səmərəli görüşlərin əməkdaşlığımızın daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğunu vurğuladı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, qonağın səfəri ölkələrimizin Müdafiə nazirlikləri arasında da əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəkdir.*

*Nazir Yuri Yexanurov Ukrayna prezidenti Viktor Yuşşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan prezidentinin Ukraynaya səfərinin uğurla keçdiyini vurğuladı. Qonaq Azərbaycanın və Ukraynanın Müdafiə nazirlikləri arasında əlaqələrin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini bildirdi.*

*Prezident İlham Əliyev Ukrayna prezidenti Viktor Yuşşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukraynanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

# İSRAİLİN MİLLİ İNFRASTRUKTUR NAZİRİ BİNYAMİN BEN ELİEZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də İsrailin Milli İnfrastruktur naziri Binyamin ben Eliezerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Binyamin ben Eliezer İsrail prezidenti Şimon Peresin və Baş nazir Ehud Olmertin salamlarını dövlətimizin başçısına çatdırdı. O bildirdi ki, nümayəndə heyətinin ölkəmizə səfərinin əsas məqsədi Azərbaycanda gedən inkişaf prosesləri, xüsusilə infrastruktur sahəsində görülən işlərlə yaxından tanış olmaqdır.*

*Dövlətimizin başçısı Azərbaycanda infrastruktur sahəsində həyata keçirilən genişmiqyaslı layihələrdən danışdı və bu işlərin ardıcıl olaraq davam etdiriləcəyini vurğuladı. Prezident İlham Əliyev prezident Şimon Peresin və Baş nazir Ehud Olmertin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını İsrailin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

# ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə əlaqələndiricisi Stiven Mənnin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin, o cümlədən energetika sahəsində əməkdaşlığın uğurla inkişafından məmnunluq ifadə olundu. Həmçinin ölkəmizdə keçiriləcək XV Beynəlxalq Xəzər neft və qaz sərgisinin əhəmiyyətindən danışıldı və bu ənənəvi tədbirə dünyada marağın daha da artdığı vurğulandı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*2 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «QAZPROM» ASC-nin İDARƏ HEYƏTİNİN SƏDRİ ALEKSEY MİLLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*2 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Rusiyanın «Qazprom» ASC-nin idarə heyətinin sədri, Direktorlar Şurasının sədr müavini Aleksey Millerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Aleksey Miller Azərbaycana səfərinin ilk anlarından ölkədə böyük inkişafın şahidi olduğunu dedi. O, Azərbaycanda yanacaq-energetika kompleksinin getdikcə daha da inkişaf etdiyini vurğuladı, ölkəmizin beynəlxalq aləmdə neft və qaz sahəsi ilə bağlı mühüm addımlar atdığını söylədi.*

*Prezident İlham Əliyev ölkəmizin təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı regional neft-qaz layihələrinin uğurla icra olunduğunu, yanacaq-energetika kompleksinin daha da inkişaf etdirilməsi istiqamətində işlərin sürətlə aparıldığını bildirdi.*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Ölkənizdə baş vermiş vertolyot qəzası nəticəsində qardaşınız şeyx Nasir bin Zaid əl-Nəhəyyanın və həmvətənlərinizin faciəli şəkildə həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizə, Birləşmiş Ərəb Əmirliklərinin bütün xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2008-ci il*

## BAKIDA XV BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR

*Heydər Əliyev adına İdman-Konsert Kompleksi*

*3 iyun 2008-ci il*

*İyunun 3-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində XV Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransı işə başlamışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*

*Yubiley sərgi və konfransını açan İT Group PLC şirkətinin Baş məsləhətçisi Endryu Vud prezident İlham Əliyevi, sərgi və konfransın iştirakçılarını salamladı. Azərbaycanda sabitlik və inkişafın hökm sürdüyünü vurğulayan Endryu Vud bildirdi ki, bütün bunların təməlində ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti dayanır. Həmin siyasət bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.*

*Sonra çıxış edən Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Tatlıyev dedi ki, XV Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransı təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməsinin bariz təcəssümüdür. İlk vaxtdan Xəzər regionunun ən vacib hadisəsi kimi qəbul edilən sərgi və konfrans regionun ən aktual mövzularını əhatə edən beynəlxalq foruma çevrilmişdir.*

*Mərasimdə çıxış edən ABŞ prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Boyden Qrey dedi ki, iki ölkə arasında enerji sahəsində tərəfdaşlıq yeni Şərq-Qərb enerji dəhlizinin yaranması – Bakı–Tbilisi–Ceyhan neft kəmə-*

*ri və Cənubi Qafqaz qaz kəməri vasitəsilə həyata vəsiqə almışdır. Xəzər enerji daşıyıcılarını dünya bazarına çıxaran bu iki kəmərin işə düşməsi müstəqil Azərbaycanın enerji sahəsindəki uğurlu inkişafının bariz nümunəsidir. Hazırda Azərbaycanın Orta Asiya ölkələri ilə birlikdə Avropanın mühüm qaz təchizatçısına çevrilməsi üçün böyük potensialı var.*

*Boyden Qrey sərginin açılışı münasibətilə ABŞ prezidenti Corc Buşun Azərbaycan prezidenti İlham Əliyevə təbrikini oxudu.*

*Azərbaycanın regionda lider dövlətə çevrildiyini vurğulayan Böyük Britaniyanın Ticarət və İnvestisiyalar naziri lord Cons Diqbi bildirdi ki, onun ölkəsi Azərbaycanla əməkdaşlığın daha da inkişafında maraqlıdır. Lord Cons Diqbi Böyük Britaniyanın Baş naziri Qordon Braunun təbrik məktubunu oxudu.*

*Azərbaycanın neft sektorunun uğurla inkişaf etdiyini deyən İsrailin Milli İnfrastruktur naziri Binyamin ben Eliezer Azərbaycanın həm regionda, həm də dünya miqyasında enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrildiyini vurğuladı. Azərbaycanın öz enerji ehtiyatlarının dünya bazarına çıxarılmasındakı uğurlarını və iqtisadi inkişafını yüksək qiymətləndirən İsrail naziri dedi ki, hər il Bakıda keçirilən Beynəlxalq Xəzər neft, qaz ,neftayırma, neft kimyası sərgi və konfransının hasilatçı və istehlakçı ölkələr arasında əməkdaşlığın dərinləşdirilməsində xüsusi əhəmiyyəti vardır.*

*Gürcüstanın Energetika naziri Aleksandr Xetaquri çıxışında dedi ki, Azərbaycan, Gürcüstan və Türkiyə Avropa ilə Asiya arasında enerji körpüsü rolunu oynamaq və Avropanın sabit enerji təminatına öz töhfəsini vermək imkanına malikdirlər. Artıq real faktdır ki, Azərbaycan nefti və qazı Gürcüstan və Türkiyə ərazisindən keçərək, Avropa ölkələrinə nəql olunur. Bu layihələrin reallaşması Avropa üçün enerji təchizatının alternativ mənbəyi olmaqla yanaşı, regionun təhlükəsizliyinin də təminatıdır.*

*On beş ildir Azərbaycan çox mühüm bir tədbir keçirir. Bununla Azərbaycan neft və qazın hasilatı, onların müasir texnologiyalar vasitəsilə dərindən emal edilməsi sahəsində mövcud olan böyük imkanlarını nümayiş etdirir – deyən Bolqarıstanın İqtisadiyyat və Energetika naziri Petr Dimitrov vurğuladı ki, bu sərgi və konfrans yeni əlaqələrin qurulması və əməkdaşlığın inkişafı üçün əlavə imkanlar yaradır.*

*Türkiyənin Energetika və Təbii Ehtiyatlar nazirinin müavini Yusif Yazar Bakıda on beşinci dəfə keçirilən beynəlxalq neft, qaz sərgi və konfransını Xəzər hövzəsində bu sahədə təşkil edilən ən böyük tədbir kimi qiymətləndirdi. O dedi ki, 1994-cü ildən bəri 30 milyard dollardan artıq xarici investisiyanın cəlb olunduğu Azərbaycanın regiondakı rolu Bakı–Tbilisi–Ceyhan neft və Cənubi Qafqaz qaz kəmərlərinin işə düşməsi ilə daha da möhkəmləndi və Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələsində əvəzedilməz bir yerə sahib oldu.*

*İranın Neft və Enerji nazirinin müavini İlqar Şirazi sərgi və konfransın əhəmiyyətini vurğuladı. Müstəqil Azərbaycanın enerji sahəsindəki inkişafından danışan qonaq dedi ki, bu uğurlar sübut edir ki, Xəzər neft və qaz sərgisi hələ uzun illər iştirak edəcəyimiz bir tədbir olacaqdır.*

*Norveçin Dövlət katibi, Neft Sənayesi və Energetika nazirinin müavini xanım Liv Monika Stabholdt Azərbaycanın istər regional baxımdan, istərsə də iqtisadi potensialına görə çox önəmli bir ölkə olduğunu vurğuladı. Beynəlxalq Xəzər neft və qaz sərgisinin qlobal neft sənayesində kifayət qədər əhəmiyyətli bir hadisəyə çevrildiyini deyən qonaq müxtəlif sahələrin nümayəndələrinin bir araya gəlməsi üçün bu tədbirin yaxşı imkanlar yaratdığını bildirdi.*

*Açılış mərasimindən sonra prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu. Təməli «Əsrin müqaviləsi» ilə eyni vaxtda – 1994-cü ildə qoyulan sərgidə 15 il ərzində dünyanın 70-dən artıq ölkəsindən 5000-dən çox şirkət iştirak etmişdir. Xəzər neft və qaz yubiley sərgisində isə dünyanın 30-dan çox ölkəsindən təxminən 400 şirkət təmsil olunmuşdur. Onların 30*

*faizi yerli şirkətlərdir. Bu il ekspozisiya sahəsi ötən ildəkindən 12 faiz çoxdur. Sərgidə kommersiya şirkətləri ilə yanaşı, Böyük Britaniya, Almaniya, Çin və Rusiyanın milli pavilyonları, Yaponiyanın Neft, Qaz və Metal Korporasiyasının, Gürcüstanın Neft-Qaz Korporasiyasının və Azərbaycanın müxtəlif dövlət strukturlarının ayrıca stendləri də vardır.*

*Sərgidə «Qərbi Azəri» platforması ilə birbaşa videoəlaqə yaradıldı.*

*Videoəlaqə zamanı «Qərbi Azəri» platformasının meneceri prezident İlham Əliyevə orada işlərin gedişi barədə məlumat verdi.*

*Prezident Ilham Əliyev dəniz neftçilərinə müraciətlə dedi:*

– Sağ olun, mən sizi salamlayıram. Mən çox şadam ki, bu işlərdə Azərbaycan mütəxəssisləri fəal iştirak edirlər. Çox sevindiricidir ki, ən böyük səriştə, peşəkarlıq tələb edən işlərdə Azərbaycan mütəxəssisləri çalışırlar. Bu bizim səviyyəmizi göstərir, peşəkarlıq səviyyəsini göstərir və gələcəkdə, əlbəttə ki, Azərbaycanın hərtərəfli inkişafında sizin kimi mütəxəssislər çox işlər görəcəklər. Mən sizə uğurlar arzulayıram. Ölkə üçün çox vacib işlər görürsünüz və sizin fəaliyyətiniz eyni zamanda, *bp* ilə Azərbaycan arasında olan münasibətlərin nümunəsidir. Tərəfdaşlıq çox dəyərlidir, onun gözəl tarixi var və əminəm ki, gözəl də gələcəyi olacaqdır. Sizə uğurlar arzulayıram.

Azərbaycan hazırda dünyada enerjidaşıyıcılarının hasilatı və nəqlinin tanınmış mərkəzlərindən biridir. Ölkə öz tələbatlarını tam həcmdə ödəməklə yanaşı, Avropanın enerji təhlükəsizliyində də mühüm rol oynayır. Şərqlə Qərbi birləşdirən enerji və nəqliyyat dəhlizində müstəsna rol oynayan Azərbaycan strateji tərəfdaşlığın, beynəlxalq inteqrasiyanın və enerji təhlükəsizliyinin həqiqi təminatçısıdır. Azərbaycan özünün əlverişli coğrafi mövqeyindən çıxış edərək, bir çox dövlətlər, dünyanın mühüm iqtisadi və maliyyə strukturları və şirkətləri ilə çox geniş istiqamətlərdə əməkdaşlıq edir. Hazırda Azərbaycanın geostrateji əhəmiyyəti təkcə zəngin

neft-qaz hasilatçısı olmaqla bitmir. Azərbaycan həm də Mərkəzi Asiya regionunda hasil edilən enerji daşıyıcılarının dünya bazarlarına sabit nəqlini həyata keçirə bilən ən etibarlı tranzit ölkə sayılır. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirən prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasət dünya dövlətlərinin Azərbaycana marağını daha da artırmışdır. 15-ci ildir uğurla keçirilən Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransı bunun daha bir nümunəsidir.

*Prezident İlham Əliyev açılış mərasimində sərgi ilə tanışlıqdan sonra Fəxri qonaqlar kitabını imzaladı, sərgi-konfransın işinə uğurlar arzuladı və nitq söylədi.*

## XV Beynəlxalq Xəzər neft-qaz sərgisi və konfransının açılışında nitq

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün Azərbaycanın həyatında çox əlamətdar bir gündür. On beşinci dəfədir ki, Bakıda Xəzər neft-qaz sərgi-konfransı keçirilir. Sərgi və konfransın bütün iştirakçılarını səmimi-qəlbdən salamlayıram.

1994-cü ildə ilk sərginin keçirilməsi, demək olar ki, dünya neft-qaz aləminin diqqətinin Azərbaycana cəlb edilməsi demək idi. O vaxt Azərbaycan öz müstəqilliyini yenicə bərpa etmişdi. Bildiyiniz kimi, müstəqilliyin ilk illəri çox ağır keçirdi. Ölkədə yaşanan böhran faktiki olaraq müstəqil gələcəyimizi şübhə altına alırdı. 1993-cü ildə xalqın tələbi ilə ulu öndər Heydər Əliyevin Azərbaycana siyasi hakimiyyətə qayıdışından sonra vəziyyət sabitləşdi, Azərbaycanda sabitlik təmin olundu və ölkə sürətlə inkişaf etməyə başladı.

Hər bir gənc müstəqil ölkənin gələcəyi, gələcək inkişafı müəyyən amillərdən asılıdır. Bildiyiniz kimi, Azərbaycanın tarixində neft-qaz sənayesi həmişə xüsusi yer tutubdur. Azərbaycan qədim neft ölkəsidir. Dünyada sənaye üsulu ilə

neft ilk dəfə məhz Azərbaycanda hasil edilmişdir. Dünyada dəniz yataqlarından da neft ilk dəfə Azərbaycanda çıxarılmışdır. Lakin müstəqillik əldə olunandan bir qədər sonra ölkədə yaşanan böhran nəticəsində neft sənayesi, demək olar ki, iflic vəziyyətinə düşmüşdü. Təbii ki, Azərbaycanın iqtisadi inkişafı üçün neft amilindən istifadə olunmalıydı. Məhz o illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın yeni neft strategiyası elan olunmuşdu. Birinci konfransın keçirilməsi məhz o illərə təsadüf edir. 1994-cü ildə ilk sərgi keçirildi. Ondan sonra Azərbaycanı daha da yaxşı tanımağa başladılar. Deyə bilərəm ki, sərginin Azərbaycanın neft-qaz sektorunun inkişafında və genişmiqyaslı investisiyaların cəlb edilməsində çox mühüm rolu olmuşdur. Təsadüfi deyil ki, ilk sərgidən sonra «Əsrin müqaviləsi» imzalanmışdır və o bu gün Azərbaycanın uzunmüddətli inkişaf imkanlarını böyük dərəcədə müəyyən edir. «Əsrin müqaviləsi»nin imzalanması çox tarixi bir hadisə idi. İlk dəfə Xəzər dənizi xarici investorlar üçün açılırdı, ilk dəfə olaraq genişmiqyaslı investisiyalar qoyulurdu, ilk dəfə olaraq Azərbaycan beynəlxalq, dünya miqyaslı şirkətlərlə əməkdaşlığa başlayırdı. Həmin müqavilənin nəticəsində bu gün biz Azərbaycanda neft-qaz sektorunun sürətli inkişafını görürük. Ancaq müqavilənin və ondan sonrakı addımların əhəmiyyəti, sadəcə, iqtisadi göstəricilərlə məhdudlaşmır. Bu bizə imkan verdi ki, Azərbaycan və ölkəmizin şirkətləri dünya səviyyəsində, dünya miqyasında ən yüksək nüfuza malik olan şirkətlərlə bərabərhüquqlu münasibətlər yaratsın, beynəlxalq maliyyə qurumları ilə biz çox səmərəli işləyək və Azərbaycanın kredit reytinqini yüksəldək. Məhz o illərdə uğurlu neft strategiyasının icrası nəticəsində indi Azərbaycanın qarşısında heç bir maliyyə çətinliyi yoxdur. Həm öz imkanlarımız kifayət qədərdir, həm də istənilən layihəyə xaricdən, xarici maliyyə bazarlarından investisiyaların cəlb edilməsi bizim üçün mümkündür.

Azərbaycan bu illər ərzində sübut etdi ki, biz etibarlı tərəfdaşıq. Biz xarici şirkətlərlə qarşılıqlı maraqlar əsasında işləyirik və 14 il ərzində, 1994-cü ildən bu günə qədər Azərbaycanda işləyən şirkətlərlə Dövlət Neft Şirkəti, yaxud da hökumət qurumları arasında heç bir ciddi mübahisə, heç bir ciddi münaqişə olmamışdır. Biz bu gözəl əməkdaşlıq mühitindən səmərəli istifadə edirik. Mən bunu ona görə deyirəm ki, bəzi hallarda müəyyən maraqlar toqquşanda mübahisələr də başlayır, münaqişələr də yaşanır. Ancaq Azərbaycanda neft-qaz resursları ölkəmizin inkişafına və bölgədə təhlükəsizliyin möhkəmlənməsinə, regional əməkdaşlığın dərinləşməsinə yönəldilibdir. Bu bizim böyük uğurumuzdur. Bu, sübut edir ki, neft-qaz resursları həm ölkənin inkişafı üçün, həm sosial məsələlərin həlli üçün və həm də beynəlxalq münasibətlərin yüksək səviyyədə qurulması üçün mühüm rol oynaya bilər. Biz bunu Azərbaycanın timsalında görürük.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə, demək olar ki, bizim neft-qaz hasilatımız kəskin şəkildə aşağı düşmüşdü. Baxmayaraq ki, keçən əsrin 40–50-ci illərində Sovet İttifaqında neftin 70 faizi məhz Azərbaycanda hasil edilirdi. 90-cı illər ərəfəsində isə Azərbaycanda neft hasilatı ildə 8-9 milyon tona düşmüşdü. Qaz hasilatı kəskin şəkildə aşağı düşmüşdü, baxmayaraq ki, XX əsrin 70-ci illərində Azərbaycanda qaz hasilatı çox yüksək səviyyədə idi və qonşu respublikalara Azərbaycandan qaz göndərilirdi. Yəni bütün bu böyük sənayeni bərpa etmək, yenidən qurmaq, canlandırmaq böyük siyasi iradə, peşəkarlıq tələb edirdi, cəmiyyətin birləşməsini, səfərbər olmasını tələb edirdi, Azərbaycanda ictimai-siyasi sabitliyin yaranmasını tələb edirdi. Biz bütün bunlara nail ola bilmişik. Bu gün Azərbaycan dünyada iqtisadi artım baxımından ən sürətlə inkişaf edən ölkədir. Biz bu liderliyi ardıcıl üç ildir ki, saxlayırıq.

Azərbaycanda neft hasilatı bu il 50 milyon, gələn il 60 milyon tondan çox olacaqdır. Biz neft yataqları ilə bağlı olan bütün məsələləri uğurla həll etmişik. Böyük həcmdə investi-

siyalar cəlb etmişik. Bildiyiniz kimi, bizim ölkəmizin dünya bazarlarına birbaşa çıxışı yox idi. Neft kəmərləri tikilməli idi və onlar da tikildi. Lakin bu da asan məsələ deyildi. Xüsusilə nəzərə alsaq ki, kəmərlər tikildiyi zaman bölgədə vəziyyət bir az başqa idi.

Bizim neft-qaz kəmərlərimiz enerji resurslarımızı müxtəlif istiqamətlərə daşıyır. Azərbaycanda aşkar edilmiş neft-qaz yataqları bundan sonra da uzun illər, ən azı 100 il ölkəmizi təmin edəcək, bizim ixrac imkanlarımızı təmin edəcək, etibarlı tərəfdaş kimi, Azərbaycan gələcəkdə də öz müsbət rolunu oynayacaqdır.

Azərbaycanda qaz hasilatı bütün dövrlərdə olmuşdur. Ancaq nəhəng «Şahdəniz» yatağının kəşfindən, işlənilməsindən sonra Azərbaycan böyük həcmdə qaz ixrac edən ölkəyə çevrilir. Bu da böyük üstünlükdür. Çünki dünyada böyük həcmdə həm neft, həm də qaz ixrac edən ölkələrin sayı o qədər də çox deyildir. Biz yenə də Heydər Əliyevin uzaqgörənliyi nəticəsində 1996-cı ildə «Şahdəniz» qaz yatağının işlənilməsi üzrə beynəlxalq konsorsiumla müqavilə imzalamışıq. İndi Azərbaycan həm özünü qazla təmin edir, həm də onu qonşu və başqa ölkələrə ixrac edir. Bu ixracın coğrafiyası getdikcə genişlənəcəkdir.

Biz hesab edirik ki, növbəti illərdə, əlbəttə, bazarda olan tələbatdan asılı olaraq, qaz hasilatımızı böyük dərəcədə artıracağıq. Bu gün müzakirə predmeti olan müxtəlif qaz layihələrində Azərbaycan məqbul olan şərtlərlə iştirak etməyə hazırdır. Azərbaycan hər bir neft-qaz ölkəsi qarşısında duran əsas vəzifəni də uğurla icra edir. Biz ixracın şaxələndirilməsini təmin etmişik. İndi Azərbaycanın qarşısında belə problem yoxdur. Çünki yolların şaxələndirilməsi həm istehsalçı, həm də istehlakçı üçün lazımdır. Biz istehsalçı kimi çalışmışıq və nail olmuşuq ki, bütün istiqamətlərə çıxışlarımız var. Üç neft kəmərimiz var, ikisi Qara dənizə, biri Aralıq dənizinə çıxır. Dörd qaz kəmərimiz var. Onlardan biri Bakı–Tbilisi–Ərzurumdur, digərləri Azərbaycanı qonşu ölkələrlə birləşdirir. Deyə bilərəm

ki, bütün bu kəmərlər işlək vəziyyətdədir. İstənilən istiqamətdə Azərbaycan öz neftini və qazını ixrac etmək iqtidarındadır.

Beləliklə, qısa müddət ərzində Azərbaycanın uğurlu neft strategiyasının icrası nəticəsində bizim 7 neft-qaz kəmərimiz var. Əlbəttə, bu bizim həm iqtisadi maraqlarımızı təmin edir, həm tranzit ölkələrlə danışıqlarda mövqeyimizi möhkəmləndirir, həm də sirr deyil, beynəlxalq mövqelərimizi möhkəmləndirir. Çünki bu gün enerji təhlükəsizliyi bütövlükdə milli təhlükəsizlik məsələləri kimi tanınır. Həm bizim bölgədə, həm də Avropada və bütün ölkələrdə. Gələcəkdə bu sahənin dünya siyasətindəki çəkisi artacaqdır. Çünki hər bir ölkənin inkişafı üçün əsas şərt enerji resurslarıdır. İndi dünyada gedən iqtisadi inkişaf, əhalinin çoxalması və artan tələbat, bütövlükdə inkişaf daha da çox enerji resursları tələb edir. Onlar isə məhduddur. Mövcud olan əsas ixrac mənbələri də bəllidir. O mənbələrin hesabına müəyyən dərəcədə artımı təmin etmək olar. Ancaq yeni hövzə olduğuna görə və zəngin təbii ehtiyatlarına görə Xəzər hövzəsi dünya enerji bazarı üçün və dünya siyasəti üçün əvəzolunmaz bölgəyə çevrilibdir. Bu bölgədə Azərbaycan birinci ölkədir ki, 1994-cü ildə neft-qaz yataqlarına investisiya cəlb etmişdir, onları işlətməyə başlamışdır. Biz qarşıda duran bütün vəzifələri icra etmişik. Demək olar ki, ulu öndər Heydər Əliyevin başladığı və bu gün uğurla davam etdirilən Azərbaycanın yeni neft strategiyası tam öz məqsədinə çatmışdır.

İndi isə biz yeni mərhələ ərəfəsindəyik. Biz artıq iqtisadi cəhətdən və maliyyə resursları baxımından özümüzü təmin etmişik. İndi valyuta ehtiyatlarımız 10 milyard dollardan çoxdur. Növbəti illərdə, xüsusilə dünyada neftin qiymətinin kəskin şəkildə artması nəticəsində bizə böyük gəlirlər gələcəkdir. Qarşımızda artıq maliyyə çətinlikləri olmayacaqdır, biz o dövrü keçmişik. İndi bizim məqsədimiz inkişaf etmiş ölkəyə çevrilməkdir. Ancaq bu o demək deyil ki, biz gərək arxayınlaşaq və əldə edilmiş uğurlarla kifayətlənək. Yox. Həyat yerində durmur.

Xüsusilə bizim bölgədə enerji siyasəti ilə bağlı, enerji təhlükəsizliyi ilə bağlı yeni məsələlər ortaya çıxır. Əlbəttə ki, bu məsələlər müzakirə olunanda Azərbaycan, demək olar ki, onun əsas iştirakçılarından biridir.

Bizim coğrafi vəziyyətimiz, Avropa ilə Asiya arasında yerləşməyimiz, artıq güclü enerji və nəqliyyat infrastrukturuna malik olmağımız Azərbaycanı bu məsələlərlə bağlı əvəzolunmaz ölkəyə çevirir. Biz bundan istifadə edirik və edəcəyik. Yenə də demək istəyirəm ki, biz öz neft-qaz resurslarımızı regionda və dünyada təhlükəsizliyin, əməkdaşlığın və dostluğun inkişafına yönəldirik.

Bir daha qeyd etmək istəyirəm ki, enerji təhlükəsizliyi məsələləri yəqin ki, bundan sonrakı illərdə də dünyanın gündəliyində öz mühüm yerini tutacaqdır. Bizim bu sahədə uğurlarımız var, gələcək planlarımız da var. Biz artıq başqa ölkələrin, bölgələrin enerji təhlükəsizliyi ilə bağlı narahatlığını duyuruq, hiss edirik. Öz tərəfimizdən məqbul olan şərtlərlə bölgənin enerji təhlükəsizliyi məsələlərinə töhfəmizi davam etdirməyə hazırıq. Bildiyiniz kimi, təxminən iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalanmışdır. Bu, əməkdaşlığın, demək olar ki, ümumi çərçivələrini müəyyən edir. Digər ölkələrlə, o cümlədən Avropa İttifaqının üzvü olan ölkələrlə, qonşu ölkələrlə bu sahədə danışıqlarımız gedir. Hazırda Azərbaycan qazı iki ölkəyə ixrac edilirsə, gələcəkdə bu ölkələrin sayı daha da çox olacaqdır. Siz indi qazın nəqli ilə bağlı müzakirə predmeti olan bütün layihələrin adlarını bilirsiniz. Yəni gələcəkdə Azərbaycanın bu bölgədə rolu və iştirakı artacaqdır. Bu da öz növbəsində bizim ölkəmizi daha da gücləndirəcəkdir. Bizim beynəlxalq mövqelərimizi möhkəmləndirəcək, iqtisadi imkanları genişləndirəcək və əlbəttə ki, bölgədə bizim rolumuz kəskin şəkildə artacaqdır. Bu gün biz eyni zamanda, şəffaflığı da təmin etmişik. Azərbaycan hasilat sahələrində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən biridir. Bizim çox şəffaf və bütün beynəlxalq normalara uyğun olan Neft Fondumuz uzun

illərdir ki, fəaliyyət göstərir. Dünya birliyi tərəfindən onun fəaliyyəti rəğbətlə qarşılanır. Keçən il Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fondunu xüsusilə şəffaflıqda əldə edilən uğurlarla bağlı yüksək mükafata layiq görmüşdür. Yəni bu da neft-qaz sənayesinin əsas hissələrindən biridir. Azərbaycan cəmiyyətində neftdən əldə olunan gəlirlərin bölünməsi ilə bağlı heç bir narahatlıq yoxdur. Çünki bütün məlumatlar açıqdır, vaxtaşırı dərc olunur. Həm vəsaitin yığılması, həm də onun sərf olunması – bütün bunlar ciddi ictimai nəzarət şəraitində keçirilir. Eyni zamanda, parlament dövlət büdcəsini qəbul edərkən, hər bir Azərbaycan vətəndaşı parlamentdəki öz nümayəndəsi vasitəsilə vəsaitin bölünməsində iştirak edir. Bu çox vacib amildir. Həm bizim imkanlarımızı, həm də ki, niyyətimizi göstərir. Biz gələcəkdə dünyada mövcud olan bütün müsbət meyarları Azərbaycanda tətbiq etmək istəyirik. Onların bir neçəsi artıq tətbiq olunubdur. Bütövlükdə, bizim məqsədimiz neftdən əldə olunan gəlirləri insan kapitalına yönəltmək, Azərbaycanda güclü qeyri-neft sənayesini yaratmaq, sosial məsələlərin həllinə nail olmaq və beləliklə, Azərbaycanı dünyanın inkişaf etmiş ölkələrinin sırasına daxil etməkdir. Budur bizim məqsədimiz və biz ona doğru irəliləyirik.

İndi biz sosial məsələlərin həllinə – təhsil, səhiyyə, informasiya-kommunikasiya texnologiyaları məsələlərinə çox böyük diqqət göstəririk. Sirr deyil ki, bizim iqtisadi inkişafımızın böyük hissəsi neft-qaz sektoru ilə bağlıdır. Bu sektorda yaranan əlverişli vəziyyət iqtisadiyyatın bütün başqa sahələrinə öz müsbət təsirini göstərir. Biz qısa müddət ərzində regionların sosial-iqtisadi inkişafının təmin edilməsinə nail olmuşuq. Son beş ilə yaxın müddətdə 650 mindən çox iş yeri açılmışdır. İşsizlik, demək olar ki, aradan qaldırılıb, yoxsulluğun səviyyəsi aşağı düşüb, iqtisadi inkişaf göz qabağındadır. Biz dörd ildə iqtisadiyyatımızı iki dəfə artıra bilmişik.

Bir daha demək istəyirəm ki, bütün bunların təməlində məhz 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması, ulu

öndər tərəfindən atılmış müdrik, düşünülmüş və cəsarətli addım dayanır.

Bir daha qayıdıram bugünkü sərgiyə. Bu sərginin o zaman təşkil olunması Azərbaycana diqqəti cəlb etdi. Bəlkə bu sərgi keçirilməsəydi, xarici neft şirkətləri bir il də tərəddüd edəcəkdilər, çünki o vaxt xarici neft şirkətlərini Azərbaycana gətirmək çox çətin məsələ idi. Azərbaycan çox riskli bir ölkə kimi tanınırdı. Biz isə buna nail olmuşuq və indi müsbət nəticələrini görürük. Mən əminəm ki, böyüklüyündən asılı olmayaraq, Azərbaycanda işləyən bütün şirkətlər – istər xarici, istər yerli şirkətlər, bundan sonra da özlərini rahat hiss edəcəklər. Azərbaycanda investisiya şəraiti daha da yaxşılaşacaq və iş görmək üçün ölkədə daha da böyük imkanlar yaranacaqdır.

Əziz dostlar, mən sizi bu gözəl, əlamətdar gündə bir daha salamlayıram. Bu sərgi 15-ci dəfədir keçirilir. Bu bir növ yubiley hesab oluna bilər. Sərgi və konfransa, onlarda iştirak edən bütün insanlara uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*Naxçıvan*

*3 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.*

*Dövlətimizin başçısının şərəfinə Naxçıvan hava limanında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov ehtiramla qarşıladı.*

*Milli geyimli oğlan və qız prezident İlham Əliyevə və xanımına gül dəstələri təqdim etdilər.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Prezident İlham Əliyev Naxçıvan MR-in rəhbər şəxsləri ilə görüşdü.*

## XARİCİ İŞLƏR NAZİRLİYİNİN NAXÇIVAN MR-dəki İDARƏSİNİN YENİ BİNASININ AÇILIŞI

*İyunun 3-də prezident İlham Əliyev Naxçıvan şəhərinin mərkəzində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yeni tikilmiş binasının açılışında iştirak etmişdir.*

*Burada dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar. Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, bina ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yeni binanın inşasına ötən ilin mayında başlanılmışdı. Konsulluq şöbəsində Sədərək, Culfa, Şahtaxtı sərhəd-keçid məntəqələri və Naxçıvan Beynəlxalq Hava Limanı üzrə viza və pasport məsələləri ilə də məşğul olacaqlar. Binadakı kompyuterlərin hamısı avtomatlaşdırılmış mərkəz axtarışı və mərkəzi pasport sisteminə qoşulmuşdur.*

*Burada protokol şöbəsi, katiblik, server otaqları və digər bölmələr üçün də rahat şərait vardır.*

*Müxtəlif ədəbiyyatla təchiz olunan kitabxanada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin xarici siyasəti ilə bağlı keçirdiyi tədbirlərə dair kitablar toplanmışdır.*

*Arxiv, konfrans salonu, müxtəlif xidmət otaqları müasir tələblərə cavab verir.*

*Binanın ətrafı abadlaşdırılmış, ağac və gül kolları əkilmiş, müasir işıqlandırma sistemi quraşdırılmışdır.*

## Tibb məktəbinin yenidən qurulmuş binasının açılışı

*İyunun 3-də Naxçıvanda tibb məktəbinin yenidən qurulmuş binasının açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Şəhər sakinləri və məktəbin kollektivi dövlətimizin başçısını və xanımını səmimiyyətlə qarşıladılar. Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Sonra dövlətimizin başçısı və xanımı məktəblə tanış oldular.*

*Dövlət başçısına məlumat verildi ki, Naxçıvanda yeganə olan tibb məktəbinin dördmərtəbəli binası yenidən qurulduqdan sonra tamamilə müasir görkəm almışdır. Burada səkkiz mühazirə otağı, yeddi kabinet, üç laboratoriya otağı, kitabxana, akt salonu, kompyuter mərkəzi, idman salonu vardır. Heydər Əliyev lektoriyasında isə ulu öndərin irsinin təbliği və gənc nəslə çatdırılması üçün əyani vəsaitlər, fotoşəkillər və sənədlər toplanmışdır. 300 tələbənin təhsil aldığı, 30 müəllimin çalışdığı tibb məktəbində mamalıq işi, müalicə işi, əczaçılıq və tibb bacısı işi ixtisasları üzrə kadrlar hazırlanır.*

## «Dədə Qorqud» meydanı və Turizm Mərkəzi ilə tanışlıq

*İyunun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Naxçıvan şəhər mərkəzindəki «Dədə Qorqud» meydanında olmuşlar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, burada yenidən qurulmuş Turizm Mərkəzi memarlıq baxımından diqqəti cəlb edir. Əvvəllər burada mədrəsə, sonralar dram dərnəyi fəaliyyət göstərmişdir. Ümummilli lider Heydər Əliyev yeniyetmə yaşlarında buradakı dərnəkdə iştirak etmişdir. Onun «Vaqif»*

*dramında oynayarkən çəkilmiş fotoşəkli və özünün çəkdiyi məktəbli qız rəsmi də nümayiş olunur.*

*Sonra prezident İlham Əliyev yenidən qurulmuş beşulduzlu «Təbriz» mehmanxanasına baxdı. Məlumat verildi ki, ən müasir üslubda yenidən qurulmuş mehmanxanada yerli və xarici qonaqları qəbul etmək üçün rahat şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev yenidənqurma işlərini yüksək qiymətləndirdi.*

*Sonra dövlətimizin başçısı «Dədə Qorqud» meydanındakı XVIII əsrə aid Şərq hamamına baxdı. Prezident İlham Əliyev bildirdi ki, bu cür abidələrin qorunub saxlanmasına daim diqqət yetirilməlidir.*

## Əyləncə-İdman Mərkəzinin açılışı

*İyunun 3-də Naxçıvan şəhərində Əyləncə-İdman Mərkəzinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişdir.*

*Əllərində ulu öndərin və prezident İlham Əliyevin portretləri olan şəhər sakinləri dövlətimizin başçısını və xanımını alqışlarla qarşıladılar. Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Mərkəzlə tanışlıq zamanı bildirildi ki, müasir standartlara cavab verən mərkəz oyun və bar salonlarından ibarətdir. Burada eyni vaxtda 200 nəfərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Türkiyədən gətirilmiş xüsusi işıq və səs sistemləri quraşdırılmış, oyun salonu da lazımi avadanlıqla təchiz olunmuşdur. Burada iki bilyard stolu, futbol və xokkey oyunları masaları qoyulmuşdur. Muxtar respublikada ilk boulinq salonu da burada yaradılmışdır. Dörd oyun xətlik boulinq sistemi ABŞ-dan gətirilmişdir. Sistemə kompyuter vasitəsilə nəzarət mümkündür. Əyləncə mərkəzinin yerləşdiyi ərazidə yaşıllaşdırma işləri aparılmış, oturacaqlar quraşdırılmışdır.*

## Yeni səhiyyə müəssisəsinin təməli qoyulmuşdur

*İyunun 3-də Naxçıvan şəhərində yeni səhiyyə müəssisəsinin – Doğum mərkəzinin təməlinin qoyulması münasibətilə mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, mərkəzdə hamiləliyin patologiyası, uşaq neonatologiyası, reanimasiya və intensiv terapiya, anesteziologiya, fizioloji doğum, ginekoloji şöbələr, əməliyyat bloku, qadın məsləhətxanası və s. fəaliyyət göstərəcəkdir.*

## «N» Hərbi hissəsi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 3-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində «N» Hərbi hissəsində olmuşdur.*

*Naxçıvan qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı hərbi hissənin qərargahı ilə tanış oldu.*

*Prezident İlham Əliyev əvvəlcə burada yaradılan Heydər Əliyev muzeyinə baxdı. Muzeydə ulu öndərin dövlət quruculuğu sahəsindəki fəaliyyətini, ümummilli liderin və prezident İlham Əliyevin müxtəlif vaxtlarda hərbi hissələrdə əsgərlərlə keçirdikləri görüşlərini əks etdirən fotoşəkillər toplanmışdır.*

*Üçmərtəbəli qərargah binasında zabitlərin hər biri üçün zəruri texniki avadanlıqla təchiz olunmuş ayrıca otaqlar vardır.*

*Ali Baş Komandan sonra əsgər yataqxanası ilə tanış oldu. Burada əsgərlərin istirahəti üçün hər bir şərait var.*

*Daha sonra yeməkxana ilə tanış olan prezident İlham Əliyev burada əsgərlərlə birlikdə nahar etdi.*

## ŞAHBUZDA HƏRBÇİLƏR ÜÇÜN YAŞAYIŞ BİNASI İSTİFADƏYƏ VERİLMİŞDİR

*İyunun 3-də Şahbuz rayonunda hərbçilər üçün tikilmiş bina istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir.*

*Bina ilə tanış olan dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev yaradılmış şəraiti yüksək qiymətləndirdi, mənzillərin orderlərini hərbçilərə təqdim etdi və onlara xoş arzularını çatdıraraq dedi:*

– Sizi ürəkdən təbrik edirəm. Siz Vətənə xidmət edirsiniz. Orduda xidmət etmək çox böyük şərəfdir, böyük məsuliyyətdir. Azərbaycan ordusu günü-gündən güclənir, möhkəmlənir və bu gün qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Bildiyiniz kimi, ordu quruculuğu bizim üçün prioritet məsələdir. Azərbaycanın siyasətində bu sahəyə diqqət həmişə yüksək olubdur. Bu gün də belədir və bildiyiniz kimi, büdcə xərclərində orduya ayrılan xərclər birinci yerdədir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyibdir. Müharibənin birinci mərhələsi bitibdir və biz güclü olmalıyıq. Güclü ordumuz bizim qarşımızda duran bütün vəzifələri həll etməyimizə imkan verəcəkdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediləcəkdir. Buna heç kimin şübhəsi olmasın. Biz nə qədər güclü olsaq, o günü bir o qədər yaxınlaşdıracağıq. Mən inanıram və əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edəcək, bütün soydaşlarımız – qaçqınlar, köçkünlər öz doğma torpaqlarına qayıdacaqlar. Bunu etmək üçün biz, əlbəttə ki, siyasi addımlar atırıq, öz diplomatiyamızı gücləndiririk və beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyi

böyük üstünlük təşkil edir. Son müddətdə BMT Baş Məclisində işğal olunmuş torpaqlarda yaranmış vəziyyətlə bağlı qətnamənin qəbul edilməsi Azərbaycanın gücünü göstərir. Dünya birliyi bizim haqlı olduğumuzu bir daha təsdiq edir. Ancaq diplomatik və siyasi addımlarla yanaşı, biz torpaqlarımızı hərbi yolla azad etməyə hər an hazır olmalıyıq və bunu etmək üçün bütün imkanlar var. Bir daha demək istəyirəm ki, bizim ordumuz bölgədə ən güclü ordudur. Orduda xidmət edən insanların peşəkarlıq səviyyəsi də günü-gündən artır.

Əlbəttə ki, orduda xidmət edən zabitlərin məişət şəraiti də yaxşı olmalıdır. Bu məqsədlə böyük işlər görülür. Həm zabitlərin sosial məsələləri həll edilir, həm də vaxtaşırı maaşlar artırılır. Bu gün bu gözəl binanın açılışı rəmzi xarakter daşıyır. Bu, Azərbaycan dövlətinin öz ordusuna olan münasibətinin əlamətidir. Burada yaxşı yaşamaq üçün, uşaqları tərbiyə etmək, istirahət etmək üçün gözəl şərait var. Mən əminəm ki, siz bu gözəl binada yaxşı yaşayacaqsınız, daha da yaxşı xidmət edəcəksiniz. Çünki mənə verilən məlumata görə, əvvəllər zabitlər kirayədə yaşayırdılar və hətta bəziləri hər gün Naxçıvandan buraya gəlirdilər. Bu, xərc idi və əlavə əziyyət idi. Burada isə bütün şərait var. Ona görə sizdən yalnız və yalnız bir şey tələb olunur – Vətənə sədaqətlə xidmət etmək.

Naxçıvan Azərbaycanın qədim torpağıdır, onun Azərbaycanın tarixində və müasir həyatında xüsusi yeri vardır. Siz burada düşmənlə üz-üzəsiniz. Sizin üzərinizə çox böyük və şərəfli missiya, məsuliyyət düşür. Mən çox şadam ki, siz bütün işlərin öhdəsindən şərəflə gəlirsiniz.

Mən sizi bu gözəl binanın, istifadəyə verilməsi münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

*Hərbçi ailələri adından təşəkkürünü bildirən Samirə Orucova dedi:*

– Cənab Ali Baş Komandan, biz zabit və gizir ailələrinə göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə dərin

minnətdarlığımızı bildiririk. Bundan sonra da çalışacağıq ki, Sizin bizə göstərdiyiniz bu etimadın, dövlətimizin bizə göstərdiyi bu qayğının müqabilində Vətən qarşısında borcumuzu layiqincə, daha yüksək səviyyədə xidmətimizlə doğruldaq. Çox sağ olun.

## CULFA RAYON MƏRKƏZİ XƏSTƏXANASININ AÇILIŞ MƏRASİMİ

*3 iyun 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 3-də Culfa Rayon Mərkəzi Xəstəxanasının açılış mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyev xəstəxananın açılışını bildirən rəmzi qırmızı lenti kəsdi, yeni müalicə ocağı ilə tanış oldu. Dövlətimizin başçısı burada yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

*Sonra xəstəxananın açılışı münasibətilə mərasim keçirildi.*

*Mərasimi Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov açdı.*

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı

Möhtərəm Prezident!

2004-cü ildə ölkəmizin regionlarına etdiyiniz səfərlərin birində demişdiniz: «Azərbaycan hərtərəfli inkişaf edir. Mənim vəzifəm ondan ibarətdir ki, Azərbaycanın hər bir qəsəbəsi, hər bir kəndi, hər bir rayonu inkişaf etsin. Bölgələrə etdiyim səfərlər məhz bu məqsədi daşıyır».

Ölkəmizin digər regionları kimi, Naxçıvan Muxtar Respublikasına da hər səfəriniz əsası ümummilli lider tərəfindən qoyulmuş inkişaf və tərəqqi proqramına mühüm töhfələr verir, irimiqyaslı quruculuq tədbirləri ilə yadda qalır.

Sizin himayənizlə yeni istehsal sahələrinin, elektrik stansiyalarının, təhsil və səhiyyə müəssisələrinin, su anbarlarının, hərbi və digər təyinatlı infrastruktur obyektlərinin tikilməsi və ya əsaslı təmir olunması, uzun fasilədən sonra təbii qaz xəttinin çəkilərək istifadəyə verilməsi Naxçıvan Muxtar Res-

publikasının xilasına və inkişafına yönəlmiş tarixi missiyanın bəhrələridir. Həyata keçirilmiş tədbirlər nəticəsində Naxçıvan öz tarixində ikinci dəfə intibaha qovuşmuş, sosial-iqtisadi inkişaf yeni mərhələyə çıxmışdır.

Hər bir inkişafın əsasında insan amili, onun tələbatlarının maksimum ödənilməsi dayanır. Bu istiqamətdə görülən tədbirlər sırasında əhaliyə göstərilən səhiyyə xidmətinin təşkilinin böyük əhəmiyyəti vardır. Səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev deyirdi: «Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun inkişafı üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir».

Ümummilli liderimiz 1969-cu ildə Azərbaycanın rəhbəri seçiləndən cəmi bir ay sonra səhiyyənin inkişafını prinsipcə dəyişdirmək, müalicə-sağlamlıq işini kökündən yaxşılaşdırmaq barədə tarixi qərarlar qəbul etdi. Bu qərarlar səhiyyədə böyük canlanmaya səbəb oldu. Rayon mərkəzlərində, kəndlərdə xəstəxanalar, poliklinikalar, həkim məntəqələri tikildi, tibbi kadrların hazırlanması sahəsində ciddi nailiyyətlər əldə olundu. Ümumittifaq miqyasında səhiyyənin ayrı-ayrı sahələri üzrə elmi-nəzəri forumların, qurultay, konqres və konfransların Bakıda keçirilməsi ölkəmizi keçmiş Sovetlər Birliyinin mühüm səhiyyə mərkəzlərindən birinə çevirmişdi.

Xalqımızın böyük oğlu siyasi hakimiyyətdən istefa verdikdən sonra yaranmış dağıdıcılıq prosesi səhiyyədən də yan keçmədi. 1993-cü ilin 15 iyunu ölkə həyatının digər vacib sahələri kimi, səhiyyənin də xilası günü kimi tarixə düşmüşdür. Bu tarixdən etibarən Azərbaycan səhiyyəsi 1969-cu ildən başlanan inkişaf və quruculuq yoluna qayıtdı. Bu gün ulu öndər Heydər Əliyevin müəyyən etdiyi yolla inamla irəliləyən Azərbaycanda sosial problemlərin həlli, o cümlədən səhiyyənin inkişafı bir nömrəli vəzifələr sırasına çıxarılmış, büdcənin böyük bir hissəsi bu sahənin inkişafına yönəlmişdir.

Hörmətli Prezidentimizin qayğısı ilə son üç ildə Naxçıvan Muxtar Respublikasında 36 yeni səhiyyə obyekti tikilmiş və ya əsaslı təmir olunmuşdur. Cari ilin beş ayında iki səhiyyə obyekti istifadəyə verilmiş, doqquz obyektdə isə tikinti işləri davam etdirilir. Ölkə rəhbərinin himayəsi ilə 2006-cı ilin dekabrında istifadəyə verilən Diaqnostika-Müalicə Mərkəzi nəinki Naxçıvanda, ətraf bölgələrdə də analoqu olmayan tibb müəssisəsinə çevrilmişdir. Son bir il ərzində burada 370 müxtəlif cərrahi əməliyyat, o cümlədən 30 açıq ürək əməliyyatı aparılmışdır.

Ölkə prezidentinin tapşırığı ilə muxtar respublikanın bütün rayon mərkəzlərində nümunəvi tibb müəssisələrinin yaradılması davam edir. Ötən il hörmətli Prezidentimizin himayəsi ilə Şərur rayonunda xəstəxana şəhərciyi tikilərək istifadəyə verilmişdir.

Bu qayğının daha bir ifadəsi isə bu gün açılışına toplaşdığımız Culfa Rayon Mərkəzi Xəstəxanasının yeni binasıdır. Zirzəmi qatı ilə birlikdə dördmərtəbəli xəstəxana binası 6810 kvadratmetr sahəni əhatə edir, 62 çarpayılıq xəstəxana əsas və əlavə korpusdan, yardımçı tikililərdən ibarətdir. Burada terapiya, ginekologiya və doğuş, cərrahiyyə, təcili tibbi yardım və poliklinika şöbələri, pediatriya, hemodializ, reanimasiya və əməliyyat bölmələri fəaliyyət göstərir. Əlavə korpusda isə yoluxucu xəstəliklər bölməsi yaradılmışdır. Xəstəxanada quraşdırılmış avadanlıq müalicə və profilaktika işini müasir tələblər səviyyəsində təşkil etməyə imkan verir. Bu bir daha göstərir ki, Culfa rayon xəstəxanasında tibbi xidmət ən müasir səviyyədə olacaqdır. Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafını daim diqqətdə saxladığına görə ölkə rəhbəri hörmətli İlham Əliyevə dərin minnətdarlığımızı bildirir və əmin edirik ki, tibb işçilərimiz əhalinin sağlamlığının qorunması naminə bundan sonra da fədakarlıqla çalışacaqlar.

Diqqətinizə görə sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Əziz bacılar və qardaşlar! Mən sizin hamınızı ürəkdən salamlayır və bu gün bu gözəl xəstəxananın açılışı münasibətilə ürəkdən təbrik edirəm. Yeni, müasir şəraitli xəstəxanaların açılışı artıq Naxçıvanda gözəl ənənəyə çevrilibdir. Vasif Talıbov qeyd etdi ki, son müddət ərzində Naxçıvanda 30-dan çox səhiyyə obyekti açılmışdır. Onların hamısı yüksək keyfiyyətlə tikilib, yüksək standartlara cavab verir. Çox sevindirici haldır ki, bütün rayonlarda, Naxçıvanın bütün rayonlarında gözəl, yeni, müasir tibb ocaqları tikilir. Burada quraşdırılan avadanlıq ən yüksək səviyyəyə layiqdir. Həm həkimlər üçün, iş üçün gözəl şərait var, həm də xəstələrin müalicəsi üçün bütün imkanlar yaradılıb. Bax, budur bugünkü Azərbaycanın inkişafı. Azərbaycanın hər bir bölgəsində sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Çox sevindirici haldır ki, Naxçıvanda da bu sahəyə böyük diqqət göstərilir, sosial məsələlərin həllində böyük uğurlar əldə edilibdir. Yeni xəstəxanalar açılır, yeni məktəblər, sosial obyektlər tikilir, bir sözlə, insanları narahat edən məsələlər həll edilir, insanlara lazım olan bütün işlər görülür. Bu bir də onu göstərir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir. Sosial siyasət hər bir ölkənin ümumi inkişaf potensialını göstərir. O ölkələr ki, inkişaf edib, güclü iqtisadi potensiala malikdir, təbii ki, orada sosial məsələlərə də diqqət göstərilir. Bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycanda bütün sosial məsələlər tezliklə öz həllini tapsın və Naxçıvanın timsalında biz bunu görürük. Burada həm sosial sahəyə diqqət göstərilir, həm də iqtisadi inkişaf çox sürətlə gedir – siz bunu yaxşı bilirsiniz – yeni müəssisələr, fabriklər, zavodlar açılır, quruculuq işləri aparılır. Naxçıvanın büdcəsi ildən-ilə artır və bu, imkan verir ki, muxtar respublikada bütün quruculuq-abadlıq işləri yüksək keyfiyyətlə aparılsın.

Bildiyiniz kimi, mən hər il Naxçıvana gəlirəm, vəziyyətlə tanış oluram. Hər dəfə yeni obyektin açılışında iştirak edərkən mən çox sevinirəm, qürur hissi keçirirəm ki, Azərbaycanın qədim torpağı olan Naxçıvanda belə gözəl işlər görülür. Bu gün Azərbaycanda sosial və iqtisadi inkişafın sürətlə getməsi artıq bütün dünya üçün aydın olan bir məsələdir. Azərbaycanın iqtisadi potensialının artması, enerji təhlükəsizliyi sahəsinə verdiyi töhfələr, bütövlükdə ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsi – bunlar artıq reallıqdır. O cümlədən Azərbaycanın bütün bölgələrində, xüsusilə Azərbaycanın əsas hissəsindən ayrı olan Naxçıvanda bu məsələlərin həlli xüsusi əhəmiyyət kəsb edir. Bildiyiniz kimi, biz Naxçıvanın enerji təhlükəsizliyini təmin etdik və indi bu sahədə heç bir problem yoxdur. Burada yeni tikilən və əvvəl tikilmiş və bərpa olunan elektrik stansiyalarının fəaliyyəti nəticəsində indi Naxçıvan özünü elektrik enerjisi ilə tamamilə təmin edir və hətta elektrik enerjisinin bir hissəsini qardaş Türkiyəyə ötürür. Bildiyiniz kimi, uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi bərpa olunmuşdur və hazırda qazlaşdırma prosesi çox sürətlə gedir. 1970–80-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qazlaşdırılmış bölgələrə qaz verilməsi bərpa olunubdur. Sonrakı mərhələ isə əvvəllər qazlaşdırılmayan bölgələrə, kəndlərə, qəsəbələrə qaz verilməsinin təmin olunması idi. Deyə bilərəm ki, bu istiqamətdə artıq böyük işlər görülüb və yəqin ki, yaxın zamanlarda Naxçıvanda qazlaşdırmanın səviyyəsi təxminən 100 faizə çatacaqdır. Onu qeyd etmək istəyirəm ki, ən inkişaf etmiş və qazla zəngin olan və qazı böyük həcmdə ixrac edən ölkələrdə bu səviyyə haradasa, 60 faiz civarındadır. Azərbaycanda qazlaşdırma 80 faiz səviyyəsinə qalxıbdır və bu proses davam etdirilir. Məqsəd ondan ibarətdir ki, Azərbaycan əhalisi təbii qazla maksimum dərəcədə təmin olunsun.

Naxçıvanın enerji təhlükəsizliyi məsələləri xüsusi əhəmiyyət kəsb edir. Çünki buraya birbaşa Azərbaycandan qazın verilməsi hələ ki, mümkün deyildir. Bildiyiniz kimi, İran İslam Respublikası ilə əldə edilmiş razılaşmaya görə, biz

mübadilə yolu ilə qaz təminatını təmin etdik, bunun müqabilində Azərbaycandan–Astaradan İrana təbii qaz verilir. Naxçıvanın gələcək iqtisadi inkişafı üçün bu çox böyük əhəmiyyət kəsb edən məsələdir. Çünki elektrik enerjisi, qaz təchizatı hər bir ölkənin inkişafını şərtləndirir. Hamımız yaxşı xatırlayırıq – xüsusilə naxçıvanlılar – keçən qış çox sərt keçmişdir və belə olan halda, müəyyən müddətdə İrandan təbii qazın verilməsi dayandırılmışdı və insanlar burada əziyyət çəkirdilər. Ona görə gələcəkdə bu halların qarşısının alınması üçün mən qərar qəbul etdim ki, Naxçıvanda ayrıca qaz anbarları tikilsin. Dövlət Neft Şirkətinə göstəriş verilibdir, işlər gedir. Qışda əgər təchizatda hansısa problem yaranarsa, yaz-yay aylarında anbarlara vurulan qazdan istifadə etmək mümkün olacaqdır. Bu, böyük bir işdir, yəni həm maliyyə baxımından, həm də bunun texniki çətinlikləri kifayət qədər çoxdur. Amma biz bunu edirik ki, hava şəraitindən, yaxud da idxaldan asılı olmayaraq, Naxçıvana qaz fasiləsiz verilsin. Bütün bunlar həm insanların normal yaşaması üçün, həm də muxtar respublikanın inkişafı üçün lazımdır.

Muxtar respublikada iqtisadi inkişaf sürəti çox yüksəkdir. Burada yaradılan yeni müəssisələr, yeni obyektlər, əlbəttə ki, əlavə enerji mənbəyini tələb edir və biz də bunu təmin edirik. Gələcəkdə Naxçıvanın və muxtar respublikanın bütün rayonlarının inkişafı üçün lazımi tədbirlər görüləcəkdir.

Ordu quruculuğu prosesi burada çox sürətlə gedir. Bu məsələyə də çox böyük əhəmiyyət verilir. Bilirsiniz ki, Azərbaycanda ordu quruculuğuna çox böyük diqqət göstərilir. Bu gün Azərbaycanda hərbi sahəyə ayrılan xərclər Ermənistanın bütün dövlət büdcəsinə bərabərdir. Biz bunu edirik, çünki müharibə şəraitində yaşayırıq və hər an torpaqlarımızı hərbi yolla azad etməyə hazır olmalıyıq. Bu baxımdan bu sahədə görülən işlər, əlbəttə ki, bizi qane edir, gələcəkdə isə daha da böyük işlər görülməlidir. Ancaq Nax-

çıvanın təhlükəsizliyi, müdafiə potensialının möhkəmlənməsi xüsusi əhəmiyyət kəsb edir, çünki siz burada düşmənlə üz-üzəsiniz. Son illər ərzində Naxçıvanın hərbi potensialı xeyli möhkəmləndirilib, Naxçıvan özünü müdafiə etməyə qadirdir. Gələcəkdə Naxçıvanın hərbi potensialının inkişafı üçün əlavə tədbirlər görüləcəkdir. Bu isə əlbəttə ki, müdafiə potensialını daha böyük dərəcədə təmin edəcəkdir.

Bir sözlə, əziz dostlar, muxtar respublikanın inkişafı üçün həm yerli rəhbərlik, həm mərkəzi hökumət nə lazımdırsa edir və bundan sonra da edəcəkdir. Bu siyasət bizə ulu öndər Heydər Əliyevdən qalıbdır. Onun fəaliyyəti, siyasəti nəticəsində bütün ölkə inkişaf edib. O həmişə deyirdi ki, Naxçıvana daim xüsusi diqqət göstərilməlidir. Naxçıvan Azərbaycanın qədim diyarıdır, qədim torpağıdır, strateji əhəmiyyətə malikdir və mən çox şadam ki, burada işlər yaxşı gedir.

Bütövlükdə, ölkəmizdə bütün sahələrdə inkişaf göz qabağındadır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası başa çatır, indi yeni proqram üzərində işləyirik. Əminəm ki, növbəti beş ildə hər bir kəndin, hər bir qəsəbənin problemi həll ediləcəkdir. Hər halda, dövlət proqramında bu məsələlər qeyd olunacaqdır. Azərbaycanda iqtisadi inkişaf, əlbəttə ki, bundan sonra da uzun illər davam edəcəkdir. Biz iqtisadi artım baxımından üç ildir ki, dünyada ən sürətlə inkişaf edən ölkəyik. Bu sürəti saxlamalıyıq, iqtisadiyyatımızı şaxələndirməliyik ki, Azərbaycanda bütün iqtisadi sektorlar inkişaf etsin.

Bu gün səhər Bakıda XV ənənəvi Xəzər neft, qaz sərgi və konfransının açılışı oldu. Konfransda bu vaxta qədər enerji sahəsində, neft-qaz sahəsində görülən işlər təhlil edildi. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və bu gün uğurla davam etdirilən Azərbaycanın yeni neft strategiyasının nəticələri qeyd olundu. İnkişafın, artan büdcənin, yüksələn iqtisadiyyatın, sosial məsələlərin həllinin təməlində o illərdə ulu öndərin rəhbərliyi ilə neft strategiyasının başlanması dayanır. XX əsrin 90-cı illərinin ortalarında,

çox gərgin geosiyasi vəziyyətdə Azərbaycana bütün tərəflərdən təzyiqlər edilirdi. Amma ulu öndər cəsarətli, uzaqgörən addımları atdı, öz prinsipiallığını, uzaqgörənliyini, müdrikliyini bir daha nümayiş etdirərək, neft strategiyasının başlanmasına nail oldu və bu gün biz onu uğurla icra edirik. Demək olar ki, qarşıda duran bütün vəzifələr icra olunubdur. Bu bizə imkan verir ki, sosial məsələlərin həllinə daha da böyük diqqət göstərək, belə gözəl xəstəxanalar tikək, iqtisadi inkişaf sürətlə getsin. Bütün bunlar maliyyə imkanlarına söykənir. İndi isə Azərbaycanın maliyyə imkanları çox genişdir. Biz son 4-5 il ərzində dövlət xərclərimizi 10 dəfədən çox artırmışıq. Bu gün icmal büdcə təxminən 16 milyard dollar səviyyəsindədir. Bu çox böyük rəqəmdir və bizə imkan verir ki, quruculuq işləri, infrastruktur layihələri, sosial məsələlərin həlli ilə daha da ciddi məşğul olaq. Bundan sonra Azərbaycanın imkanları daha da genişlənəcəkdir. Bizim iqtisadi islahatlarımız, siyasi islahatlarımız, dünya birliyinə inteqrasiya siyasətimiz və dünya birliyinə öz töhfələrimiz, xüsusilə enerji təhlükəsizliyi baxımından edilən töhfələr Azərbaycanın beynəlxalq nüfuzunu qaldırır, beynəlxalq mövqelərini möhkəmləndirir. Biz güclü ölkə qururuq, biz müstəqil ölkə qururuq, biz ulu öndər Heydər Əliyevin yolu ilə gedirik.

Keçən ay ulu öndərin 85-ci ildönümü, yubileyi Azərbaycanda geniş qeyd olunmuşdur. Bütün Azərbaycan xalqı o illəri təhlil edərkən bir daha gördü ki, Azərbaycanın inkişafında, müstəqilliyinin möhkəmlənməsində, qorunub saxlanmasında, bugünkü vəziyyətə gətirilib çıxarılmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Əgər o, 1993-cü ildə Naxçıvandan Bakıya qayıtmasaydı, Azərbaycan öz dövlət müstəqilliyini itirə bilərdi. Düzdür, biz hamımız yaxşı xatırlayırıq ki, Naxçıvan üçün ən çətin anlarda Heydər Əliyev burada naxçıvanlılarla bərabər ağır, çətin şəraitdə muxtar respublikanı böhrandan çıxara bilmişdir, erməni qəsbkarlarına tutarlı cavab verilmişdir, Naxçıvanın ərazi bütövlüyü

müdafiə olunmuşdur. Baxmayaraq ki, Naxçıvan hər tərəfdən mühasirə şəraitində yaşayırdı və o vaxtkı mərkəzi hökumət çalışırdı ki, Naxçıvanda vəziyyət gərginləşsin, pisləşsin. Çünki onlar istəmirdilər ki, Heydər Əliyev kimi güclü şəxsiyyət Azərbaycanın siyasi səhnəsində fəaliyyət göstərsin. Onlar razı idilər ki, ermənilər gəlib Naxçıvanı işğal etsinlər, nəinki Heydər Əliyev burada fəaliyyət göstərsin. Amma naxçıvanlılar həmişə olduğu kimi, mərdlik göstərdilər. Həm ermənilərə tutarlı cavab verdilər, onları yerində oturtdular, həm də o vaxt Azərbaycan rəhbərliyi tərəfindən burada dövlət çevrilişi etmək istəyən qüvvələrin cavabını verdilər. Heydər Əliyevin ətrafında sıx birləşərək, onun rəhbərliyi altında Naxçıvanı böyük bəlalardan qurtara bildilər. Biz hamımız xatırlayırıq ki, 1993-cü ildə naxçıvanlılar Heydər Əliyevi buradan Bakıya buraxmaq istəmirdilər və mən bilirəm ki, o da Naxçıvandan böyük narahatlıqla ayrılmışdı. Ancaq o da lazım idi. O vaxt Bakıya gəlməsəydi, bu gün Azərbaycanın müstəqilliyindən söhbət gedə bilməzdi. Ümumiyyətlə, Azərbaycanın gələcəyini təsəvvür etmək mümkün deyildi. Bir adam, ulu öndər, hansı ki nə ordusu var idi, nə dəstəsi var idi, müdrikliyi, təcrübəsi və Azərbaycan xalqının ona olan hədsiz inamı sayəsində ölkəmizi o bəlalardan qurtardı və bu gün Azərbaycan dünya miqyasında önəmli ölkəyə çevrilibdir. Biz dünyada böyük hörmətə malikik, bölgədə liderlik mövqelərimizi möhkəmləndirmişik. Artıq heç kimin buna şübhəsi yoxdur. Biz bölgənin lideriyik, liderliyi möhkəmləndiririk, gücləndiririk və gələcəyə nikbinliklə baxırıq.

Əziz dostlar, mən bu gözəl gündə ən müasir şəraitli bu xəstəxananın açılışı münasibətilə bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Gələcəkdə belə xəstəxanaların sayı çox olacaq, qarşıda duran bütün vəzifələr uğurla icra olunacaqdır. Sizə cansağlığı və bütün naxçıvanlılara yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*Naxçıvan*

*4 iyun 2008-ci il*

*İyunun 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda hörmətli qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Baş nazir Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı səmimiyyətlə qarşıladılar.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyeva xanım Əminə Ərdoğana gül dəstəsi təqdim etdi.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyənin Baş nazirinə raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Türkiyənin Baş naziri Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Naxçıvan*

*4 iyun 2008-ci il*

*İyunun 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə edildi. Ölkələrimizin qlobal layihələri birgə uğurla həyata keçirməsi, beynəlxalq aləmdə bir-birinin mövqelərini tam dəstəkləməsi, regional əməkdaşlıqda fəal iştirakı bildirildi. Baş nazir Rəcəb Tayyib Ərdoğanın Naxçıvana hazırkı səfərinin əhəmiyyəti vurğulandı və bunun ölkələrimiz arasındakı əlaqələrin genişlənməsinə xidmət edəcəyi qeyd olundu.*

*Görüşdə ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında, habelə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ TÜRKİYƏ DÖVLƏT RƏHBƏRLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Naxçıvan*

*4 iyun 2008-ci il*

*İyunun 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v**: Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycanın qədim torpağı olan Naxçıvanda səmimiyyətlə salamlayıram, bir daha «Xoş gəlmisiniz!» deyirəm. Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır və əminəm ki, onun nəticələri də çox uğurlu olacaqdır. Biz xüsusilə bütün ikitərəfli, çoxtərəfli, regional məsələləri geniş müzakirə etdik. Bir daha gördük ki, bütün məsələlərdə bizim fikirlərimiz üst-üstə düşür və əlbəttə, gələcək illərdə çalışacağıq ki, bütün sahələrdə işbirliyi, qardaşlıq münasibətləri daha da inkişaf etsin. Bizim qarşımızda çoxlu layihələr var. Biz birlikdə bölgədə ən önəmli layihələri uğurla gerçəkləşdiririk. Bizim birgə fəaliyyətimizdən həm ikitərəfli münasibətlər, həm də bölgədə gedən proseslər xeyli dərəcədə asılıdır. Mən Sizinlə birlikdə Naxçıvana gəlmiş bütün dostlarımızı, qardaşlarımızı salamlayıram. Bəzilərini tanıyıram, bəzilərini ilk dəfə görürəm. Bu da çox əlamətdar hadisədir. Çünki Siz böyük bir heyətlə Naxçıvana gəlmisiniz. Bir daha demək

istəyirəm ki, Naxçıvan qədim Azərbaycan torpağıdır və Türkiyə ilə Azərbaycan arasında yeganə sərhəd yeri buradır və o sərhəddə vaxtilə tikilən körpü yeganə keçid yeri olubdur. Ona «Ümid körpüsü» adı verilmişdir. Körpü tikiləndə əslində o həyat körpüsü idi. Çünki Naxçıvanı mühasirədən çıxaran yeganə bir yol idi. İndi isə Naxçıvan da sürətlə inkişaf edir və Siz bu gün bunu görəcəksiniz. Əziz qardaşım, bir daha Sizi ürəkdən salamlayıram, xoş gəlmisiniz!

**Rəcəb Tayyib Ərdoğan**: Əvvəlcə, çox təşəkkür edirəm. Gəldiyimiz andan etibarən istər mənə, istərsə də nümayəndə heyətimə göstərilən hörmətə görə xüsusi minnətdarlığımı bildirirəm. Bir müddət əvvəl Sizin nümayəndə heyəti Türkiyədə idi. Bizi orada məmnun etdilər. Təbii ki, Türkiyə və Azərbaycan qardaşdır və aramızdakı əlaqələr bütün sahələrdə– istər siyasi, istər hərbi, istər iqtisadi, istər ticari, istərsə də mədəni sahədə günbəgün inkişaf edir.

Biz buraya bir çox nazir dostlarımızla bərabər gəlmişik. Sərhəd şəhəri Naxçıvanda keçirəcəyimiz görüşlərin çox böyük mənası olacaqdır. Bu baxımdan biz buna çox böyük əhəmiyyət veririk. Mən xüsusilə Naxçıvanı görməyi çox arzulayırdım. Ötən səfərim zamanı bu istəyimi Sizə də söyləmişdim. Bugünkü görüşlərimizdən sonra edəcəyimiz ziyarətlər inanıram ki, bu səfərimizi daha da mənalı edəcəkdir.

Xüsusilə Sizin rəhbərliyinizlə Azərbaycan son dövrlərdə çox ciddi sıçrayış əldə etmişdir. Mərhum Heydər Əliyev tərəfindən başlanan inkişaf hazırda sürətlənərək davam edir. Təbii ki, bu inkişaf prosesi bölgədə Azərbaycanın əhəmiyyətini artırır. İnanıram ki, bundan sonrakı illərdə elm sahəsində görüləcək işlər gələcəkdə Azərbaycan gəncliyinin gücünü daha da artıracaqdır.

Enerji məsələsində Azərbaycanın önəmi sayəsində Türkiyə bir tranzit rolunu oynayır. Bu sahədəki həmrəyliyimiz çox böyük önəm kəsb etməyə başlamışdır. Təbii ki, Bakı–Tbilisi–Ceyhan bunun ən böyük örnəyini təşkil etdi və Bakı–

Tbilisi–Ərzurum isə ikinci bir nümunəsi oldu. Bütün bunlar həmrəyliyimizin ən gözəl nümunələridir. Allaha şükürlər olsun ki, Bakı–Tbilisi–Qars dəmir yolu yüksək bir nöqtəyə gəldi və qarşıdan gələn ayda layihənin Türkiyə hissəsinin təməli atılacaqdır.

## AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*4 iyun 2008-ci il*

*İyunun 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan birgə mətbuat konfransı keçirmişlər.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan əvvəlcə jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Türkiyə Cümhuriyyətinin Baş naziri, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan!

Hörmətli xanımlar və cənablar!

Hörmətli mətbuat nümayəndələri!

Mən bir daha Türkiyənin Baş nazirini və onunla bərabər Naxçıvana gəlmiş nümayəndə heyətinin bütün üzvlərini Naxçıvanda, Azərbaycanın qədim torpağında salamlayıram, sizə «Xoş gəlmisiniz!» deyirəm.

Biz hörmətli Baş nazirlə mütəmadi qaydada həm Bakıda, həm də Ankarada, İstanbulda, başqa şəhərlərdə görüşürük. Ancaq ilk dəfədir ki, bizim görüşümüz Naxçıvanda baş verir. Mən çox minnətdaram ki, hörmətli Baş nazir vaxt tapıb Naxçıvana gəlibdir. Bunun çox böyük siyasi mənası var. Naxçıvan o yerdir, o şəhərdir, o respublikadır ki, Türkiyə ilə Azərbaycan arasında yeganə sərhəd buradadır. Naxçıvanın inkişafında, xüsusilə onun keçən əsrin 90-cı illərinin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə

olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə Türkiyədən alınan dəstək çox mühüm rol oynamışdır. Bu gün isə bizim ölkələr arasında münasibətlər bütün sahələrdə sürətlə inkişaf edir. Biz bu gün bütün ikitərəfli məsələlərin istiqamətlərini müzakirə etdik. Bütün müzakirə olunan məsələlərdə mövqeyimiz birdir, üst-üstə düşür. Siyasi əlaqələr sürətlə inkişaf edir, bizim iqtisadi imkanlarımız artır, biz birlikdə dünya üçün çox əhəmiyyətli olan və ölkələrimizi böyük dərəcədə gücləndirən enerji layihələrini həyata keçiririk.

Biz bu gün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində aparılan işlər və gələcək planlar haqqında danışdıq, fikir mübadiləsi apardıq. Türkiyənin bu məsələdə mövqeyi və dəstəyi bizim üçün çox önəmlidir. Xüsusilə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində keçirilən son səsvermə zamanı işğal olunmuş ərazilərdə yaranan vəziyyətlə bağlı qətnamənin qəbul edilməsində Türkiyənin dəstəyi və mövqeyi çox mühüm olmuşdur.

Gələcək fəaliyyət, birgə layihələr haqqında da geniş müzakirə apardıq. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Bakı–Tbilisi–Qars kimi nəhəng layihələr bizi daha da sıx birləşdirir. Bu layihələr türk dünyası üçün də çox böyük əhəmiyyət kəsb edir. Çünki digər türkdilli dövlətlər bu layihələrdən səmərəli şəkildə istifadə edə bilərlər və bunun üçün artıq ilkin razılaşmalar vardır. Həm enerji, həm də ki, nəqliyyat layihələrində biz geniş əməkdaşlığa açığıq. Bizim münasibətlərimiz, həmçinin regional işbirliyinə böyük töhfədir və Türkiyə və Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə, heç bir təşəbbüs reallaşa bilməz.

Əlbəttə ki, biz bu imkanlardan daha da səmərəli istifadə etməliyik. Bu gün qarşılıqlı sərmayələr qoyulması sahəsində yeni dövr başlayır. Artıq Azərbaycan şirkətləri Türkiyə sənayesinə, infrastrukturuna öz sərmayələrini qoyur və bu bizim üçün çox önəmlidir. Çünki Azərbaycan şirkətləri tərəfindən xaricdə ən böyük sərmayələr qardaş ölkədə qoyulur ki, bu da təbiidir. Gələcəkdə ölkələrimizin artan

iqtisadi və siyasi imkanları, artan çəkisi, əlbəttə ki, bizim mövqelərimizi daha da möhkəm edəcəkdir.

Bu gün haqqında danışılan bütün məsələlər bizi çox sevindirir, yeni imkanlar açır. Xüsusilə Naxçıvanın enerji təhlükəsizliyi və blokadadan çıxması üçün lazım olan addımların atılması Naxçıvan Muxtar Respublikasının uzunmüddətli inkişaf imkanlarını daha da genişləndirəcəkdir. Bu barədə də biz danışdıq.

Bir sözlə, əziz dostlar, mən bir daha aparılan danışıqların mahiyyətindən çox razıyam. Bir daha demək istəyirəm ki, danışılan bütün məsələlərdə bizim mövqeyimiz birdir və əminəm ki, Türkiyənin Baş nazirinin Naxçıvana, Naxçıvan Muxtar Respublikasına tarixi səfərindən sonra bizim qarşımızda yeni imkanlar, yeni üfüqlər açılacaqdır.

Təşəkkür edirəm.

**Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı**

Hörmətli Cümhur başqanı, mən də çox təşəkkür edirəm.

Çox hörmətli qardaşım!

Mətbuatımızın dəyərli nümayəndələri!

Sizləri ən səmimi duyğularımla salamlayıram. Bu fürsətdən yararlanaraq, dost və qardaş Azərbaycanda olmaqdan, Naxçıvanda olmağımdan duyduğum məmnuniyyəti xüsusilə ifadə etmək istəyirəm. Mənə və nümayəndə heyətimizə göstərilən sevgi və qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm.

Hörmətli Prezidentlə istər təkbətək görüşdə, istərsə də nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə ölkələrimiz arasında bir çox sahədə – siyasi, iqtisadi, hərbi, ticarət, mədəniyyət və təhsil sahələrində əlaqələrimizi nəzərdən keçirdik. Hərtərəfli faydalı olan bu görüşlərdə ikitərəfli əlaqələrimizi bundan sonrakı dövrdə necə dəyərləndirəcəyimizi, nə kimi addımlar ata biləcəyimizi ətraflı müzakirə

etmək imkanımız oldu. Aramızda çox yaxşı əlaqələr var və bu, günbəgün genişlənir. Təbii ki, bütün bunlarla birlikdə, Cənubi Qafqazda sülh, sabitlik və rifah, işbirliyinin yaradılması sahəsində dəyərli Prezidentlə eyni fikirdə olmağımızı görməkdən də məmnunluq duyuram.

Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun olaraq və şübhəsiz ki, tezliklə həll edilməsini – bu bizim arzumuzdur – burada bir daha ifadə etməyi zəruri bilirəm. İndiyə qədər bu məsələdə Azərbaycanı necə dəstəkləmişiksə, gələcəkdə də bunu eyni şəkildə qətiyyətlə davam etdirəcəyik.

Cənubi Qafqazda təminatlı sülhün bərpası və qorunması üçün əlimizdən gələni etməyə hazır olduğumuzu bir daha vurğulamaq istəyirəm. Bu sahədə ata biləcəyimiz müştərək addımları da bu görüşlərdə nəzərdən keçirdik. Eləcə də xüsusilə Azərbaycanın Şimali Kipr türklərinə verdiyi dəstəkdən duyduğumuz məmnuniyyəti bir daha ifadə etmək istəyirəm.

Ölkələrimiz arasında iqtisadi və ticarət əlaqələri son dövrdə genişlənməkdə davam edir. Eyni şəkildə Naxçıvanla Türkiyə arasındakı iqtisadi əlaqələr artır. Bu gün Türkiyə Azərbaycanın qeyri-neft sektoruna ən çox sərmayə qoyan ölkəyə çevrilmişdir. Bunun önəmli hissəsini kiçik və orta sahibkarlığa, biznesə, müəssisələrə qoyulan türk sərmayəsi təşkil edir, onun həcmi 5,5 milyard dollara çatmışdır. Türkiyə şirkətləri hazırda bu fəal çalışmalarını davam etdirir və inanıram ki, bu daha da güclənəcəkdir. Türkiyə ilə Azərbaycan arasında xarici ticarətin həcmi 1,2 milyard dollar həcmindədir. Təbii ki, ən önəmli arzumuz, istəyimiz odur ki, qarşıdakı iki il ərzində bu rəqəmi 3 milyard dollara çatdıra bilək. İnanıram ki, bu da aramızdakı münasibətləri daha güclü vəziyyətə gətirəcəkdir.

Hazırda Naxçıvan böyük ticarət ortağı kimi, Türkiyə ilə işbirliyini davam etdirir. 2007-ci ildə iqtisadi əlaqələr 33 faiz artaraq 40 milyon dollara çatmışdır. Azərbaycandakı bütün

sərmayələrimiz kimi, Naxçıvana da önəmli sərmayələr qoyuruq və bunu davam etdiririk. Xüsusilə əksər tikintilərdə türk firmalarının imzasını görmək bizdə məmnunluq doğurur. Bu sahədə hörmətli Prezidentin türk firmalarına göstərdiyi diqqət və qayğı bizi xüsusilə məmnun edir.

Təbii ki, digər bir məsələ də Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum enerji xətləridir və bunlar Türkiyə ilə Azərbaycan arasında əlaqələrin nə qədər güclü olduğunu göstərir. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin də işə düşməsi bu yöndə ən önəmli hadisələrdən biri olacaqdır. Bu işbirliyimizin müstəsna əhəmiyyəti vardır. Həmin layihələr ölkələrimiz arasındakı strateji əlaqələrin gücünü göstərən önəmli amillərdir. İnşallah, Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin Türkiyə hissəsinin təməlqoyma mərasimini də iyul ayında gerçəkləşdirəcəyik. Amma məqsədimiz bu layihəni də ən qısa müddətdə tamamlamaqdır.

Digər önəmli bir cəhət, təbii ki, bizim bugünkü danışıqlarımızın, görüşümüzün Naxçıvanda olmasıdır. Bunun bir anlamı, mahiyyəti vardır. Bir az əvvəl dəyərli Prezidentin də ifadə etdiyi kimi, mən bunu tarixi görüş, anlamlı görüş kimi dəyərləndirirəm. Bu görüşün bölgəyə və dünyaya bir mesaj olduğuna inanıram. Bu görüşümüz, danışıqlarımız bundan sonra da eyni qətiyyətlə, eyni inancla davam edəcəkdir. Bunun belə başa düşülməsini istəyirəm.

Bu səfərimin Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq əlaqələri üçün yaxşı nəticələr verəcəyinə, bundan sonrakı müddətdə əlaqələrimizin bir çox sahələrdə daha da genişlənəcəyinə, inkişaf edəcəyinə inanır, sizlərə hörmət və ehtiramımı bildirirəm.

*Sonra prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarına cavab verdilər.*

**– İki qardaş ölkə arasında viza məsələsində bir dəyişiklik nəzərdə tutulurmu? Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həllində nə dərəcədə fəal rol oynaya bilər?**

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** Hörmətli Prezidentlə bu məsələni müzakirə etdik və aramızda heç bir fikir ayrılığı yoxdur. O da bununla bağlı vacib olan təlimatı verdi. Bilirsiniz ki, azərbaycanlı qardaşlarımızdan heç bir viza tələb etmirik və bir ay müddətinə gedib-gələ bilirlər. İnşallah, bu təlimat üzrə vaxt məsələsi uzadıla bilər. Bunu da müzakirə etdik. Hörmətli Prezidentin təlimatının yerinə yetirilməsi nəticəsində qarşılıqlı surətdə viza hansı müddətdə keçici olacaq – bunların hamısı dəyərləndiriləcək və inşallah, addımlarımızı bu şəkildə atacağıq.

Digər sualınıza gəlincə, təbii ki, Dağlıq Qarabağ məsələsində sülhə nail olmaq lazımdır. Çünki orada işğalın olduğu məlumdur və bu həqiqətdir. Əslində, bunu Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası da təsdiq etmişdir. Amma buna riayət olunmur. Qətnamələrin yerinə yetirilməsi vacibdir. Biz bu məsələ üzrə yaradılmış ATƏT-in Minsk qrupunun tezliklə ədalətli qərar çıxarmasını istəyirik. Çünki bu, bölgədə sülh üçün vacibdir, yəni lazım olan bir addımdır. Biz buna inanırıq və həllin tezləşdirilməsini dəstəklədiyimizi xüsusilə ifadə etmək istəyirəm.

**– Mənim sualım həm Azərbaycan prezidentinə, həm də Türkiyənin Baş nazirinədir. Siz həm təkbətək, həm də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşdünüz, fikir mübadiləsi apardınız. Aparılan danışıqlarda Azərbaycanın Naxçıvan bölgəsi ilə Türkiyənin yaxınlıqda yerləşən bölgələri arasında iqtisadi əlaqələrin güclənməsinə bu səfər nə kimi təkan verəcəkdir?**

**İ l h a m  Ə l i y e v:** Bu səfərin çox böyük mənası var və hörmətli Baş nazirin dediyi kimi, səfərin nəticələri də gözəl olacaqdır. Bu doğrudan da tarixi səfərdir. İlk dəfə olaraq Türkiyənin Baş naziri və Azərbaycanın prezidenti Naxçıvanda görüşürlər.

O ki qaldı Naxçıvanla sərhədin o tərəfində yerləşən vilayətlər arasındakı işbirliyinə, bu da sürətlə gedir. Qeyd olundu ki, artıq qarşılıqlı ticarətin həcmi getdikcə artır. Əlbəttə, bu gün Naxçıvanın enerji təhlükəsizliyi məsələsi müzakirə olundu. Bildiyiniz kimi, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin işə düşməsindən və Azərbaycan qazının Türkiyə bazarlarına daxil olmasından sonra, xüsusilə gələcəkdə bu qazın həcminin artımından sonra Türkiyənin Naxçıvanla həmsərhəd olan bölgələrinə də təbii qazın verilməsi nəzərdə tutulur. Əlbəttə ki, bu layihənin təbii davamı olaraq, Naxçıvanın bu xəttə birləşməsi də mümkündür. Bu məsələ müzakirə olundu və müvafiq tapşırıqlar verilmişdir.

Naxçıvanı nəqliyyat mühasirəsindən çıxarmaq üçün Naxçıvanın Bakı–Tbilisi–Qars dəmir yolu xəttinə birləşməsi məsələsi də müzakirə olundu. Bu çox böyük bir layihədir, çox böyük texniki və maliyyə resursları tələb edən layihədir. Ancaq qarşılıqlı iradə olduğu halda – bu iradə də var – bizim qarşımızda elə məsələ yoxdur ki, onu həll edə bilməyək. Müvafiq göstərişlər verildi. Yəqin ki, texniki-iqtisadi əsaslandırma hazırlanmalıdır və ondan sonra bu layihənin həyata keçirilməsi haqqında qərarlar qəbul ediləcəkdir.

Bütövlükdə, Naxçıvanın iqtisadi inkişafını və imkanlarını nəzərə alaraq, əlbəttə, qardaş Türkiyənin müvafiq vilayətləri ilə əlaqələrin daha da möhkəmlənməsi zəruridir. Bu əlaqələr möhkəmlənir. Naxçıvanda böyük quruculuq, tikinti işləri gedir və bildiyiniz kimi, bu işlərdə türk firmaları çox fəal iştirak edirlər. Naxçıvanda ən çox iş görən Türkiyə şirkətləridir. Əminəm ki, burada iqtisadi inkişaf artdıqca, Naxçıvanın iqtisadi potensialı da möhkəmlənəcək, yeni-yeni layihələr həyata keçiriləcəkdir və qardaş ölkədən olan şirkətlər həmişə Naxçıvana gəlməyə meyillidirlər. Biz də bunu alqışlayırıq.

**– Sualım hörmətli Baş nazirədir. Enerji sahəsində işbirliyinin indiki vəziyyəti barədə məlumat verərsinizmi, bu məsələləri müzakirə etdinizmi? Xüsusilə hörmətli Prezidentin söy-**

**lədiyi məsələ – Türkiyənin güneyinə qaz verilməsi ilə bağlı Siz nə deyə bilərsiniz?**

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** Bildiyiniz kimi, Bakı–Tbilisi–Ceyhan kəməri ilə əlaqədar biz tranzit ölkə rolunu oynayırıq və Ceyhandan bütün dünyaya neftin göndərilməsi davam edir. Bakı–Tbilisi–Ərzurum təbii qaz xəttinə gəldikdə, bizim də ehtiyacımız olan təbii qaz məsələsində lazım olan köməyi bizə göstərəcəklər. Yəni ehtiyacımızın müəyyən bir qismini, inşallah o xətdən götürə bilmək imkanımız vardır. Bunun üçün enerji nazirlərimizə təlimat verdik, onlar aralarında görüşərək, bu miqdarı müəyyənləşdirəcəklər. Bununla bağlı heç bir problem yoxdur.

Biz Nabukko layihəsini də müzakirə etdik. Bu məsələ ilə əlaqədar yenə də mövcud imkana görə, buradan Nabukkoya müəyyən miqdarda təbii qaz vermək mümkün olacaqdır.

**– Mənim sualım hər iki tərəfədir. Azərbaycan və Türkiyə beynəlxalq təşkilatlar çərçivəsində uzun illərdir uğurlu və səmərəli əməkdaşlıq edir. Bu əməkdaşlığın gələcək inkişaf perspektivlərini necə görürsünüz?**

**İ l h a m  Ə l i y e v:** Bu həqiqətdir. Bütün beynəlxalq təşkilatlarda bizim ölkələrimiz vahid mövqedən çıxış edir. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra həmişə bütün beynəlxalq təşkilatlarda Türkiyədən dəstək görübdür. Bu dəstək qarşılıqlıdır. Biz Birləşmiş Millətlər Təşkilatında uğurlu əməkdaşlıq edirik. Bayaq qeyd etdiyim qətnamənin qəbul olunmasında Türkiyənin çox böyük və müsbət rolu olmuşdur.Türkiyə və Azərbaycan İslam Konfransı Təşkilatında fəal iştirak edirlər. Bu gün biz hörmətli Baş nazirlə bu məsələləri müzakirə etdik. İslam dünyasının birləşməsi və islam ölkələri arasında qarşılıqlı ticarətin inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur və bizim mövqeyimiz birdir.

Biz türkdilli dövlətlərin əməkdaşlığı ilə bağlı fikir mübadiləsi apardıq. Türkdilli ölkələrin dövlət başçılarının növbəti zirvə görüşü Azərbaycanda, Bakıda nəzərdə tutulur. İndi o görüşün vaxtı dəqiqləşdirilir. Deyə bilərəm ki, bu

formatda Türkiyə və Azərbaycanın rolu artmaqdadır. Biz bəzi hallarda çox lazımlı təşəbbüslərin iştirakçılarıyıq. Başqa beynəlxalq təşkilatlarda, Avropa Şurasında bizim nümayəndə heyətlərimiz daim bir-birinin mövqeyini müdafiə edir, dəstəkləyirlər. Bəzi hallarda ədalətsizliklə üzləşəndə, bundan birlikdə məyus oluruq. Biz bütün beynəlxalq təşkilatlarda öz siyasətimizi, öz maraqlarımızı təmin və müdafiə edirik.

Bununla bərabər, əlavə etmək istəyirəm ki, Türkiyə və Azərbaycan dövlətləri xaricdə yaşayan soydaşlarımızın təşkilatlanma prosesində fəal iştirak edirlər. Biz Türkiyə və Azərbaycan diaspor təşkilatlarının qurultayını bərabər keçirdik. O da çox önəmli hadisə idi və onun çox gözəl nəticələri olmuşdur. İndi dünyada yaşayan soydaşlarımız birləşir, Türkiyənin və Azərbaycanın diaspor təşkilatları öz səylərini birləşdirirlər. Çünki bizim maraqlarımız da birdir, düşmənlərimiz də birdir. Bütün beynəlxalq təşkilatlarda sıx əməkdaşlığımız həm mövqelərimizi möhkəmləndirir, həm də regional məsələlərin həllində öz müsbət rolunu oynayır.

Mən giriş nitqimdə qeyd etdim ki, bu bölgədə Türkiyə və Azərbaycanın iştirakı olmadan heç bir layihə reallaşa bilməz. Türkiyənin və Azərbaycanın iştirak etdiyi layihələrin hamısı uğurla nəticələnmişdir – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum. Əminəm ki, bu yaxınlarda başladığımız Bakı–Tbilisi–Qars layihəsi də uğurla nəticələnəcəkdir. Beləliklə, bölgədə yerləşən ölkələr üçün gözəl imkanlar yaranır. Bizim təşəbbüslərimiz geniş formatda regional və qitə miqyasında işbirliyinin möhkəmlənməsinə yönəldilibdir. Mən əminəm ki, gələcəkdə də bütün beynəlxalq təşkilatlarda, beynəlxalq forumlarda, konfranslarda, tədbirlərdə biz vahid mövqedən çıxış edəcəyik və bu bizim birliyimizi daha da möhkəmləndirəcəkdir.

**Rəcəb Tayyib Ərdoğan:** Mən hörmətli Prezidentin dediklərinə heç bir əlavə etmək istəmirəm. Sadəcə, demək istəyirəm ki, məsələn, 2009–2010-cu illər üçün Birləşmiş Mil-

lətlər Təşkilatının Təhlükəsizlik Şurasına Türkiyənin üzvlüyünü Azərbaycanın dəstəkləməsi, eyni şəkildə bizim də 2011–12-ci illər üçün Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına Azərbaycanın üzvlüyünü dəstəkləmək barədə razılığımız var.

İslam Konfransı Təşkilatında, Avropa parlamentində daim bir-birimizlə həmrəy olmuşuq. Türk dünyasındakı, xüsusilə Türkiyə ilə Azərbaycan arasındakı həmrəylik bir örnəkdir. Verdiyimiz qərarlar heç bir şübhə doğurmur. Gərəkli olan hər bir iş görülmüşdür və bundan sonra da görüləcəkdir. Əgər həmrəyliyimiz olmasa, «bir millət, iki dövlət» anlayışı yerinə düşməz. Biz hər zaman bunu yerinə yetirməliyik.

Çox sağ olun, təşəkkür edirəm.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*Naxçıvan*

*4 iyun 2008-ci il*

*İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Azərbaycan–Türkiyə münasibətlərinin inkişafında misilsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək, önünə gül dəstələri qoydular.*

*Azərbaycan prezidentinin xanımı Mehriban Əliyeva və Türkiyə Baş nazirinin xanımı Əminə Ərdoğan, Türkiyə nümayəndə heyətinin üzvləri ulu öndərin abidəsi önünə gül qoydular.*

### Heydər Əliyev muzeyi ilə tanışlıq

*İyunun 4-də Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və onların xanımları Naxçıvan şəhərindəki Heydər Əliyev muzeyi ilə tanış oldular.*

*Geniş sahəsi olan muzey ekspozisiya salonu, kitabxana və fonddan ibarətdir. Ekspozisiya salonunda Heydər Əliyevin ağ mərmərdən yonulmuş büstü qoyulmuşdur. Büstün müəllifi Xalq rəssamı, akademik Ömər Eldarovdur. Muzeyin fondunda ulu öndərin həyat və fəaliyyəti ilə bağlı 2400-dək eksponat var, ekspozisiyada bunların yalnız bir hissəsi nümayiş etdirilir. Burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini,*

*onun xalqımızın tarixinə, mədəniyyətinə, incəsənətinə göstərdiyi diqqət və qayğını əks etdirən fotoşəkillər, habelə ulu öndər haqqında yazılmış kitablar toplanmışdır. Ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən istifadə etdiyi əşyalar, bütün xarici səfərlərini, eləcə də muxtar respublikaya səfərlərini əks etdirən materiallar diqqəti cəlb edir.*

*Hörmətli qonağa məlumat verildi ki, buradakı kompyuterlər vasitəsilə ulu öndər Heydər Əliyev ilə bağlı istənilən məlumatı əldə etmək mümkündür. Rəssam Aydın Rəcəbov tərəfindən klassik üslubda kətan üzərində yağlı boya ilə 2000-ci ildə çəkilmiş «Prezident Heydər Əliyev» portreti muzeyin dəyərli eksponatlarındandır. Muzeydə ulu öndərlə bağlı çoxlu məktub, teleqram, rəsmi sənədlər də geniş yer tutur. Buradakı «Yüksəlişə doğru həyat yolu» adlı xalça kompozisiyası və nəfis toxunuşu ilə diqqəti cəlb edir. Ekspozisiyada Heydər Əliyevin 1991–93-cü illərdə Naxçıvanda işlədiyi dövrü əks etdirən eksponatlar vardır. Ulu öndərin Naxçıvanda işlədiyi dövrdə iş otağında istifadə etdiyi çıraq, telefon, qələmdan, habelə o vaxtkı geyim əşyaları, saatı da nümayiş etdirilir.*

*Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana muzeyin kitabxanası və ümummilli lider Heydər Əliyev haqqında çəkilmiş filmlər barədə ətraflı məlumat verildi.*

*1930-cu ildə çəkilmiş ailə fotosu əsasında 2000-ci ildə toxunmuş «Tarix» xalçası qonaqlarda böyük maraq doğurdu.*

*Rəcəb Tayyib Ərdoğan Xatirə kitabına ürək sözlərini yazdı, ümummilli lider Heydər Əliyevin xatirəsini əziz tutan Azərbaycan xalqına ən xoş arzularını yetirdi.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan qarşılıqlı hədiyyələr təqdim etdilər.*

## «DUZDAĞ» FİZİOTERAPİYA MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİ

*Naxçıvan MR, Babək*

*4 iyun 2008-ci il*

*İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan Naxçıvan MR-in Babək rayonunda «Duzdağ» Fizioterapiya Mərkəzinin açılışında iştirak etmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, Baş nazir Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan əvvəlcə mərkəzin yeraltı hissəsi ilə tanış oldular.*

*Milli geyimli qız və oğlan Azərbaycan prezidentinə, Türkiyənin Baş nazirinə və onların xanımlarına gül dəstələri təqdim etdilər.*

*Prezident İlham Əliyev, Baş nazir Rəcəb Tayyib Ərdoğan və xanımları Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdilər və bu müalicə ocağı ilə tanış oldular.*

*Məlumat verildi ki, 1979-cu ildə burada 50 çarpayılıq fizioterapiya xəstəxanası yaradılmışdır. Sonralar müalicəyə gələnlərin sayı artdıqca bura genişləndirilmişdir. Xəstəxana yeraltı və yerüstü şöbələrdən ibarətdir. 2006-cı ilin dekabrında müasir standartlar səviyyəsində «Duzdağ» Fizioterapiya Mərkəzinin tikintisinə başlanılmışdır. «Gəmiqaya» şirkəti altımərtəbəli binanı qısa müddətdə inşa etmişdir. Buraya Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan, Özbəkistan və digər ölkələrdən xəstələr gəlir. Müalicə və istirahət üçün müasir səviyyədə şərait yaradılmışdır. Mərkəzin 324 yerlik beşulduzlu mehmanxanası da var. Mərkəzin xəstəxana hissəsində böyüklər və kiçiklər üçün şöbələr fəaliyyət göstərir. Burada bronxial astma və astmatik komponentli digər xəstələr müalicə olunurlar. Təbii müalicə ilə yanaşı,*

*dərman müalicəsi, fizioterapiya müalicəsi, müalicəvi bədən tərbiyəsi də tətbiq edilir. Mərkəzdə stolüstü tennis, bilyard stolları, trenajor zalı, sauna, hamam, stadion, üzgüçülük hovuzu vardır. Uşaqlar üçün «nağıllar aləmi» də yaradılmışdır.*

*Yerüstü hissədən yeraltı hissəyə 2,4 kilometr məsafə var. Yeraltı hissədə – duz mədəni şaxtasında gecə və gündüz havanın temperaturu 18–20 dərəcəyə yaxın olur. Atmosfer təzyiqi 682 millimetr civə sütunu, nisbi rütubət 24–50 faiz arasındadır. Şaxtada dəm, azot və metan qazı yoxdur, oksigen 20 faizə yaxındır. Burada duz qatının qalınlığı 8,2 metrə çatır. Duzun tərkibində natrium-xlor 98,4 faiz, kalsium 0,04 faiz, maqnezium 0,06 faizdir. Müalicə kursu böyüklər üçün 20–24 seans, uşaqlar üçün 14–18 seansdır. Xəstələr axşam saat 6-dan səhər 8-dək şaxtada olurlar. Şaxtada 2 qadın və 3 kişi palatası var. Bunların ikisində uşaq palatası da var. Müraciət edənlərin sayı artarsa, gələcəkdə buranın genişləndirilməsi nəzərdə tutulur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Mərkəzdə yaradılmış şəraiti yüksək qiymətləndirdilər.*

## TÜRKİYƏ BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ NAHAR

*4 iyun 2008-ci il*

*İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın şərəfinə rəsmi nahar verilmişdir.*

* * *

*İyunun 4-də Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş Naxçıvan hava limanında hörmətli qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Milli geyimli oğlan və qız Türkiyənin Baş nazirinə və xanımına gül dəstələri təqdim etdilər.*

*Baş nazir Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva səmimiyyətlə yola saldılar.*

# QEYDLƏR

**1. Litva,** Litva Respublikası – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min $km^2$, əhalisi 3,0 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 5, 206,213.

**2. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə

Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində

ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5,6,23,24,26,40,48,49,61,62,63,65,67,68, 73–76,84,92,93,94,97,101,102,103,104–105,106–116,170,171, 192,196,204,221,229,230,233,291,295,296,297,304,312,318,319, 323,335–336.

**3. Rusiya,** R u s i y a   F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17 milyon km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 96 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 11 muxtar vilayət və 4 mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 6,64,65,66,77,78,130,132,273,275,276,277,278,289.

**4. Kalmıkiya,** Kalmıkiya Respublikası – Rusiya Federasiyasında respublika (Cənubi Federal mahal). Sahəsi 76,1 min km$^2$, əhalisi 317,1 min nəfərdir. Paytaxtı Elista şəharidir. – 6,279.

**5. Kirsan İlyumjinov** (d.1962) – Rusiya dövlət xadimi, Kalmıkiyanın birinci (1993–2005) prezidenti. 2005–2010-cu illərdə Kalmıkiya Respublikasının başçısı olmuşdur. 1995-ci ildən Beynəlxalq Şahmat Federasiyasının prezidentidir. – 6.

**6. Polşa,** Polşa Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 7,206,208,213.

**7. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşanın prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 7,208.

**8. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,8 milyon km$^2$, əhalisi 325,6 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal dairəsindən ibarətdir. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 8,146,205,213,214,281,287,291,292,300.

**9. Bakı Müasir İncəsənət Muzeyi** – Bakıda fəaliyyət göstərən muzey. Muzeydə əsasən azərbaycanlı avanqard rəssamların və heykəltəraşların – Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdürrəhmanovun əsərləri nümayiş etdirilir. Muzeydə uşaq incəsənət zalı, kitabxana, videozal fəaliyyət göstərir. – 9.

**10. Moldova,** Moldova Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 10–25.

**11. Vladimir Voronin** (d.1941) – Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti olmuşdur. – 10–25.

**12. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 13,17,275,276.

**13. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi

qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 15, 17,156,157,210,256,268,332.

**14. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəs-

təliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci idə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 19,55,56,59, 88,89,90,92,93,94,96,104,106,124,128,136,138–144,219–224, 242,257,303,304,305,306,307,311,320,335,337,339.

**15. Sovetlər İttifaqı**, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) – 1922–1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdur.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla, keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və

prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 19,106,111,112, 266,276.

**16. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv-dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 22, 57,178,182,237,242,259,272,309,326.

**17. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 77,7 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. – 25,49,49-50,67, 68,97,136,209,276,292,293,306,320–339.

**18. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. – 25.

**19. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri,

2014-cü ilin sentyabrında Türkiyə Respublikasının Prezidenti seçilmişdir. – 25,320–339.

**20. Zərifə xanım Əliyeva,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 26,32, 75,102,103.

**21. Nobel Xeyriyyə Fondu** – 1900-cü ildə Nobel mükafatlarının maliyyələşdirilməsi və inzibatçılığını idarə etmək üçün yaradılan özəl təşkilat. Fond Alfred Nobelin vəsiyyətinə əsasən yaradılmışdır. Alfred Nobel vəsiyyətnaməsində göstərirdi ki, onun pulu hər il fizika, kimya, fiziologiya, tibb, ədəbiyyat və xeyriyyəçilik işlərinə görə istifadə edilsin. Nobel mükafatı da məhz buna görə təsis edildi. 1946-cı ildə Nobel fondu vergi verməkdən azad edildi. Bunun nəticəsində fondun aktivləri və eyni zamanda, mükafatların miqdarı da artmağa başladı. – 27.

**22. Roald Saqdeyev** (d.1932) – rus fiziki. SSRİ Elmlər Akademiyasının akademiki. Əsas tədqiqatları plazma fizikasına aiddir. Plazmanın qeyri-tarazlığını tədqiq etmiş, onda «toqquşmasız» zərbə dalğalarının mövcud olduğunu kəşf etmiş, «tokamak» qurğularındakı köçürmə hadisələrinin nəzəriyyəsini işləyib hazırlamışdır. – 28.

**23. Varşava üsyanı (**1943**) –** Varşava gettosunda əsirlərin alman-faşist işğalçılarına qarşı silahlı üsyanı. Aprelin 19-da başlanmışdı. Üsyanı yəhudi döyüş təşkilatı hazırlamışdı.

Üsyançıların qəhrəmancasına müqavimətinə baxmayaraq, üsyan iyulun əvvəllərində yatırıldı, hitlerçilər 7 min adamı öldürdülər, 6 min adam isə yanğınlar zamanı tələf oldu. Faşistlər gettonun sağ qalan üzvlərini Treblinkadakı ölüm düşərgəsinə göndərdilər. – 29–30.

**24. «İnterfaks»** – Rusiya Federasiyasında müstəqil informasiya agentliyi. Rusiya və xarici kütləvi informasiya agentlikləri redaksiyaları üçün mühüm siyasi, iqtisadi məlumatlar yayır. Əsası 1989-cu ildə qoyulmuşdur. «İnterfaks» Azərbaycanda da geniş fəaliyyət göstərir. – 31.

**25. Pasxa bayramı** – yəhudi və xristian bayramı. Pasxa əvvəllər yəhudilərin Misirdən «çıxıb getmələri» münasibətilə, sonra isə yəhudi xalqının xilaskarının zühurunu gözləməklə, xristianlıqda isə İsanın iztirabları, din yolunda fəda olması, onun ölümü və yenidən dirilməsi ilə əlaqələndirilir. Əvvəllər yəhudi və xristian pasxaları eyni vaxta təsadüf edirdi. 325-ci ildə Ümumdünya xristian yığıncağı xristian pasxasını yəhudi pasxası qurtarandan bir həftə sonra qeyd etməyi qərara aldı. Bu tarix aprelin 4-dən mayın 8-dək olan dövrə təsadüf edir. – 31.

**26. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 32,88,89,90,93,96,104, 124,128,136,139,171.

**27. Misir Mərdanov,** M i s i r   C u m a y ı l   o ğ l u (d.1946) – fizika-riyaziyyat elmləri doktoru, professor. Tədqiqatları əsasən riyaziyyatın müasir sahələrindən biri olan optimal idarəetmə nəzəriyyəsinin aktual problemlərinə həsr edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi ali təhsil və elm idarəsinin rəisi, Təhsil nazirinin müavini, BDU-nun tədris işləri üzrə prorektoru, BDU-nun rektoru kimi müxtəlif vəzifələrdə çalışmışdır. 1998–2013-cü illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur. Hal-hazırda AMEA-nin Riyaziyyat İnstitutunun direktorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 32.

**28. Slovakiya,** S l o v a k i y a   R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 34.

**29. Avpora Şurasının Nazirlər Komitəsi** – bu təşkilatın rəhbər və direktiv orqanıdır. Komitəni bütün üzv-ölkələrin Xarici İşlər nazirləri və daimi diplomatik nümayəndələri təşkil edir. Onlar–Nazirlər Komitəsi hüquq bərabərliyində Avropa cəmiyyətinin problemlərinin milli dəyərlərə əsaslanaraq həll

edilməsinə çalışır. Parlament Assambleyası ilə birlikdə Nazirlər Komitəsi üzv-ölkələrin götürdükləri öhdəliklərə nəzarət edir və fundamental dəyərlərin keşiyində durur. İldə bir dəfə keçirilən sessiyada nazirlər siyasi dialoq aparır, Avropa əməkdaşlığı məsələlərini həll edirlər. – 34.

**30. Yan Kubiş** (d.1952) – Sloveniya siyasətçisi və diplomat. 1999–2005-ci illərdə ATƏT-in Baş katibi, 2006–2009-cu illərdə Sloveniyanın Xarici İşlər naziri, 2012-ci ildən BMT Baş katibinin Əfqanıstan üzrə xüsusi nümayəndəsi və BMT-nin Əfqanıstana kömək missiyasının rəhbəridir. – 34.

**31. İsrail** – Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 35,145, 286.

**32. Şimon Peres** (d.1923) – İsrail siyasətçisi və dövlət xadimi. 70 ildən çoxdur ki, siyasətdədir. «Avoda» Partiyasının yaradıcısı və lideri. – 35,286.

**33. Norveç,** N o r v e ç  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 385 min km$^2$, əhalisi 5 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı (stortinq laqtinq və odelstinq) parlamentdir (Stortinq). Paytaxtı Oslodur. – 36,79,80,284, 293.

**34. Yonas Qar Store** (d.1960) – 2005–2012-ci illərdə Norveçin Xarici İşlər naziri olmuşdur. – 36.

**35. V Harald** (d.1937) – 1991-ci ildən Norveçin kralı. Kral V Ulafin oğlu. – 36,79.

**36. Stoltenberq Yens** (d.1959) –Norveçin dövlət və siyasi xadimi. Əvvəllər Norveçin Energetika, Ticarət, Maliyyə nazirləri vəzifəsində çalışmışdır. 2000–2001 və 2005-2013-cü illərdə Norveçin Baş naziri olmuşdur. Onun hökuməti gender (10 kişi, 10 qadın nazir) bərabərliyində fəaliyyət göstərib. – 36,80.

**37. Misir Ərəb Respublikası** – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 85 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 37.

**38. Hüsnü Mübarək,** Seyid Məhəmməd (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 37.

**39. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarəetməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 42,45,210,269,300,301.

**40. İsmət Abasov,** İsmət Dursun oğlu (d.1954) – iqtisadçı, iqtisad elmləri namizədi. 2008–2013-cü illərdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri olmuşdur. Hal-hazırda Baş nazirin müavinidir. – 44.

**41. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton-Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 47,275.

**42. Mərmərə qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildir. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 49–50.

**43. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 50,76,258,291,293,323, 326,329,332,333.

**44. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan 280 km isə Türkiyə ərazisindən keçir. Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 50,76,258,298,323,326,329,331,332,333.

**45. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. Yolun uzunluğu 826 km-dir. – 50,324,326,329,331,333.

**46. Dağlıq Qarabağ Muxtar Vilayəti –** Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq

Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 51,106,111,112,126,134,199,200,229,235,236,244,245,248, 255,271,308,326,330.

**47. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 0,013 min $km^2$, əhalisi 89,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 51,303–307, 309,320–336,339.

**48. Gəncə** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisi 324,7 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 51.

**49. Aydoğan Babaoğlu** (d.1944) – general. 2007-2009-cu illərdə Türkiyə Hərbi Hava Qüvvələri Komandanı olmuşdur. – 52.

**50. Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM)** – insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın reallaşdırılması məqsədilə Avropa Şurasının (1959) yaratdığı məhkəmə orqanı, iqamətgahı Strasburqda yerləşir. Məhkəmə dövlətlərin müraciətini və Konvensiyanın iştirakçı dövlətlərində onun müddəalarının ehtimalı pozulması ilə əla-

qədar fərdi ərizələri nəzərdən keçirir. Məhkəmə qərarlarının yerinə yetirilməsinə nəzarəti AŞ-nın Nazirlər Komitəsi həyata keçirir.

Azərbaycan Respublikası Avropa Məhkəməsinin məcbiri yurisdiksiyasını qəbul etmişdir. – 53.

**51. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1648 min km$^2$, əhalisi 78,4 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 54,162,276,293,337.

**52. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmmandır. – 55–59,136,139,149.

**53. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya kralıdır. II Abdullah kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 55–59,149.

**54. Əmman –** İordaniyanın paytaxtı (1946-cı ildən) Tarixi memarlıq və arxeoloji abidələri ilə məşhurdur. Bölgənin turizm mərkəzidir. – 57.

**55. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 58,158,176.

**56. Dağıstan,** D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km$^2$, əhalisi 3 milyon nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan

ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 64,65,66,67,273.

**57. Dövlət Duması** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərmişdir. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 64,65,130.

**58. «Yedinaya Rossiya»,** Ümumrusiya Siyasi Partiyası – Rusiyada sağ mərkəzçi sosial-mühafizəkar partiya, Rusiyanın ən böyük partiyası. 2003-cü il seçkilərinə görə partiya Rusiya Dövlət Dumasında parlament çoxluğu, 2007-ci il seçkilərinə görə isə Konstitusiya çoxluğu əldə etmişdir. 2010-cu ildə hökumətin beş üzvü, ölkənin 83 subyektinin 75-nin rəhbəri «Yedinaya Rossiya»nın nümayəndəsi olmuşdur. – 64,65,66.

**59. Boris Qrızlov** (d.1950) – Rusiya dövlət və siyasi xadimi. 2001–2003-cü illərdə Rusiya Daxili İşlər naziri, 2003–2011-ci illərdə Rusiya Federasiyası Dövlət Dumasının sədri olmuşdur. 2002-ci ildən «Yedinaya Rossiya» Partiyası Ali Şurasının sədridir. – 64,65,130.

**60. Muxu Əliyev** (d.1940) – Rusiya dövlət xadimi. 1995–2006-cı illərdə Dağıstan Respublikası Milli Məclisinin sədri, 2006–2010-cu illərdə isə prezidenti olmuşdur. – 65,66.

**61. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin baş-

çısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 65,77,277.

**62. Əziz Əliyev,** Əziz Məmmədkərim oğlu (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 66,102.

**63. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilmişdir. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 66,68.

**64. Türkiyə Böyük Millət Məclisi** (TBMM) – Türkiyənin Ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də

yaradılmışdır. TBMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. – 67.

**65. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km², əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 68,136.

**66. Terri Mariani** (d.1958) – fransız siyasətçisi, sabiq Nəqliyyat naziri. Hazırda Fransa Milli Assambleyasında xaricdə yaşayan fransız vətəndaşlarının deputatı. AŞPA-nın daimi üzvü, miqrantlar, ikili vətəndaşlar və qaçqınlar üzrə komissiyanın prezidentidir. – 68.

**67. Nikola Sarkozi** (d.1955) –Fransa dövlət və siyasi xadimi. 2007–2012-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. 1993–95, 2002–2004 və 2005–2007-ci illərdə Fransa hökumətində nazir vəzifəsində çalışmışdır. – 68.

**68. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə digər qitələrdə yerləşən dənizaşırı əraziləri ilə birlikdə 27 dövlət daxildir (2007). Aİ-nin ərazisi 4 milyon 325 min km², əhalisi 508 milyon nəfərdir.

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv-dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. – 70,179,184, 197,209,213,256,258,263,271,275,288,300.

**69. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dost ölkələr dairəsi» yaratmağa, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 79,256,258,263.

**70. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 63,4 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 71,292,294.

**71. Myanma,** Myanma İttifaqı Respublikası – Cənub-Şərqi Asiyada, Hindçin yarımadasının şimal-qərb hissəsində zəif inkişaf etmiş ölkə. 1989-cu ilə qədər Birma adlanırdı. Sahəsi 678,5 km$^2$, əhalisi 55 milyon nəfərdir. Paytaxtı Naypyido. İnzibati ərazisi 7 milli və 7 administrativ vilayətə bölünür. – 72.

**72. «Azərenerji»** – dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisinin ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 76.

**73. «Azəriqaz» İstehsalat Birliyi** –«Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini

beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 76.

**74. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 76, 115,230,293,296.

**75. «Şahdəniz»** –Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 76,115, 297.

**76. Dmitri Medvedev** (d.1965) – Rusiya dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti, 2012-ci ilin may ayından Baş naziridir. – 77,277.

**77. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələ-

rinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 77,92,99–100,203.

**78. Adolf Hitler** (1889–1945) – Nasional-Sosialist Partiyasının füreri (rəhbəri), alman-faşist dövlətinin başçısı (1933-cü ildən reyxkansler). Almaniyada faşist rejiminin yaradıcısı. İkinci dünya müharibəsinin əsas təşkilatçısı olmuşdur. İşğal olunmuş ərazilərdə hərbi əsirlərin və dinc əhalinin kütləvi surətdə məhv edilməsinin başçısıdır. Sovet ordusu Berlinə girəndə özünə qəsd etmişdir. Nürnberq prosesində hərbi cani elan edilmişdir. – 77.

**79. Yəmən,** Y ə m ə n R e s p u b l i k a s ı – Ərəbistan yarımadasının cənub hissəsində dövlət. Sahəsi 528 min $km^2$, əhalisi 25,4 milyon nəfərdir. İnzibati ərazisi 22 mühafazaya bölünür. Dövlət başçısı Prezident Şurasıdır. Paytaxtı 1990-cı ildən Sənadır. Ədən iqtisadi şəhər statusuna malikdir. – 81.

**80. Əli Abdulla Saleh** (d.1932) – marşal, 1994-2012-ci illərdə Yəmən Respublikasının Prezidenti. – 81.

**81. Kamerun,** K a m e r u n R e s p u b l i k a s ı – Mərkəzi Afrikada dövlət. Sahəsi 475,4 min $km^2$, əhalisi 20,5 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Yaundedir. – 82.

**82. Paul Biya** (d.1933) – Kamerun siyasi və dövlət xadimi. 1982-ci ildən Kamerunun prezidenti. – 82.

**83. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 81,9 milyon nəfərdir. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 84,97,294.

**84. «Wirtgen»** – Almaniya maşınqayırma kompaniyası. Yolların tikintisi üçün maşınların və avadanlığın istehsalçısıdır. «Wirtgen» kəsici alətlər, astarlama stabilizatorları, beton tökən maşınlar istehsal edir. Mənzil-qərargahı Vindharendədir (Almaniya). – 84.

**85. Ziya Məmmədov,** Z i y a   A r z u m a n   o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmiryolu İdarəsinin rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 84,86, 87–101,157,158.

**86. Oqtay Şirəliyev,** O q t a y   K a z ı m   o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 90.

**87. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 93,96,104,124,133,134,135,136,138,144.

**88. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 93,96,104,124,136,139.

**89. Həzi Aslanov,** H ə z i   Ə h ə d   o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H. Aslanov Stalinqrad vuruşmasında, feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə H. Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respubli-

kalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H. Aslanov 1945-ci il yanvar ayının 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 99–100.

**90. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləmişdir. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 100,102,241,280.

**91. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. – 100, 102.

**92. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» or-

denləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 100,102,172,241,280.

**93. Tamerlan Əliyev,** T a m e r l a n  Ə z i z  o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor.

Professor Tamerlan Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 102.

**94. Ömər Eldarov,** Ö m ə r  H ə s ə n  o ğ l u (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının rektoru. Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 103.

**95. Mixail Qorbaçov** (d.1931) – 1985–91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990–91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən qanlı Yanvar faciəsinin təşkilatçısı və günahkarıdır. – 106,111,112,113.

**96. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın

28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel ) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 114,227,228–238,261.

**97. Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 114.

**98. Müsavat Partiyası** – 1911-ci ildə Bakıda yaradılmışdır. 1920-ci ildə Bakıda fəaliyyəti qadağan edilib. 1992-ci ildən yenidən fəaliyyətə başlayıb. – 114.

**99. İsveçrə,** İ s v e ç r ə  K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,80 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ

yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 117–128.

**100. Paskal Kuşpen** (d.1942) – İsveçrə dövlət xadimi. 2003–2008-ci illərdə İsveçrə prezidenti olmuşdur. – 117–128.

**101. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 122,259.

**102. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 123.

**103. İndoneziya,** İndoneziya Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1919,4 min $km^2$, əhalisi 257,5 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten maha-

lına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridır. – 129.

**104. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004-cü ildən İndoneziyanın prezidentidir. – 129.

**105. Kuba,** K u b a  R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,86 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Paytaxtı Havana şəhəridir. Dövlətin ali orqanı birpalatalı Milli Assambleyadır. Dövlətin və hökumətin başçısı Dövlət Şurasının sədridir. – 131.

**106. Qriqori Karasin** (d.1949) – Rusiya diplomatı. 2005-ci ildən Rusiya Xarici İşlər nazirinin müavini – stats-katib. – 132.

**107. Koişiro Matsuura** (d.1937) – 2005–2009-cu illərdə YUNESKO-nun Baş direktoru. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 135,136,138–144.

**108. Əbülfəs Qarayev,** Ə b ü l f ə s  M ü r s ə l  o ğ l u (d.1956) – fəlsəfə doktoru. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 136,176.

**109. Koreya,** K o r e y a  R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100 min km$^2$, əhalisi 51,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və mərkəzə tabeli 6 şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 142,151.

**110. Harvard Universiteti** – ABŞ-da (Kembric şəhəri) aparıcı universitetlərdən biri. Ən qocaman özəl universitet. Təhsil sistemində Avropa ənənələrinə sadiq universitet kimi tanınmışdır. XX əsrin əvvəllərində təhsil sistemində, təkrar olunmaz üsul (xüsusilə diplom müdafiəsindən sonra) işləyib hazırlamışdır. Əsası 1636-cı ildə kollec kimi, müstəmləkəçilərin vəsaiti və keşiş C.Harvardın universitetə vəsiyyət etdiyi vəsait ilə qoyulmuşdur. Universitet kimi, XIX əsrin birinci rübündə yenidən qurulmuşdur. – 146.

**111. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 148,206,209,213,276,292,337.

**112. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illərdə Gürcüstan Respublikasının Prezidenti olmuşdur. Hazırda Ukraynanın Odessa vilayətinin qubernatorudur. – 148.

**113. Argentina,** A r g e n t i n a R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-şərqində dövlət. Sahəsi 2780 min km$^2$, əhalisi 43,4 milyon nəfərdir. Argentina federasiyası tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos-Ayresdir. – 150.

**114. Kristina de Kirşner** (d.1950) – 2003–2008-ci illərdə Argentina Respublikasının Prezidenti olmuşdur. – 150.

**115. Li Men Bak** (d.1941) – 2008–2013-cü illərdə Koreya Respublikasının Prezidenti olmuşdur. – 151.

**116. Han Sınsu** (d.1926) – Cənubi Koreya siyasətçisi və diplomatı. 2008–2009-cu illərdə Koreya Respublikasının Baş naziri olmuşdur. Hazırda Madrid klubunun – 80-dən

çox demokratik ölkələrin sabiq prezident və Baş nazirlərinin «Yüksək demokratiyanın» möhkəmləndirilməsi təşkilatının üzvüdür. – 151.

**117. AŞ PA-nın Monitorinq Komitəsi** – 1993-cü ildə yaradılmışdır. AŞ PA-nın hüquq siyasəti və İnsan hüquqları komissiyaları AŞ-a qəbul edilmiş yeni dövlətlərin öz üzərlərinə götürdükləri öhdəlikləri necə yerinə yetirmələrini yoxlayır və hesabat verirlər. Təqdim olunan məruzələr parlament üzvləri tərəfindən müzakirə edilir. – 152.

**118. Türkmənistan,** Türkmənistan Respublikası – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 153–171.

**119. Qurbanqulu Berdiməhəmmədov** (d.1957) – Türkmənistan dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 153–171.

**120. Samir Şərifov,** Samir Rauf oğlu (d.1961) – hüquqşünas. 2006-cı ildən Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təməlçi direktordur. – 157.

**121. Azərbaycan Ticarət və Sənaye Palatası** – 1960-cı ildən fəaliyyət göstərir. Azərbaycanın dünyanın müxtəlif ölkələri ilə ticarət, iqtisadi və elmi-texniki əlaqələrinin inkişafına kömək edir. 1980-ci ildə Palata istehsalın və beynəlxalq əməkdaşlığın inkişafında əldə etdiyi müvəffəqiyyətlərə görə «Qızıl Merkuri» beynəlxalq mükafatına layiq görülmüşdür. – 157,291.

**122. Süleyman Tatlıyev,** Süleyman Bayram oğlu (1925–2014) – Azərbaycan Ticarət və Sənaye Palatası-

nın prezidenti olmuşdur. Müxtəlif illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində işləmişdir. – 157,291.

**123. Yaqub Eyyubov,** Yaqub Abdulla oğlu (d.1945) – inşaat mühəndisi, texnika elmləri doktoru, professor. 1999–2003-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetində Baş nazirin müavini, 2003-cü ildən Azərbaycan Respublikası Baş nazirinin birinci müavinidir. – 158.

**124. Qazaxıstan,** Qazaxıstan Respublikası – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 17,5 milyon nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 162,213,337.

**125. Saparmurad Niyazov,** Saparmurad Ata oğlu (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1991-ci ilə qədər Türkmənistan KP MK-nın Birinci katibi, 1991–2007-ci illərdə Türkmənistan Respublikasının Prezidenti olmuşdur. – 169.

**126. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,7 min km$^2$, əhalisi 42,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Rada. – 172–213.

**127. Kiyev** – Ukrayna Respublikasının paytaxtı. VI əsrdə salınmışdır. IX–XII əsrlərdə Kiyev Rus dövlətinin mərkəzi idi. 1654-cü ildə Ukrayna Rusiya ilə yenidən birləşdikdən sonra Kiyev Ukraynanın iqtisadi və mədəni mərkəzi kimi inkişaf etmişdir. 1934-cü ildə Ukraynanın paytaxtı Xarkovdan Kiyevə köçürüldü. Kiyev Ukraynanın ən iri sənaye, mədəniyyət və elm mərkəzidir. – 172–213.

**128. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur.

Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 173–188,191,206,209–211,285.

**129. Taras Şevçenko** (1814–1861) – Ukrayna şairi, rəssam, mütəfəkkir, inqilabçı demokrat. Ukrayna ədəbiyyatı və təsviri sənətində tənqidi realizmin və inqilabi-demokratik cərəyanın banisi. Ukrayna ədəbiyyatının inkişafında Şevçenkonun müstəsna xidməti olmuşdur.

Şevçenko rəssam kimi də məşhurdur. 1860-cı ildə mis üzərində qravüralarına görə akademik adına layiq görülmüşdür. – 177,180,193.

**130. Odessa–Brodı** – Odessa və Brodı şəhərləri arasında çəkilən və «Drujba» kəməri ilə birləşdirilən neft kəməri. Kəmərin uzunluğu 667 km-dir. Bu kəmərlə Xəzər və Qazaxıstan neftinin Türkiyə boğazlarından ötürülməklə Şərqi, Mərkəzi və Şimali Avropaya çatdırılması nəzərdə tutulurdu. – 179,186, 187,209.

**131. Yuliya Timoşenko** (d.1960) – Ukrayna siyasi xadimi. 2007–2010-cu illərdə Ukrayna Respublikasının Baş naziri olmuşdur. – 189.

**132. Ukrayna Ali Radası** – Ukraynanın ali qanunverici hakimiyyət (Sovet–Şura, Xalq Deputatları Radası) orqanı. – 190.

**133. Kiyev Milli Universiteti,** T a r a s Ş e v ç e n k o a d ı n a – Ukraynanın əsas və ən böyük ali məktəblərindən biri, həmçinin milli elm və mədəniyyət mərkəzi. Universitet 1833-cü ildə yaradılmışdır. Kiyev universiteti çoxsahəli maarifləndirici-elmi kompleksdir. Onun bazasında 14 humanitar və təbii-elmi istiqamətli fakültə və tədris institutu fəaliyyət göstərir. Universitetdə 25 min tələbə təhsil alır. – 192–202.

**134. Leonid Quberski** (d.1941) – fəlsəfə elmləri doktoru, akademik. 2008-ci ildən Taras Şevçenko adına Kiyev Milli Universitetinin rektorudur. – 192–202.

**135. Qolodomor,** keçən əsrin 30-cu illərində aclıqdan həlak olanlar – 1932–33-cü illərdə sovet kommunist rejimi tərəfindən Ukrayna xalqına qarşı törədilmiş soyqırımı. XX əsrin əvvəllərində Avropanın mərkəzində – Sovet İttifaqının «taxıl anbarında» – milyonlarla ukraynalıya qarşı dəhşətli soyqırımı həyata keçirildi. Soyqırımı 1933-cü ilin qış və yaz aylarında özünün ən yüksək həddinə çatdı. Bu zaman hər gün 25 min insan dünyasını dəyişirdi. Qolodomor nəticəsində sovet Ukraynası əhalisinin 20–30%-i məhv edildi. 1933-cü ildə yalnız Kiyevdə 300 min kimsəsiz uşaq qeydə alınmışdı. Yetimxanalarda yer olmadığından bu uşaqların çoxu küçələrdə aclıq və xəstəlikdən ölürdü. Milyonlarla ukraynalı öz vətənində öldükdən sonra Rusiyadan, Belorusiyadan və SSRİ-nin digər yerlərindən on minlərlə ailə Ukraynanın boş qalmış kəndlərinə köçürüldü. – 203.

**136. Mətyu Brayzə** – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi olmuşdur. Sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işilə məşğul olmuşdur. 2011–12-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 205.

**137. Latviya,** Latviya Respublikası – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 2,0 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 206,213.

**138. Estoniya,** Estoniya Respublikası – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Tallindir. – 206,213.

**139. Avropa Komissiyası (AK)** – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri;

ümumi idarəetmə orqanı. 1965-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv-dövlət Avropa Komissiyasında bir yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim olunur. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 206.

**140. Krakov** – Polşanın cənubunda, Visla çayının yuxarı axarında şəhər və liman. Krakov şəhər voyevodalığının inzibati mərkəzi. Əhalisi 762 min nəfərdir.

Şəhər VIII–X əsrlərdə salınmış, XI–XVI əsrlərdə Polşa dövlətinin paytaxtı olmuşdur. – 206,207,208.

**141. Pibalqs Andris** (d.1957) –Latviya siyasətçisi və diplomatı. 2004-2010-cu illərdə Avropa İttifaqında Energetika üzrə Komissar olmuşdur. – 209.

**142. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 208,297,316.

**143. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 215,290.

**144. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya

adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. –216,217.

**145. Corcio Napolitano** (d.1925) – İtaliya siyasi xadimi. 2006–2008 və 2013–2015-ci illərdə İtaliya Respublikasının Prezidenti olmuşdur. – 216.

**146. Silvio Berluskoni (**d.1936) – 1994–95, 2001–2006 və 2008–2011-ci illərdə İtaliya Respublikası Nazirlər Şurasının sədri olmuşdur. – 217.

**147. Livan,** L i v a n R e s p u b l i k a s ı – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min km$^2$, əhalisi 4,5 milyon nəfərdir. Paytaxtı Beyrut şəhəridir. İnzibati cəhətdən 5 mühafazaya bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. – 218.

**148. Mişel Süleyman** (d.1948) – Livan siyasətçisi və hərbçi. 2005–2010-cu illərdə Livanın prezidenti olmuşdur. – 218.

**149. Azərbaycan Dövlət Rus Dram Teatrı –** Bakıda Səməd Vurğun adına rus dilində fəaliyyət göstərən teatr. 1923-cü ildən Bakı İşçi Teatrı adı ilə fəaliyyət göstərmiş, 1937-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrı adlanır. Teatrın repertuarı «Don Karlos» (F.Şiller), «Romeo və Cülyetta» (V.Şekspir), «Canlı meyit» (L.Tolstoy)» və s. əsərlərlə zəngin olmuşdur. – 219, 224.

**150. Aleksandr Şarovski** (d.1948) – Azərbaycanın Xalq artisti. 1993-cü ildən Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının Baş rejissorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 219–224.

**151. Milli Azərbaycan Tarix Muzeyi** – 1920-ci ildə yaradılmışdır. Muzeyin müxtəlif fondlarında Vətən tarixini yaşadan 300 minədək maddi-mədəniyyət nümunəsi qorunur. Muzeyin

kitabxanasında 80 mindən artıq XIX–XX əsrlərin əvvəllərində nəşr olunmuş nadir kitab, jurnal və qəzet toplanmışdır. Muzeyin 10 otağında Azərbaycan xalqının görkəmli oğlu Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş materiallar qorunub saxlanılır. – 223.

**152. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur messenat, maarifpərvər. Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı Ticarət Bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O, öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir. 1905–11-ci illərdə İran Məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmAsına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 223.

**153. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi oldu-

ğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı işğal etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 229.

**154. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 86,7 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 229.

**155.Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 229.

**156. İsveç,** İsveç Krallığı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 450 min km$^2$, əhalisi 9,8 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholmdur. – 239,240.

**157. XVI Karl Qustav** (d.1946) – 1973-cü ildən İsveç kralı. O, həmçinin «Ümumdünya təbiət fondu»nun prezidentidir. – 239.

**158. Fredrik Raynfeldt** (d.1965) – İsveçin dövlət və siyasi xadimi, 2006–2014-cü illərdə İsveçin Baş naziri olmuşdur. – 240.

**159. Finlandiya,** Finlandiya Respublikası –

Şimali Avropada dövlət. Sahəsi 338 min km$^2$, əhalisi 5,4 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 241–280.

**160. Tarya Halonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının Prezidentidir. – 241–260.

**161. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərlərinin iştirakı ilə qoyulmuşdur. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 246,248,249,255, 259,262,272.

**162. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 249,259,272.

**163. Urho Kekkonen** (1900–1986) – Finlandiya dövlət və siyasi xadimi, siyasətçisi. 1956–81-ci illərdə Finlandiyanın prezidenti olmuşdur. – 257.

**164. Koyvisto Mauno** (1923–1989) – Finlandiya dövlət və siyasi xadimi. 1982–94-cü illərdə Finlandiyanın prezidenti olmuşdur. – 257.

**165. Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi** – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 258.

**166. Çeçenistan** (İçkeriya) – Rusiya Federasiyasında respublika. Paytaxtı Qroznı şəhəridir.

Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991–92-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. – 273.

**167. Beynəlxalq Valyuta Fondu** (BVF) – beynəlxalq valyuta-maliyyə təşkilatı; BMT-nin ixtisaslaşmış orqanı.BMT-nin Bretton – Vudsda keçirilən konfransının qərarına əsasən (1944) yaradılmış, 1947-ci ildən əməliyyatlara başlamışdır. Mənzil-qərargahı Vaşinqtondadır. 187 dövlət BVF-nin üzvüdür. İşçilərinin sayı 133 ölkədə 2500 nəfərdir. Kvotaların ümumi həcmi 383 milyard dollardır. Ehtiyat ayrılmaları üçün qəbul edilən əlavə öhdəliklər 600 milyard dollardır.

BVF-nin maliyyə resursları üzv-ölkələrin üzvlük haqlarından – SDR-lə (beynəlxalq hesablaşma vahidləri) ifadə olunan kvotadan formalaşır. Kvota ölkənin iqtisadi potensialı və dünya ticarətindəki mövqeyindən asılı olaraq müəyyən edilir. 1992-ci ildən Azərbaycan Respublikası BVF-nin üzvüdür. – 275.

**168. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. Layihənin qiyməti *bp* şirkətinin hesablamasına görə 14 milyard avro olmalıdır. – 275.

**169. Mannerheym Karl Qustav** (1867–1951) əslən fin – baron, rus hərbi xadimi, rus ordusunun general-leytenantı (1917), Finlandiya ordusunun feldmarşalı. 1944–46-cı illərdə Finlandiyanın prezidenti olmuşdur. – 280.

**170. Yuri Yexanurov** (d.1948) – 2005–2006-cı illərdə Ukraynanın Baş naziri, 2007–2009-cu illərdə Müdafiə naziri olmuşdur. – 285.

**171. Ehud Olmert** (d.1945) – 2006, 2008–2009-cu illərdə İsrailin Baş naziri olmuşdur. – 286.

**172. Stiven Mənn** (d.1951) – amerika diplomatı. 2001–2009-cu illərdə ABŞ Dövlət katibinin koməkçisi. 2004–2006-cı illərdə ABŞ-dan ATƏT-in Dağlıq Qarabağ üzrə həmsədri. – 287.

**173. Peter Semnebi** (d.1959) – İsveç səfiri. 2006–2011-ci illərdə Semnebi Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi olmuşdur. – 288.

**174. «Qazprom»** – Rusiyanın qaz istehsal edən və qaz paylayan şirkəti. Dünyanın ən böyük qaz ixrac edən şirkətlərindən biri. Şirkətin hazırkı adı – Rusiya «Qazprom» Səhmdar Cəmiyyəti. Mənzil-qərargahı Moskvadadır. – 289.

**175. Aleksey Miller** (d.1962) – Rusiya dövlət xadimi, iqtisadçı, iqtisad elmləri namizədi. «Qazprom»un (Rusiya) İdarə heyətinin və direktorlar Şurası sədrinin müavinidir. Rusiya menecerləri arasında ən dövlətlisidir. Onun 2013-cü ildə gəliri 25 milyon dollar olmuşdur. – 289.

**176. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliyinin prezidentidir. – 290.

**177. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel Universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard Universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 292.

**178. Qordon Braun** (d.1951) – Böyük Britaniya siyasətçisi, leyborist. 2007–2010-cu illərdə Böyük Britaniya Krallığının Baş naziri olmuşdur. – 292.

**179. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublikanın sahəsi 5,5 min km$^2$, əhalisi 439,8 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 303–339.

**180. Vasif Talıbov,** V a s i f  Y u s i f  o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 303,311–313.

**181. Sədərək** – Naxçıvan MR-da inzibati rayon. Sərhəd bölgəsinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək məqsədi ilə, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq 1990-cı il avqustun 28-də Azər-

baycan SSR Ali Sovetinin Fərmanı əsasında yaradılmışdır. Sahəsi 0,15 min $km^2$, əhalisi 15,3 min nəfərdir. – 303.

**182. Culfa** – Naxçıvan MR-də rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal-şərqdə Ermənistan, cənubda İranla həmsərhəddir. Sahəsi 1,0 min $km^2$, əhalisi 39,1 min nəfərdir. – 304,311–319.

**183. Şahbuz** – Naxçıvan MR-də inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi əvvəl Naxçıvana (1978), sonra Babək rayonuna verilmişdir. 1965-ci ildən yenidən müstəqil rayondur. Sahəsi 0,82 min $km^2$, əhalisi 21,8 min nəfərdir. – 308–310.

**184. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 332,334.

**185. Avropa Parlamenti** – Avropa Şurasının orqanlarından biri. İştirakçı ölkələrin əhalisinə görə ümumi səsvermə yolu ilə 5 il müddətinə seçilir. AP-nın aylıq sessiyaları Strasburqda, fövqəladə iclasları AP-nın komitələri işləyən Brüsseldə, Katibliyi isə Lüksemburqdadır. Azərbaycan 2001-ci ildən Avropa Parlamentinin üzvüdür. – 334.

**186. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s.

ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 333.

**187. Babək** (1978-ci ilədək Naxçıvan rayonu) – Naxçıvan MR-də inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1,17 min $km^2$, əhalisi 70,4 min nəfərdir. – 337–338.

**188. «Duzdağ»** – fizioterapiya sanatoriyası. Babək rayonunun Böyükduz kəndi yaxınlığında qədim duz mədənləri bazası əsasında yaradılmışdır. 1979-cu ildə təşkil olunmuşdur. Bronxial astma və ağciyər bronx sisteminin digər qeyri-spesifik xəstəlikləri müalicə olunur. – 337–338.

## Şəxsi adlar göstəricisi


**Abasov İsmət** – 44
**Abbasov Əli** – 175
**II Abdullah** – 55–59,149
**Abutalıbov Hacıbala** – 172,241,280
**Arayarvi Pentti** – 241,242
**Aslanov Həzi** – 99–100
**Babaoğlu Aydoğan** – 52
**Balyuk Anatoli** – 176
**Bauçer Riçard** – 281
**Ben Eliezer Binyamin** – 292
**Berdiməhəmmədov Qurbanqulu** – 153–171
**Berluskoni Silvio** – 217
**Biya Paul** – 82
**Braun Qordon** – 292
**Brayzə Mətyu** – 205
**Buş Corc** – 292
**Cefri Ruben** – 8
**Çelik Faruk** – 25
**De Kirşner Kristina** – 150
**Diqbi Cons** – 292
**Dimitrov Petr** – 293
**Eldarov Ömər** – 103
**Eyyubov Yaqub** – 158
**Əl-Qasimi Lübnə** – 215
**Əl-Nəhəyyan Şeyx Xəlifə** – 290
**Əl-Nəhəyyan Şeyx Nasir** – 290
**Əliyev Əziz** – 66,102
**Əliyev Heydər** – 5,6,23,24,26,40,48,49,61,62, 63,65,67,68,73–76,84,92,93, 94,97,101,102,103,104–105,

106–116,170,171,192,196, 204,221,229,230,233,291, 295,296,297,304,312,318, 319,323,335–336
**Əliyev Muxu** – 65,66
**Əliyev Tamerlan** – 102
**Əliyeva Mehriban** – 19,55,56,59,88,89,90,92,93, 94,96,104,106,124,128,136, 138–144,219–224,242,257, 303,304,305,306,307,311,320, 335,337,339
**Əliyeva Zərifə xanım** – 26,32,75,102,103
**Ərdoğan Əminə** – 320,335,337,339
**Ərdoğan Rəcəb Tayyib** – 25,320–339
**Əsədov Oqtay** – 100,102
**Ferial** – 136,139
**Finnboqadottir Viqdos** – 136,139
**Geldimuradov Xocamurad** – 157
**Gherasin Marin** – 19
**Gilkrest Ueyn** – 214
**Gül Abdullah** – 25
**Hacı Əlisahib** – 94
**Hadidi Əmir** – 58
**Halonen Tarya** – 241–260
**Han Sınsu** – 151
**V Harald** – 36,79
**Herkel Andres** – 152
**Hitler** – 77
**Xəlilov Bəhram** – 176
**Xorxe Martines** – 131
**İlyumjinov Kirsan** – 6
**İpək Haluk** – 67
**Jivkova Yevgeniya** – 152
**Kaçinski Lex** – 7,208
**Karasin Qriqori** – 132
**XVI Karl Qustav** – 239

**Kekkonen Urho** – 257
**Kirkilas Çediminas** – 5
**Kostan Jan-Pol** – 53
**Kubiş Yan** – 34
**Kuşpen Brijit** – 117
**Kuşpen Paskal** – 117– 128
**Kurbet Vladimir** – 19
**Qarayev Əbülfəs** – 136,176
**Qorbaçov Mixail** – 106,111,112,113
**Qordiyenko Natalya** – 19
**Qrey Boyden** – 205,291,292
**Qrızlov Boris** – 64,65,130
**Quberski Leonid** – 192–202
**Li Men Bak** – 151
**Lunq Viktoriya** – 19
**Mannerheym Qustav** – 280
**Mariani Terri** – 68
**Matsauura Koişiro** – 135,136,138–144
**Mauno Koyvisto** – 257
**Medvedev Dmitri** – 77,277
**Mehdiyev Ramiz** – 100,102,172,241,280
**Meredov Rəşid** – 158
**Merkel Devid** – 281
**Məhəmmədquliyev Dəryaqulu**– 157,158
**Məmmədov Gündüz** – 176
**Məmmədov Ziya** – 84,86,87–101,157,158
**Məmmədyarov Elmar** – 58,158,176
**Mənn Stiven** – 287
**Mərdanov Misir** – 32
**Miller Aleksey** – 289
**Morfin Cim** – 71
**Moskoviş Konstantin** – 19
**Motrenko Timofey** – 176
**Mustafayev Kərəm** – 307
**Mübarək Hüsnü** – 37
**Nan Sin Su** – 151

**Napolitano Corcio** – 216
**Nay Cozef** – 146
**Niinisto Sauli** – 261–264
**Niyazov Saparmurad** – 169
**Nobel Maykl** – 27
**Olmert Ehud** – 286
**Pavlenko Yuri** – 176
**Peres Simon** – 35,286
**Pibalqs Andris** – 209
**Putin Vladimir** – 65,77,277
**Raniya** – 55,56,59
**Rasizadə Artur** – 100,102,241,280
**Raynfeldt Fredrik** – 240
**Rezayi Qasım** – 54
**Saakaşvili Mixeil** – 148
**Saqdeyev Roald** – 28
**Saleh Əli Abdullah** – 81
**Sarkozi Nikola** – 68
**Semnebi Peter** – 288
**Simhon Şalom** – 145
**Stabholdt Liv Monika**– 284,293
**Stoltenberq Yens** – 36,180
**Store Yonas** – 36
**Süleyman Mişel** – 218
**Şarovski Aleksandr** – 219–224
**Şevçenko Taras** – 177,180,193
**Şərifov Samir** – 157
**Şif Adam** – 214
**Şirazi İlqar** – 293
**Şirəliyev Oqtay** – 90
**Şvarts Elison** – 214
**Şvey Tan** – 72
**Tağıyev Zeynalabdin** – 223
**Taqanov Palvan** – 157
**Talıbov Vasif** – 303,311–313
**Tatlıyev Süleyman** – 157,291

**Timoşenko Yuliya** – 189
**Tiitinen Seppo** – 261–264
**Vatsenyuk Arseni** – 190
**Vinski İosif** – 175
**Voronin Vladimir** – 10–25
**Vovkin Vasili** – 176
**Vunq Yul Lin** – 147
**Vurayuda Noer** – 129
**Vütasalo Mikko** – 265–272
**Yazar Yusif** – 293
**Yexanirov Yuri** – 285
**Yuşşenko Viktor** – 173–188,191,206,209,211, 285
**Yudhoyono Susilo** – 129
**Zeynalov Şamil** – 64,65,66

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abxaziya** | – 271 |
| **Afrika** | – 49,274 |
| **Almaniya** | – 84,97,294 |
| **Amerika Birləşmiş Ştatları** | – 8,146,205,213,214,281,287, 291,292 |
| **Ankara** | – 325 |
| **Aralıq dənizi** | – 197,298 |
| **Argentina** | – 150 |
| **Asiya** | – 49,162,271,292,300 |
| **Aşqabad** | – 157 |
| **Avrasiya** | – 49,211,287,291 |
| **Avstriya** | – 136 |
| **Avropa** | – 34,49,50,71,128,133,134, 162,211,212,246,258,270,271, 275,292,293,300 |
| **Babək** (*rayon*) | – 337–338 |
| **Bakı** | – 7,13,70,32,35,37,40,42,46, 50,51,57,59,61,62,65,67,70, 72,77,78,79,80,81,82,102, 106,113,114,134,148,149, 150,177,180,186,193,216, 217, 218,221, 225,226,229, 239,240, 257,259, 264,283, 290,291,318,319,332 |
| **Baltik dənizi** | – 187,197,206,207,211,212, 250,254,271 |
| **Banqladeş** | – 274 |
| **Binə** | – 83,88 |
| **Birləşmiş Ərəb Əmirlikləri** | – 215,290 |
| **Bolqarıstan** | – 293 |
| **Böyük Britaniya** | – 71,292,294 |

**Buxarest** – 122
**Cənubi Qafqaz** – 61,63,66,97,246,247,248, 252,253,273,288,291,293
**Cənubi Osetiya** – 271
**Culfa** – 304,311–319
**Çeçenistan** – 273
**Çexiya** – 273
**Çin** – 294
**Dağıstan** – 64,65,66,67,273
**Dağlıq Qarabağ** – 51,106,111,112,126,134,199, 200,229,235,236,244,245,248, 255,271,308,326,330
**Davos** – 122
**Dnestryanı** – 271
**Donetsk** (*vilayət*) – 211
**Estoniya** – 206,213
**Əmman** – 57
**Finlandiya** – 241–280
**Fransa** – 68,136
**Gəncə** – 51
**Gürcüstan** – 148,206,209,213,276,292,337
**Helsinki** – 241–280
**Xəzər dənizi** – 47,160,163,177,178,186,187, 197,198,206,207,211,212, 254,271,296
**İndoneziya** – 129
**İordaniya** – 55–59,136,139,149
**İran** – 54,162,276,293,337
**İslandiya** – 136
**İsrail** – 35,145,286
**İsveç** – 239,240
**İsveçrə** – 117–128
**İtaliya** – 136,216,217
**Kalmıkiya** – 6
**Kamerun** – 82

**Kəlbəcər** – 229
**Kişinyov** – 17
**Kiyev** – 172–213
**Koreya Respublikası** (*Cənubi Koreya*) – 142,151
**Krakov** – 206,207,208
**Kuba** – 131
**Kulevi** – 186
**Kür çayı** – 40
**Qala** – 96
**Qara dəniz** – 186,187,206,207,208,211, 212,254,271,298
**Qafqaz** – 66,265,272,273,275,277
**Qazaxıstan** – 162,213,337
**Laçın** – 229
**Latviya** – 206,213
**Litva** – 5,206,213
**Livan** – 218
**Mərkəzi Asiya** – 295
**Misir** – 37
**Moldova** – 10– 25
**Moskva** – 106,110,112
**Myanma** – 72
**Naxçıvan** – 51,303–307,309,320–336,339
**Naxçıvan MR** – 114,303–339
**Norveç** – 36,79,80,284,293
**Özbəkistan** – 337
**Polşa** – 7,206,208,213
**Rumıniya** – 213
**Rusiya** – 6,64,65,66,130,132,273,275, 276,277,278,294
**Sədərək** – 304
**Slovakiya** – 34
**Şahbuz** – 308–310
**Şahtaxtı** – 304
**Şimali Qafqaz** – 66,273
**Şuşa** – 229

**Türkiyə** – 25,49–50,52,67,68,97,136, 209,276,292,293,306,320–339
**Türkmənistan** – 153–171
**Ukrayna** – 172–213
**Varşava** – 29
**Vilnüs** – 206
**Yəmən** – 81
**Yunanıstan** – 209
**Zağulba** – 58
**Zirə** – 83,90–96,97–98

# MÜNDƏRİCAT


LİTVANIN BAŞ NAZİRİ GEDİMİNAS KİRKİLASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 aprel 2008-ci il* ........................................................................... *5*

KALMIKİYA RESPUBLİKASININ PREZİDENTİ, FİDE-nin PREZİDENTİ KİRSAN İLYUMJİNOVLA GÖRÜŞ

*21 aprel 2008-ci il* ........................................................................... *6*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEX KAÇİNSKİYƏ............................................................*7*

ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ RUBEN CEFRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 aprel 2008-ci il* ........................................................................... *8*

QUGENHAYM FONDUNUN DİREKTORU TOOMAS KRENS İLƏ GÖRÜŞ

*22 aprel 2008-ci il* ........................................................................... *9*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VLADİMİR VORONİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*23 aprel 2008-ci il* ...........................................................................*10*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*23 aprel 2008-ci il* ...........................................................................*11*

AZƏRBAYCAN VƏ MOLDOVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*23 aprel 2008-ci il* ...........................................................................*12*

AZƏRBAYCAN VƏ MOLDOVA PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*23 aprel 2008-ci il* ........................................................................ *14*

MOLDOVA MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN AÇILIŞI

*23 aprel 2008-ci il* ........................................................................ *19*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*23 aprel 2008-ci il* ........................................................................ *20*

TÜRKİYƏNİN ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ NAZİRİ FARUK ÇELİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 aprel 2008-ci il* ........................................................................ *25*

GÖRKƏMLİ OFTALMOLOQ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA PARKDA ABADLIQ VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*25 aprel 2008-ci il* ........................................................................ *26*

NOBEL XEYRİYYƏ FONDUNUN PREZİDENTİ MAYKL NOBELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 aprel 2008-ci il* ........................................................................ *27*

GÖRKƏMLİ ALİM, AKADEMİK ROALD SAQDEYEV İLƏ GÖRÜŞ

*25 aprel 2008-ci il* ........................................................................ *28*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*25 aprel 2008-ci il* ........................................................................ *29*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*26 aprel 2008-ci il* ........................................................................ *31*

GÖRKƏMLİ OFTALMOLOQ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA MƏKTƏBİN AÇILIŞI

*28 aprel 2008-ci il* ........................................................................ *32*

SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ, AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ YAN KUBİŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 aprel 2008-ci il ........................................................................................34*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİMON PERESƏ

*29 aprel 2008-ci il ........................................................................................35*

NORVEÇİN XARİCİ İŞLƏR NAZİRİ YONAS QAR STÖRENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 aprel 2008-ci il ........................................................................................36*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ

*29 aprel 2008-ci il ........................................................................................37*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖLKƏMİZDƏ SU TƏCHİZATI SİSTEMLƏRİNİN İNKİŞAFI İLƏ BAĞLI LAYİHƏLƏRƏ DAİR İCLASDA GİRİŞ NİTQİ

*29 aprel 2008-ci il ........................................................................................38*

YEKUN NİTQİ........................................................................................*45*

AVRASİYA DÖVLƏTLƏRİ XI İQTİSADİ SAMMİTİNİN İŞTİRAKÇILARINA

*30 aprel 2008-ci il ........................................................................................49*

«İNTERFAKS–AZƏRBAYCAN» İNFORMASİYA AGENTLİYİNİN KOLLEKTİVİNƏ

*1 may 2008-ci il........................................................................................51*

TÜRKİYƏ HƏRBİ HAVA QÜVVƏLƏRİNİN KOMANDANI AYDOĞAN BABAOĞLU İLƏ GÖRÜŞ

*1 may 2008-ci il ........................................................................................52*

AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN SƏDRİ JAN-POL KOSTA İLƏ GÖRÜŞ

*2 may 2008-ci il* ....................................................................................53

İRAN İSLAM RESPUBLİKASININ NİZAM-İNTİZAM QÜVVƏLƏRİ SƏRHƏD POLİSİNİN RƏİSİ GENERAL-MAYOR QASIM REZAYİ İLƏ GÖRÜŞ

*5 may 2008-ci il* ....................................................................................54

İORDANİYA KRALI ƏLAHƏZRƏT II ABDULLAHIN QARŞILANMA MƏRASİMİ

*5 may 2008-ci il* ....................................................................................55

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN GÖRÜŞÜ

*5 may 2008-ci il* ....................................................................................56

AZƏRBAYCAN VƏ İORDANİYA DÖVLƏT BAŞÇILA-RININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*5 may 2008-ci il* ....................................................................................57

BAKIDA II İORDANİYA SƏRGİSİNİN AÇILIŞI

*6 may 2008-ci il* ....................................................................................59

«DEMOKRATİYA VƏ SABİTLİK NAMİNƏ: ƏMƏK-DAŞLIĞIN YENİ İMKANLARI» BEYNƏLXALQ KON-FRANSIN İŞTİRAKÇILARINA

*6 may 2008-ci il* ....................................................................................60

«DEMOKRATİYA VƏ SABİTLİK NAMİNƏ: ƏMƏKDAŞ-LIĞIN YENİ İMKANLARI» MÖVZUSUNDA BEY-NƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*7 may 2008-ci il* ....................................................................................62

BÖYÜK BRİTANİYANIN XARİCİ VƏ DÖVLƏT MƏSƏ-LƏLƏRİ ÜZRƏ NAZİRLİYİNİN AVROPA MƏSƏLƏRİ

ÜZRƏ DÖVLƏT NAZİRİ CİM MÖRFİN İLƏ GÖRÜŞ

*7 may 2008-ci il* ....................................................................................*71*

MYANMA İTTİFAQININ DÖVLƏT SÜLH VƏ İNKİŞAF ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TAN ŞVEYƏ

*7 may 2008-ci il* ....................................................................................*72*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 85 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ «BİR ÖMRÜN SALNAMƏSİ» BƏDİİ SƏRGİSİNİN AÇILIŞI

*7 may 2008-ci il* ....................................................................................*73*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*8 may 2008-ci il* ....................................................................................*77*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*8 may 2008-ci il* ....................................................................................*78*

NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

*8 may 2008-ci il* ....................................................................................*79*

NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YENS STOLTENBERQƏ

*8 may 2008-ci il*....................................................................................*80*

YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏLİ ABDULLAH SALEHƏ

*8 may 2008-ci il*....................................................................................*81*

KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYAYA

*8 may 2008-ci il* ....................................................................................*82*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ZIĞ DAİRƏSİ – HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU AVTOMOBİL YOLUNUN, HABELƏ BİNƏ VƏ ZİRƏ QƏSƏBƏLƏRİNDƏ BİR SIRA OBYEKTLƏRİN AÇILIŞINDA

*9 may 2008-ci il ........................................................................83*

BİNƏ QƏSƏBƏSİNDƏ YENİDƏN QURULMUŞ UŞAQ BAĞÇASI

*9 may 2008-ci il ........................................................................88*

ZİRƏ QƏSƏBƏSİNDƏ MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZİNİN AÇILIŞI

*9 may 2008-ci il ........................................................................90*

«GÖK-NUR BAKI» KABEL VƏ ELEKTRİK AVADANLIQLARI İSTEHSALI ZAVODUNUN AÇILIŞI

*9 may 2008-ci il ........................................................................97*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV 9 MAY QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

*9 may 2008-ci il ........................................................................99*

PAYTAXTIN FƏTƏLİ XAN XOYSKİ VƏ XƏTAİ PROSPEKTLƏRİNİ BİRLƏŞDİRƏN YOLUN AÇILIŞI

*10 may 2008-ci il ....................................................................101*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

*10 may 2008-ci il ....................................................................102*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN VƏ AKADEMİK ZƏRİFƏ XANIM ƏLİYEVANIN XATİRƏ LÖVHƏLƏRİNİN AÇILIŞI

*10 may 2008-ci il ....................................................................103*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 85 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏŞKİL EDİLMİŞ GÜL BAYRAMINDA

*10 may 2008-ci il ........................................................................104*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 85 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ XATİRƏ GECƏSİNDƏ

*10 may 2008-ci il ........................................................................106*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ PASKAL KUŞPENİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*12 may 2008-ci il ........................................................................117*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ PREZİDENTİ PASKAL KUŞPENİN TƏKBƏTƏK GÖRÜŞÜ

*12 may 2008-ci il .........................................................................118*

AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*12 may 2008-ci il .........................................................................119*

AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*12 may 2008-ci il .........................................................................121*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ PASKAL KUŞPEN HEYDƏR ƏLİYEV FONDUNDA

*12 may 2008-ci il .........................................................................124*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*12 may 2008-ci il .........................................................................125*

İNDONEZİYANIN XARİCİ İŞLƏR NAZİRİ NOER HƏSƏN VİRAYUDA İLƏ GÖRÜŞ

*12 may 2008-ci il .........................................................................129*

RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ BORİS QRIZLOV İLƏ GÖRÜŞ

*13 may 2008-ci il ......................................................................................130*

KUBANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ MARTİ MARTİNES XORXE İLƏ GÖRÜŞ

*13 may 2008-ci il ......................................................................................131*

RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN STATS-KATİBİ, NAZİR MÜAVİNİ QRİQORİ KARASİN İLƏ GÖRÜŞ

*14 may 2008-ci il ......................................................................................132*

«AVROPADA SUBREGİONAL ÇƏRÇİVƏDƏ SAVADLILIQ PROBLEMLƏRİNƏ BAXIŞ: TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİNİN QURULMASI VƏ İNNOVATİV YANAŞMALARIN TƏTBİQİNƏ DƏSTƏK» MÖVZUSUNDA YUNESKO-nun REGİONAL KONFRANSINA

*14 may 2008-ci il ......................................................................................133*

YUNESKO-nun BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞ

*14 may 2008-ci il ......................................................................................135*

BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNDƏ APARILAN TİKİNTİ İŞLƏRİ İLƏ TANIŞLIQ

*15 may 2008-ci il ......................................................................................136*

AZƏRBAYCAN XALÇASI VƏ XALQ TƏTBİQİ SƏNƏTİ DÖVLƏT MUZEYİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*15 may 2008-ci il ......................................................................................138*

İSRAİLİN KƏND TƏSƏRRÜFATI VƏ KƏND RAYONLARININ İNKİŞAFI NAZİRİ ŞALOM SİMHON İLƏ GÖRÜŞ

*15 may 2008-ci il ......................................................................................145*

ABŞ-ın HARVARD UNİVERSİTETİNİN PROFESSORU COZEF NAY İLƏ GÖRÜŞ

*16 may 2008-ci il* ............................................................................*146*

CƏNUBİ KOREYANIN «KOLON» ŞİRKƏTİNİN SƏDRİ VUNQ YUL LİN İLƏ GÖRÜŞ

*16 may 2008-ci il* ............................................................................*147*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ

*19 may 2008-ci il*..............................................................................*148*

İORDANİYA KRALI ƏLAHƏZRƏT II ABDULLAHA

*19 may 2008-ci il* ............................................................................*149*

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİ-LƏRİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

*19 may 2008-ci il*..............................................................................*150*

KOREYA RESPUBLİKASININ BAŞ NAZİRİ HAN SİN SUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 may 2008-ci il* ............................................................................*151*

AŞ PA-nın MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ İLƏ GÖRÜŞ

*19 may 2008-ci il* ............................................................................*152*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN AZƏR-BAYCANA RƏSMİ SƏFƏRİ

*19 may 2008-ci il* ............................................................................*153*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BER-DİMƏHƏMMƏDOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

*19 may 2008-ci il* ............................................................................*154*

AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN PREZİDENT-LƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*19 may 2008-ci il* ........................................................................155

AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN PREZİDENT-LƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*19 may 2008-ci il* ........................................................................159

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*19 may 2008-ci il* ........................................................................165

TÜRKMƏNİSTAN PREZİDENTİ HEYDƏR ƏLİYEV FONDUNDA

*20 may 2008-ci il* ........................................................................171

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İL-HAM ƏLİYEVİN UKRAYNAYA RƏSMİ SƏFƏRİ

*21 may 2008-ci il* ........................................................................172

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*22 may 2008-ci il* ........................................................................174

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*22 may 2008-ci il* ........................................................................175

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSI VƏ BƏYANATLARI

*22 may 2008-ci il* ........................................................................177

UKRAYNANIN BAŞ NAZİRİ YULİYA TİMOŞENKO İLƏ GÖRÜŞ

*22 may 2008-ci il* ........................................................................189

ALİ RADADA GÖRÜŞ

*22 may 2008-ci il ...........................................................................190*

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN ALİ DÖVLƏT MÜKAFATLARI İLƏ QARŞILIQLI TƏLTİF EDİLMƏSİ

*22 may 2008-ci il ...........................................................................191*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ TARAS ŞEVÇENKO ADINA KİYEV MİLLİ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİMATI

*22 may 2008-ci il ...........................................................................192*

1930-cu İLLƏRDƏ ACLIQDAN HƏLAK OLANLARIN XATİRƏSİNƏ EHTİRAM

*22 may 2008-ci il ...........................................................................203*

KİYEVDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*23 may 2008-ci il ...........................................................................204*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN NÜMAYƏNDƏSİ BOYDEN QREY VƏ ABŞ DÖVLƏT KATİBİNİN MÜŞAVİRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*23 may 2008-ci il ...........................................................................205*

ENERJİ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ SAMMİT

*23 may 2008-ci il ...........................................................................206*

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

*23 may 2008-ci il ...........................................................................211*

ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 may 2008-ci il ...........................................................................214*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ TİCA-
RƏT NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2008-ci il* ......................................................................................215

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİ-
LƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA

*26 may 2008-ci il*........................................................................................ 216

İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ
SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SİLVİO BERLUSKONİYƏ

*26 may 2008-ci il*........................................................................................ 217

LİVAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏ-
Rİ CƏNAB MİŞEL SÜLEYMANA

*26 may 2008-ci il*........................................................................................ 218

AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRI BİNA-
SININ AÇILIŞI MƏRASİMİNDƏ

*26 may 2008-ci il* ....................................................................................... 219

PAYTAXTIN SƏBAİL RAYONUNDA YENİDƏN QU-
RULMUŞ BAĞLA TANIŞLIQ

*27 may 2008-ci il* ....................................................................................... 225

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏ-
FİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2008-ci il* ....................................................................................... 227

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAY-
CAN XALQ CÜMHURİYYƏTİNİN 90 İLLİK YUBİLEYİNƏ
HƏSR OLUNMUŞ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

*27 may 2008-ci il* ......................................................................................228

İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*27 may 2008-ci il*........................................................................................ 239

İSVEÇ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB FREDRİK RAYNFELDTƏ

*27 may 2008-ci il*...........................................................................*240*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FİNLANDİYAYA RƏSMİ SƏFƏRİ

*28 may 2008-ci il* ...........................................................................*241*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FİNLANDİYA PREZİDENTİ XANIM TARYA HALONENİN TƏKBƏTƏK GÖRÜŞÜ

*29 may 2008-ci il* ...........................................................................*243*

AZƏRBAYCAN VƏ FİNLANDİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*29 may 2008-ci il* ...........................................................................*244*

AZƏRBAYCAN VƏ FİNLANDİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*29 may 2008-ci il* ...........................................................................*245*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*29 may 2008-ci il* ...........................................................................*254*

FİNLANDİYA PARLAMENTİNİN SƏDRİ SAULİ NİİNİSTÖ İLƏ GÖRÜŞ

*29 may 2008-ci il* ...........................................................................*261*

PAASKİVİ CƏMİYYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*29 may 2008-ci il* ...........................................................................*265*

FİNLANDİYA RESPUBLİKASININ BAŞ NAZİRİ İLƏ GÖRÜŞ

*30 may 2008-ci il* ...........................................................................*279*

HİETANİEMİ QƏBİRİSTANLIĞINI ZİYARƏT

*30 may 2008-ci il* ......................................................................................280

ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ VƏ MƏRKƏZİ ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ RİÇARD BAUÇER VƏ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD MERKEL İLƏ GÖRÜŞ

*30 may 2008-ci il* ...................................................................................... 281

X ƏNƏNƏVİ BEYNƏLXALQ «ŞƏRQ-QƏRB» BAKI KİNOFESTİVALINA

*1 iyun 2008-ci il*...................................................................................... 282

NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ XANIM LİV MONİKA STABHOLDTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2008-ci il*...................................................................................... 284

UKRAYNANIN MÜDAFİƏ NAZİRİ YURİ YEXANUROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2008-ci il*......................................................................................285

İSRAİLİN MİLLİ İNFRASTRUKTUR NAZİRİ BİNYAMİN BEN ELİEZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2008-ci il* ......................................................................................286

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2008-ci il* ......................................................................................287

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*2 iyun 2008-ci il* ........................................................................................ *288*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «QAZPROM» ASC-nin İDARƏ HEYƏTİNİN SƏDRİ ALEKSEY MİLLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*2 iyun 2008-ci il* ........................................................................................ *289*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*3 iyun 2008-ci il* ........................................................................................ *290*

BAKIDA XV BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR

*3 iyun 2008-ci il* ........................................................................................ *291*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*3 iyun 2008-ci il* ........................................................................................ *303*

XARİCİ İŞLƏR NAZİRLİYİNİN NAXÇIVAN MR-dəki İDARƏSİNİN YENİ BİNASININ AÇILIŞI

*3 iyun 2008-ci il* ........................................................................................ *304*

ŞAHBUZDA HƏRBÇİLƏR ÜÇÜN YAŞAYIŞ BİNASI İSTİFADƏYƏ VERİLMİŞDİR

*3 iyun 2008-ci il* ........................................................................................ *308*

CULFA RAYON MƏRKƏZİ XƏSTƏXANASININ AÇILIŞ MƏRASİMİ

*3 iyun 2008-ci il* ........................................................................................ *311*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*4 iyun 2008-ci il*.........................................................................................320

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞA-NIN TƏKBƏTƏK GÖRÜŞÜ

*4 iyun 2008-ci il*.........................................................................................321

AZƏRBAYCAN VƏ TÜRKİYƏ DÖVLƏT RƏHBƏRLƏ-RİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*4 iyun 2008-ci il*.........................................................................................322

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇI-XIŞLARI

*4 iyun 2008-ci il*.........................................................................................325

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*4 iyun 2008-ci il*.........................................................................................335

«DUZDAĞ» FİZİOTERAPİYA MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİ

*4 iyun 2008-ci il*.........................................................................................337

TÜRKİYƏ BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ NAHAR

*4 iyun 2008-ci il*.........................................................................................339

*QEYDLƏR* .................................................................................................340

*Şəxsi adlar göstəricisi* ..................................................................................383

*Coğrafi adlar göstəricisi* ...............................................................................388

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompyuter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,5. Uçot vərəqi 26,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.